**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA İMADƏDDİN NƏSİMİ OBRAZININ İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ

**İxtisas:** 5716.01– Azərbaycan ədəbiyyatı

**Elm sahəsi:** – Filologiya

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş

**DİSSERTASİYA**


İddiaçı:**_____________ Püstə Səməddin qızı Əhmədova**

Elmi rəhbər:**___________Əli Həsənqulu oğlu Həşimov**
Filologiya üzrə fəlsəfə doktoru, dosent


**Naxçıvan – 2023**

## MÜNDƏRİCAT

**Giriş** ........ 3

**I FƏSİL. AZƏRBAYCAN POEZİYASINDA İMADƏDDİN NƏSİMİYƏ HƏSR OLUNMUŞ ƏSƏRLƏRİN İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ** ........ 16

1.1. İmadəddin Nəsimiyə həsr olunmuş şeirlərdə sənətkara poetik ehtiram ..... 19

1.2. Poemalarda Nəsimi obrazı ........ 38

**II FƏSİL. İMADƏDDİN NƏSİMİNİN HƏYATI VƏ MÜHİTİ AZƏRBAYCAN BƏDİİ NƏSRİNDƏ** ........ 68

2.1. İsa Hüseynovun “Məhşər” əsərində Nəsimi obrazı ........ 76

2.2. Mahmud İsmayılın “İki od arasında” əsərində Nəsimi şəxsiyyətinin əks olunduğu ədəbi-bədii mənbə kimi ........ 93

**III FƏSİL. AZƏRBAYCAN DRAMATURGİYASINDA NƏSİMİ OBRAZI…** ........ 102

3.1. Bəxtiyar Vahabzadənin “Fəryad” mənzum pyesində Nəsimi obrazı nəsimilik və nəsimiçilik bədii fəlsəfi kontekstdə ........ 110

3.2. Naxçıvan ədəbi mühitinin nümayəndəsi Əkbər Məftunun “Nəsimi” pyesində Nəsimi obrazı ........ 126

**Nəticə** ........ 135

**İstifadə edilmiş ədəbiyyat siyahısı** ........ 140

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Görkəmli şəxsiyyətlərin həyatı, mühiti və yaradıcılığının öyrənilməsi, ümumən, elmimiz və mədəniyyətimiz üçün həmişə vacib və böyük əhəmiyyət kəsb edən bir məsələ olmuşdur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi, *"Tariximizdə hər bir şəxsiyyətin öz yeri var"* [40, s.104]. İlk növbədə onu deyə bilərik ki, görkəmli şəxsiyyətlər Azərbaycan xalqının milli-ictimai inkişafı və düşüncəsində mühüm rol oynamış, habelə özünəməxsus yaradıcılıq fəaliyyətləri ilə ümumi inkişafa misilsiz xidmətlər göstərmiş, bununla da həmin görkəmli şəxsiyyətlər Azərbaycan xalqının tarixinin və mədəniyyətinin mühüm bir hissəsini təşkil etmişlər. Bu mənada tarixi şəxsiyyətlərin mühiti, həyatı və fəaliyyətinin öyrənilməsi həm görkəmli şəxsiyyətlərin əbədiyaşarlıq qazanması və təbliğinə göstərilən ehtiram nümunəsi olmaq etibarilə, həm də müəyyən bir mərhələdə xalqımızın keçdiyi tarixi inkişaf yolunu dərindən öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Bədii ədəbiyyatımızda hələ çox-çox əvvəllərdən başlayaraq görkəmli ədəbi simalar olan Nizami Gəncəvinin, İmadəddin Nəsiminin və başqalarının obrazları yaradılan bədii yaradıcılıq əsərləri meydana gəlmişdir. Bu ənənələr üzərində müasir dövrümüzdə yaranan ədəbiyyat nümunələri içərisində X.Şirvanidən başlayaraq M.Gəncəvinin, N.Gəncəvinin, İ.Nəsiminin, Ş.İ.Xətainin, M.Füzulinin, M.P.Vaqifin, S.Ə.Şirvaninin, C.Məmmədquluzadənin, H.Cavidin, M.Ə.Sabirin və əlbəttə, adları çəkilməyən çoxsaylı digər ədəbi simaların obrazları yaradılan, həyatı, mühiti və fəaliyyətinə həsr olunan qiymətli bədii əsərlər ərsəyə gətirilmişdir. Belə bədii əsərlər həmin görkəmli şəxsiyyətlərin ideyalarının mənimsədilməsi, təbliği və təşviqində çox mühüm rol oynamışdır. Təsadüfi deyil ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ədəbiyyat haqqında demişdir: *"...insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur. Bu vasitədən xalqımız keçmişdə də istifadə edibdir. Bizim mütəfəkkir insanlarımız, şəxsiyyətlərimiz, böyük alimlərimiz, yazıçılarımız məhz*

*bununla fəxr edirlər ki, onlar xalqın içindən çıxaraq, böyük mədəniyyət, ədəbiyyat, şeir nümunələri yaradaraq xalqı oyadıblar, qaldırıblar, ruhlandırıblar, mübarizəyə dəvət ediblər. Keçmiş tariximiz bundan ibarətdir"* [40, s.184].

Bədii ədəbiyyatımızdakı bu zərurəti və ehtiyacı H.Ənvəroğlu roman janrı timsalında qeyd etdiyi fikirlərə istinadən də belə ifadə etmək olar ki, ümumiyyətlə, tarixi şəxsiyyətlər, uzaq və ya yaxın hadisələr ədəbiyyatın güzgüsündə daha aydın, həm də təhlili xarakterdə əksini tapa bilmişdir. Burada həm də hər bir tarixi şəxsiyyətin taleyinə xalqın taleyi kimi baxılması imkanı qazanılmışdır [45, s.558-559].

Azərbaycan ədəbiyyatında Nəsimi obrazının yaradıldığı, onun ideyaları və mübarzəsinə, həyat və fəaliyyətinə həsr edilmiş əsərlər çoxluq təşkil edir. Bu baxımdan mövzunun aktuallığı, əhəmiyyəti ondan ibarətdir ki, həm böyük Azərbaycan şairi və mütəfəkkiri kimi İ.Nəsiminin həyatı, yaradıcılığı və fəaliyyəti müxtəlif yanaşmalar və müstəvilər aspektindən yenidən öyrənilir, tədqiq və təhlil edilmiş olur, həm də Azərbaycan ədəbiyyatının böyük bir hissəsi öyrənilir

Məlumdur ki, Nəsimi ömrü mübarizələrdə keçən, insan azadlığı uğrunda əzmlə mücadilə aparan mütəfəkkir sənətkardır. Bu görkəmli anadilli Azərbaycan şairini elm aləminə tanıdan böyük tədqiqatçı və şair Salman Mümtaz da "Nəsimi" adlı əsərində onun haqqında bəhs edərkən yazmışdır: *"Nəsiminin ümumi türk tarixi-ədəbiyyatında böyük mövqeyi vardır. Türk tarixi-ədəbiyyatı yazanlar ondan bəhs etmədən keçmirlər. Ali əfəndi bu həqiqəti etiraf edib: "Türki şeirlərə rövnəq verən Seyidimiz budur" deyir"* [88, s.297].

İ.Nəsiminin yaradıcılığı, həyatı və dövrü Azərbaycan tarixinin, mədəniyyətinin ən mühüm bir hissəsini təşkil edir. Bu baxımdan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev başqa görkəmli şəxsiyyətlər kimi, İmadəddin Nəsimi irsinə də hər zaman qayğı ilə yanaşmış, ona yüksək qiymət vermişdir. Bu dahi şəxsiyyət Nəsimiyə təkcə şair kimi deyil, alim və filosof kimi yanaşmışdır. Eləcə də, Nəsimi kimi görkəmli şəxsiyyətlərin tanıdılması işini dünya ictimaiyyəti arasında xalqın hörmətinin qaldırılması aktı kimi dəyərləndirmiş, habelə onun tanıdılması sahəsində misilsiz işlər görmüşdür. Hələ keçən əsrin 70-ci illərində görkəmli dövlət xadimi

Heydər Əliyev bu böyük ədibin Hələbdəki məzarının tapılması və təmiri ilə bağlı əhəmiyyətli işlər görmüş, həmçinin bu dahi Azərbaycan şairinin 600 illik yubileyinin ölkəmizdə və YUNESKO səviyyəsində qeyd edilməsi işini gerçəkləşdirmişdir.

Vilayət Quliyevin görkəmli nasirimiz İ.Hüseynovun məşhur "Məhşər" romanının motivləri əsasında çəkilmiş və milli kinomuzun uğurlarından hesab edilən "Nəsimi" filmi haqqında dediyi fikirləri əsas tutaraq demək olar ki, Nəsimi şəxsiyyəti, yaradıcılığı və mühiti haqqında yazılan bir sıra əsərlər, görülən bir sıra işlər məhz Ulu Öndər Heydər Əliyevin başlatdığı böyük mədəni tədbirlər silsiləsi ilə *"70-ci illərdə Azərbaycan mədəniyyətindən keçən cazibədar Nəsimi dalğasında yaranmışdı"* [76, s.50]. Azərbaycan xalqının xilaskarı, ədəbiyyatı və mədəniyyətinin hamisi Ulu Öndər Heydər Əliyev böyük Azərbaycan şairi, mütəfəkkiri İmadəddin Nəsimi irsini yüksək qiymətləndirərək demişdir: *"Tariximiz çox zəngindir və biz bunu vaxtaşırı xalqa çatdırmalıyıq. Xatirinizdədirmi, Nəsiminin 600 illik yubileyini qeyd etdiyimiz zaman bu, dünyada nə qədər əks-səda doğurdu, Azərbaycanı nə qədər tanıtdı! Nəhayət, 600 ildən sonra biz Nəsiminin Hələb şəhərindəki məzarını tapdıq. İndi onun məzarı oraya gedən adamlar üçün bir ziyarətgahdır. Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir. Mən təkcə şairlər haqda danışmaq istəmirəm. Nəsimi də yalnız şair deyil, həm də alim, filosofdur*" [40, s.104].

Azərbaycanda Nəsimi şəxsiyyətinə olan ehtiram ardıcıl olaraq davam etdirilmişdir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin sərəncamı ilə 2019-cu il ölkəmizdə "Nəsimi ili" elan olunmuş, bu görkəmli və əbədiyaşar mütəfəkkir-sənətkarla bağlı ardıcıl tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin sərəncamında görkəmli Azərbaycan şairi İmadəddin Nəsimi haqqında yüksək qiymət ifadə edilərək deyilirdi: "*Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir. Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-*

*ədəbi fikrin diqqət mərkəzindədir. ...Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmiş və onun ədəbiyyatda, incəsənətdə parlaq obrazı yaradılmış, eləcə də 1979-cu ildə ölkəmizin paytaxtında heykəli ucaldılmışdır*" [139]. Azərbaycan ədəbiyyatında Nəsimi şəxsiyyətinə olan rəğbət hər zaman yüksək səviyyədə olmuş, onun yaradıcılığı, şəxsiyyəti, amalı, mübarizəsi bir ənənə, məktəb təşkil etmişdir. Ədəbiyyat adamları, şair və yazıçılar bu görkəmli şəxsiyyətlə bağlı müxtəlif qiymətli əsərlər ərsəyə gətirmişlər. Azərbaycan Respublikasında "Nəsimi ili" elan olunması haqqında Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2019-cu il tarixli Sərəncamından sonra Nəsimi haqqında bir sıra qiymətli əsərlər, o cümlədən Hüseynbala Mirələmovun "Son səfər", Sayman Aruzun "Nəsimi" kimi əsərləri və bir sıra yeni kino, teatr örnəkləri meydana gəlmişdi.

Mənbələrdən birində Nizami Gəncəvi haqqında deyilmiş bu fikri İmadəddin Nəsimiyə də şamil etmək olar ki, şəxsiyyətinə yazarların müraciət etmə səbəbləri dahi şairə sevgidən, məhəbbətdən doğurdusa da, eyni zamanda yazdıqları əsərə Nizami obrazı vasitəsilə ölməzlik qazandırmaq və demək istədiklərini bu obraz vasitəsilə ifadə etmək istəmələri də Nizami obrazına müraciətin qayəsini təşkil etmişdir [89, s.19]. Bu baxımdan əsərlərdə Nəsimi daha çox görkəmli bir şəxsiyyət, şair və ideoloq kimi obrazlaşmış, onun əqidə və təlimi, həyatı və əməlləri poetik şəkildə ifadə edilmişdir. Ümumiyyətlə, "*Azərbaycan ədəbiyyatında Nəsimi mövzusu özünəməxsus geniş yer tutur. Bu mövzu yazıçılarımıza şəxsiyyət və zaman, hökmdar və sənətkar, insan və azadlıq, qürbət və vətən, milli iftixar duyğusu haqqında söz demək, yeni nəsilləri vətənpərvərlik və mübarizlik ruhunda tərbiyə etmək üçün böyük meydan açmışdır*" [52, s.37]. Bu mənada, Nəsimi haqqında yazılmış əsərlərin təhlil edilməsi, müxtəlif problemlərin və əhəmiyyətli məsələlərin tədqiqi və təhlili sanballı tədqiqat işinin ərsəyə gəlməsinə səbəb olmuşdur. Həmçinin bu əsərlərin təhlili gənc nəsillərdə vətənpəvərlik və mübarizlik duyğularının təbliğinə öz töhfəsini verir.

Təqdim olunan tədqiqat işində mütəfəkkir şair İmadəddin Nəsimiyə həsr olunan əsərlərin müəyyənləşdirilərək ədəbi təhlilə cəlb edilməsi, həmçinin bu mövzuda əsərlər külliyyatının ümumiləşdirilməsi də böyük əhəmiyyət kəsb edir.

Nəsimi ideyalarının ədəbi düşüncə və əsərlərdə bədii əksinin öyrənilməsi məsələsi aktuallığını qoruyan məsələlərdəndir. Bədii əsərlərdə müəllif konsepsiyası çərçivəsində Nəsimi şəxsiyyəti və obrazı bütün əhatəliliyi ilə canlandırılmışdır. Ədəbi əsərlərdə əks edilən məsələlər Nəsiminin həyatı və fəaliyyətinin daha canlı, real təsiri bağışlayan bir biçimdə ortaya qoyulmasına və Nəsimi obrazının yaradılmasına gətirib çıxarmışdır. Bu baxımdan bizim tədqiqat üçün də əhəmiyyətlidir ki, ədəbi-elmi təhlil sırasında real faktlarla qeyri-real faktlar ayırd edilərək öyrənilir. Nəsiminin mühiti, həyatı və fəaliyyəti ilə bağlı yer alan bütün məsələlər incələnərək tədqiq olunur, Nəsimi şəxsiyyəti və obrazının konkretləşdirilməsinə vəsilə olur. Nəsiminin ideyaları, onun hürufilik təlimindəki yeri, yaddaşlarda dərin iz buraxan Nəsimi nümunəsi daha dərindən öyrənilərək ortaya çıxarılır və konkretləşdirilib təqdim olunur. Bu təlimin təhlilləri də Nəsimi ilə bağlı mövcud fikirlərin dərinləşməsi və zənginləşməsinə mühüm imkanlar yaradır. Tədqiqatda hər bir əsər əsasında Nəsimi ilə bağlı ortaya qoyulmuş bütün məsələlər ümumiləşdirilmiş, ədəbi düşüncədə yer alan Nəsimi obrazının konkret, bitkin və daha əhatəli əksi ortaya çıxmışdır. Bu cəhətdən də bu elmi-tədqiqat işinin aktuallığı onunla müəyyənləşir ki, indiyə qədər yazılmış müxtəlif bədii nümunələrdə yer almış Nəsimi obrazı təhlil və tədqiq edilmişdir. Bu tədqiqat əsəri həm də ilk dəfə geniş həcmdə ortaya qoyulan, Azərbaycanın dövlət müstəqilliyi qazandığı bir dövrdə, yeni milli konseptual elmi müstəvidə, azərbycançılıq nöqteyi-nəzərindən yazılmışdır. Bədii ədəbiyyatda əks olunmuş Nəsimi obrazının tədqiqini qarşıya məqsəd qoyan bu əsər daha əhatəli və dərin, bitkin və konkret bir əsər olmaqla, özünün elmi əhəmiyyətini qabarıq şəkildə biruzə verir.

Çox az sayda kiçik həcmli elmi və ya publisist məqalələr istisna olunmaqla Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfədir ki, bu mövzuda əhatəli, geniş, bitkin və konkret bir elmi-tədqiqat əsəri işlənilmişdir. Bu mövzuda İsa Həbibbəylinin, Qəzənfər Paşayevin, Vaqif Yusiflinin, Salidə Şərifovanın, Həsənəli Eyvazlının, Aygün Bağırlının əsərləri çap edilmişdir.

Azərbaycan ədəbiyyatşünaslığında İmadəddin Nəsimi haqqında ilk məlumat verən ədəbiyyatşünaslar Firudin bəy Köçərli və Salman Mümtaz olmuşdur. Azərbaycan ədəbiyyat tarixinin banilərindən olan F.Köçərli məşhur “Azərbaycan

ədəbiyyatı" əsərində Nəsimi Şirvanidən yalnız bir şeir verə biləcəyini etiraf edir [66, s.497].

İlk dəfə Nəsimi haqqında geniş məlumat verən, hətta Nəsimi haqqında monoqrafiya yazan Salman Mümtaz olmuşdur. S.Mümtaz həm Nəsiminin şəxsiyyəti, tərcümeyi-halı və yaradıcılığı haqqında, həm də Nəsimi haqqında bəhs edən ədəbi-bədii əsərlər haqqında nümunələrlə bəhs etmişdir. Alim həmçinin həm xalq ədəbiyyatı və düşüncəsində, həm də yazılı ədəbiyyatda Nəsimi obrazı barəsində fikirlər səsləndirmişdir. S.Mümtaz Nəsimi haqqında deyilmiş məşhur "Gözəllik soyiləndir" başlıqlı bayatını xatırlatmaqla bərabər Ş.İ.Xətainin, türkmən şairi Məxtimqulunun, Osmanlı şairlərindən Raşid Əfəndinin şeirlərindən nümunələr təqdim etmişdir [88, s.153-159; 291-302].

İsa Həbibbəylinin 2019-cu ildə nəşr olunan "Cahana sığmayan Azərbaycan şairi" adlı olduqca sanballı və ciddi elmi əhəmiyyətə malik monoqrafiyasında Nəsimi yaradıcılığı özünəməxsus elmi təhlilə cəlb edilmiş, Nəsimi obrazının bədii ədəbiyyatda əksi məsələsi də bir bölmədə özünə yer almışdır. Görkəmli alim çap olunan elmi əsərləri səciyyələndirməklə bərabər, Nəsimi obrazını yaradan və onunla bağlı olan bədii əsərlərə də nəzər yetirmişdir [52].

Qəzənfər Paşayevin "Nəsimi obrazı musiqi, incəsənət və bədii ədəbiyyatda" adlı məqaləsində müxtəlif bədii yaradıcılıq sahələrində Nəsimi obrazı ilə bağlı tədqiqatları diqqət mərkəzinə çatdırmışdır. Alimin məqaləsində rus şairi Sergey İvanovun "İmadəddin Nəsimi" tarixi romanından başqa Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən Rəsul Rzanın "Son gecə" poeması, İsa Hüseynovun "Məhşər" romanı, şair-dramaturq Bəxtiyar Vahabzadənin "Fəryad" mənzum pyesi, Qabilin "Nəsimi" poeması, eləcə də aşıq ədəbiyyatı üslubunda yazıb-yaradan Mikayıl Azaflının "Dünya" adlı müxəmməsi və "Getdi" adlı cahannaməsi tədqiqata cəlb edilmiş, daha çox Qabilin "Nəsimi" poemasına diqqət yetirilmişdir [156].

Vaqif Yusiflinin "Şəhidliyin zirvəsi: Azərbaycan ədəbiyyatında Nəsimi obrazı" adlı məqaləsi bu mövzuya həsr edilmiş qiymətli araşdırmalardandır. Məqalədə Nəsiminin adı çəkilən bir bayatıdan başlayaraq Azərbaycan ədəbiyyatının İ.Hüseynov, B.Vahabzadə, Qabil, R.Rza, Ə.Kürçaylı, İ.İsmayılzadə, Ə.Kərim kimi

şair və yazıçıların əsərlərinə diqqəti cəlb edilərək müəyyən təhlillər aparılmışdır. “Məhşər” əsərilə bağlı təhlilə xüsusi yer verən alim “Nəimi edam olunur, amma nəimilik yaşayır” fikri ilə çıxış edərək Nəsiminin və digər hürufilərin fəaliyyəti timsalında davam edən hürufilik təlimini nəimilik adlandıraraq nəsimilik anlayışı üçün də bir zəmin hazırlamışdır. Elə onun ardınca da alim B.Vahabzadənin “Fəryad” pyesini təhlil edərkən Nəsimidən sonra yaşayan və yaşadılan təlimi nəsimilik adlandırmışdır. B.Vahabzadənin “Fəryad” pyesi və onun yardıcılığı barəsində alimin qənaəti elmi tədqiqatlara da sanki maraqlı bir yön vermişdir [161].

Salidə Şərifovanın “Azərbaycan ədəbiyyatında Nəsimi yaradıcılığının əks olunması və Nəsiminin bədii obrazının yaradılmasının əsas özəllikləri” adlı tədqiqat əsərində Nəsimi şəxsiyyətilə yaxından bağlı olan əsərlərin müəllifi kimi R.Rza, Qabil, Ə.Kərim, C.Novruz, X.R.Ulutürk kimi şairlərin yaradıcılığında, yəni poeziya nümunələrində diqqəti cəlb edən Nəsimi obrazı haqda məsələlər qabardılmışdır. S.Şərifova başqa tədqiqatçılardan fərqli olaraq bir sənətkarın yaradıcılığında, ümumən, Nəsimi şəxsiyyəti ilə bağlı olan müxtəlif əsərləri də tədqiqatın mərkəzinə gətirmiş və daha əhatəli, miqyaslı əsər ortaya qoymuşdur [157].

Bədii ədəbiyyatda Nəsimi obrazının bədii əksi məsələsini ümumiləşdirən kiçik həcmli “Dünya mənim sədəfimdir, mən dünyanın gövhəriyəm” adlı tədqiqat əsərində Aygün Bağırlı Nəsimi obrazının yaradılması, onun şəxsiyyətinə ədəbi müraciətin səbəbində dayanan bədii ehtiyacı dilə gətirmişdir. Bir məqalənin imkanları daxilində alim mövzuya müraciət etməklə poeziyada Xalq şairi S.Vurğunun “Azad ilham”, N.Xəzrinin “Mənim babam baxan dağlar” şeirini təhlilə cəlb etmişdir. Tədqiqatçı daha əhatəli olaraq R.Rzanın “Son gecə” poemasını təhlilə cəlb etmiş, onun haqqında ümumiləşmiş fikirlər ifadə etmişdir. Alim poeziya örnəkləri sırasında Qabilin “Nəsimi”, X.R.Ulutürkün, M.Yaqubun, C.Novruzun, Ə.Kərimin əsərlərini xatırlatmışdır. Nədənsə tədqiqatçı Azərbaycan poeziyasında Nəsimi şəxsiyyətinə həsr olunan ən irihəcmli əsər olan Qabilin “Nəsimi” poemasından digərlərilə müqayisədə çox səthi bəhs etmiş və demək olar, heç təhlil aparmamışdır. Tədqiqatçı bədii nəsr nümunələri içərisində İ.Hüseynovun “Məhşər” romanı və H.Mirələmovun “Son

səfər" povestinin adlarını çəkmiş, "Məhşər" əsərinə bir qədər geniş yer ayırmışdır [140].

Həsənəli Eyvazlı "Tarixi dramlarda ədəbi şəxsiyyət obrazı" adlı monoqrafiyasında Bəxtiyar Vahabzadənin "Nəsimi" və Əkbər Məftunun "Nəsimi" əsərləri haqda bəhs etmiş və təhlillər aparmışdır [28].

Tədqiqat işində Nəsimi obrazının yaradıldığı digər bədii əsərlər haqqında da bəhs edilmişdir. Bir qisim əsərlərdə də bədii ədəbiyyatda Nəsiminin bədii obrazının yaradılması haqqında dolayısı ilə bəhs edilmiş, Nəsiminin obrazının yaradılmasında onun ideyalarının humanizminin, insançı baxışlarının, qorxusuz və cəsarətli olmasının və s. rol oynadığı qeyd edilmişdir [3; 7; 8; 55; 97; 103]. Bu əsərlərdə, ümumən, düzgün metodoloji baxış özünü əks etdirsə də, əlbəttə, tədqiqat əsərlərinin həcmi və bilavasitə tədqiqat işi olmaması səbəbindən daha dolğun, əhatəli tədqiqat və təhlillər aparılmamış, əsasən ümumiləşmiş fikirlər ifadə edilmiş, bədii əsərlərin adları çəkilərək ya ədəbi xronikası yaradılmış, ya da çox səthi bəhs edilərək ümumi, bir çox hallarda da mücərrəd fikirlər səsləndirilmişdir.

**Tədqiqatın obyekti və predmeti**. Dissertasiyanın tədqiqat obyektini Nəsimi obrazının az və ya çox dərəcədə əks olunduğu, haqqında bəhs edildiyi Azərbaycan ədəbiyyatı nümunələri təşkil edir.

Tədqiqatın predmetini isə Nəsimi obrazı təşkil edir. Əlbəttə, qeyd etmək lazımdır ki, bir sıra bədii ədəbiyyat nümunələrində bilavasitə Nəsimi obrazından bəhs edilib, onun ədəbi portreti, şəxsiyyəti yaradılsa da, bəzi ədəbiyyat nümunələrində, xüsusilə də poeziya örnəklərində birbaşa Nəsiminin obrazı yaradılmamış, bu böyük şəxsiyyətin həyatı, taleyi və şəxsiyyəti ilə bağlı olan müəyyən məsələlər yer almış, tərənnüm və ya vəsf edilmiş, şəxsiyyət və həyat tərzindən nümunə olaraq təbliğ edilmişdir. Buna görə də tədqiqat əsərində bilavasitə Nəsimi obrazının yaradıldığı əsərlərin təhlili və tədqiqi daha ön sırada dayanmış, digər əsərlər haqqında da müəyyən ədəbi-bədii problemdən bəhs edilərək təhlilə cəlb edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işinin aparılmasında başlıca məqsəd Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri, mütəfəkir şair İ.Nəsiminin

şəxsiyyətinə diqqət çəkmək, onun ictimai-mənəvi, ədəbi fikirdəki yeri, rolu və mövqeyini konkret-tarixi faktlar əsasında təyin etmək və sübuta yetirməkdir.

Bunun üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

– Nəsimi şəxsiyyətinin ədəbi fikirdə yaratdığı mənəvi ideal problemini təyin, təhlil və təqdim etmək;

– Nəsimi obrazı ilə bağlı bədii əsərlərin ədəbi xəritəsini müəyyənləşdirmək və təqdim etmək;

– Nəsimişünasların elmi və bədii, xüsusən, tədqiqata cəlb etdiyimiz yazarların əsərlərinin növ və janr, ideya və bədii məziyyətlərini aşkara çıxarmaq, təhlil etmək, ümumiləşdirmək;

– Nəsiminin obrazı yaradılan və ya Nəsimiyə həsr olunan mövcud bədii əsərləri növ və janr, ideya və bədii məziyyətlər prizması baxımından təhlil və tədqiq etmək;

– Ədəbi fikirdəki əfsanəvi və real Nəsimi obrazını təyin və təqdim etmək;

– Ədəbi-bədii fikirdə Nəsimi şəxsiyyəti və obrazını konkret və portret şəklində öyrənmək və təqdim etmək;

– Nəsimi obrazını bədii əsərlər kontekstində öyrənərkən tarixi reallığa və konkret faktlara uyğun, müqayisəli planda öyrənilməsi də qarşıda duran vəzifələrdəndir.

**Tədqiqat metodları.** Tədqiqat işində İmadəddin Nəsiminin dövründə və ondan sonrakı zamanlarda onun haqqında yarı əfsanə, yarı real faktlara əsaslanan geniş məlumatların müqayisə metodundan istifadə edilmişdir.

Tədqiqatda, həmçinin İmadəddin Nəsimidən başlayaraq üzü bəri davam və inkişaf etdirilmiş, Ulu Öndər Heydər Əliyev tərəfindən pik nöqtəsinə çatan azərbaycançılıq məfkurəsinə söykənən müasir metodlara müraciət edilmişdir.

Bu tədqiqat əsərində mövzunun öyrənilməsi və problemin həlli istiqamətində müzakirəyə çıxarılan məsələlərin analiz və sintez yolu ilə öyrənilməsi də başlıca metod təşkil edir. Bundan başqa statistik təhlilə də müraciət edilmiş, azərbaycançı konseptual təhlil başlıca metodoloji əsası təşkil etmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Bu tədqiqat işində aşağıda göstərilən bir sıra vacib məsələlər ümumiləşdirilərək tədqiqata cəlb olunmuş və müdafiəyə çıxarılmışdır:

– Nəsimi obrazı və şəxsiyyəti ilə yaxından bağlı olan Azərbaycan ədəbiyyatı nümunələri;

– Müxtəlif mövzu və janrlarda yazılmış bədii əsərlərdə Nəsimi obrazı;

– Nəsiminin taleyi, dövrü və mühitinin bədii əsərlərdə əksi və təqdimi;

– Nəsimi şəxsiyyətinin bədii əsərlərin ideya predmetinə çevrilən başlıca cəhətləri;

– Bədii əsərlərdəki Nəsimi obrazı ilə real, tarixi şəxsiyyət olan Nəsimi arasındakı oxşar və fərqli keyfiyyətlər;

– Nəsimi obrazının yaradılmasında yazıçı təxəyyülünün məhsulu olan məsələlər;

– Yazıçıların Nəsimi şəxsiyyəti və obrazı ətrafında söyləmək istədikləri mətləblər;

– Nəsimi ideya və ideallarının bədii əsərlərdə yaratdığı ənənələr və müasir meyillər;

– Bədii ədəbiyyatda yer alan nəsimilik və nəsimiçilik məsələsi;

– Tədqiqat predmeti ətrafında mövcud olan fikirlərə müasir ədəbiyyatşünaslıq meyarları və azərbaycançılıq nöqteyi-nəzərindən yanaşmalar və s.

**Tədqiqatın elmi yeniliyi**. Azərbaycan ədəbi-ictimai fikrində mühüm rol oynamış İ.Nəsimi obrazı və şəxsiyyətini əhatə edən əsərlərin təhlili və tədqiqi ilk dəfə bu tədqiqat əsərində sistemli, bitkin, konseptual və konkret şəkildə öyrənilmişdir.

Eləcə də:

– İlk dəfə bu tədqiqat işində Nəsimi şəxsiyyəti, həyatı, taleyi və idealları ilə bağlı olan əsərlər əhatəli şəkildə müəyyənləşdirilərək sistemləşdirilmiş və tədqiqata cəlb edilmişdir;

– Azərbaycan ədəbi fikrində Nəsimi obrazı ilk dəfə daha konseptual baxımdan əhatəli və təfərrüatlı şəkildə elmi tədqiqat müstəvisinə gətirilmişdir;

– Azərbaycan ədəbiyyatının müxtəlif ədəbi növ və janrlarında Nəsimi obrazı ilə bağlı olan əsərlər müəyyən edilərək geniş təhlil edilmiş və konkret nəticələr ortaya qoyulmuşdur;

– Azərbaycan bədii düşüncəsində həkk olunmuş Nəsimi obrazı və şəxsiyyəti haqda fikirlər mövcud və real tarixi faktlarla müqayisəli şəkildə öyrənilərək reallıqla irreallıqlar süzgəcindən keçirilmiş, gerçəklik və təxəyyül nəticələri müqayisələndirilmiş, Nəsimi obrazının xarakterik bədii portreti əks etdirilmişdir;

– Məhz bu tədqiqatda ilk dəfə Naxçıvan ədəbi mühitində Nəsimi obrazına geniş elmi plan əsasında müraciət olunmuşdur;

– Eləcə də, Əkbər Məftunun "Nəsimi" mənzum pyesi geniş şəkildə təhlil edilərək konkret elmi nəticələr ifadə edilmişdir;

– Bu tədqiqat əsərində ilk dəfə problem müstəqillik dövrünün azad və milli konseptual müstəvisində araşdırılmış, milli və bəşəri məsələlər paralelliyində təhlil edilərək konkret nəticələr göstərilmişdir;

– Musa Yaqubun "Şirvan alverçisi və Nəsimi" (1968), Ələkbər Salahzadənin "Od heykəli" (1969), Qabilin "Nəsimi" (1964-1973), Söhram Tahirin "Karvan gedir" (1973), Rəsul Rzanın "Son gecə" (1973-1974), Nəbi Xəzrinin "Mənim babam baxan dağlar" (1976) və İmadəddin Nəsimiyə həsr olunan bu silsilədən olan digər çoxsaylı poemalar, lirik şeirlər müəyyənləşdirilərək geniş, əhatəli və təfərrüatlı şəkildə təhlildən keçirilmiş, konkret elmi nəticələr əldə edilmişdir;

– İsa Hüseynovun "Məhşər", Mahmud İsmayılın "İki od arasında", Yusif Vəzir Çəmənzəminlinin "Mirzə Əbdülvahab", Hüseynbala Mirələmovun "Son səfər" və başqa nəsr nümunələri geniş təhlilə cəlb edilmiş, "Məhşər" romanının bu mövzuda ilk geniş həcmli bədii əsər olduğu qeyd edilmiş, janr səciyyəsi etibarilə əsərin tarixi mövzuda yazıldığı, lakin müəllifin öz fikirlərini sərbəst ifadə etdiyi əsər kimi qiymətləndirilmişdir;

– H.Mirələmovun "Son səfər" povesti də məhz bu səpkidə yazılan nəsr əsəri olaraq tarixi, konkret Nəsimi obrazı və mühitini deyil, müəllifin təxəyyülünə uyğun məsələləri əks etdirdiyi təhlillərin nəticəsi olaraq göstərilmiş, hətta əsərin ümumi pafosu və müəllifin şəxsi qeydlərinə əsasən əsərdə Nəsiminin Azərbaycana, doğma

vətəninə dönüşü, mübarizəsi və məşəqqətləri timsalında bir çox Azərbaycan övladlarının, o cümlədən Azərbaycan xalqının xilaskar oğlu Heydər Əliyevin tarixi mübarizəsinin əks etdirildiyi nəticə ifadə edilmişdir;

– Azərbaycan dramaturgiyasında da Nəsiminin həyatı, ideyaları və mübarizəsi məsələsi mövzuya daxil edilərək tədqiqata cəlb edilmiş və problemə çevrilmişdir.

– Əkbər Məftunun "Nəsimi", Firudin Aşurovun "Nəsimi", Bəxtiyar Vahabzadənin "Fəryad", Sayman Aruzun "Nəsimi" dram əsərlərində nəsimilik məsələsi ifadə edilmiş, nəsimiliyin ümummilli kimlik və mübarizə məsələsi təşkil etdiyi özünün poetik əksini tapmışdır;

– Aparılan təhlillərin yekunu olaraq bu nəticə də ifadə edilmişdir ki, Nəsimi haqqında konkret, dəqiq və dürüst tərcümeyi-hal, həyat və fəaliyyət məlumatı olmadığından sənətkarlar da real, konkret Nəsimi obrazından daha çox mübarizliyi, əzmi və əyilməzliyi ilə yaddaşlara həkk olunan, təfəkkürlərdə yer alan bir mübarizlik obrazı yaratmışlar.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Aparılan araşdırmalar Azərbaycan ədəbiyyatı tarixinin həm orta əsrlər – Nəsimi dövrü, həm də müxtəlif mərhələləri özündə əhatə edir ki, bu da müasir dövr mərhələsinin öyrənilməsi və tədrisi üçün əhəmiyyət kəsb edir. Eləcə də, bu tədqiqat işi Nəsimişünaslıq sahəsi və onun nəzəri-praktik cəhətdən zənginləşdirilməsi baxımından da mühüm əhəmiyyətə malikdir.

**İşin aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 26 yanvar 2016-cı il tarixli iclasında (protokol № 06) təsdiq olunmuşdur. Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası Filologiya Problemləri üzrə Elmi Şuranın 28 aprel 2016-cı il tarixli iclasında mövzunun adında dəyişiklik olunmuş (protokol № 3) və mövzu qeydiyyata alınmışdır. Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 29 iyun 2016-cı il tarixli iclasında həmin mövzu (protokol № 11) təsdiq olunmuşdur.

İşin əsas müddəaları müəllifin AAK-ın siyahısına daxil edilmiş jurnal və toplularda çap etdirdiyi 17 elmi məqalə, konfrans materialı və tezisdə öz əksini tapmışdır. Dissertasiyanın nəticələri Naxçıvan Dövlət Universitetinin "Azərbaycan dili və ədəbiyyatı" və "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedralarında

müzakirə edilərək müdafiəyə məsləhət görülmüşdür. Tədqiqatın nəticələri haqqında Naxçıvan Muxtar Respublikasının 95 illik yubleyinə həsr olunmuş Respublika Elmi Konfransında, “Çağdaş dönəmdə Türk dünyasının Aktual Problemləri” adlı Respublika Elmi Konfransında, “Bilge Tonyukuk Anısına III.” Uluslararası Türk dili ve Edebiyyatları Öğretimi Sempozyumunda, “11 Uluslararası Kültür, Medeniyet ve Sosyal Bilimler” Kongresində, “Çağdaş Azərbaycan Dilinin Aktual problemləri” mövzusunda II Respublika Elmi Konfransında, “Çağdaş Azərbaycan Dilinin Aktual Problemləri” mövzusunda III Respublika Elmi Konfransında məruzələr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Naxçıvan Dövlət Universitetinin “Azərbaycan dili və ədəbiyyatı” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya işi “Giriş”, 3 fəsil, “Nəticə” və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın “Giriş” hissəsi 15 səhifə –23798 işarə, I fəsil 59 səhifə –85259 işarə, II fəsil 39 səhifə –66256 işarə, III fəsil 37 səhifə –57370 işarə, “Nəticə 6 səhifə – 8742 işarə olmaqla işin ümumi həcmi 151 səhifə –241425 işarə təşkil edir.

# I FƏSİL
# AZƏRBAYCAN POEZİYASINDA İMADƏDDİN NƏSİMİYƏ HƏSR OLUNMUŞ ƏSƏRLƏRİN İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ

Ədəbiyyat tariximizdə müxtəlif dahi ədib və sənətkarlarımızın taleyi və dövrünə həsr olunan çoxsaylı əsərlər yazılmışdır. Bu sırada böyük Azərbaycan şairi, anadilli ədəbiyyatımızın görkəmli ustadlarından biri, filosof, mütəfəkkir şair İmadəddin Nəsiminin obrazı yaradılan və ya haqqında məlumat verilən əsərlər də çoxluq təşkil edir. Böyük ustad sənətkarın öz dövründən üzü bəri ictimai şüurda yaratdığı şanlı obrazın təsirindən yaranan müxtəlif janrda yazılmış əsərlərdə Nəsimi ideal, filosof şair kimi verilmişdir. Əvvəla, onu qeyd etmək lazımdır ki, İ.Nəsiminin bir mübariz sənətkar olaraq həyatı haqqında məlumatlar çox azlıq təşkil edir. Hətta onun haqqında mənbələrdə *"həyatı əfsanələrə bürünmüş sənətkar"* deyə bəhs olunması da [17, s.17] məhz bu mütəfəkkir sənətkarın haqqındakı məlumatların çoxunun rəvayət, xalq düşüncəsi, əfsanələri və b. mənbələrdə olan məlumatlardan ibarət olması ilə bağlıdır. Nəsimi kimi ölməz, həyatı, yaşamı və sənətkarlığı ilə bir örnək, yol, təlim təşkil edən şairin haqqında az da olsa özündən sonrakı dövrlərdə olan müxtəlif cünglərdə, təzkirələrdə, bədii əsərlərdə müəyyən qədər və demək olar ki, çox xəsisliklə və ziddiyyətli məlumatlar verilmişdir.

Səadət Şıxıyevanın da bəhs etdiyi kimi, ümumiyyətlə, *"XV yüzillikdən başlayaraq ...Nəsimi ali insani keyfiyyətlərin, mərdanəlik və fədakarlığın timsalına çevrilmişdir. ...Mütəfəkkirin şəhidlik zirvəsinə yüksəlmiş "haqq aşiqi" kimi öyüldüyü, onun bu faciəsinə acımanın ifadə edildiyi, yaxud sadəcə xatırlatma xarakterli işarə-beyt və misralar bir çox şairin yaradıcılığında yer alır. ...Bu şairlərin əksəriyyəti daha çox Nəsiminin faciəvi aqibətindən edam səhnəsində haqq aşiqi kimi mətanətindən, ölümündən sonrakı ruhi halları və kəramətlərindən bəhs edirlər"* [111, s.256]. Alim bu sırada örnək olaraq Muhyiddin Abdal [XVI], Şah İsmayıl Xətai [XVI], Pir Sultan Abdal [XVI], Sarı Aşıq [XVII], Koyunoğlu [XVII], Qul Nəsimi [XVII], Əndəlib [1660-1740], Məxtumqulu [XVII], Şeydayi [XVIII], Şəmi [XIX], Sübhi [XIX] kimi klassik türk sənətkarlarının adlarını çəkir [111, s.256]. Bu mənada

təkcə Azərbaycan ədəbiyyatında deyil, ümumən, Türkiyə, Türkmənistan, Özbəkistan, İran kimi ölkələrin ədəbiyyatlarında da ideya və fikir yolunda əqidəsinin şəhidi olan şair Nəsimini andıran, ondan müxtəlif formalarda, məzmunda bəhs edən əsərlər ərsəyə gəlmiş, böyük sənətkarın əqidəsi, yolu, təlimi, xatirəsi və dəyəri də yaşadılmışdır.

Azərbaycan ədəbiyyatı tarixində çoxsaylı bədii əsərlər var ki, bu əsərlərdə görkəmli simaların obrazları yaradılmışdır. *"Nəsiminin "obraz" kimi əksi daha geniş şəkildə intişarını tapıb"* [77]. Bu əsərlərdə ya bilavasitə görkəmli yazarların əhatəli, mükəmməl obrazları yaradılmış, ya da onların həyatı, sənəti, irsi və sair barədə təfsilati məlumatlar əks etdirilmişdir. Bu əsərlərdə ya bilavasitə görkəmli yazarların əhatəli, mükəmməl obrazları yaradılmış, ya da onların həyatı, sənəti, irsi və sair barədə təfsilati məlumatlar əks etdirilmişdir. Yaxud da bəzi əsərlərdə müəyyən bir dövr, tarixi hadisə qələmə alınarkən həmin dövrün ədəbi-mədəni vəziyyəti və görkəmli şəxsiyyətləri də bədii əksin müstəvisinə gətirilmişdir. Tarixi mövzulu ədəbi əsərlərdə hadisələri belə əks etdirmə üsulu daha zəngindir. Ədəbiyyatın və sənətin Nəsimi şəxsiyyətinə özünməxsus müstəvidən yanaşaraq təqdim və təsvir etməsi, əlbəttə, yazıçının məqsədi, problemi, məsələni və mövzunu dərki, məlumat dairəsi və s. kimi məsələlərlə bağlıdır. Haqq və nahaq məsələsilə bağlı mövzularda daha çox Nəsiminin "mübariz və şəhid şair" obrazının canlandırılması da insan amilinə bütün dövrlər üçün haqq mövqeyindən yanaşılması ilə bağlı olmuşdur. Y.Qarayev yazırdı ki: *"Mənəm haqq!", yoxsa "mən və haqq?" Məncə, "mənəm haqq!" Təsadüfi deyil ki, bizim klassik, milli, fəlsəfi fikir "mən"i və haqqı, insanı və vicdanı, şəxsiyyəti və əqli bir-birindən ayırmır"[*72, s. 11].

İstər poeziya, istər bədii nəsr və istərsə də dramaturgiya nümunələri arasında qeyd edilən motivdə ədəbi əsərlər çoxluq təşkil edir. Obrazları yaradılan şəxsiyyətlər sırasında anadilli şeirimizin korifey ustadı İ.Nəsiminin bədii obrazı xüsusi mövqe tutur. Bir sıra Azərbaycan ədəbi nümunələrində Nəsiminin bədii obrazı yaradılmış, onun taleyindən, sənətindən, irsindən və həyatından bəhs edilmişdir. Azərbaycan şifahi düşüncəsi və xalq yaradıcılığında Nəsiminin möhtəşəm obrazının yaradıldığı,

əqidəsindən dönməz, mübariz şəxsiyyətinin öz təsvirini tapdığı artıq mənbələrdə də qeyd edilmişdir[38; 88; 121].

Yazılı ədəbi əsərlər arasında S.Vurğunun "Azad ilham", R.Rzanın "Son gecə", "Nəsimiyə", eləcə də, "Nəsimiyə, Füzuliyə, Sabirə açıq məktub", Qabilin "Nəsimi", İ.Səfərlinin "Nəsimi", X.Rzanın "Nəsimi kimi", "Nəsimi", C.Novruzun "Nəsimi", S.Tahirin "Karvan gedir", F.Sadığın "Böyük Nəsimiyə", K.Kələntərlinin "Pəncərəm açıldı", Q.Nəcəfzadənin "Nəsiminin heykəlinə", M.Arazın müxtəlif şeirlərində və b. poeziya örnəklərində Nəsimi obrazından bəhs edilmişdir.

Bu əsərlərdə Nəsiminin orta əsrlər Azərbaycan intibah düşüncəsinin qüdrətli nümayəndəsi və siması kimi fikirlərinə istinad edilmiş, onun fikirləri, qüvvət və iradəsi söhbət mövzusuna çevrilmiş, həyatı və taleyi, xüsusilə mübarizə əzmi diqqət mərkəzinə gətirilərək örnək göstərilmişdir. Bunu da ifadə və qeyd etmək istərdik ki, Nəsimi obrazına müraciət edən Azərbaycan sənətkarları bədii əsərlərdə daha çox tarixi və tarixin problemlərini deyil, müasiri olduqları dövrün problemlərinə qarşı mübarizə aparan qəhrəman kimi Nəsimi obrazından istifadə edərək, hətta, Ş.Alışanlının dediyi kimi*,"klassik sənətkar haqqında müasir mif"* [6, s.32] yaratmaqdan da çəkinmirdilər. *"Mənəviyyatca zəngin, ruhən yenilməz, keçmişdən dərs alıb gələcəyə inamla baxan"* [78, s.109] bir poeziya səciyyəsi olaraq şairlər həm də tarixin məhz bu keyfiyyətlərə cavab verən qəhrəmanını obrazlaşdırmaqla fikirlərini və ədəbi missiyalarını həyata keçirməyə çalışıblar.

Ümumiyyətlə, bu əsərlərin hər birində ayrı-ayrı problem və məsələlər, o cümlədən "*şəxsiyyət və zaman, hökmdar və sənətkar, insan və azadlıq, qürbət və vətən, milli iftixar duyğusu*" [52, s.37] kimi mühüm problematik məsələlər ehtiva edilmişdir. Bütün hallarda onun dərisinin soyulmasına baxmayaraq azad düşüncə və insan haqda ideallarından vaz keçməməsi çoxluqla əsərlərin başlıca motivi olmuşdur. Həmin əsərlərdə kamil insanın mükəmməl düşüncələri, arzu və idealları, ictimai düşüncənin çiçəklənməsi və azad düşüncənin güclənməsində xidmətləri və s. aparıcı məsələlər sırasına çıxarılmışdır.

Ümumiyyətlə, obraz haqqında mənbələrin fikrini konkretləşdirsək, "*obraz müxtəlifliyin elə bir vəhdətidir ki, o, mahir bir zərgərin yaratdığı daş-qaşa bənzər*"

[29, s. 15]. Obrazlılıq həm də "*şəkillilik, modellilik və müqayisə əsasında yaranan güclü portretlilik, incə tərtibat*" anlamı ifadə edir [20, s. 22]. Bu mənada Nəsiminin obrazının yaradılması məsələsində də qeyd edilməlidir ki, bəzən Nəsiminin bir şəxsiyyət olaraq səciyyəvi xüsusiyyətləri, şəxsiyyəti, həyatı və taleyi ilə bağlı vacib əlamətləri təsvir edilməklə portreti yaradılmış, bəzən də məhz Nəsimi şəxsiyyətinə aid olan bir mühüm, səciyyəvi əlamət tərənnüm və təsvir edilməklə xatırlanmışdır. Bu baxımdan da Azərbaycan ədəbiyyatında Nəsimiyə həsr olunan çoxsaylı əsərlərin hər birində onun intibah düşüncəsi, özündə azad və kamil insan ideyasını ümumiləşdirən ideyaları və daha çox öz ideyaları uğrunda dönmədən mübarizə aparan bir qəhrəmanın və ölümünə mücadilə edən sarsılmaz bir aşiqin obrazı xüsusi yer tutmuşdur. Qabilin "Nəsimi" irihəcmli poemasında deyildiyi kimi, böyük filosof şair Nəsimi əsərində vətən demədən vətənini təmsil edən qüdrətli bir sənətkar, söz və fikir dühası olaraq bəhs edilmişdir. Bu filosof şairin möhtəşəm obrazını yaradan və ona əsərlər həsr edən sənətkarlar Nəsimi obrazına "Vətəninin möhtəşəm obrazı" kimi də yanaşmışlar. Xüsusilə Qabilin "Nəsimi" poeması, X.Rzanın "Nəsimi" və "Nəsimi kimi" şeirlərində, M.Arazın müxtəlif misralarında Nəsimi şairin mənsub olduğu vətənin – Azərbaycanın taleyi və özü olaraq ümumiləşdirilmişdir. Onun obrazını yaradan sənətkarlar bu qüdrətli söz ustadının sarsılmazlığında, ümumən, Azərbaycan xalqının sarsılmazlığını və mübarizə əzmini ümumiləşdirmiş, onun intibah düşüncəsində bütövlükdə bəşəriyyətin azadlıq mücadiləsini görmüşlər.

Beləliklə, çoxsaylı bədii əsərlərdə Azərbaycanın bədii söz ustalarının, o cümlədən, böyük filosof-şair, hürufizmin ideoloqlarından biri, anadilli şeirin qüdrətli nümayəndəsi Nəsiminin obrazı yaradılmışdır. Bu əsərlərin hər birində az və ya çox dərəcədə dövr və mühit, şəxsiyyət və zaman, ideya və ideal və s. kimi məsələlər ümumiləşdirilmiş, şəxsiyyətin prizmasından fikirlər deyilmişdir. Nəsimi bir çox lirik əsərlərdə azad və qətiyyətli söz demənin rəmzi kimi çıxış etmişdir [32, s.60].

### 1.1. İmadəddin Nəsimiyə həsr olunmuş şeirlərdə sənətkara poetik ehtiram

Əsl adı Seyyid Əli olan İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatının ən görkəmli söz ustadlarından biridir. Mənəvi dərkini dövrün böyük fikir adamlarından olan Şeyx Fəzlullah Nəimidən alan Nəsimi öz şeirlərilə Nəimi fəlsəfəsinin və ya hürufi sirlərinin bədii əksinə qüvvət vermişdir. İctimaiyyət arasında geniş şöhrət qazanan Nəsimi hürufizmin liderlərindən birinə çevrilərək mütləqiyyət rejiminin, ortodoksal islamın və hakimiyyətin düşməninə çevrilmişdir. Onun əsərlərindəki insan azadlığı üzərinə deyilən himnlər, azad düşüncə və həyat haqqında çağırışlar filosof şairin daha çox rəğbət qazanmasına vəsilə olmuşdur.

Mənbələrdə də yazıldığı kimi, Nəsiminin həyatı daha çox əfsanələrə bürünərək ifadə edilən bir tərcümeyi-hala sahibdir [17]. Şairin həyatı haqqında konkret məlumatlar çox azdır. Hətta bu qüdrətli Azərbaycan sənətkarının böyük İngilis dühası Şekspirlə müqayisə kontekstində həyatı haqqında məlumatların kasadlığından bəhs edən yazıçı və alim M.İbrahimov yazırdı: "*Nəsimi də Şekspir kimi dünya ədəbiyyatında böyük bir cərəyana, intibah dövrü humanist ədəbi cərəyanına mənsub sənətkardır*" [58, s. 133]. Görkəmli yazıçı və alim bunu da çox doğru və haqlı şəkildə yazır ki: "*Mürəkkəb, keşməkeşli, dolaşıq həyatın qəfil burulğanlarında və fırtınalarında Nəsiminin özünü necə apardığına və əsərlərinə əsasən onun şəxsiyyəti, xarakteri barədə müəyyən təsəvvürə gəlmək mümkündür*" [58, s. 133]. Doğrudan da, tarixi, real həyat faktları nə qədər az, kasad olsa da, Nəsiminin bir insan, şəxsiyyət, xarakter olaraq başlıca keyfiyyət və xüsusiyyətləri onun zəngin yaradıcılığından istifadə edilərək neçə-neçə əsərlərin aparıcı motiv və ideya-fikir qaynağına çevrilmişdir. Böyük şairi dillər əzbərinə çevirən onun amalları uğrunda ağır cəzalandırılaraq dərisi soyulmaqla öldürülməsi hadisəsi haqqında da birmənalı fikir yoxdur. Lakin ədəbiyyat üçün əhəmiyyətli olan odur ki, Nəsimi istər əfsanə, istər reallıq, istərsə də ideyaları uğrunda dərisi soyularaq öldürülən mütəfəkkir şair kimi bütün bəşəriyyət üçün bir insanlıq dərsi və mübariz şəxsiyyət örnəyinə çevrilmişdir. Öz ölümü ilə ölümsüzləşən İ.Nəsimi haqqındakı məhz bu faktlar yaradıcılığındakı ideallarla birləşərək ədəbiyyatın və ictimai düşüncənin nəhəng fenomeninə çevrilmişdir.

İ.Nəsiminin fikir atası, ustadı, o dövrün böyük fikir adamlarından olan Fəzlullah Nəimi idi. Adı ilə cərəyanının mahiyyətini belə açıqlayan ustadın adındakı "fəzl" – "ləyaqət" demək idi. "Allahın ləyaqəti" anlamını özündə daşıyan Fəzlullah insana – kamil insana Allahın ləyaqəti kimi yanaşırdı. Fəzlullah Nəimi bədii, eləcə də müxtəlif elmi-fəlsəfi əsərlərilə insanın haqq yaradılış olması haqqında fikirlərini təlim edərək hürufiliyi yaymağa nail olmuşdu. Nəiminin davamçıları arasında İmadəddin Nəsiminin rolu müstəsna idi. Özünün şirin qəzəlləri, qəsidələri, rübailəri ilə Nəimi təlimini geniş kütlələr arasında yayan Nəsimi onun sarsılmaz dayaqlarından birinə çevrilmişdi. İmadəddin Nəsimi şairin ədəbi imzası, təxəllüsüdür. "Müxtəlif mənbələr onun adını İmadəddin, Nəsimi, Nəsiməddin, Əli, Müslihəddin, Ömər və b. kimi qeyd edirlər" [17, s. 217]. Ərəbcədə "sütun, dirək" mənasını ifadə edən [43, s. 240] "imad" sözü ilə "dinin dirəyi" adını almış, ustadı Fəzlullah Nəiminin adına müvafiq olaraq "Nəsimi", "səhər yeli" təxəllüsünü qəbul etmişdir. F.Nəiminin "Vəsiyyətnamə" əsərində adı çəkilən və qızlarından biri ilə evlənməsini tövsiyə etdiyi müridlərindən biri olan Seyid Əlinin İmadəddin Nəsimi olduğu deyilmişdir. Lakin sonrakı tədqiqatçıların bir çoxu "Vəsiyyətnamə"də adı çəkilən və qızı ilə evlənməsi məsləhət bilinən Seyid Əlinin Nəsimi deyil, "hürufi şeyxinin xas müridlərindən və birinci xəlifəsi olan Əbülhəsən Əliyyül Əla" [17, s. 217] olduğunu diqqətə çatdırmışlar. "Daneşməndani-Azərbaycan" əsərinin müəllifi Nəimi haqqında bəhs edərkən ondan gətirilən bir nümunədə dörd canişinin adını çəkmişdir ki, İmadəddin Nəsiminin adı bunların arasında görünmür: "Sirlərin həmdəmi, mürşidin xas həmdəmi, Məcd, Kəmal Haşimi, Mahmud, Əbülhəsəni. Tap dördünü öyrən onlardan sən hikməti" [113, s.246].

Y.Babayevin fikrinə görə, şairin "əsl adı İmad və ya İmadəddindir. Ümumi və daha düzgün qənaət belədir ki, şairin əsl adı İmad və ya İmadəddin ("dinin dirəyi"), təxəllüsü isə Nəsimidir" [17, s. 217-218]. Ustadı Nəiminin "Növmnamə" ("Yuxu kitabı") əsərində onun adını "Seyid İmad" olaraq göstərdiyi qeyd edilmişdir. İlk şeirlərini "Seyid, Hüseyni" təxəllüsləri ilə yazdığı bəllidir. Bu fikirlər kontekstində onu əlavə edək ki, alimlərin bir qismi Nəsimi şəxsiyyəti ilə başqa fikirdədirlər. T.Kərimli və S.Şıxıyeva Nəsiminin ustadı Nəimiyə dərin rəğbətin ifadəsi olaraq

Naxçıvanda Xanəgahda olduğu, ustadı Fəzlullah Nəiminin qızı ilə ailə qurduğu, Suriyanın Hələb şəhərində Nəsimi soyadı daşıyan varislərinin olduğu göstərilmişdir [16, s. 366]. Müzakirə kontekstində maraqlı iddialardan biri İmadəddin Nəsiminin bəzi rəvayətlərdə bəhs edilən kimi edam olunmaması, Nəsiminin həyatını davam etdirərək oğul-qız sahibi olması, nəslini davam etdirməsi məsələsidir. Azərbaycan alimi M.Quluzadə də müxtəlif mənbələrə istinadən qeyd etmişdir ki, Nəsimini mühakimə edən məhkəmədə olan bəzi qazı və şəriət adamları Nəsimiyə rəğbət bəsləmiş və onun edamına razı olmamışlar [80, s. 22]. Bunu da qeyd edək ki, son illərdə uğurlu və gərgin araşdırmaların nəticəsində Nəsimi ilə bağlı qəti olmasa da, yeni fikirlər səsləndirilmiş, faktlar əldə edilmişdir. Uzun zaman Azərbaycanı İraqda diplomatik nümayəndə olaraq təmsil etmiş, Azərbaycanın başqa ölkələrdə yaşamış görkəmli şəxsiyyətlərini araşdırmış, Nəsiminin həyatı, yaradıcılığı və divanının öyrənilməsində xüsusi xidmətlər göstərmiş görkəmli azərbaycanlı alim Qəzənfər Paşayev göstərir ki, uzun illər sonra olmasına baxmayaraq, Nəsiminin ölümünə səbəb olmuş məhkəmə qərarına yenidən qayıtmaq ehtiyacı yaranmış, "Hələb şəhərinin Ədalət Məhkəməsi işə yenidən baxıb əvvəlki ədalətsiz hökmü ləğv etmiş, şairə gec də olsa, bəraət verilmişdir" [95, s. 20-22].

"Dinin dirəyi" və "Bahar yeli" adları ilə ədəbiyyat aləmində tanınan Seyyid Əli İmadəddin Nəsimi məhz təbliğati gücünə görə ortodoksal qüvvələrin daha çox qorxduqları və ciddi əhəmiyyət verdikləri düşmənə çevrilmişdi. Ələ keçməmək üçün Nəiminin məsləhəti və tövsiyələrinə görə bütün yaxın Şərqi, Rum elini, Bağdadı, Hələb və Suriyanı gəzməyə məcbur olan Nəsimi bu yerlərdə də geniş şöhrət qazanmış, adı-sanı ilə tanınmışdı. Onun haqqında, hətta öz dövrünün ali mənsəb şair və təzkirəçiləri böyük fikirlər yazmışdılar. Şairin dara çəkilməsi, dərisinin soyulması haqda fitvanın veilməsi, fitva verənin: "Bu elə məlundur ki, onun bədənindən bir damla qan hara düşsə, haramdır, kəsilib atılmalıdır", – deyə əmr etməsi, Nəsiminin qanından bir damlanın onun barmağına düşməsi və barmağı kəsilməmək üçün "Mən sözgəlişi demişdim", – deyə bildirməsi, şairin bunun müqabilində məşhur fikrini səsləndirməsi və s. dövrün müxtəlif mənbələrində qeyd edilmişdir. Şairi də əbədiləşdirən məhz bu kimi məlumatların yer alması, dövrü üçün açıq ideyalar,

fikirlər ifadə edən yaradıcılığa sahib olması idi. Bu baxımdan bəzən Nəsimini "sirləri faş eyləyən" kimi xarakterizə edir, onun ölümünü də bununla əlaqələndirirdilər. Nəsiminin öz yaradıcılığında da əsərlərinin bir qismi bu böyük sənətkarın ölüm – edam səhnəsi və səbəblərilə yaxından xarakterizə edilir. Nəsiminin görkəmli tədqiqatçılarından olan Həmid Araslı bu məsələ ilə bağlı yazır: *"Nəsiminin "Divan"ında onun ölüm faciəsinə həsr olunmuş bir sıra şeirləri də var. Bu əsərlərdə şairin edamından bəhs olunur, dərisinin soyulmasından söhbət gedir"* [8, s. 267]. Şairin bu şeirləri dustaqlıq dövründə yazdığını qeyd edən Həmid Araslı davam edərək göstərir ki: *"Bizim "dustaqlıq şeirləri" adlandırdığımız bu əsərlərdə ölümə meydan oxuyan qorxmaz bir şairin məğrur səsi eşidilir"* [8, s. 267]. Nəsimi məhz bu kimi keyfiyyətlərilə ədəbi mənbələrdə yaddaşlara həkk olunmuş, nümunəyə çevrilmiş, həyatı, ölümü, yaradıcılığı və fikirləri ilə örnəyə çevrilmişdir. Araşdırdığımız bədii nümunələrdə də məhz qeyd edilən bu nüansların üstünlük təşkil etdiyini yaxından müşahidə etmək olar. Azərbaycan şifahi xalq ədəbiyyatının çiçəklənmə – intibah dövrü hesab edilən XVII-XVIII əsrlərin ən kamil söz ustadlarından olan Sarı Aşığın məşhur bir bəndlik bayatısında da görkəmli söz ustadı İ.Nəsiminin yığcam, amma sanballı şəxsiyyəti ehtiva olunmuşdur:

*Mən aşıq, soy iləndir,*
*Şahmar da soy ilandır.*
*Nəsimitək bu aşiq*
*Yolunda soyulandır* [141].

Cəmi bir beyt içərisində Nəsimiyə bənzətmə vardır və müəllif öz aşiqliyini Nəsimi ilə müqayisəyə çıxarmışdır.

Nəsimi haqqında o dövrdən başlayaraq bu günümüzə qədər bir çox müxtəlif fikirlər səsləndirilmişdir. Artıq qeyd etdiyimiz kimi, Azərbaycan ədəbiyyatında, xüsusilə də poeziyada Nəsiminin obrazınının yaradıldığı və ya Nəsimi fenomenindən bəhs edən, ona müraciət olunan çoxsaylı əsərlər vardır. Belə əsərlər sırasında kiçik lirik şeirlər də çoxluq təşkil edir. Beləliklə, *"Poeziyamızda İ.Nəsimi haqqında bir çox şeirlər yazılmışdır: Fikrət Sadıq "Böyük Nəsimiyə", İsa İsmayılzadə "Nəsiminin monoloqları", Kələntər Kələntərli "Pəncərəm açıldı", Mətləb Misir "Nəsimiyə",*

*Qəşəm Nəcəfzadə "Nəsiminin heykəlinə", Emil Mehdiyev "Qəlblərdə tutmusan qərar və s."* [32, s. 58]. Bunu da qeyd edək ki, müşahidələrimizə və təhlillərimizə görə bu əsərlərin bir qismində ya birbaşa İ.Nəsiminin fenomen şəxsiyyət kimi obrazı yaradılır, ya Nəsimini şöhrətə mindirən və yaddaqalan edən mühüm həyat hadisəsi timsalında ümumiləşdirmə aparılır, ya da Nəsimiyə müraciətlə müəllif fikir ifadə edilir və beləliklə, lirik bədii əsərlərdə Nəsimi obrazı yaradılmış olur [32].

Azərbaycan ədəbiyyatının ölməz söz günəşi kimi bəhs edilən [118, s.5; 123, s.4] S.Vurğunun "Azad ilham" şeirinin əsas motivlərindən birini Nəsimi cəsarəti, Nəsimi hünəri və dönməzliyi təşkil etmişdir. S.Vurğun bu şeirində "söz və şeiriyyət hünərini" [2, s.13] Nəsimi, Füzuli, Vaqif, Sabir kimi şairlərin timsalında təqdim edir. *"S.Vurğun Nəsimidən fəlsəfi dərinlik, şair və şəxsiyyət bütövlüyünü, cəsarət, qəhrəmanlıq kimi xüsusiyyətləri həqiqi varis kimi qəbul etmişdir"* [1, s.49]. Böyük şair S.Vurğun üçün "Azad ilham" həqiqətləri böyük hünərlə deməyə qabil azad fikirdir. Buna görə də qüdrətli sənətkar "Azad ilham" anlayışı çərçivəsində Azərbaycan sənətkarlarının sələflərinə – öz idealları üçün ölümə boyun əyməyən, dönməz və sarsılmaz Nəsimiyə, eləcə də Füzuli, Vaqif və Sabirə qayıdır, onların cəsarətindən ilhamla söz açır. O, konkret olaraq Nəsiminin zahidlə olan tarixi əhvalatından yola çıxaraq Azərbaycan şeirinin cəsarət və hünər ünvanını təqdim edir. İ.Nəsiminin məşhur, dillər əzbəri olan beytinə müraciət edərək onun haqq aşiqi, ədalət mücahidi, azadlıq yolçusu olduğunu və xələfi olan sənətkarlara nümunəliyini təqdim edir. Böyük sənətkar Nəsiminin zahidlə üz-üzə durduğu səhnəni, onun ideya və idealları uğrunda mübarizəsini əsərin rəhninə çevirməklə onun həqiqətpərəstliyi və mübarizliyini əzəmətlə təsvir etmiş və bir "haqq aşiqi" olduğunu obrazlaşdırmışdır:

*"Sən ey ülkərimiz, sönməz sənətkar!*
*Əsrlər boyunu gördü gözlərin.*
*Tarixlər boyunca qaldı yadigar,*
*Ölməz fikirlərin, ölməz sözlərin! [122, s. 72-73].*

Müasir Azərbaycan ədəbiyyatında İ.Nəsiminin möhtəşəm obrazını yaradan, onu öz əsərlərinin məzmununa çevirən qüdrətli şairlərimiz arasında Rəsul Rzanın da əsərləri xüsusi yer tutur. Öz yaradıcılığının məzmunluluğu, yeniliyi və xüsusilə

milliliyi ilə seçilən R.Rzanın ədəbi irsində, ümumən, Azərbaycanın qüdrətli söz ustadlarına müraciətlə yazılan əsərlər çoxluq təşkil edir. Ümumiyyətlə, xalq şairinin bu üslubi özünəməxsusluğunu Məmməd Arif *"tarixi nikbinlik", "fikir, fikir və yenə də fikir"* deyə adlandırır [12, s. 570; 575]. Rəsul Rza Azərbaycan klassik ədəbiyyatının qüdrətli sənətkarlarına, o cümlədən böyük intibah şairi İ.Nəsimiyə, "qəlb şairi" olaraq tanınan Məhəmməd Füzuliyə, böyük Mirzə Cəlilə və Sabirə əsərlər ithaf etmişdir. Xalq şairinin əsərləri sırasında ədəbiyyatın azad fikir carçısı, cəsarət və hər cür doqmatizmə üsyankarlıq nümunəsi olan İ.Nəsimiyə həsr etdiyi "Son gecə" poeması, eləcə də "Nəsimiyə", "Nəsimiyə, Füzuliyə, Sabirə açıq məktub" adlanan lirik şeirləri də böyük əhəmiyyət daşıyır. Qeyd edək ki, R.Rza bir xarakter olaraq "bədxahlarının qarşısında boyun əyməyən" [122, s.16], mübariz və cəsarət ünvanı olan bir şair kimi Nəsimi dönməzliyi, Sabir cəsarətinin varisi idi. R.Rza "Nəsimiyə" adlanan kiçik lirik şeirində öz idealları uğrunda böyük cəsarət və əyilməzlik nümunəsi göstərərək dərisindən soyularaq ölməyən mütəfəkir-şəxsiyyətin obrazını canlandırmışdır:

*"Nəsimini dabanından soydular!"*
*Soydular!*
*Nəsimi yüz illərdən*
*Bu günə diri gəldi.*
*Nəsimini soyanlar öldülər*
*Öldükləri gün.*
*İnsan sallaxı kimi*
*Ləkəli ad qoydular.*
*Bu dünən də beləydi,*
*Bu gün də belədir.*
*Sabahlar da bu sayaq, –*
*Belə olacaq!* [100, s. 156].

Bir vacib məsələni xüsusilə vurğulamaq lazımdır ki, hələ keçən əsrin 60-cı illərinin sonlarında Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətinin birinci mərhələsində xalqımızın çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikir

tarixində dərin iz qoymuş İ.Nəsiminin məzarını 1970-ci ildə ziyarət etməsindən sonra onun 600 illik yubleyinin keçirilməsi və film çəkilməsi məsələləri gündəmə gətirilmişdir. Böyük Azərbaycan şairinin yubleyinin keçirilməsi məsələsi həm Azərbaycan KP MK Bürosunun 1970-ci il mart-iyul aylarında keçirilən iclaslarında müzakirə edilmiş, həm də bütün bunlardan sonra dahi şairin 600 illik yubileyinin keçirilməsi istiqamətində tədbirlərə start verilmişdir. Bir qrup ziyalı, daha dəqiq desək, Həmid Araslı və Araz Dadaşzadə şairin məzarı yerləşən Suriyanın Hələb şəhərinə ezam olunmuşdur. Şairin məzarının Azərbaycana köçürülməsi və ya büstünün götürülməsi kimi mühüm məqsədləri olan həmin səfərdə şair R.Rza da yaxından iştirak edirdi. Bu mənada şairin Nəsimiyə olan marağı daha da artmışdı. Hətta Xalq şairi həmin səfər təəssüratlarından doğan bir neçə məqalə də yazmışdı. R.Rza Nəsiminin bir ideya adamı olaraq öz idealları uğrunda mübarizlik nümayiş etdirməsi və ölümün, hətta ən ağır cəzanın gözünə dik baxaraq qorxmazlıq göstərməsindən çox təsirlənmişdi. Şair ölməz sələfinə haqq-ədalət mücahidi kimi baxmış və onu yüksək qiymətləndirmişdir [101, s. 186]. R.Rza yaradıcılığında təkcə Azərbaycanda deyil bütün şərq dünyasında şöhrət qazanan Nəsimi obrazı xüsusi yer tutur. Nəsiminin 600 illik yubleyinin keçirilməsi ilə əlaqədar olaraq R.Rza da "Cahana sığmayan şairin qərib məzarı", eləcə də "Böyük şair haqqında qeydlər", "Nəsiminin bir beyti haqqında" adlı məqalələrini yazmışdı. R.Rza "Cahana sığmayan şairin qərib məzarı" adlı məqaləsində yazırdı: *"Məni hər şeydən artıq maraqlandıran Suriya səfərimin ehtimal və nigaranlıq dolu bir məqsədi – Nəsimi idi. ...Diri-diri soyulan bədənin yana-yana göynəyən yarasından bir damla qan sıçrayıb zahidin riyakarlığını ifşa etdi. "Miskin aşiqdə" dözümün sonsuz olduğunu göstərdi. Bu cahana sığmayan şeyx, filosof, mübariz insan, qorxusuz haqq-ədalət mücahidi İmadəddin – Şirvan balası beş əsrdən artıqdır ki, yarıqaranlıq sərdabəsinə sığınıb əbədi uyuyur"* [101, s. 186].

Ümumiyyətlə, R.Rza öz məqalələrində bu böyük Azərbaycan şairi, mücahidi və filosofu barədə bəhs edərək yazır: *"Nəsimi şeiri haqq, həqiqət, ədalət, yüksək humanizm şəfəqləri ilə parlayır. Onun insan azadlığını, insan təfəkkürünün təntənəsini tərənnüm edən sətirləri bu gün də hər biçimli, hər geyimli müstəbidlərə*

*qorxunc bir xəbərdarlıqdır"* [101, s. 190]. Həmçinin R.Rza "Nəsiminin bir beyti haqqında" adlı mqaləsində bəhs etdiyi kimi, böyük mücahid və mübariz şairin edam sırasında zahidin riyakarlığını üzə çıxaran məşhur "Zahidin bir barmağın kəssən dönüb haqdan qaçar, gör bu miskin aşiqi sərpa soyarlar, ağrımaz" beytinin məzmununa işıq salaraq yazmışdı: *"Nəsimi haqda yazan hər kəs şairin həyatı ilə bağlı bir hadisədən mütləq bəhs edir. ...Fikir azadlığı, inam azadlığı ilə küt ehkam, nadanlıq, təriqət təəssübü, məzhəb dözümsüzlüyü, sözsüz tabelilik tələbi arasında gedən amansız mübarizəyə nə qədər insan qurbanı verildiyini bütün dəhşəti ilə bir daha təsəvvür etməli olursan"* [101, s. 197]. Buna görə də R.Rza əsərlərində Nəsiminin bir mücahid, üsyankar, haqq-ədalət carçısı, filosof şair kimi obrazını yaratmış, onu *"ən mərd, üsyankar, mübariz, dönməz əqidəli, sarsılmaz iradəli insan"* [101, s. 197] kimi göstərmiş və yüksək keyfiyyətlərini poetik fikrin nəbzinə çevirmişdir. Həmçinin Nəsiminin idealları uğruna göstərdiyi dönməzlik nümunəsi qarşılığında azad, açıq fikrə edam hazırlayan qüvvələrə qarşı ölüm, ifşa məhkəməsi ortaya qoymuşdur.

Maraqlıdır ki, şairin ikinci belə nümunəsi olan "Nəsimiyə, Füzuliyə, Sabirə açıq məktub" şeiri bir tərəfdən "onlara məhəbbət" məqsədilə yazılmışdırsa, digər tərəfdən "bəzilərinə ibrət" [100, s. 366] məqsədilə ortaya qoyulmuşdur. Şair əsərdə özü kimi söz sənətkarları ilə Azərbaycan klassik irsinin dühaları olan Nəsimi, Füzuli və Sabir arasında, onların söz hünəri və ədəbi cəsarəti kontekstində müqayisələr aparmışdır. R.Rza bu görkəmli Azərbaycan şairlərinə, o cümlədən Nəsimi dühasına hər şeydən əvvəl humanist ideyaları baxımından yüksək qiymət vermiş və onların humanizmini Azərbaycan xalqının humanizmi olaraq qiymətləndirmişdir. Onların insanlara heç bir fərq qoymadan multikultural, tolerant davranışını, münasibətini öz dövrünə, mənsub olduğu ideologiyaya münasibət və müqayisə baxımdan meyar olaraq müəyyənləşdirdiyi aydın müşahidə olunur.

Xalq şairi *"mərdlik, ədalət, insan qəlbini tapşıran"*, *"mütiliyi irs qoymayan"*, *"düşmənlə düşmən, dostla dost kimi"* davranan, *"insan məhəbbətinin, sədaqətin, mərdliyin tərənnümündən doymayan"* [100, s. 368] Nəsimi kimi babalarının hünərindən ağız dolusu söz açır. R.Rza sovet cəmiyyətində baş verən milli varlıqlara,

xüsusilə də azərbaycanlılara qarşı qərəzli münasibətə və bir sıra xainlik keyfiyyətlərinə Nəsimi obrazı vasitəsi ilə cəsarət, humanizm və ədalətlilik prinsipinə əsaslanaraq münasibət ifadə etmək istəmişdir.

Azərbaycan ərazilərinə və milli dəyərlərinə həmişə işğalçı, xain, oğru niyyətilə yanaşan ermənilərin Sovet rəhbərlərinin himayəsilə atılan qərəzli addımlarına qarşı R.Rza Nəsimini – onun cəsarət, ədalət, humanist və mənəvi atalıq missiyasını, hətta ideyaları yolunda mübarizəsindəki şəhadətini bədii fikrin gücü ilə etiraz formasına çevirmişdir. Nəsimi hünərini xüsusi olaraq qabardan və təqdim edən xalq şairi əsrlər keçəndən sonra belə bu haqq mücahidinin əzəmətli mübarizəsi, mühakiməsi işığında fitva verəni, onu soyanı, al-qana qəltan edəni [100, s. 369] sorub-soruşdurur, tarixin məhkəməsinə cəlb edirdi.

1960-cı ildə yazılmış bu lirik əsərdə şair Nəsimi kimi ölməz və cəsarətli şairlərin davranışı timsalında özünün etiraz səsini ümumiləşdirmişdir. Bu mənada Nəsimi bir obraz olaraq bu kiçik şeirdə də dönməzlik və azadfikirlilik rəmzi olaraq çıxış etmişdir. *“Nəsiminin dinin ideoloji çürüklüyünə, qeyri-insaniliyinə, islam təriqətlərindəki hökmçü ehkamlara, azadfikirliliyin qənimlərinə nifrəti, istehzası ilə bəşəriyyətə məhəbbəti, onun əzəmət və böyüklüyünə inamı qüdrətli bir şair şəxsiyyətində birləşmişdir”* [48, s. 27].

R.Rza Nəsimi şəxsiyyəti və obrazına bir də “Allaha məktub” şeirinin cəmi bir cümləsi içərisində Nəsiminin adını çəkərək ona qayıtmışdır. Şair məhz bu ideal insan, kamil şəxsiyyət ideyasına özünü məhkum etmiş bir bənzərsiz mütəfəkkir şairin – Nəsiminin davamçısı olmasından qürur duyduğunu ifadə etmişdir.

*Yoxsa, qorxdun*
*bir gün gələr,*
*hamı bilər, sənsən qadir, adil,*
*yoxsa*
*Nəsiminin nəvəsi*
*mən* [100, s. 369].

*“Rəsul Rza “Allaha məktub” şeirində məhz çətinliklərə, iztirablara sinə gəlməyin rəmzinə çevrilmiş şair Nəsiminin “nəvəsi mən” deyərək, özünün dahi şairin*

*davamçısı hesab etmişdir”* [100, s.369]. Bununla bərabər, R.Rzanın yaradıcılığında həmişə tarix, zaman etibarilə nə qədər uzaq olsa da, mübarizlik və cəsarət baxımından nəhəng və əzəmətli bir Nəsimi obrazı canlanır. Kamran Əliyevin yazdığı kimi: *“Dəclə və Fərat çayları arasından ucalan dədə Füzuli, baba Nəsimi zirvələri çox zəngin və əzəmətlidir. Əslində bu zirvələrə məhz R.Rza zirvəsindən baxılanda Füzuli və Nəsimi daha nəhəng, daha azman görünür”* və eyni zamanda Nəsimi “*yüz illərdən bu günə diri gəlir”* [41, s. 206; s. 211].

Azərbaycan ədəbiyyatı və bədii fikrin görkəmli nümayəndəsi olan İ.Nəsimiyə həsr olunan əsərlər sırasında İslam Səfərlinin “Nəsimi” şeiri də əhəmiyyətli yer tutur. Ümumən, xalqımızın bir çox görkəmli şəxsiyyətlərinə əsər həsr edən İ.Səfərli yaradıcılığında Nəsimi mövzusu da ön planda dayanmışdır. Əsərdə Nəsimi şəxsiyyətinin dühalığı, fikir, ideya adamı olduğu, ölməzliyi daha qabarıq şəkildə ifadə edilib. Nəsimi obrazının tərənnüm edildiyi əsərdə şairin dühası epitetlərin gücü ilə təqdim edilmişdir. Əlbəttə, kiçik lirik bir şeir çərçivəsində əzəmətli Nəsimi şəxsiyyətinin geniş obrazının yaradılması heç də asan deyil. Nəğmə olaraq yazılmış şeirdə tərənnüm başlıca yer tutmuş, əsər təqdim üzərində qurulmuşdur.

*Göz yaşının qəzəb odu,*
*– Üsyan! – dedi zamanına.*
*Hər günün min əzab oldu,*
*Düşdün fikir ümmanına.*

*Haqsızlığı qamçıladın,*
*Azdın mahnı dəryasında.*
*Ürəyindən qan çilədin*
*Dövranın daş aynasına* [107, s. 145-146].

Azərbaycanın istiqlal şairi kimi geniş şöhrət qazanmış Xəlil Rzanın “Nəsimi” və “Nəsimi kimi” şeirlərində də başlıca qayə İ.Nəsimi fenomenindən bəhs edərək, onun şəxsiyyət özünəməxsusluğu və fikirlərinin gözəlliklərindən yararlanmaqdır. X.Rza yaradıcılığının tədqiqatçılarından olan Əlizadə Əsgərli yazırdı: “*Xəlil Rzanın da kamil insan fəlsəfəsi Nəsimidən gəlir... O, Nəsimi şeirlərini ideoloji, siyasi və bədii*

*olaraq dərk etməyə çalışmışdır – təkcə sənət sirri kimi yox! Bircə misraya fikir verin: XIV əsr yıxılıb durur, tutur o dahinin ətəklərindən*” [44, s. 23-24]. Hətta X.Rzanın sözün böyük klassiki İ.Nəsimi haqqında “Qabil və Nəsimi”, “Zirvədə dayanmış hünər”, “Cahana sığmayan şair” kimi məqalələrində də bəhs edilmişdir [99, s. 76-93; s. 251-253]. X.Rza sələfi olan böyük intibah şairi Nəsimi haqqında yazmışdır: “*Nəsimi Azərbaycan dilli poeziyanın inkişafına elə bir güclü təkan vermişdir ki, ondan sonra, demək olar ki, altı əsrin heç birində bədii estafet qırılmamış, öz dalğasında Şah İsmayıl Xətai, Həbibi, Füzuli, Məsihi, Təbrizli Qövsi, Təbrizli Saib, Vidadi, Vaqif, Nəbati, Zakir, Seyid Əzim, Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər, Sarı Aşıq, Bahar Şirvani, Sabir, Hadi, Möcüz, Abbas Səhhət, Hüseyn Cavid, Cəfər Cbbarlı, Mikayıl Müşfiq, Səməd Vurğun və Şəhriyar kimi ölməz söz ustadlarını üzə çıxarmışdır”* [99, s. 252].

Şairin “Nəsimi kimi” şeirində Nəsimi bütün ömrünü və həyatını öz amalı uğruna fəda edən mübariz bir insan və şəxsiyyət olaraq yer almışdır [114, s. 208].

X.Rzanın şairə Nəsimiyə həsr etdiyi “Nəsimi” şeiri daha maraqlıdır. Belə ki, əsər 1973-cü ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dönəmində Nəsiminin yubileyinin keçirilməsi istiqamətində tədbirlərin geniş vüsət aldığı zamanlarda yazılmışdır [87]. Elə ilk bənddən X.Rzanın cəsarətli fikirləri, müstəqil düşüncələri üsyankar xarakter almışdır. Maraqlıdır ki, şair bəhs olunan həmin şeirin misralarından birində dünyanın Azərbaycan bayrağına göz dikdiyini yazmaqla bərabər, həmin bayrağın ağac qulpunun məhz Nəsiminin qələmi olduğunu göstərmişdir:

*Bu gün dünya göz dikibdir Azərbaycan bayrağına!*
*Bir bayraq ki, ağac qulpu Nəsiminin qələmidir* [114, s. 98].

Fikrimizcə, misradakı “göz dikmək” frazeoloji birləşməsini iki mənada başa düşmək olar: işğal etmək mənasında göz dikmək və bir daha enməyəcək mənasında göz dikmək. Hər iki mənanın qarşısında isə bir fikir ifadə olunub: öz idealları, insan azadlığı, amalları uğrunda fikrindən dönməyən bir mütəffəkir şairin şəxsiyyəti və qələmi. X.Rza böyük ustalıqla Nəsimini şəxsiyyət, fikir və yaradıcılıq etibarilə Azərbaycan xalqının rəmzinə çevirməyə müvəffəq olmuşdur. Bununla da

kifayətlənməyən şair fikirlərini bir az da dərinləşdirmiş və böyük Azərbaycan idealına baş vurmuş, bu fikri məharətlə ifadə etməyə nail olmuşdur ki:

*Sığmır bu gün Azərbaycan öz həddinə, hüduduna.*
*Uzaq Hələb şəhərindən şölə düşüb buluduna.*
*Beş qitədən əklil gəlir bir şairin məzarına,*
*Beş qarışlıq kiçik məzar dönür cahan gülzarına* [114, s. 98].

Şeirdə Azərbaycançı şair Nəsiminin şəxsiyyətcə nəhəngliyi, əzəməti və geniş şöhrəti Azərbaycanlaşaraq təqdim olunmuşdur.

Şair Nəsiminin kamil insan haqda fikirlərindən, insan və düşüncə azadlığı ideallarından və s. yığcam şəkildə danışmışdır. Eyni zamanda Nəsimini qəbul etməyən, bir günəş kimi doğan şairi örtmək istəyən qara buludlardan – üləmalardan və onlarla mübahisələrindən də bəhs etmiş, bu ziddiyyətləri çox məharətlə yığcam şəkildə ifadə etməyə müvəffəq olmuşdur.

X.Rza təsdiq və inkar üzərində mübahisələri qurmaqla lirik bəndlər daxilində dialoqlar ərsəyə gətirmiş, sanki bir məhkəmə prosesini diqqətə çatdırmışdır. Bir mütəfəkkir-ideoloq kimi Nəsimini inkar və ittiham edənlərə qarşı onun özünümüdafiə çıxışı oxuculara çatdırılmışdır. Şair elə bir obraz sərgiləyir ki, o həm də bütövlükdə insanlığın xilaskarı kimi çıxış edir, keçmişin və bu günün bütün doqmatizminə, ehkamçılığına, insanı buxovlayan hər cür cəhdlərə və əngəl-buxovlara qarşı böyük bir üsyanla, çırpınışla etiraz edir. O həm də, şairin təbirilə desək, Azərbaycanın timsalında ümumiləşir, Azərbaycanın haqq səsinə, onun ideallarının ifadəçisinə çevrilir:

*Biləklərim Kürlə Araz, gözüm – Göy göl, Xəzər mənim.*
*Zindanlara düşsəm belə zirvələrdə yaşar qəlbim.*
*Assanız da, kəssəniz də sönən deyil gözümdə şam.*
*Mən ədalət qılıncının şöləsindən yaranmışam* [114, s. 98].

X.Rza Nəsiminin dilindən çıxış edərək həm öz fikirlərini, xalqının arzu və istəklərini, azadlıq duyğularını ifadə etmiş, həm də bir azadlıq təşnəli vətəndaş olaraq hayqırtısını ortaya qoymuşdur. Buna görə də Nəsiminin edamı və hürufiliyin qadağası məsələsinə şair milli kimliyinin unutdurulması kimi ciddi məna vermiş,

onun taleyini, ideallarını və mübarizəsini milli tarix kimi qiymətləndirmişdir. Ə.Əlizadənin də fikrincə, X.Rza üçün "*Nəsimi – dil müəyyənliyidir. Özünə yetmək, özünü ötmək müəyyənliyidir*" [44, s. 24]. Doğrudan da, ədalətlə demək olar ki, Nəsimiyə həsr olunan çoxsaylı əsərlərin arasında X.Rzanın "Nəsimi" şeirində olan qədər heç bir əsərdə Nəsiminin bu cür üsyankar və mübariz obrazı yaradılmamışdır.

Nəsimiyə həsr olunan, onun möhtəşəm və əzəmətli obrazını yaratmaq məqsədi daşıyan əsərlər sırasında müasir Azərbaycan ədəbiyyatı və poeziyasında özünəməxus bir zirvə, bir cığır, yol təşkil edən Əli Kərimin "Şəhidlik zirvəsi" şeiri özünəməxsus yer tutur. Nəsiminin məşhur misrasının epiqrafı ilə başlayan və 1969-cu ildə yazılan bu əsər Nəsimi haqda yazılan ən mükəmməl əsərlərdəndir. Ə.Kərimin Nəsimi və onun mənsub olduğu fəlsəfi düşüncə, ümumən, Nəsiminin insanlıq tarixindəki mövqeyi haqda görüşləri bu əsərdə kamil şəkildə əks olunub.

Ə.Kərimin "Şəhidliyin zirvəsi" əsəri oyanış missiyasına uyğun olaraq sualla başlayır və bu sual ətrafında şairin düşüncələri əks edilərək ədəbi mövqeyi, qənaəti ortaya qoyulur. Diri-diri dara çəkilən və ölümə meydan oxuyaraq əqidəsindən dönməyən, "bir misrada öz zirvəsindən enməyən" bir şairin edamı timsalında Ə.Kərim tarix məhkəməsi qurur və Nəsimini günahsız edam edənləri insanlıq mühakiməsinə verir:

*Altı yüz ildir idrak*
*çırpınır pələng kimi.*
*Nərə çəkir,*
*Ağlayır, tapa bilmir ki, bilmir*
*o bir sirri-xudanı.*
*Təpədən dırnağadək*
*soyalar bir adamı*
*Necə ola dinməsin*
*Böyük əqidəsindən*
*Bir misralıq enməsin?!*
*Diri-diri soyulsun*
*əqidədən keçməsin*

*Altı yüz ildir bəşər*
*ağrılardan inildər.*
*Altı yüz ildir bəşər*
*düşünər,*
*çatmaz yenə*
*Məşəqqətli ölümün*
*Nəsimi zirvəsinə.*
*Altı yüz ildir,*
*Altı,*
*Nəsimini soyurlar* [63, s. 140-141].

Ə.Kərim, sanki şəhidliyin mahiyyəti və Nəsiminin ölməzliyinə yönələn sualları ümumiləşdirir. Şeirdə istifadə olunan bədii sual ədəbi həmlə funksiyası daşıyır.

Şairin qurduğu ədəbi həmlənin açarı burada – "Özləri qorxur neçün?" sualındadır; bəs şairin ölümünə fitva verənlər və dərisini soyunlar özləri niyə qorxub göylərə göz dikirlər?

*Şəhidi görməməkçin*
*İlahi də görünmür.*
*Onun qorxusu nədir?*
*Niyə azad eləmiş*
*Hər ağrıdan şəhidi?*
*Şəkk-şübhə*
*başını qaldırdı dedi:*
*Ay aman!*
*Tanrı dəhşətə gəlmiş*
*qaçmış yaratdığından!* [63, s. 141-142].

Şair diqqəti, motivasiyanı o istiqamətə yönləndirir ki, əgər əmmaməlilər Nəsimiyə belə ağır cəza verməkdə haqlı idilərsə, bəs özləri niyə qorxur və qorxudan gözlərini göyə dikirdilər? Şair bir qədər də məsələni tündləşdirərək İlahinin də bu dəhşətli edam səhnəsindən qorxduğunu, şəhidi görməməyə çalışdığını, Tanrının dəhşətə gəldiyi və öz yaratdığından qaçdığını yazır. Eləcə də, Allahın verdiyi əmrlə

bəndəsinin hökmü arasında ziddiyyətdən bəhs edir. Z.Quluzadənin də bəhs etdiyi kimi, hürufiliyin məğzindəki "ənəlhəq" kəlməsi, ideya və ideallar humanizmə, insana məhəbbət və sevgiyə dayanırdı [81, s.51-53]. Əsərdə sənətkar özlərini yer üzündə Allahın canişinləri hesab edən əmmaməli din xadimlərinin verdikləri qərarların Tanrının verdiyi hökmlərin əleyhinə olmalarına diqqət çəkir. Bununla da oxucusunu Nəsiminin haqlı mühakiməsinə, dahiyanə fikrinə, insana azadlıq arzulayan ideyasına yönləndirib ona haqq qazandırır. Nəsiminin şəxsiyyətcə böyüklüyü və bütövlüyü "Şəhidliyin zirvəsi" seirində özünə dərin məntiqlə yer almışdır. Bu baxımdan şair Nəsimi şəhidliyini alim şəhidliyi kimi diqqətə çatdırmış və yüksək bədii ifadə ilə ortaya qoymuşdur.

Əliağa Kürçaylının "Nəsimi" əsəri də, adından göründüyü kimi, böyük şairimizə – İ.Nəsimiyə həsr edilib. Şeirdə Ə.Kürçaylının üslubi məharəti də uğurla əks olunmuşdur. Əsər bir rəssama müraciət formasında yazılıb. Şeirdə şairin rəssamdan Nəsiminin möhtəşəm obrazını yaratmaq xahişi ilə başlayır. Lakin rəssam da Nəsimini görmədiyinə görə şair öz fikirlərilə böyük Azərbaycan şairi və görkəmli fikir adamının portretini qeyd etdiyi özünəməxsus cizgilərlə ərsəyə gətirməyi ondan rica edir. O cizgilər ki, İ.Nəsiminin obrazını, simasını şair Ə.Kürçaylı belə görmək istəyirdi və onun nəzərincə, böyük Nəsimi mütləq bu cizgilərə sahib olmalı idi. Çünki məhz bu cizgilər, Nəsiminin əzəmət və möhtəşəm portretini tamamlayır, bütövləşdirirdi:

*Sən Nəsimini çəkərkən elə çək*
*Baxışından səpələnsin şimşək.*
*Günəşin nurunu doldur gözünə,*
*Kişilik nəqş elə dönməz üzünə...*
*Kişilik – atəşə yansın – dönməz!*
*Soyunub buzda uzansın – dönməz!*
*Kişilik – tərsə soyulsun – dönməz!*
*Gözü xəncərlə oyulsun – dönməz!*
*Kişilik rütbədən ensin – dönməz!*
*Əyninə dərdi geyinsin – dönməz!*

*Kişilik – bir tikəsin daldalamaz!*
*Kişilik – söz dedi – udmaz, yalamaz!*
*Kişilik – başladı, qoymaz yarıda,*
*Söyləyər, qul da mənəm, şah da mənəm!*
*O salar heyrətə allahları da,*
*Söyləyər tanrı da, allah da mənəm!* [65, s. 376].

Ə.Kürçaylı Nəsiminin simasına kişilik rəmzi kimi yanaşır və "kişilik" sözünə Azərbaycan xalqının milli mentaliteti və düşüncəsi çərçivəsindən yanaşaraq ona xüsusi məzmun vermişdir. Şair "kişilik" ifadəsinin özünəməxsus tərəflərini ifadə edib canlandırmış və bununla da Nəsiminin simasında canlanacaq daha məzmunlu kişilik sifətindən bəhs etmişdir. O kişilikdən ki, məğrurluqla "qul da mənəm, şah da mənəm, Tanrı da, Allah da mənəm" deyərək Allahın özünü heyrətdə buraxmışdır [65, s. 376].

Diqqət etsək, Ə.Kürçaylının təbirincə, kişilik – dönməzlikdir: Hər cür təhdidə, çətinliyə, cəzaya baxmayaraq öz əqidəsi və amalından dönməməkdir. Bu mənada Ə.Kürçaylı böyük şair Nəsimini dönməzlik simvolu, kişilik heykəli olaraq səciyyələndirmişdir. Dahi sənətkarın Nəsimi obrazı Azərbaycan ədəbiyyatı üçün məhz bu xarakterizədən irəli gələrək möhtəşəmliyi ilə yadda qalır.

Cabir Novruzun da ən qiymətli əsərlərindən biri olan "Nəsimi" şeirində şair özünə Nəsimi taleyi, Nəsimi həyatı arzulayır və özü üçün həyat idealı seçir. Elə ilk misralardan Nəsimi şəxsiyyətinin vüqarlılığı və dönməzliyi keyfiyyətlərilə diqqət mərkəzinə gəlir. Öz idealları və ideyaları uğrunda çarpışaraq sarsılmazlıq və dönməzlik nümayiş etdirən Nəsimi vüqarlılıq, mərdanəlik və mübarizlik nümunəsi kimi çıxış edir. Bunu da qeyd edək ki, Nəsiminin ana dilimizin daşıyıcısı kimi təqdim olunması və rəmzləşdirilməsi baxımından C.Novruzun "Nəsimi" şeirilə Məmməd Arazın bəzi misraları arasında oxşarlıq, ideya vəhdətini müşahidə etmək mümkündür. C.Novruzun təbirincə, Nəsimi vətənində vətənsiz yaşayanlardan qurtulmaq üçün mübarizə və qeyrət əzmidir. Buna görə də Nəsimi milli qürurdur, məhəbbətdir, kimlikdir, həmrəylikdir və səadətdir [94, s. 66].

Ölməz sənətkar C.Novruz xalqının milli birliyi, həmrəyliyi ideyaları işığında inkişaf və mübarizə konsepsiyasını Nəsiminin taleyi timsalında ümumiləşdirib ifadə etmişdir.

Şair və yazıçı İsa İsmayılzadənin böyük şair Nəsiminin "Məndə sığar iki cahan, Mən bu cahana sığmazam" beytini epiqraf etdiyi və 1985-86-cı illərdə yazdığı "Heykəl Nəsiminin monoloqları" şeiri Nəsimiyə həsr olunan ən yaxşı əsərlərdəndir. Şeir Nəsiminin taleyi timsalında Azərbaycan xalqının işğal və köləlik buxovlarına üsyan, qəzəb və nifrətini ümumiləşdirən misralarla başlayır:

*Mənim qəzəbim var –*
*Qolları bağlı.*
*Çırpına-çırpına qalıb o gündən.*
*Mənim nifətim var – yolları bağlı.*
*Mənim qəzəbim var 600 yaşlı,*
*Mənim nifrətim var 600 yaşlı,*
*Sızlaya-sızlaya yol gəlir hələ...* [61, s. 14].

Əsər monoloqlar şəklində qurulub və dörd monoloqdan ibarətdir. Hər monoloqda Nəsiminin sözləri, eləcə də şairin özünün Nəsiminin dilindən, onun obrazı vasitəsilə deyiləsi sözləri ifadə olunub. Əlbəttə, qeyd etdiyimiz kimi, şair öz sözlərini Nəsiminin dilindən deyir. Bu əsərdə Nəsimi obrazı insanları kölələşdirən, buxovlayan düşüncə və azadlıq qatillərinə hirs və qəzəbi ifadə edir. İ.İsmayılzadə bu əsərdə nifrət və qəzəbini hayqıran Nəsiminin obrazını yaratmışdır. Şair İ.İsmayılzadə də Nəsiminin "Sığmazam" qəzəli və rədifinə uyğun olaraq "Mənə heykəl deməyin – Mən bu heykələ sığmazam" [61, s. 17] – deyə bədii parodiya etmişdir. Nəsimi özünü heykəldən daha ziyada yüz illər, min illər sonra öz səsilə hayqıraraq haqq uğrunda mübarizə aparan bir "Səs" olaraq tanınmasını istəmişdir:

*Mənə Səs heykəli deyin –*
*Qəribsəmiş, doluxsunmuş Səs heykəli.*
*Mənə hirs heykəli deyin –*
*Diri-diri soyulsa da,*
*Qışqırığı soyumayan.*

*Uyumayan*

*Qızıl qanın hirs heykəli* [61, s. 18].

Yeni Azərbaycan şeirinin zirvəsi olan Məmməd Araz "Səməd Vurğuna" başlıqlı şeirində bu qüdrətli şairi yeni, xalq ruhunda yazdığı şeirlərinə görə Vaqiflə, klassik türk-Azərbaycan şeirinin ustadı olan Füzuli ilə, eləcə də yeni intibah düşüncəsinin avanqardı, azmanı, cəsarət və qətiyyət simvolu olan Nəsimi ilə müqayisə etmiş, onların ardıcılı, davamçısı olaraq qələmə almışdır. M.Araz "Azəri nəğməsi" şeirində [10, s. 79] özünü yaddaşlarda alovlu söz ümmanı kimi qalmış Nəsiminin özü, sözü və varisi kimi təqdim edirdi. Eləcə də "Mehmanxana" xidmətçisi [10, s. 191-192], yaxud "Sual" [10, s. 209], "Sizə yetim deyən olsa" [10, s. 210], "Puşkinə" [11, s. 48] və M.Şəhriyara həsr etdiyi "Qalır hələ" şeirində [11, c. s. 66] Nəsiminin insan azadlığı və səadəti uğrunda bir fədakar lider, özünü fəda və şəhid edən mübariz sənətkar-şəxsiyyət kimi dönməz iradə və qətiyyətindən bəhs edilmişdir. Şair sələfinin obrazı və şəxsiyyətinə "Nəsimi inadı" kimi səciyyəvi poetik ad vermiş, onu şeriyyətin qüruru və zirvəsi hesab etmişdir.

Naxçıvan ədəbi mühitinin nümayəndələrindən biri Müzəffər Nəsirlinin böyük təblə yazılmış şeirində söz kəhkəşanında sönməyən ulduza çevrilmiş İ.Nəsimidən bəhs edilir, onun qəhrəmanlığı və mübarizliyi vəsf olunur. M.Nəsirli "Nəğməkarısan" başlıqlı şeirində Nəsimini "əməlində dönməz", "həqiqət bayrağı", "sənət mülkünün parlayan günəşi" kimi tərənnüm etmişdir:

*Sən sənət mülkündə bir günəş kimi*
*Parlayıb nurunla yardın zülməti.*
*Haqq sözün ovxarlı qılınca döndü*
*Ucaltdın bayraqtək sən həqiqəti!*

*Sinəni ölümə mərdliklə gərdin,*
*Düşdü dildən-dilə ulu şöhrətin.*
*Qocaman dağ kimi dayanıb mətin*
*Oldun fədaisi şeirin, sənətin* [91, s. 144].

Qeyd edilən və təhlilləri aparılan bu əsərlər arasında ümumi – oxşar xüsusiyyətlər olduğu kimi, ciddi fərqli keyfiyyətlər də vardır. Təbiidir ki, bu da hər bir əsərin özünəməxsusluğudur. Qeyd edək ki, Nəsiminin azad düşüncə, azad söz, azad və sarsılmaz iradə simvolu olması etibarilə S.Vurğunun, R.Rzanın, X.Rzanın, M.Arazın, Ə.Kərimin əsərləri ideya-məzmunca daha çox yaxınlıq təşkil edir. Vətən taleyinin rəmzi və dövlətçilik metaforası kimi isə X.Rzanın və M.Arazın Nəsimi ilə bağlı şeir və misraları bir-birilə vəhdət təşkil edir.

### 1.2. Poemalarda Nəsimi obrazı

Bədii yaradıcılığın müxtəlif sahələrində – kiçik lirik şeirlərdən tutmuş poemalara, bədii nəsrə və dramaturgiyaya qədər İ.Nəsiminin həyatı, taleyi və dövrü əks olunan çoxsaylı qiymətli əsərlər vardır ki, onların bir qismini poemalar təşkil edir. Musa Yaqubun "Şirvan alverçisi və Nəsimi" (1968), Ələkbər Salahzadənin "Od heykəli" (1969), Qabilin "Nəsimi" (1964-1973), Söhrab Tahirin "Karvan gedir" (1973), Rəsul Rzanın "Son gecə" (1973-1974), Nəbi Xəzrinin "Mənim babam baxan dağlar" (1976) əsərləri bu qəbildəndir.

Haqlarında bəhs edilən əsərlər arasında İ.Nəsimini həyatı və idealları ilə ən mükəmməl şəkildə obrazlaşdıran qiymətli bir əsər Qabilin "Nəsimi" poemasıdır. Ümumiyyətlə, *"Nəsrdə ən böyük əsər İsa Hüseynovun "Məhşər" romanıdır. Nəzmdə isə Əli Kərimin 1969-cu ildə yazdığı "Şəhidliyin zirvəsi" kiçik poeması, 1972-1973-cü ildə Xalq şairi Rəsul Rzanın yazdığı "Son gecə" poeması və onlarca şeirlər ədəbiyyatımızda özünəməxsus yer tutmaqdadır"* [142].

Qabilin "Nəsimi" poeması ümummilli ideallara qarşı əks ideologiyanın təbliğ edildiyi sovet dövründə, yəni XX əsrin 70-ci illərində qələmə alınmışdır. Lakin buna baxmayaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsinin mühüm təsirinin nəticəsi idi ki, Qabilin "Nəsimi" və digər sənətkarların milli ideyalar əxz edən əsərləri meydana gəlmişdir.

Üç hissədən ibarət olan geniş həcmli poemanın birinci hissəsində İmadəddin Nəsiminin uşaqlığından tutmuş ilk gənclik illərinə qədər, ikinci hissədə gənc və

istedadlı şair kimi parlamaqda olan Nəsiminin yetişməsi və hürufilər arasında mənəvi məktəb keçməsi, hürufilik fəaliyyəti və Fəzlullah Nəiminin təlimindən əldə etdiyi humanist ideyalar uğrunda mübarizəsi, üçüncü hissədə isə onun Anadoluya səfəri və səfər təəssüratları, buradakı ictimai fikir və təriqət nümayəndələri ilə görüşü və s. bəhs olunmuşdur. Qeyd etdiyimiz kimi, üç hissədən ibarət əsər müxtəlif bölmələrə bölünür. Ümumiyyətlə, bu əsər poema və ya mənzum roman adlanır.

*"Əvvəlcə poema kimi düşünülmüş"* [90, s. 451] "Nəsimi" əsəri on iki min misradan, üç hissədən və altmış səkkiz başlıqdan ibarətdir. *"...mənzum roman yalnız orta əsrlərdə yaşayıb-yaratmış İmadəddin Nəsiminin acı tale və faciəsini deyil, həmçinin folklor və adət-ənənələri əks etdirməsi ilə diqqət mərkəzindədir"* [157].

Əsərdə Nəsiminin həyatı və taleyi ətrafında bir sıra ictimai-mənəvi məsələlər ehtiva olunmuşdur. Şəxsiyyətin qüdrəti və idealları məsələsi poemanın başlıca əxz etdiyi ideyalardandır. Əsərdə həmçinin Şirvanda – Şamaxıda dünyaya göz açmış böyük Azərbaycan şairi Nəsiminin həyatı fonunda ümumvətən ideyası əks olunmuşdur. Çünki şəxsiyyət özünün dəyərləri, dünyagörüşü və tərbiyəsi məsələlərində təkcə dövrü və mühiti deyil, həm də onun mənsub olduğu, sözün geniş mənasında, vətəni də ehtiva edib ortaya çıxarır. Nəsimi də əsərlərində özünün şəxsiyyətindən tutmuş səfərlərinə qədər ümumvətən ideyasını ortaya qoymuşdur.

Əsərin birinci hissəsi İ.Nəsiminin uşaqlığı və ilk gənclik illərinə həsr olunub. "Heyrət" adlı ilk bölmə ilə başlayan birinci hissədə həm də əsərin yazılma səbəbi də müəyyən mənada özünə izah tapmışdır. Bu bölmədə şair xəyalən Nəsimi ilə söhbətləşir, Nəsimi ona olan qayıdış zərurətini sorğulayır, şair izah veməklə oxucusunu böyük və ideal bir talenin, nəhəng bir mübarizə yolunun, sarsılmaz ideya və idealların söhbətinə hazırlayır:

*Yada salmısansa, məni cahanda,*
*Buna şükr edirəm heyrətlə, billah!*
*Günəşi saralmış üfiqlərimdə*
*Qızarır dan yeri, açılır sabah!* [67, s. 9].

Uzun-uzun illərin, əsrlərin ardından Nəsimiyə qayıdış böyük bir xalqın dahi bir şəxsiyyətinə, onun həyat amalı və mübarizə yoluna, amalları və ideallarına heyrətdən

doğmuşdu ki, Qabil məhz bu poema çərçivəsində Nəsimini əzəmətli bir şəxsiyyət və zəngin həyat yolu miqyası ilə təsvir və təqdim etməyə nail ola bilmişdi. Əslində bu bölməni oxuduqca anlaşılır ki, heyrət şairin ölməz ideallarına, mübarizə əzminə, sarsılmaz iradəsinədir. Öz amalı – azad və kamil insan ideyası naminə ən ağır cəzanı ağrımadan və ağlamadan keçirən İ.Nəsiminin timsalında Xalq şairi Qabil onun mənsub olduğu xalqın zəngin mənəviyyatına əbədi heykəl qoymuşdur.

Əlbəttə, qeyd etməliyik ki, əsərin yazıldığı 70-ci illərin əvvəllərində bu kimi mövzulara müraciət etmək zərurəti və münbit şərait yaranmışdı. Bu dövrdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev siyasi hakimiyyətdə idi və bu görkəmli dövlət xadimi həmin illərdə xalqın ədəbiyyatına, mədəniyyətinə, dəyərlərinə, tarixinə böyük himayəçilik qayğısı göstərirdi. Görkəmli şəxsiyyətlərə də xüsusi qayğı sərgiləyən dahi liderin sayəsində sənətkarlarımız möhtəşəm əsərlər yaradır, ədəbiyyatımızı zənginləşdirirdilər. Müdrik Lider hələ 1970-ci ildə Suriyada diplomatik səfərdə olarkən Hələbdə İ.Nəsiminin məzarı ilə maraqlanmış, oradakı azərbaycanlılarla görüşmüş, eləcə də onun sayəsində 1973-cü ildə bu görkəmli Azərbaycan şairinin 600 illik yubileyinin YUNESKO-nun xəttilə bütün dünyada qeyd edilməsi işinə başlanılmışdı. Məhz belə bir vaxtda Azərbaycan şair və yazıçıları – İ.Hüseynov məşhur “Məhşər” romanını, R.Rza “Son gecə” poemasını [1972-73] və s. yazmışdılar. Qabil də məhz bu illərdə Nəsimiyə həsr olunan “Nəsimi” irihəcmli poemasını ərsəyə gətirmişdi.

Əsərin “Qiymət” adlanan bölməsində Qabil ölməz söz ustadı İ.Nəsimiyə olan qiymətini ümumiləşdirir:

*Mənim şair babam, sənə qiyməti,*
*Bir nəfər verməyir, bir millət verir.*
*Zaman təsdiq edir bu həqiqəti,*
*Səndən danışmağa zəmanət verir [67,s.12].*

Şairin ifadə etdiyi bu ümumiləşmiş qiymət bütün zamanlar üçün Nəsimiyə olan ehtiramı, verilən qiyməti və ona olan məhəbbəti mükəmməlliklə ifadə edir. İstər xalq şairinin, istərsə də xalqın rəhbərinin Nəsimi şəxsiyyətinə verdiyi qiymət, ümumən, bir xalqın, millətin ümumi rəyi, fikri kimi təqdimini taparaq ifadə edilir.

Bununla da məhz elə əsərin girişindən etibarən Nəsimi şəxsiyyəti mənsub olduğu xalqının mənəviyyat mücəssəməsi kimi ümumiləşir, xalqının simasına çevrilir və yüksək zirvəyə qaldırılır.

Qabil Nəsiminin uşaqlıq illərindən başlayaraq ömrünün sonlarına qədər taleyini söz ehkamına çevirmiş və onun bütöv obrazını yaratmağa çalışmışdır. Nəsiminin Şah Xəndan adlı [“Şahi Xəndan”] qardaşının yaradıcılığından təsirlənərək “Hüseyni” təxəllüsü ilə şeir yazmasından [“Hüseyni”], qardaşı Şah Xəndanı çarəsiz xəstəliyi üzündən itirərək tənha qalmasından [“Mən tək qaldım”], qonşuları İkraməddin və İslaməddinlə olan dostluqlarından [“İkraməddin, İslaməddin, İmadəddin”], Məhyəddindən mədrəsə təhsili dərs almasından, Fəzlullah Nəimi ilə tanışlığından və s. bəhs etmişdir.

“Ənəlhəqq” bölməsindən başlayaraq əsər daha çox maraq qazanır, Nəsimi obrazı dərinləşməyə və daha da yetkin görünməyə davam edir. Fəzlullah Nəiminin Şamaxıya, Məhyəddinin dərs keçdiyi mədrəsəyə gələrək uşaqlarla tanışlığı və öz fikirlərini onlara bəyan etməsi hadisələrə, süjetə inkişafetdirici yön verməklə yanaşı, Nəsiminin də taleyinin istiqamətini dəyişməsinə səbəb olmuşdur. Şair öz kamil ifadələrilə Fəzlullah Nəiminin əsasını qoyduğu hürufilik cərəyanının ümumi səciyyəsini, ana xəttini, başlıca ideyalarını məhz burada ifadə edir:

*Külli-aləm – dörd əlamət –*
*Abü atəş, xakü bad.*
*İbtədasız, intəhasız*
*Bu təbiət, bu təbiət...*

*Sirrini hüsni camala*
*Hərf-hərf yazmış bilin!*
*Sirrini hüsni camala*
*Bənd-bənd düzmüş, bilin!*

*Kim ki idrak etdi öz*
*Şəxsiyyətin, ülviyyətin!*

*Məxzənül əsrarə*
*Sahib olmağı olmaz çətin.*

*Surətin nurilə mənalandı*
*Quranın özü.*
*Ayədir də, surədir də*
*Kamil insanın üzü* [67, s. 45].

İnsanmərkəzli düşüncəyə malik olan Nəsiminin yaradıcılığında insana hədsiz bir qiymət və məhəbbət yer almışdır. Nəsimi ideyalarına görə insan Tanrının bir surəti, yer üzündəki ən ali əksidir. Şairin:

*Üzünə əhli-nəzər surəti-rəhman dedilər,*
*Oxuyanlar bu kəlamüllahı Quran dedilər [93, s. 132].*
*Və yaxud:*
*Həq surətində insan sənsən gələn cahana,*
*Ey Tanrının süfatı, aləmdə cavidansan [93, s. 74];*
*Habelə:*
*Səni bu hüsnü camal ilə, bu lütf ilə görüb*
*Qorxdular haqq deməyə, döndülər insan dedilər [92, s. 262]* –

misrası və bu kimi bədii örnəklərlə təzahür edən fəlsəfi fikirləri insanı varlığın fövqünə qaldırdığı kimi, dövründə ciddi narahatlıqlar və şairə qarşı amansız təqiblər ortaya çıxarmışdır. Şair insanı bütün gözəllikləri ilə mədh edir, onun faili-muxtar iradəsinə böyük ümid bəsləyirdi. Nəsimi yaradıcılığında bədii pafosla ortaya qoyulan "mən" obrazı kamil insanın bədii əksi olaraq dünyanı, həyatı, gözəllikləri, qüdrəti və s. təzahür etdirirdi. Bu mənada onun yaradıcılığındakı *"mən" "həyatdır, gözəllikdir, kainatdır, bəşəriyyətin taleyidir"* [8, s. 261].

Xalq şairi burada Nəsimi ilə Nəimi arasındakı təması, tanışlıq formasını təsvir edir, Nəsiminin Fəzlullah kəlamına olan sonsuz maraq və heyrətini, Nəiminin isə bu məsum, lakin idraklı uşaqda gördüyü gələcəyə sevdasını təqdim edir. Kəlam sahibi Fəzlullah Nəiminin Nəsimini öz təsirində saxlayan tövsiyə, arzu və istəkləri müəllif tərəfindən ustalıqla təqdim edilir. Hüseynini Nəsimiləşdirən və İmadəddinə çevirən

mənəvi məsələlər məhz bu bölmədə özünə yer tapır. Yeni fikir dünyasına və onun qapısına heyrət, maraq duyan gənc bir tələbənin obrazı bu və bura qədərki bölmələrdə müxtəlif yönləri və məsələlərilə yaradılmışdır. Nəsimini püxtələşdirən, ortaya çıxaran, onu formalaşdıran Şamaxı ədəbi-mədəni, ictimai mühiti "Çaharsu" adlanan bölmə daxilində təqdim edilib. Burada Şamaxını canlı təsvir etmək sanki bir ictimai obrazla nəticələnib. Şamaxı ictimai-mədəni mühitinin bütün tərəflərilə təsvir edilməsi Nəsimi şəxsiyyətinin formalaşma səciyyəsini ortaya qoymuşdur. Nəsiminin şəxsiyyət kimi yetişməsində ictimai mühitin ziddiyyətli tərəfləri burada mükəmməl şəkildə təqdim edilmişdir. Şair "Çaharsu" adlanan bazar meydanının timsalında ümumiləşdirmə aparmış, ictimai münasibətlər çərçivəsində hər cür münasibətlərin səciyyəsini, insanlar arasında mənəvi pozğunluğu, kasadlıq və nöqsanları diqqətə çatdırmış, ictimai mühitin poetik mənzərəsini yaratmışdır. Bununla da şair kamil insan ideyasının ortaya çıxma zərurəti və səbəbini aşkara çıxarmışdır. Bölmədə Fəzlullah Nəimi kimi insansevərlərin mücadiləsi və "Ənəlhəq" nidası fonunda ictimai mühitdəki eybəcərliklər öz əksini tapmışdır:

*Hanı, hanı "ənəlhəq"dən əsər-əlamət?*
*Hanı günəş zərrəsində aşikar insan?*
*Hanı bütün kainatın zinəti-surət?*
*Uydurmadır yoxsa külli ixtiyar insan?*

*Kəniz satan həqir hara, "ənəlhəq" hara?*
*Ac-yalavac fəqir hara, "ənəlhəq" hara?*
*Əzən hara, dözən hara, "ənəlhəq" hara?*
*Sürtülmüş cam! De, sən hara, "ənəlhəq" hara?* [67, s. 55].

Müəllif Fəzlullah Nəiminin nitqi, fikri, təbliği vasitəsilə Nəsimiyə və oxucusuna pisliklərə bulaşmış, şeytana uymuş, divlərə yem olmuş dünyanın, bəşəriyyətin xilası yolunu da açıqlayır. Çünki müəllif dünyanın əyilmiş, pozulmuş düzəninə nifrət, qəzəb və kinlə baxan, ümidsiz yanaşan Nəsiminin fikrini aydınlığa çıxarmaq, onu insansevərlik ümidlərilə yetişdirmək üçün Fəzlullah vasitəsilə yeni yola dəvət edir.

Nəsimi şəxsiyyətini ortaya çıxaran təlim, ideya müəllif tərəfindən ustalıqla izah və şərh edilmişdir. Fəzlullah Nəiminin insanı təlqin altına alan fikirləri Nəsimini də təsiri altına almışdır. “Çaharsu”da məhz Nəsimini və nəsimiliyi müəyyənləşdirən ictimai, mənəvi məsələlər ümumiləşdirilmişdir. Beləliklə, dünyanın, insanlığın və bəşəriyyətin gələcəyinə şübhə ilə yanaşan ümidsiz Nəsimidən “mən bu cahana sığmazam” ideyasına çatan insanın hər cür gücünə, qüvvəsinə inam və etiqad bəsləyən bir qüdrətli şəxsiyyətə – İmadəddin Nəsimiyə çevrilmənin səbəb-nəticə əlaqəsi göstərilmişdir. Mədrəsəni qurtaran üç dostdan biri olan Nəsiminin qəlbində, beynində fikri təlatüm, ziddiyyətli mühakimə başlayır. Onun uca, ülvi duyğuları, arzuları, gücünə inamı ilə konkret, mövcud ictimai-mənəvi mühit və reallıq arasında mübarizə ortaya çıxır. “Şəms də məndədir, qəmər də məndə, Axşam da məndədir, səhər də məndə”, “Nəsim də özüməm, tufan da özüm, Qoca da özüməm, cavan da özüm”, “Tufanam, üsyanam, cəsarətəm mən”, “Kainat məndədir, mən kainatda”, “Qocayam, müdrikəm, peyğəmbərəm mən” [67, s. 62] fikirlərilə təlatümə çevrilən insana məhəbbət əqidəli və imanlı Nəsiminin üsyankar ruhu baş qaldırır. Burada şairin məharətli qələmilə Nəsiminin fenomenal şəxsiyyətinin zənginləşməsi və yetişməsi prosesi öz təsvirini tapmış olur. Fəzlullah Nəimi öz fikirləri və kəlamlarında “Allahın fəziləti və ya ləyaqəti” kimi çıxış edirsə, Nəsimi vətəninin, bütün insanlığın və bəşəriyyətin ləyaqəti kimi çıxış edir. Müəllif məhz bu kontekstdə “ənəlhəq” ideyasına xidmət edən və “cahana sığmayan” Nəsimi şəxsiyyətinin ortaya çıxmasını təqdim edir.

*Zamana, məkana sığa bilmirəm,*
*Şərhilə bəyana sığa bilmirəm.*
*Əndazə tanımaz bir güzgüyəm ki,*
*Heç bir çərçivəyə sığa bilmirəm.*
*Elə bil ovcumda fırlanır aləm,*
*Məndə əks olunur ilahi insan,*
*Bütün allahların Allahı insan!*
*Elə müəmmalı, mənalıyam ki,*
*Elə rəmziyəm ki, külli bəşərin.*

*Elə cəmiyəm ki, düşüncələrin,*
*Bir əqlə, bir cana sığa bilmirəm.*
*Özümdə aləmlər sığışdığından*
*Özüm bir cahana sığa bilmirəm* [67, s. 63].

Beləliklə, poemanın "Mən bu cahana sığmazam" bölməsi kamil, azad insan ideyalı mübariz Nəsimi şəxsiyyətinin yetişdiyi və mübarizəyə atıldığı hissə olaraq yadda qalır. Nəsimi bu bölmədən sığa biləcəyi geniş dünya axtarışına çıxır və Allahın surəti olan kamil insanı yaratmaq, təlqin etmək mücadiləsinə qədəm atır. "Ayrılıqlar" bölməsində geniş dünyaya açılan Nəsimi ömrünün mücadilələrdə keçən ilk qədəmləri əks edilir, onun doğma yurdu Şamaxı, ustadı Fəzlullah, dostları, evləri və doğma qardaşı və ilk müəllimi Şah Xəndanın məzarından ayrılmağı təsvir edilir. Poemanın birinci hissəsi sığa biləcəyi geniş dünyada kamil və azad insan axtarışına çıxan Nəsiminin doğma vətəndən ayrılaraq səyahətə başladığı "bəyaz səltənətə" açılması ilə yekunlaşır. Birinci hissənin sonu olan "Mənim bəyaz səltənətim" adlanan bölmə yeni məsələlərlə zəngin olan ikinci hissənin başlanğıcı rolunu oynayır. İkinci hissədə ömrü mübarizələrdə keçən, insanları kamil və azad insan ideyasına dəvət edən, "ənəlhəq" kəlamını təlqin edən bir mübariz, həm də bəşəriyyətin, insanlığın müəllimi olan Nəsimi obrazını görürük. Beyinlərdən "Əbd İllah!" hökmünü silmək mübarizəsi və təliminə qoşulmuş "Ənəlhəq!" amallı, külli-ərzə cavabdehlik daşıyan Nəsiminin böyük mücadilələrə açılan ömür yolu başlıca məsələ olaraq təsvirini tapmışdır. Poemanın bu bölməsində folklor ənənələrinə enən müəllif baba dərvişin hədiyyə etdiyi nar ilə Nəsimiyə buta verildiyini və qanına qəltan edilməsi bahasına özünün və insanlığın bütün sirrini şərhü-bəyan edəcəyi vədini görmüş oluruq.

Poemanın ikinci hissəsinin "Şair Sariban", "Günəşdə surətlər", "Həndəvər", "Cavidannamə", "Ehkamçı", "Balıqçı nəğmələri", "Atəşpərəst", "Zaviyə", "Bəzirganlar", "Xanəgah" kimi bölmələrində artıq bir ideya təbliğatçısı kimi yetişmiş İmadəddin Nəsiminin mübarizə yollarına düşdüyü andan göstərdiyi fəaliyyət, gəzdiyi yerlər, görüşdüyü adamlar təsvir olunmuşdur.

Poemanın ikinci hissəsi hürufilik ideyalarını əxz etmiş bir gənc təbliğatçının qızğın fəaliyyətini özündə ehtiva edir. Nəsimi bir çox yerlər gəzir, xeyli insanlarla

tanış olur, cahil və ahıl adamlarla söhbət edir, yaxşını və pisi görür, dost və düşmən qazanır, öz ideyalarını təbliğ edir. "Fəzlullahın qətli" bölməsi əsərin ən maraqlı, dramatizmli yerlərindən biridir. Bölmədə bir fikir məktəbinin banisinin qətli məsələsindən bəhs edilib. Onun dəhşətli qətli ilə birgə ideyalarının üsyankarcasına ifadə edilməsi süjetə, epik təhkiyəyə güc qatır, emosionallıq gətirir. Nəsimi kimi davamçılar məhz bu qətldən sonra daha çox parlamağa, ağır şərait və təqiblərlə qarşılaşmağa başlayır, işləri bir az da gərginləşmiş olur. Nəsiminin liderlik fəaliyyəti məhz Fəzlullahın ölümündən sonra başlayır və onun ən müxtəlif yerlərdəki təbliğati fəaliyyəti diqqət mərkəzinə gətirilir. Qabil İ.Nəsiminin Təbriz səfəri zamanı onun Məqbərətüş-şüərada Xaqani Şirvaninin məzarında ağ qiyafədə təzahür tapan ruhu və mənəvi atası Fəzlullah Nəiminin əziz-xələf qızı Fatimə ilə söhbətləşmələrini təqdim edir. Fikrimizcə, Nəsiminin burada digər görkəmli şairlərlə deyil, məhz Xaqani Şirvani ilə söhbətləşməsində mühüm bir səbəb var.

Məlum olduğu kimi, Xaqani Şirvani özünün üsyankar ruhlu şeirlər ilə ilkin intibah dövrünün tanınmış şairlərindəndir. Onun yaradıcılığı, demək olar, başdan-başa zülmün ərşə çıxdığı ədalətsiz bir dönəmlə savaşdan ibarətdir. Xaqani Şirvani daha çox şəxsiyyət və insanın azadlığı uğrunda mücadilə aparan sənətkar kimi yadda qalıb. Hökmdarlarla olan fikri ixtilafları sayəsində Xaqani kimi ustad sənətkar dəfələrlə zindana salınmış, ömrünün son vaxtlarını cəngi-cədal, kədər içərisində keçirmişdir. Poemanın bu bölməsinin müəyyən misralarında da təzahür tapan uyğun fikirlər dediklərimizi təsdiq edir. Fikrimizcə, bu bölmədə yer alan başlıca məsələlərdən biri dünyanı bürüyən ictimai-mənəvi ziddiyyətlər, təzadlar məsələsidir. Həm Xaqani Şirvaninin ruhu ilə söhbətə dair misralarda, həm də Fəzlullah Nəiminin qızı Fatimə ilə söhbət məcrasında əsas ideyalardan biri məhz bu təzadları əks etdirməkdən ibarət olmuşdur. Hətta bəndlərdən birində belə deyilir ki:

*Dünya necə durur təzad içində,*
*Məkrlə məhəbbət qoşalaşıbdır.*
*Mən dura bilmirəm fəryad içində,*
*Hövsələm tükənib, səbrim daşıbdır* [67, s. 245].

Nəsiminin Təbriz səfəri çərçivəsində Təbriz bazarında qərarlaşan papaqçı hürufilərlə görüşür, onlarla söhbətləşir. "Papaqçılar – fədailər" adlanan bölmədə Əminəddin başda olmaqla müxtəlif peşələrlə məşğul olan hürufilərlə görüşən, müəyyən məsələləri müzakirə edən Nəsimi Qazi Nəsrullaha məktub yazıb öz dərd və qayğılarını bildirməyi, dindən sui-istifadə edib şəriət hökmlərilə kimsəsiz, köməyə ehtiyacı olan adamları incitmələrinin qarşısını almaq təkliflərini bildirməyi münasib bilir. Bu bölmədə Əmirlə Qazi arasındakı məxfi dialoqda Nəsimi haqqında deyilən fikirlər də onun obrazı və şəxsiyyətinin təfərrüatı ilə tanınmasına vəsilə olur. Bu dialoq hakimiyyət dairələrində Nəsimi haqda təəssürat, fikir və rəyləri ümumiləşdirir, ona olan ziddiyyətli münasibəti göstərir. Burada həmçinin Nəsimiyə məhəbbət bəsləyən qüvvələr də əks olunur. Bu misralarda xalq arasında böyük nüfuz sahibi olan Nəsimidən bəhs edilir, onun humanist şəxsiyyəti, insanlıq amalı və ideyalarının aliliyi Nəsimisevər qüvvələr tərəfindən etiraf edilir. Bu misralarda xalq arasında dərin nüfuz sahibi olan Nəsimidən bəhs olunur.

Maraqlı burasıdır ki, ədəbi dövrü əldə bəhanə edən əsərin müəllifi Qabil sovet dövrünün islama və onun kitabı Qurana açdığı ideoloji savaşın ən kəskin şəraitində olduqca məzmunlu fikirlər ortaya qoyaraq Qurana öygülər edir:

*Qurana bax, hər kəlamı ədalətdir,*
*Hər ayəsi insanlara məhəbbətdir.*
*Quran deyir: zalım olmaq cinayətdir.*
*Tapdayırsan şəriətin məramını,*
*Saymayırsan bəs Allahın kəlamını?* [67, s. 155].

Müəllif bu imkanlar daxilində din və din xadimi məsələsinə də aydınlıq gətirir, günahkarı din deyil, din xadimi olaraq görmənin tərəfdarı kimi çıxış edir.

F.Əzizovanın da yazdığı kimi, *"Fəzlullahın "Cavidannamə" əsəri və digər kitabları Quranı rədd etmir və onu dəyişməyi də təklif etmir"*di [46, s. 404]. Bu mənada Nəsiminin də təsəvvüfi fikirləri dinə, Qurana qarşı mənbə olaraq istifadə edilə bilməzdi. Bu baxımdan Qabil ideyalarla, ideologiya ilə onun icraçıları arasında ciddi fərqi göstərməyə, diqqət mərkəzinə gətirməyə çalışır.

Böyük ədəbiyyatşünas alim M.Cəfər “Əsrinin mütəfəkkiri” başlıqlı məqaləsində orta əsrlərin elmlə din mübarizəsinə şərh gətirərək yazırdı: *“Elm əhlinə düşmən olan” ruhanilər xalq arasında avamlıq, cəhalət və nadanlığı təbliğ edir, insanları itaətkar, kölə təbiətli olmağa, kor-koranə etiqad sahibi olmağa çağırır, dini mistikanı təbliğ edirdilər. Düşmən qüvvətli və inadkardı. Belə bir düşmənə avam, itaətkar insan qalib gələ bilməzdi”* [22, s. 33]. Nəsimi özünün oyadıcı ruhlu şeirlərilə məhz bu missiyanı həyata keçirirdi. Y.Qarayevin sözlərilə desək, Nəsimi və onun mənsub olduğu cərəyan “orta əsrlər maarifçiliyi” ilə [71, s. 11] orta əsrlər insanını qatı, mütləqiyyətçi rejimin qaragüruhçu köləliyindən xilas üçün mübarizə aparırdı.

Qabil Fəzlullahın “Cavidannamə” əsərindəki “Vəsiyyətnamə”sinə uyğun şəkildə Nəsiminin şəxsiyyəti və hürufizm cərəyanında onun tutduğu mövqe ilə bağlı fikirlərini bildirir. Fəzlullahın Nəsimi haqda vəsiyyətini belə ifadə edir:

*Etiqad bayraqdarım,*
*Şagirdim, oğlum mənim.*
*Adıdır adım mənim,*
*Yoludur yolum mənim.*

*Məndən qığılcım aldı,*
*Vulkana dönsün gərək.*
*Yaşadıqca Nəsimi*
*Nəimi ölməyəcək* [67, s. 178].

Nəsiminin hürufizm içərisində yeri, mövqeyi, kimliyi aydın şərhini tapmaqla yanaşı, onun Nəimidən sonra əzəmətli və qüvvətli bir lider, davamçı olduğu göstərilmişdir. *“Əslimiz və nəslimiz ismiylə tanınacaq. Surətimiz, əksimiz rəsmiylə tanınacaq”* [67, s. 179] misraları ilə xalq şairi məhz Nəsimi irsi ilə Nəiminin zəngin söz və ailə irsinin qorunduğu, gələcəyə daşındığı və sirlərin əks edildiyi fikrini ehtiva etmişdir. Pusquya salınaraq Əmirəddinin evi və ətrafında tutulmuş hürufilər arasında məhz Nəsiminin aranması da onun vacib şəxs olaraq qəbul edildiyinin aydın nişanəsidir. Lakin Fəzlullahın vəsiyyətinə uyğun hürufilərin Nəsimini qoruyaraq ələ verməmələri onun nə qədər vacib, dəyərli bir şəxsiyyət olduğunun əyani şəkildə

sübutudur. Canı acıdılan hürufilərin heç biri Nəsimini nəinki ələ vermir, hətta özünün Nəsimi olduğunu işarə edərək onu qorumağa çalışır və fədakarlıq göstərirlər.

İkinci hissənin "Rəşidiyyə", "Haray", "Ümidgah", "Səməndər quşu" kimi bölmələrində Təbrizdə Fəzlullahın qızı Fatiməyə və ümumən hürufilərə qarşı hücumlardan bəhs edilir. Xalqın Fəzlullaha məhəbbəti və sədaqətinin nişanəsi olaraq oda atılmaq üzrə olan Fatiməni xalqın əlləri üstə götürərək xilas edib aradan çıxarmaları təsvir edilmişdir. Əsərin ikinci hissəsinin sonuncu bölməsində şair ümidlə şəhərdən uzaqlaşmaq istəyən hürufiləri Nəsiminin dililə "səməndər quşu" adlandırır. Ümumiyyətlə, bu ad həm hürufilərin atası Fəzlullah Nəiminin, həm də Nəsiminin yaradıcılığında tez-tez işlənir və "xilaskar" obrazını rəmzləşdirir. Ümumiyyətlə, hürufilərin yaradıcılığında "səməndər quşu", "div" kimi rəmzi obrazlar əhəmiyyətli yer tutur. Hürufilər cahil, şər xislətli insanları "div" deyə ümumiləşdirirdilər. Xalq şairi Qabil də poemanın ikinci hissəsinin sonunda verdiyi başlıqda başqa-başqa yerlərə dağılan hürufiləri insanlıq xilaskarı kimi "səməndər quşu" olaraq rəmzləşdirir və mənalandırır.

Poemanın üçünücü hissəsi Nəsiminin Rum elinə səyahəti süjeti üzərində qurulub. Birinci və ikinci hissələrdə Nəsiminin qazandığı şöhrət, kimlik, nüfuz üçüncü hissədə şairin səyahət sırasında rastlaşdığı adlı-sanlı adamlarla görüşləri sırasında da özünü göstərir. Nəsiminin xilaskarlıq missiyası, Fəzlullah Nəiminin davamçısı, varisi, ondan sonra mənəvi lider olaraq əzəmətli obrazı buradakı bölmələrdə müəyyənləşərək ortaya qoyulmuşdur. Əsərin üçüncü hissəsinin lap əvvəlində, "Safiyələr" adlanan birinci bölmədə Ulu dağa müraciətlə şair Nəsiminin dilindən özünün vətəndaşlıq duyğularını ifadə etmişdir:

*Ulu dağ, dağlar dağı!*
*Rum elinə varmışam.*
*Sənin geniş qəlbinə*
*Mən pənah aparmışam.*

*Zirvəndə ucalığım,*
*Ətəyində təvazöm!*

*Qarında qocalığım!*
*Çiçəklərində yazım!*

*Aram et, Baba dağı...*
*Zamin ola, Savalana.*
*Şirvan, Təbriz, Rum eli*
*Nəsimiyə bir ana!* [68, s. 3-4].

Qabilin "Nəsimi" əsəri haqqında bəhs edərkən bu barədə də danışmaq lazımdır ki, poemada böyük şairimizin sovet dövrünün bütün qadağa və tabularına baxmayaraq vətən bütövlüyü və vətənpərvərlik məsələsi qoyulmuşdur. Müəllif Nəsiminin hər sözünə, həyatının mübarizə səhifəsinə, amalına vətəndaşlıq və vətənpərvərlik qayəsi verir. Əsərin birinci hissəsinin "Qiymət" adlanan və müəllif tərəfindən deyilən bölməsində Qabil bu qayədən çıxış edərək yazır:

*"Vətən" kəlməsinə rast gəlmədim mən,*
*Bircə beytində də bircə yol barı.*
*Fəqət haqq uğrunda döyüşlərdə sən*
*Oldun xalqımızın fəxri, vüqarı* [68, s. 12].

Bir neçə bölmədən ibarət poemanın üçüncü hissəsində Xalq şairi Nəsimini Rum eli, Anadolu ərazilərində gəzdirərək onu həm ideya, həm də mənşə etibarilə doğma olan insanlarla görüşdürür, onun bu mübarək ərazilərə gəlməsini şadyanalıq, bayram kimi təsvir edir. Dahi Mövlana Cəlaləddin Rumini, anadilli şeirin nəhəng siması böyük Yunus Əmrəni, hürufilik cərəyanı və onun ideoloqu Fəzlullah Nəiminin davamçısı olan Əbül Əlanı və başqlarını xatırladan şair Nəsimini onlarla görüşdürür və bu görüşlər ətrafında böyük fikirlər əxz etdirir. Şair Nəsimini qardaş Azərbaycan üçün doğma olan Konya, Ərzurum, Ağ şəhər, Ağ saray, Qaraman, ümumən Rum elini gəzdirib dolaşdırır, onu böyük hörmət və məhəbbətlə qonaq etdirir, görüşdüyü adamlarla odlu, dərin söhbətlərini təqdim edir, iki xalqın bir mənəviyyat, bir amal və bir olan dəyərini əks və əxz etdirir. Y.Akpınarın böyük şair haqqında dediyi: *"Nəsimi, Nəvaiyə görə, "Türkmani" və "Rumi" (Anadolu ağızlarında – dilində) şeirlərilə böyük rəğbət qazanmışdır"* [125, s.22] fikri də sübut edir ki, Nəsiminin ana

vətəni olan bölgələrdən biri də məhz Anadolu bölgəsi olmuşdur. Əlbəttə, sovet senzurasının tüğyan elədiyi bir dövrdə belə bir əsərin yazılması böyük cəsarət tələb edirdi və məhz belə bir ağır dövrdə bu poemanın ərsəyə gəlməsi Azərbaycan ziyalılığı, ədəbiyyatı üçün böyük nailiyyət idi.

Poemanın üçüncü hisəsinin bir neçə bölməsindən olan "Şirvanlı Murad", "Zəhra", "Ağ saray" bölmələri bilavasitə qeyd etdiyimiz ümumvətən və vətən sevgisi ideyalarını ehtiva edir. Adından da göründüyü kimi, Şirvanlı Murad Şamaxılı Nəsiminin dosdoğma həmyerlisidir, bir vətəndən, bir yurddandırlar. Həm də Şirvanlı Muradın da taleyi müəyyən mənada Nəsiminin taleyinə bənzəyir. Doğrudur, Nəsimi ideyaları və mübarizəsi naminə yollara düşüb, dərvişlərin izilə gəlib bu yerlərə çıxıb, mənəvi qardaşlarının səsinə yetişib, amma Şirvanlı Murad qürbət sevdası ilə bu ellərə gəlib çıxıb və buralarda yaşamalı olub:

*Səni vətənindən məslək ayırdı,*
*Səni dərviş etdi böyük bir amal.*
*Məni vətənimdən fələk ayırdı,*
*Beynimi, başımı o qan eylədi* [68, s. 96].

Amma bunlara baxmayaraq, hər iki həmyerli taleyin hökmü ilə qərib ölkədə yaşamağa məcbur olublar. Qabil Şirvanlı Muradın dililə bu ellərin də doğma, canayaxın olan, dili bir, dini bir, ruhu bir yurd olduğuna işarə edir, bu səbəbdən burada yuva qurduğunu deyir. Xalq şairi Şirvanlı Muradla Nəsiminin alaçıqda görüşləri xüsusunda Azərbaycanı, o cümlədən Şamaxını yada salmaqla, Şamaxını unutmur və onu "Kiçik vətəni" kimi səciyələndirir.

*Hər gəbədə bir sürünün yatır qiyməti,*
*Azərbaycan xalçaları Vətən şöhrəti...*
*Bu Şamaxı, bu Qəbələ, bu Gəncə, Quba...*
*Hər butada aləm açıb bir sərvi-tuba.*
*Güllər vurub, qönçə düzüb neçə el qızı,*
*Vətən ruhu ruhlandırır qürbətdə bizi* [68, s. 93].

Şair bir alaçığın, onun otağının təsvirində qürbət həsrəti, qəriblik psixologiyası ümumiləşdirmiş, bir qəriblik həsrətinin dinməsi üçün ehtiyac olan və qəribliyi

obrazlaşdıran əşyalar təqdim etmişdir. Muradla Nəsiminin söhbəti də məhz iki qəribin söhbəti kimi təsvirini tapır:

*Murad dedi:*
*– Qırx ildir Şamaxıdan kənaram.*
*Vətənin həsrətiylə*
*Gecə-gündüz yanıram.*
*Şamaxıda kim ölüb,*
*Kim qalıb indiyədək?*
*Kimin belini büküb,*
*Qəddini əyib fələk?*
*Məhəllələr, küçələr*
*Yerindəmi eləcə?*
*Necə görünür şəhər*
*Həm səhər, həm də gecə?*
*Heç olmasa bir-iki*
*Tanış adı çək axı...* [68, s. 95].

Beləliklə, iki həmyerlinin söhbəti, sözü vətən həsrəti və el-oba məhəbbəti əxz edərək təqdim edilir. Bu kimi təsvirlərlə şair "Kiçik vətən" ideyasını təzahür etdirmiş olur. Onun ətrafında cərəyan edən isə azad insan – kamil insan ideyası işığında "Böyük vətən" amalıdır. Buna görə də müəllif Nəsimini Rum eli boyunca səyahət etdirib ən görkəmli şəxsiyyətlərlə görüşdürür, onların azad və böyük dünya amalını ehtiva edir. Bu civarda, əlbəttə, biz bu gün soy, dil və din baxımından eyni kökdən olan iki qədim türk – Azərbaycan və Türkiyə xalqlarının qardaşca yaxınlaşmasını müşahidə edirik. Buna görə də, fikrimizcə, əsərin müəllifi Qabil Nəsiminin səyahəti, coğrafiyası və xəritəsi boyunca mənəvi bütövlük kəsb edən bir dünyanın fonunda həm də coğrafi bir bütövlük kəsb ediləsi olan "Böyük vətən" ideyasını əks etdirmişdir.

Beləliklə, Nəsimi şəxsiyyətinə ehtiramla yazılan ilk geniş həcmli əsər kimi Qabilin "Nəsimi" poemasında Nəsimini xalqın üsyankar haqq səsi, düşünən və düşündürən sözü timsalında obrazlaşdırmışdır. Şair öz dövrü ilə bağlı bir sıra

məsələləri də burada əks etdirməyə müvəffəq olmuş, Nəsimini vətəndaşlıq hayqırtısının danışan dilinə çevirmişdir.

1973-1974-cü illərdə böyük Azərbaycan şairi, intibah mücahidi İ.Nəsimi obrazına həsr olunan ən möhtəşəm əsərlər sırasında Rəsul Rzanın “Son gecə” poemasının əhəmiyyətli yeri var. Poemada Nəsimi şəxsiyyəti və müdrikliyi bütün əzəmətilə əks olunsa da, Nəsimi obrazı böyük bir təfərrüat və əhatəli şəkildə təqdimini tapmır. Əsərin adından da göründüyü kimi, son gecənin, yəni edam gecəsinin düşüncəsi fonunda əsərdə Nəsimi obrazı yaradılmışdır. Məhz edam qabağı son gecədə şair Nəsiminin keçirdiyi ruhi təbəddülat və daxili mühakimə, çək-çevir və qoca keşikçi ilə söhbətini diqqət mərkəzinə gətirərək ölməz sənətkarın şəxsiyyətcə mübarizliyi və dönməzliyi barədə təəssürat yaratmışdır. Nəsimi fikrinin humanizmi, müdrikliyi, ideya ecazkarlığı onun konkret tezisləri əsasında təqdim edilmişdir. Onun milli intibah dönəmində ictimai fikrimizin və şeirimizin qüdrətli nümayəndəsi olduğu bu fikirlər kontekstində əks etdirilmişdir:

*Düşünür: Nələr, nələr törətməyə*
*Qadirsən, insan oğlu*! [101, s. 255].

İ.Nəsimi və şairin mənsub olduğu dönəmin, xüsusilə hürufizmin insana, onun idrakının gücünə, qüvvəsinə bəslədiyi inam poemada özünəməxsus şəkildə təqdim edilmişdir. Çünki insana fövqəl yanaşma Nəsiminin və ümumən, hürufizmin özünəməxsusluğudur. Poemada konkret yer almasa da, hürufilərin “ənəlhəq!” – “mənəm Allah!” hökmü öz təsbitini uyğun şəkildə, müvafiq poetik məcrada tapmışdır. Ənəlhəq – insanın idrak və əməlinin gücünə inam fəlsəfəsidir ki, bu, hürufizmi başqa fikir cərəyanlarından daha çox fərqləndirir. İnsanın üzündə və ruhunda Allahı görmək – Allahın gözəlliyini, qüdrətini, mərhəmətini, ədalətini görmək, tapmaq düşüncəsi hürufizmin, o cümlədən İ.Nəsiminin yaradıcılığının başlıca qayəsi, ideyasıdır. Nəsiminin və onun kimi düşünənlərin yalançı din xadimləri və məmurlara qarşı mübarizəsinin nüvəsində məhz insanların fikir azadlığı və xoşbəxtliyi idealı dayanırdı. Buna görə də R.Rza Nəsiminin düşüncələri sırasına öz dövrünün ehkamçı və doqmatik idarəçiliyi, insanın azad düşüncə və əməl sərbəstliyini məhdudlaşdıran diktatura və zehniyyəti də daxil etməklə, özünün tənqidi

mühakiməsini əks etdirmişdir. Şair əsərdə azad düşüncə əleyhdarlarına tarixin mühakiməsini ifadə etmişdir [101].

Nəsimi dövranın mənəvi çatışmazlıq və ictimai nöqsanlarından qayğılandıqca gələcək haqda, xüsusilə insanın və insanlığın gələcək taleyi barədə düşüncələrə dalır, ümid və inamlarını əks etdirmiş olur:

*Yox!*
*Yox!*
*İşıqlı günlər gələcək!*
*İnsan görəcək,*
*Görəcək eşqin ülviyyətini.*
*Azad fikir,*
*Azad kəlam olacaq*
*Dünyanın bəzəyi.*
*Din dəllallarından*
*yaxa qurtaracaq insan.*
*Nə cənnət vədi,*
*Nə cəhənnəm qorxusu,*
*Nə tonqallardan ətrafa yayılan*
*İnsan ətinin acı qoxusu* [101, s. 256].

“Şair məhz insanlığın və bütövlükdə bəşəriyyətin gələcək taleyi barədə qayğılarını, narahatlıq və ümidlərini əks etdirmişdir. Şair Nəsiminin həyat və mübarizə yoluna, onun ölməz, əbədiyaşar insanlıq ideallarına nəzərən insanı Allahın yer üzündəki təcəssümü adlandırmışdır” [33, s.63]. Nəsimi insanın acısında, talesizliyində özünü günahkar tutan məsul bir varlıq, bəndə, insan kimi özünü düşünən və düşündürən bir fikir atası, məsuliyyət hisslərinə sahib bir vətəndaş olaraq obrazlaşır. İnsanların zülm və cəhalət əlindən acı və kədər içərisində yanıb-qovrulması Nəsimini, hətta zindanlar köşəsində əldən salır, onları xilas etməyə gücü yetmədiyinə görə çox kədərləndirir. Bu mənada o həm də insanın və insanlığın bir hamisi kimi mücəssəmə tapır. O, humanist düşüncəli bir müdrik olaraq təcəssüm olunur.

Əsərdə ikinci planda Nəsiminin mübarizliyi və fikir xilaskarlığı öz təsbitini tapmışdır. Çünki fikir, ideya sadəcə mövcudluq, ortaya atılmaq üçün deyil, əksinə, əməl üçündür. Buna görə də Nəsiminin bir şəxsiyyət kimi təbliğati gücü, ideya, fikir təsiri, mənəvi xilaskarlığı və s. qoca, fanatik keşikçi ilə söhbətində öz təsdiqini tapmışdır. Nəsimini əfvə, tövbəyə dəvət edən, bağışlanmasını istəyən qoca keşikçiyə Nəsiminin cavabı mənəvi "zəlzələ" təsiri bağışlayır. Qoca keşikçi ilə mükaliməsində edam ərəfəsində olan şair ona fikrindən daşınmaqla mərhəmət ummağı təklif edən qocaya insanlığın qüdrətini, ucalığını izah edir və ona insanın Allahın bəşəri siması olduğunu izah edir.

Nəsiminin qoca keşikçiyə ünvanlanan bəhs etdiyimiz bu cavabında onun şəxsiyyət bütövlüyünü, əqidə dönməzliyini, ideya, fikir sarsılmazlığını, müdriklik əzəmətini aydın cizgilərilə görürük. Can qorxusu çəkməyən Nəsimi fikir qayğısına qapılır. O Allahı və özünüdərki insanın fövqəl, əsl gücü və gələcək xoşbəxtliyi hesab edir. Buna görə də müəllif poetik məharətlə Nəsiminin bir aparıcı şəxsiyyət, mənəvi rəhbər olaraq təbliğati gücünü düşüncəyə, ruha və idraka təsirində göstərmişdir. Şair Nəsiminin dilindən dövrü, zamanı, onun saxtakar, yalançı, mənfəətgir din və dövlət xadimlərini, onların yalançı şüar və çağırışlarını tənqid edir. Əsl həqiqəti sözün gücü və ağlauyğunluğu ilə ortaya qoyur. Cahil, fanatik qoca keşikçi belə bir qolu edama məruz qalıb itirilsə də, cəzaya məhkum olsa da, Nəsiminin bu müdrik cavabı qarşısında onun fikri dəyişilir, ruhu rahatlıq tapır, yalanla gerçəyi başa düşür, Nəsiminin dediklərini qəbul edərək onu sevənlərdən, hətta fədailərdən birinə çevrilir.

Əsərdə son planda Nəsiminin həm şəxsiyyət, həm də ideya və fikir etibarilə qələbəsi özünə yer almışdır. Belə ki, artıq bir az əvvəl də qeyd etdiyimiz kimi, cəhalət və fanatizm girdabında acılar içində üzülən qoca keşikçi məhz Nəsiminin sözləri qarşısında fikri oyanmaya nail olur, daxilən kamilləşir. Onun daxilindəki şəriət məhkəməsi və din xadimlərinin mühakimə qorxusu Nəsimi nitqinin hikməti qarşısında əriyib yoxa çıxır, bir qolu şəriət cəzasına məruz qalıb itirilməklə yarımçıq fizionomiyaya malik olmasına yol açan qorxu hissi ortadan qalxaraq qoca keşikçinin daxili tamlığına kölgə sala bilmir: Nəsiminin böyük mənalar əxz edən sözləri qoca keşikçidə cəsarət və əzm meydana çıxarır, onu kamilləşdirir və əsərin ruhuna ruh

qatır. Nəsiminin ideya, fikir, əməl və təbliğat gücü cahil qoca bir keşikçinin fikri oyanışı timsalında bədii cəhətdən əks olunmuş, əsərin ideya məqsədinə işıq tutmuşdur. Bu nüansda, bədii detalda belə Nəsiminin şəxsiyyətcə bütövlüyü, gücü və mənəvi ucalığı əzəmətlə ifadə olunmuşdur:

*Kimdir yoxlayan*
*Zülm kimin, ədalət kimindir.*
*Ürəyimdə bir sözüm var,*
*Ya Şeyx!*
*Yerə salma xahişimi!*
*Mən bu dünyada*
*Qurtarmışam işimi.*
*Al, gey mənim libasımı.*
*Çıx zindandan!*
*Bəlkə soruşan oldu*
*Bəlkə baş keşikçi yoxladı.*
*"Ədalətdir" gecənin adı!*
*Bu da açar!*
*Qala xəndəyi yanında*
*Səni gözləyir dostlar.*
*Sabah ölüm səhərində*
*Məni görərlər sənin yerində* [101, s. 262].

Allaha, dinə, onun ruhani məmurlarına fanatikcə inanan qoca keşikçi fikri, mənəvi oyanışa çataraq Nəsiminin bağışlanma fikrinin əksinə olaraq onun keşikçi libasını geyinib zindandan çıxmağını xahiş edir. Bu, Nəsiminin cəhalət yayanlara qarşı konkret qələbəsi, bir ideya adamı kimi zəfər təntənəsi idi. Əlbəttə, Nəsimi qoca keşikçinin bu təklifinə də özünəməxsus qorxmazlıq və əzəmətlə cavab verir. Qoca keşikçi Nəsiminin son şeirini onun davamçılarına çatdırmaq vəzifəsini öz üzərinə götürür, yeni comərd insan obrazı olaraq canlanır. Əsərin sonu da məhz Nəsimi yaradıcılığının rəhni, sütunu olan cəsarət, üsyankarlıq əks etdirən, əyilməzlik ehtiva edən sözlərlə bitir: Həqiqət ölümə baş əyməyib, əyməyəcək! [101, s. 263] Bu fikirlər,

əslində, Nəsiminin və onun kimi insanların yenilməzlik və əyilməzlik obrazını canlandırır.

1976-cı ildə Nəbi Xəzrinin yazdığı "Mənim babam baxan dağlar" lirik poeması da İmadəddin Nəsimiyə həsr edilən ən qiymətli əsərlərdəndir. Əsər monoloji nitq şəklində yazılıb. Poemada Nəsimi şəxsiyyətinin qüdrəti, ölməzliyi epitetlərin gücü ilə daha çox təqdir və təqdim edilib. Əsərdə Nəsiminin fikir yenilikçisi, intibah şairi olmağı, qəribliyi, qürbət eldə edamı və dəfn edilməsi, böyük fikir ümmanının sələfi olması daha çox təsvir və ifadə edilmişdir:

*Ay babam!*
*Uzandı*
*nədən yolların?*
*...Ölməzlik*
*İzilə*
*Gedən yolların,*
*Şərqi ölkə-ölkə*
*Dolaşdı, gəzdi* [49, s. 126].

Xalq şairi bu misraları ilə qürbətə düşən, azad və yenilikçi fikirlərinə görə təqib edilən və yollara düşən, ölkələr gəzən Nəsiminin taleyini canlandırmışdır.

Poemada böyük intibah şairi olan İ.Nəsiminin fikir və ideyalarının başlıca məğzi ifadə edilmiş, hansı fikri müdafiə etdiyi və hansı ideyaya qurban getdiyi göstərilmişdir.

*İnsanı*
*Dünyada*
*Bir Allah sayan*
*Allaha*
*Dünyada*
*İnsan söylədi* [49, s. 128].

Müəllif hürufi bir şair kimi Nəsiminin və onun mənsub olduğu fikir cərəyanının "ənəlhəqq!" – "mənəm Allah!" nidası və ideyasına işıq tutmuş, ideya və fikrin başlıca məğzi olaraq ümumiləşdirib təqdim etmişdir:

*Üzdü ümidlərin*

*Şəfəqlərində,*

*Qaldı inam kimi,*

*əqidə kimi.*

*Bəşər taleyinin*

*Üfiqlərində*

*Ucaldı bir xalqa*

*Abidə kimi.*

*Onun nuru ilə boyandı zaman,*

*Arzusu illərdən illərə axdı.*

*Özündə cahanı*

*Gəzdirən insan*

*Kiçik bir hücrəyə*

*Bəs necə sığdı?* [49, s.128-129].

Bu misralarda şair Nəsiminin əsrlərlə fikir və ideya mücahidi olaraq rəmzləşdiyini qeyd etmiş və bundan bəhs etmişdir. N.Xəzri Nəsiminin öz şeirləri ilə orta əsrlərin doqmatik fikrini çökdürməsini və insan azadlığı ideyasını irəli sürməsini məhz bu misralarda əks etdirmişdir. Bu mənada N.Xəzri Nəsimiyə yeni əsrin yeni fikir mücahidi və ideya adamı olaraq yanaşmış, onun ideyaları yolunda sarsılmaz və dönməz, cəsur davranışlarını qeyd etmiş, bir növü şairə sözdən abidə ucaltmışdır.

N.Xəzri İ.Nəsiminin fəlsəfi fikirləri və ideyaları üzərində daha çox dayanaraq onun ideoloq olmasını məxsusi olaraq vurğulamışdır. Böyük sənətkar ideya və fikir mücahidini özünün ölməz ideyaları ilə xalqını nadan adlandırıb dahilik xəstəliyinə tutulan adamlarla müqayisə edir, daha doğrusu, "dahilik yuxusu görənləri" onun ölməz fikirləri və əbədi şəxsiyyəti işığında tənqidə məruz qoyur. Ümumiyyətlə, şair Nəsimi şəxsiyyətinin təmizliyi, xalq üçün yanan qəlbi, çarpışan əməlləri fonunda xalqına bəla kəsilən, "qəlbinə girə bilməyib də cibinə girən", "mənəm deyib də kürəyini yerə vuran" nadan adamları ciddi tənqidə məruz qoyur.

N.Xəzri bu poemasında həm də Nəsiminin dünyasından özünün yaşadığı müasir dövrə qayıdaraq dövrünün yeniliklərini, onun gözəllikləri və inkişafını

xatırlatmış olur. Əslində, şair bu fikirlər işığında yenə Nəsimiyə, onun kimi yenilikçi fikir adamlarının əməllərinin müasir dövrə bəxş etdiyi təsirə, gətirdiyi uğurlara nəzər salmaq istəyir. Məhz indiki dövrün inkişafının təməlində Nəsimi kimi dahi, ölməz şəxsiyyətlərin fikir və ideyalarının, cəsarətli və ölməz əməllərinin dayandığı, səbəb olduğu nəticəsini ifadə etmiş olur.

Ölməz sənətkar N.Xəzri Nəsimini həm də bir çinar obrazı ilə də rəmzləşdirir, onu kökü ilə torpağına bağlı, yarpaqları ilə ətrafına, elinə, vətəninə kölgə salan, öz ucalığı, əzəmətilə ona qürur gətirən möhtəşəm bir çinar ağacı olaraq obrazlaşdırır. Ümumiyyətlə, poemanın son misralarında Nəsimi şəxsiyyətinin əzəməti daha möhtəşəm formada ifadə edilmişdir.

*Hər sözü*
*Bir məğrur*
*Qələbə kimi*
*Babam danışırdı,*
*Babam Nəsimi!* [49, s. 137].

Və yaxud, şair möhtəşəm bədii misralar daxilində Azərbaycan xalqının görkəmli və işıqlı şəxsiyyətlərinin metaforik obrazlarını yaratmağa, rəmzi mənalar ifadə etməyə çalışaraq dərin fikirlər ifadə etmişdir:

*Hər zəka –*
*Bir əsrin*
*Yanar günəşi –*
*Həsrətdir yurdumun*
*Al gündüzünə...*
*Qürbətdə*
*Şam kimi*
*Sönən insanlar*
*Vətəndə*
*Susmayan*
*Dastan olurlar.*
*Vətəndə*

*Heykələ*
*Dönən insanlar,*
*Qürbətdə yer ilə*
*Yeksan olurlar.*
*Siz xalqın*
*Məhəbbət kəşanəsində*
*Durursuz yanaşı*
*Heykəllər kimi!* [49, s. 138].

Ümumiyyətlə, əsərin sonunda qərib və qürbət eldə qalan Nəsimi şəxsiyyəti simasında, ümumilikdə bütün Azərbaycan övladlarının taleyi, onların Azərbaycana – doğma vətənə, elə gətirdikləri şöhrət və vətən təmsilçiliyi qürurla ifadə edilmiş, məharətlə misralaşdırılmışdır. Misraların dərinliyində əzəmətli, öz idealları və ideyaları naminə mübarizə apararaq canı ağrıdılan, lakin ölməyən, əbədi bir insan heykəli, mübarizlik taleyi gizlənir və şair oxucularına əbədiyaşar bir şəxsiyyətin obrazını göstərir. Poemada "*Nəsimi obrazının canlanması, müasir hadisələrə onun dili ilə qiymət verilməsi öz təsirliliyini saxlayır, bir növ, Nəsimi uzaq keçmişlərdən, əsrlərin arxasından bu günə nəzər salır*" [47, s. 137].

Nəsiminin möhtəşəm obrazının canlandığı poemalar içərisində Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri olan Musa Yaqubun "Şirvan alverçisi və Nəsimi" poeması özünəməxsusluğu ilə seçilir. Poemada dövrə, zamana, insanların daxili aləminə tənqidi münasibət də ifadə olunur. "Şirvan alverçisi və Nəsimi" poemasında mühakimə və estetik təhlil diqqəti cəlb edir. Elə əsərin başlanğıcından qürbət ellərdə vətən həsrəti ilə yaşayan Azərbaycanın görkəmli mütəfəkkir-şairi İmadəddin Nəsiminin qəriblik duyğuları, el məhəbbəti öz bədii əksini tapmışdır:

*Dəydi qulağına bir kəlmə:*
*– Şirvan.*
*Diksindi Nəsimi,*
*Durdu bir qədər.*
*Bədəni isindi*
*Gözləri yandı.*

*Yatdı ürəyində min-min fikirlər.*

*Beynində.*

*ruhunda Şirvan oyandı.*

*Belini düzəltmək istədi bildi,*

*Bir həsrət yükü var belində onun.*

*Səs gələn tərəfə boylandı yenə*

*Bir ümid şöləsi dəydi üzünə.*

*Bir haqq çırağı var əlində onun.*

*Bir torpaq oyandı könlündə onun...* [159].

Vətən həsrəti və el nisgili ilə yanıb-tutuşan Nəsimi şirvanlı qoca alverçiyə yaxınlaşıb doğma Şirvanını – vətənini, doğma insanlarını, dost-tanışını soruşmaqla nisgilini dindirmək, həsrətinə məlhəm tapmaq istəyir. Nəsimi şirvanlı qoca alverçiyə özünü bir həmyerli – şirvanlı kimi təqdim edir, lakin şirvanlı qoca qarşısında dayanan bu müdrik adamla bazar psixologiyası ilə danışır. Onun danışığı Nəsiminin dərdinin üstünə əlavə dərd gətirir. O, eldən-obadan yox, ancaq maldan-dövlətdən söhbət açmaq istəyir, ipəkdən neçə arşın kəsmək lazımdır deyə, o cavabı eşitmək istəyir. Bunu eşitmədikcə qəlbi daralır, ağzı büzülür, üz-gözünü turşudur, "malın qabağında dayanmaq olmaz!" ifadəsi ilə özünə sərt və narazı bir görkəm vermiş olur. Lakin Nəsimi yenə vətən həsrətini dindirəcək söhbətlərə ehtiyacını ifadə edərək ondan vətənlə bağlı cümlələr eşitmək istəyir:

*Vətəndən danış bir,*

*Vətəndən danış.*

*Sən özgə sözləri gətirmə dilə.*

*Sən Allah o yerdən ayrıldığın gün*

*Girdiman kükrəyib çağlayırdımı?*

*Ürəyim darıxır burda qar üçün,*

*Şamaxı dağları indi qardımı?*

*Könlüm ümidini niyə kəsibdir?!*

*Dağlar tanıyarmı məni görüncə?!*

*Bir vətən çiçəyi görsəm bəsimdir,*

*Görüm bitir necə,*

*Açılır necə?* [159].

Musa Yaqubun yaradıcılığında ana xətt kimi keçən vətən məhəbbəti, el sevgisi, təbiət vurğunluğu məhz bu əsərində - Nəsimiyə həsr olunan bu kiçik lirik poemasında özünəməxsus təb və ustalıqla ifadə olunmuşdur. Nəsiminin qəlbini göynədən bir vətən həsrəti, vətən məhəbbəti bu poemaya ustalıqla gətirilmişdir.

*Şirvan torpağında bitib-boy atmış*
*Bir topa bənövşə taxır köksünə.*
*Bir tut yarpağını sıxır köksünə.*
*O sıxır ipəyi ovcunda bərk-bərk...*
*Bir lalə açılır ovcunda onun.*
*Lalə yarpağını sürtür üzünə,*
*Ələnib, yoğrulub bu ipəkləşən*
*Şirvan torpağını sürtür üzünə* [159].

Poemada oxucuya maraq qazandıran əsas tərəflərdən biri də əsərin emosional təsir gücünə malik olmasıdır. Vətənindən uzaqda həsrətdən alışıb yanan şair onun dərdini anlamayan qocadan bezərək heç olmasa bir arşın ipək almaqla vətəninin tut yarpaqlarını, bənövşəsini, təbiətinin ətrini, zəhmətkeş əllərin sığalını, və s. bağrına basıb canında duymaq, hiss etmək istəyir. Şair vətəninin torpağında yetişib ərsəyə gələn, el-oba adamlarının zəhmətindən yoğrulan ipəyi ovcunda sıxıb onu Şirvan torpağıtək duyduqca, xatirələrə daldıqca, qoca alverçi onu ipəkdən yaxşı anlayan bir alıcı kimi anlayır və qiymətləndirir:

*Hələ mən sənintək bir ipəksevən*
*Adam görməmişəm [159].*

Poemada Nəsimi Vətənin – Azərbaycanın rəmzi, metaforik obrazı olaraq ümumiləşmişdi. M.Yaqub məharətlə sineqdoxadan və metaforalardan istifadə etmiş, bir arşın ipəyin timsalında vətəni, vətənin timsalında onun şair övladı Nəsiminin obrazını ümumiləşdirməyə nail olmuşdur. Şair sovet dövründə vətənə olan məhəbbətini yeni prizmadan əks edən mükəmməl bir əsər ortaya qoymuşdur.

1968-ci ildə yazılmış "Şirvan alverçisi və Nəsimi" poeması şairin digər əsərlərilə birləşərək vətənin hər bir hissəsinə bəslənilən tam, bütöv bir məhəbbət prizmasından yanaşma konsepsiyasını ifadə etmişdir. Əsərdə iki insanın ümumiləşmiş obrazı: Nəsiminin simasında vətəninin ən adi şeylərini, hətta ipəyini belə duymağı bacaran vətənpərvər, bir sözlə, heykəlləşən insanın möhtəşəm obrazı və alverdən, maldan başqa heç nə bilməyən bazar psixologiyalı adi insan obrazı əks olunmuşdur. Bu problem yüzillərin problemi olaraq ümumiləşmiş və şairin vətənçilik konsepsiyasını ifadə etmişdir. M.Yaqub Nəsiminin simasında özünün vətənə olan məhəbbət ideyasını konseptual şəkildə ifadə etdirmişdir. Bu mənada M.Yaqubun "Şirvan alverçisi və Nəsimi" poemasında obrazlaşan Nəsimi vətənin obrazıdır, onun taleyidir.

Əsərdə Şirvan ipəyinin tərifi ilə Hələb bazarında qışqıran Şirvan alverçisinin nidası ilə Hələbdə əsrləri aşan insanlıq dramı qarşılaşaraq bədii sənətkarlıqla əks olunub. Nəsiminin vətənini təmsil edən, vətənpərvərliyini obraza çevirən əsərlər sırasında bir çox müəlliflərin adı keçdiyi kimi Musa Yaqubun da imzası bu poemada konkret görünməkdədir. Musa Yaqub Nəsiminin vətənpərvərlik keyfiyyətini əsərin lap başlanğıcından başlıca səciyyəyə çevirərək əks etdirmişdir.

Ələkbər Salahzadənin sərbəst şeir tərzində qələmə aldığı "Od heykəli" poeması da İmadəddin Nəsimiyə həsr olunan poemalardandır. Əsərin adından sonra "lirik-romantik poema" qeydi var. Poemanın əvvəlində Nəsiminin məşhur misrasının "mən bu cahana sığmazam" parçası epiqraf kimi verilsə də, poema boyunca heç yerdə hürufi şairin adı çəkilmir, lakin bədii ştrix və detallar poemanın məhz ona həsr olunduğunu göstərir. Tədqiqatçı Gültəkin Əliyeva yazır: *"Ə.Salahzadə poeziyasının başlıca xüsusiyyəti assosiativlikdir; şairin təşbehlərində, ifadə vasitələrində bənzəyənlə bənzədilən arasında bir assosiativlik vardır"* [42, s.233]. Şairin "Od heykəli" poeması da assosiativ düşüncələr əsasında yazılmışdı. Əsərin əvvəlində qədim Şamaxı gecəsində şölə çəkərək yanıb əriyən bir şam təsvir olunur. Şam sönür, şairin obrazlı ifadəsincə, "yavaş-yavaş batır gecəyə" [105, s.92]. Bunun ardınca isə simvolik ifadələr bir uşağın dünyaya gəlişini poetik tərzdə nəzərə çatdırır. Şamın sönməsi nəticəsində şəhər zülmətə bürünür, dünyaya göz açan körpənin gəlişi

ilə günəş doğur. Ə.Salahzadə bunu həmin körpənin gələcəkdə könüllərə nur saçacağı kimi simvollaşdırmışdır. Uşağın böyüyüb boya-başa çatması da həmin aspektdə poetikləşdirilir:

*Günəşin əllərindən tuta-tuta böyüdü uşaq...*

*Günəş çəkib çıxartdı onu çəpərlərdən yuxarı*! [105, s.95]

Belə obrazlı deyimlər poema qəhrəmanının mənəvi kamillik, ucalıq yolunun yolçusu kimi yetişməsini vurğulayır.

Bundan sonra isə poemada Nəsiminin həqiqət, mənəvi işıq axtarışlarının rəmzi kimi "iki göz" obrazı simvolllaşdırılır. Orta əsrlərin qaranlıq mühitini "gündüz qırıqları gördüm gecələrin arasında" kimi dolğun, orijinal deyimlərlə [105, s.98] ədəbi müstəviyə gətirən Ə.Salahzadə "iki göz"ün mənəvi zülmət girdabında çırpınmasını da analoji detallarla oxucuya çatdırmışdır. Başqalarından fərqlənən "iki göz" sahibi nurlu insanın, yəni Nəsiminin "kafir" deyə təqib olunması, nəticədə Şamaxı mühitindən getməyə məcbur qalması ilə boyalar daha da tündləşir. Sonrakı bölüm poema qəhrəmanının dəvə karvanına qoşularaq Şamaxıdan Hələbə yön almasını nəzərə çatdırır. Şair bunu obrazlı şəkildə "Hələb-Şirvan arası – Şamaxı zəlzələsi" kimi poetikləşdirir [105, s.103]. Poemanın son bölümünün əvvəlində verilmiş "Bir qan gölməçəsindən silkinib qalxdı günəş" epiqrafı [105, s.104] Nəsiminin Hələbdə edamına, ölümü ilə günəş kimi əbədiyyət qazanmasına işarədir. Əqidəsi yolunda ölümə gedən Nəsimini yenilməzliyinə görə Ə.Salahzadə qayadan qopmuş heykələ bənzədir. Hələbdə dar ağacına qaldırılmış fədai şairin ucalıqdakı bu görüntüsünü isə mühitin, cəmiyyətin, zəmanənin fövqünə yüksəlmək kimi mənalandırır. "Ürəyi, gözü bıçaqlı" epitetləri ilə nəzərə çatdırılan cəllad tərəfindən dərisi soyulan Nəsimi metaforik və simvolik şəkildə "od heykəli", "torpaqdan püskürmüş od" kimi səciyyələndirilir, işlədilən digər bədii təsvir və ifadə vasitələri ("odlu göz" epiteti və s.) də buna yönəlir:

*Qızarır, alışır, yanır bir bədən,*

*Torpaqdan püskürmüş bir od soyulur.*

*Soyulur, soyulur bir od heykəli,*

*Odlu gözlərində səssiz ildırım.*[*105, s.104-105*]

Poemanın sonunda müəllif fikrini belə ümumiləşdirir ki, Nəsiminin dərisinin soyulması sadəcə onun dəridən sıyrılması deyil, dövrdən, mühitdən, zəmanədən sıyrılaraq gələcəyə yol alması, əbədiyyətə, mənəvi ölümsüzlüyə qovuşmasıdır.

Söhrab Tahirin "Karvan gedir" adlı poeması da Nəsimiyə həsr olunmuşdur. Əsərin adından sonra hürufiliyin banisi Fəzlullah Nəiminin "İnsan torpaqdan baş qaldıralı eşq dəryasının gövhəri tapıldı" fikri epiqraf kimi verilmişdir. Poemanın əvvəlində gecə karvanla yol gedən Nəsimi təsvir olunur. Narahat şair göydə sayrışan ulduzlara üz tutub: "Ucaldan böyükdür, ucalan böyük?" – deyə sual edir, özü də cavab verir: "Ucaldan böyükdür!" [112,s.152]. Sonrakı müfəssəl qeydlər nəzərə çatdırır ki, hürufiliyin banisi Fəzlullah Nəimi edam olunub, Nəsimi isə onun Bakıda qalan qızını xilas etmək üçün karvanda gizlədərək Təbrizə yol almışdır. Poemanın əsas məndəricəsi də Nəsiminin fikirləri, karvanın başçısı sarvanla mükalimələri üzərində qurulmuşdur. Bəllidir ki, bəzi mənbələrdə və rəvayətlərdə İ.Nəsiminin əslən Bakılı olması, ustadı Nəiminin qızına sevgi bəsləməsi barədə mülahizələr vardır. S.Tahir müxtəlif tədqiqatlarda təkzib olunan həmin versiyaları əsas götürmüşdür. Poemada Nəsiminin aşağıdakı sözləri də bunu göstərir.

Nəsiminin sarvanla söhbətləri də maraq doğurur. Hürufi şairin "Ucaldan böyükdür, ucalan böyük?" –sualına karvan başçısı da cavab verir ki, ucaldan böyükdür. Amma o, ucaldan dedikdə Allahı nəzərdə tutur. Nəsimi isə hürufiliyə uyğun şəkildə insanın yaradıcı qüdrətinə böyük inamını ifadə edir:

*Sən daha ucasan, ey sadə insan,*
*Çünki ucaları sən yaratmısan.*
*Özündən yüksəyi yarat, uca ol,*
*Budur ucalan yol, ucaldılan yol.*
*Böyükdə ən sadə bir adilik var,*
*Ucanı göydə yox, insanda axtar* [*112, s.153-154*].

Nəsiminin qənaətinə görə, təkəbbürdən, lovğalıqdan uzaq duran, özünü dərk edən kamil insan dünyadan da böyükdür, əsl ucalıq məqamındadır və ən yüksək sevgiyə, ehtirama layiqdir. Hürufi şairin belə fikirləri sarvanın qəlbində təbəddülatlar oyadır. Onun öz-özü ilə pıçıldaşmasından anlaşılır ki, vaxtı ilə şeirlər yazıb həqiqət

axtaran, lakin haqq yolunu tapa bilməyən sarvan taleyindən narazıdır, həyatın hər cür ağrı-acısını görmüşdür. Nəhayət, sarvan öz-özünə deyir ki, şair məni insan sayaraq yüksək dəyərləndirirsə, mən də gərək bu böyük şəxsiyyəti Təbrizə sağ-salamat çatdıram. Yolların təhlükəli olduğunu düşünən sarvan şairə xətər dəyməsin deyə, karvanı çoxlarının bilmədiyi, daha təhlükəsiz olan yeni yola yönləndirir. Beləliklə, Nəsimi obrazı və onun daşıyıcısı olduğu hürufi təriqətinin bir sıra əsas prinsipləri kiçik bir epizodun timsalında özünün bədii təcəssümünü tapmışdır.

Beləliklə, yuxarıda qeyd etdiklərimizdən aşağıdakı nəticələrə gəlinmişdir.

– Poeziya sahəsində kiçik lirik şeirlərdən poemalara qədər Nəsimiyə həsr olunan çoxsaylı əsərlər vardır;

– Azərbaycan ədəbiyyatının görkəmli və ölməz simalarından olan İmadəddin Nəsiminin dövründən üzü bəri müxtəlif mənbələrdə, xüsusilə ədəbiyyat nümunələrində onun möhtəşəm obrazı yaradılmışdır;

– Seyyid Əli adına sahib İmadəddin Nəsimi imzası ilə tanınan görkəmli sənətkar öz dövrünün və hürufizmin ən görkəmli nümayəndəsi və bayraqdarı olmuş, əsərlərində "insan-Allah" vəhdətini, azad insan və azad düşüncə ideyalarını əks etdirmiş, intibah düşüncəsini ehtiva etmişdir;

– Həyatı daha çox əfsanələrə çevrilən sənətkarın dərisi soyularaq öldürülməsi haqda əhvalatlar ədəbiyyat nümunələrində ən çox bəhs edilən məsələ olmuş və Nəsimi idealları uğrunda dönməzlik göstərən şəxsiyyət olaraq obrazlaşmışdır;

– Poeziya sahəsində Nəsiminin adı keçən, obrazı yaradılan nümunələr daha çoxluq təşkil etmişdir;

– Ədəbi nümunələrdə Nəsiminin ya adı çəkilmiş, ya qismən, ya da əhatəliliklə obrazı yaradılmış, həyatı və yaradıcılığı, dövrü və müasirləri bədii əksini tapmışdır;

– Bu poetik nümunələrdə Nəsimi əqidəli bir şəxsiyyət, öz amalı uğrunda dönməzlik və cəsarət göstərərək ən ağır cəzaya məhkum edilmiş mübariz bir şəxsiyyət kimi obrazlaşmışdır;

– Nəsiminin azad insan və azad düşüncə haqqında fikirləri bütün dövr sənətkarlarına nümunə olmuş və onu yaradıcılıq kredosuna çevirmişlər;

– Habelə, Nəsiminin ideyaları yolunda dönməzlik göstərməsi və dərisi soyularaq öldürülməsi onun poetik nümunələrdə əqidə uğrunda dönməz və mübariz insan obrazını poetik tərənnümə çevirmişdir;

– Qeyd edilən əsərlər arasında S.Vurğunun, R.Rzanın, Ə.Kərimin, Qabilin, Ə.Kürçaylının, N.Xəzrinin, M.Yaqubun və başqalarının lirik şeirləri və poemaları xüsusi yer tutur;

1. Qabilin "Nəsimi" poeması Azərbaycan ədəbiyyatı tarixində Nəsimiyə həsr olunan ən irihəcmli, sanballı və əhatəli əsər olaraq tanınmaqdadır. Bu əsər vətənin taleyi və mübarizliyi timsalında Nəsimini obrazlaşdırmışdır;

– Bu əsərlərin hər birində Nəsimi obrazı ali, humanist ideyalı, öz idealları uğrunda dönməz və mübariz bir şəxsiyyət nümunəsi olaraq təqdim edilmişdir;

– Bu görkəmli söz ustadı bədii düşüncədə şəxsiyyəti və yaradıcılığı etibarilə həm də Azərbaycan xalqının humanizmi, tolerantlığı və multikulturalizmini təmsil edən fikir adamı olaraq çıxış etmişdir;

– Bu mövzuda yazarlar Nəsiminin obrazı vasitəsilə dövrün qadağalarına üsyankar səslərini qaldırmış, şəxsiyyət və fikir köləliyinə etiraz etmiş, milli və bəşəri azadlıq ideyasını ifadə etmişlər.

# II FƏSİL
# İMADƏDDİN NƏSİMİNİN HƏYATI VƏ MÜHİTİ AZƏRBAYCAN BƏDİİ NƏSRİNDƏ

Böyük Azərbacan şairi İ.Nəsiminin möhtəşəm obrazı Azərbaycan bədii nəsrində də böyük ustalıqla yaradılmışdır. Nəsrin imkanları daxilində Nəsimi şəxsiyyətinə, onun həyatı, dövrü və fəaliyyətinə geniş, əhatəli və dəqiqliklə nəzər salınması, Nəsiminin bir şəxsiyyət olaraq bütün tərəfləri ilə təqdim edilməsi və s. bədii nəsr nümunələrində daha çox ön planda dayanmışdır. Ədəbiyyatşünaslıq araşdırmalarında haqlı olaraq qeyd edilmişdir ki: *"60-80-ci illər bədii nəsrinin əsas inkişaf istiqamətlərindən biri tarixi mövzunun işlənilməsi və tarixi şəxsiyyətlərin bədii obrazının yaradılmasından ibarətdir"* [31, s. 468]. Tərənnüm və təsvir üsulunu seçən poeziyadan fərqli olaraq nəsrdə Nəsimini əhatə edən ictimai-tarixi mühit, onu yetişdirən əxlaqi-tərbiyəvi şərait və şərtlər, Nəsiminin əlaqələri, təhsili, taleyi və s. nəsrin başlıca predmetinə çevrilmişdir. Seyyid Əlini Nəsimi kimi yaddaqalan edən yaradıcılıq xüsusiyyətləri və nümunələri onun ideya-bədii, fəlsəfi fikirləri, şəxsiyyəti və xarakterinin konkret xüsusiyyətləri, həyatı və taleyilə bağlı hadisələr məhz bədii nəsrin imkanları daxilində bütün əhatəliliyi ilə təqdim edilmişdir. Bu cür əsərlərdə problem və məsələlər təqdim edilməklə bərabər, təhlil edilmiş, daha inandırıcı, düşündürücü və nəticəli şəkildə oxuculara göstərilmişdir. Bu mənada İmadəddin Nəsimini bir görkəmli şəxsiyyət olaraq tanıtmağa qabil uğurlu nəsr nümunələri arasında ilk sırada Muğanna imzası ilə tanınan Azərbaycanın məşhur nasirlərindən biri İsa Hüseynovun "Məhşər", tarixçi alim və yazıçı Mahmud İsmayılın "İki od arasında", Hüseynbala Mirələmovun "Son səfər", Yusif Vəzir Çəmənzəminlinin "Mirzə Əbdülvahab" əsərləri dayanmaqdadır.

Azərbaycan bədii nəsrində özünəməxsus formada Nəsimi obrazının yaradıldığı, haqqında bəhs edildiyi əsərlərdən biri də görkəmli ədib, alim, tədqiqatçı və ədəbi tənqidçi Y.V.Çəmənzəminlinin "Mirzə Əbdülvahab" əsəridir. Y.V.Çəmənzəminlinin hekayələri arasındakı "Mirzə Əbdülvahab" əsəri həm

məzmunu, həm də forması etibarilə seçilir. *"Y.V.Çəmənzəminlinin yeganə bir hekayəsi var ki, burada yumoru satira əvəz edir. Tipə şairinə kəskin satirik münasibət "Mirzə Əbdülvəhab" hekayəsinin ümumi ruhuna hopmuşdur. Heç kəsi bəyənməyən paxıl, hərəyə bir cür loğaz qoşan "şair"in yazdıqları sandıqdan çıxmayıb işıq üzünə həsrət qalır. Bacarıqsız, pis xarakterli xəfiyyə işçisi Mirzə Əbdülvəhab müasirləri arasında "Əbdülqilaf" adı ilə məşhurlaşmışdır, arzusu və işi-peşəsi də cəmiyyət üçün çalışan əsl sənətkarlardan intiqam almaq, onları gözdən salmaqdır. Sevdiyi yeganə bir sənətkar varsa, o da Nəsimidir"* [84, s. 298-299].

Əsərin baş qəhrəmanı dövrün "yalançı", istedadsız şairlərindən olan Mirzə Əbdülvahabdır. Özündən başqa kimsəni bəyənməyən Əbdülvahab guya Nəsiminin şeirlərini o qədər sevir, ona o qədər bağlılıq hiss edir ki, hətta onun əsərlərilə "yatıb-durur". Özünü Nəsimiyə bərabər tutan Mirzə Əbdülvahab camaat tərəfindən ələ salınanda, el arasında "Əbdülqılaf" deyiləndə və s. yalnız Nəsimi şeirlərini oxumaqla soluqlanır, əsəblərini rahatladır. Mirzə Əbdülvahab həmişə arzulayır ki, "Ah, Nəsimi, kaş sən sağ olaydın, məclisinin aşağı başında oturub, gözlərimi o mübarək ağzına dikəydim" [26, s. 314]. Məhz bu sevginin və bağlılığın nəticəsində Mirzə Əbdülvahab gecələrin birində yuxusunda Nəsimini görür.

Əsərin ideya-məfkurə ifadə etdiyi əsas hissəsi məhz burada, bu yuxunun təsvirindədir. Mirzə Əbdülvahab yuxuda böyük adamlarla, əxilərlə birlikdə İmadəddin Nəsiminin məclisinə qatıldığını və onun necə hörmətlə qarşılandığını görür. Çəmənzəminli, hətta onu təsvir də edir: "Yuxarı başda qaraqaş, qaragöz, topasaqqal, iri əmmaməli bir adam oturmuşdu. Bəlağətlə söylədiyi sözlər imanla dolu idi. Arabir "Cavidannamə"dən danışaraq farsca söylədiklərinin tərcüməsi və şərhi ilə məşğul olurdu" [26, s. 315]. Məlum olduğu kimi, Yusif Vəzirin də bir müdət mənsub olduğu tənqidi realizm üçün dəqiq təsvir, portret çizmək çox mühüm ədəbi-bədii əhəmiyyət daşıyırdı. Bütün ideyanın da müəyyən olunduğu dialoqlar xüsusi bir bədii əhəmiyyətə malik idi. Məhz bu dialoqlar daxilində tiplərin batini – mənəvi aləmi, niyyəti, məqsədi, xarakteri aşkara çıxarılır və müəllif məqsədi özünün ifadəsini tapırdı. Burada da Nəsimi ilə Mirzə Əbdülvahabın mükaliməsi məhz ideyanın açılması, müəyyənləşməsi məqsədi daşıyaraq özünün əsl mahiyyətini üzə çıxarır:

“Şair mehriban səslə Mirzəni yanına dəvət etdi:

– Təşrifiniz hardandır? – dedi.

– Azərbaycanın Veylabad şəhərindən.

Nəsimi bir az düşündü:

– Azərbaycanın mərkəzi Təbrizdə oldum. Oraları gəzdim, amma Veylabad eşitmədim…

“Veylabad” sözü Nəsiminin dodağının bir az əyilməsinə səbəb oldu, o, gülümsəməsini saxlayaraq:

– Adı qəribədir… Veylabad nə üçün?

Mirzə fəxrlə:

– Çünki əhalisi ərbabi-ülum və danişdəndir” [26, s. 315].

Əsərin tənqidi notlarla zəngin olduğu aydın müşahidə olunur. Müəllifin məharətlə istifadə etdiyi sarkastik bədii təzadlar əsərin ideya yükünün, obrazların ifadə etdiyi ideya-estetik məğzin aşkara çıxmasına imkan verir. Y.V.Çəmənzəminli dövrünün eybəcərliklərini, nöqsanlarını, xüsusilə yalançı “şairlik”, “ziyalılıq” edənlərini tənqid və ifşa etmək məqsədi güdmüş, bu səbəblə özünün bədii missiyasını tarixdə adı öz dövrünün mütləqiyyətçi rejim və ya qüvvələrinin saxtakarlarını inkar etməklə yadda qalan Nəsiminin obrazından istifadə yolu ilə həyata keçirmişdir. Əsər bütün ruhu ilə tənqidi realizmin üslubuna uyğun olaraq yazılmışdır. Çəmənzəminli də ustad C.Məmmədquluzadənin üslubi ənənəsinin davamı olaraq “Danabaş” coğrafiyasının davamı olan “Veylabad”, “Zırrama” tipajının davamı olan Veylabad sakini, yalançı şair Mirzə Əbdülvahab və ya Əbdülqılafı yaratmış, sarkastik bədii təzadlar daxilində əsl tənqidi missiya və mətləbi ifadə etmişdir. Müəllif məqsədli olaraq sarkastik planda Veylabad adı ilə ərbabi-ülum və ya danış sözlərini bədii təzad olaraq istifadə etmişdir. Bütün avaraların yaşadığı məkan adını daşıyan Veylabaddan bir “danış” və ya “ərbabi-ülum”un gəlişini müəllif Nəsiminin qəhqəhəsi vasitəsilə sarkazmla qarşılayır. Hətta özünün şairliyindən, özü də Veylabadda yaşayan yeganə şair olmasından dəm vuran “Əbdülvahabi” ədəbi imzasının “Xənnas”, yəni “Şeytan” olmasından qürurla bəhs edərək daha bir tənqidi gülüş yaradır və bu düşündürücü gülüş vasitəsilə dərin mətləblər ifadəsini tapmış olur.

Əsərin 1934-cü ildə yazıldığı da çox şeyi söyləyir. Belə ki, bu illərdə mütləqiyyətçi sovet şura quruluşunun mühakimələrini həyata keçirən "ədəbi məhkəmələrdə" H.Cavid, C.Məmmədquluzadə, Ə.Cavad, M.Müşfiq və başqaları hətta vaxtilə onları sevən, onlara dost olan, onların üslubunda yazan adamlar tərəfindən sərt tənqid olunur, yaradıcılıqları zərərli, yararsız hesab edilərək inkar edilirdi. Fikrimizcə, Çəmənzəminlinin bu əsəri də məhz dövrünün saxtakar adamlarını tənqid və ifşa məqsədi daşıyaraq bu kimi həqiqətləri söyləmək iradəsi nümayiş etdirmişdir. Buna görə də əsərdə Nəsimi obrazı bütün tarixi məlumata uyğun şəkildə yaradılmağa çalışılmışdır. Müəllif Nəsimini həm zahiri, portret olaraq, həm də danışıq və davranış ədası ilə təqdim etmiş, həmçinin Nəsiminin mənsub olduğu ideya-məfkurə yolu da göstərilmişdir. Çünki Nəsimi "haqq" adamı, "həqiqət" şairi olaraq tanınmış və şöhrət qazanmışdı. İdeyalarının dərinliyi, imanlılığı və ölməzliyi ilə fərqlənmişdi. Onun məclisinin aşağı başında oturub heyranlıqla ona baxmaq istəyən, onun əsərlərilə nəfəs alan adamların xəyanətini, ikiüzlülüyünü, dayazlığını, xaraktersizliyini sanki müəllif təqdim və tənqid etməyə çalışmışdır. Nəsimi Əbdülvahabın dilindən onun "Veylabad" deyilən yerə mənsub olduğunu, ədəbi imzasının "Xənnas", yəni "Şeytan, İblis" olduğunu eşitdikdən sonra dəli bir qəhqəhə ilə gülməkdən özünü tuta bilmir və bu gülüş Nəsiminin simasında bütün klassik irsin, klassik şəxsiyyətlərin onlara xəyanət etməkdə olan bir nəslə ifşaedici və oyandırıcı gülüş səciyyəsini daşıyır. Bundan acığı tutan Əbdülvahab da "Sən nəsən ki, camaata gülürsən? Sözlərin başdan-başa səfsətədir. Sən nə olmusan ki, heç yerə sığmırsan? Axmaq!" [26, s. 316] –deyə klassik irsin və həqiqətçilik hərəkatının başçısı və şühədası Nəsimiyə hədyanlar yağdırmaqla özünün əsl simasını – saxta şairliyini, yalançı ziyalılığı və ya anlayış şəkilli cahilliyini büruzə verir. Bu azmış kimi Nəsimini Qazıya "möminlər arasında fəsad toxumu əkmək"də, "hökmdarlara qarşı sui-qəsdlər" həyata keçirməkdə, "küfr danışmaq"da günahlandıraraq şeytan adlandırır. Tarixi reallığa uyğun şəkildə edam səbəbini və əhvalatını xatırladan Çəmənzəminli Nəsiminin "dərisi boğazından çıxarılsın" hökmü ilə cəzalandırılmasını əslində bütün haqq və həqiqət söyləyən klassik sənətkarlara, hətta fikrimizcə, öz "dövrünün ədəbi başçısı" (Y.V.Çəmənzəminli bu sözü C.Məmmədquluzadə haqqında

yazmışdı – müəllif) Molla Nəsrəddinə – C.Məmmədquluzadəyə də aid etmişdir. Çünki həmin dövr məhz Azərbaycan xalqına həqiqət ünvanı kimi inanıb, vətəninə, xalqına Allah kimi tapınan bir çox şəxsiyyətlərin, o cümlədən Y.V.Çəmənzəminlinin özü üçün də qorxulu bir dönəm olmuşdur. Çəmənzəminli öz yaradıcılığında Azərbaycan xalqının birliyi ideyasını irəli sürmüş, onun azadlığını və maariflənməsini arzulamışdır.

Nəsimi Y.V.Çəmənzəminlinin təbirincə haqq, həqiqət tərəfdarı, dövrünün ən hörmətəlayiq, ehtiram olunan insanı kimi göstərilmiş, edamı haqqında mövcud olan fikirlərə uyğun şəkildə Nəsimi obrazının aqibəti canlandırılmış, dərisinin soyularaq edam edildiyi qeyd olunmuşdur. Əlbəttə, Nəsimi haqqında biliklərə malik olan böyük ədibin belə bir əsərə müraciət edərək görkəmli mütəfəkkirin obrazını yaratması tamamilə təbii və məntiqəuyğun idi. Çəmənzəminlinin "bir yuxu ilə ədəbi tənqid" üslubunu, fikrimizcə, sonralar görkəmli yazıçı və tənqidçi Mehdi Hüseyn davam etdirərək M.S.Ordubadi haqqında tənqidi əsər yazmışdır. Çəmənzəminlinin əsərində Nəsimi həm də nağıllardakı nurani, müdrik ağsaqqal obrazlarına uyğun şəkildə müdriklik nümunəsi kimi obrazlaşdırılmışdır. Əsərdə Nəsiminin öz dilindən deyilir:

*Dəryayi-mühit cuşə gəldi,*
*Kon ilə məkan xruşə gəldi.*
*Sirri əcəl oldu aşikara,*
*Aşiq necə eyləsin müdara?* [26, s. 317].

Bu misralar özlüyündə Nəsiminin ideya-fəlsəfi idealına uyğun söylənilsə də, müəllif bu şeirdən həm də yerinə görə Mirzə Əbdülvahabın simasızlıq edərək Nəsimini satan əməlinə qarşı mənalandırmağı nəzərə almışdır. Artıq qeyd etdiyimiz kimi, tarixi rəvayətlərə görə, Nəsimi hürufilər üçün gizli olan "sirri-əzəli aşikar eylədiyi" üçün cəzaya çatdırılmışdır. Çəmənzəminli də məhz bu "sirri-əzəli aşikar" eyləmək üçün bu şeirdən yerində istifadə edərək həm Nəsiminin edamını təsvir etmiş, həm də Mirzə Əbdülvahab kimi xəyanətkar, vicdansız və ikiüzlü yarıtmaz insanların əsl simasını açmaq üçün istifadə etmişdir. Nəsiminin qəzəbli şəkildə üsyankarlıqla öz sözlərini deməsi həm də elə məna daşıyır ki, sanki o, Mirzə Əbdülvahab kimilərin

“sirri-əzəli”ni aşikar etmək, onun mənəviyyatsızlığını faş etmək üçün “cuşa gəlmiş”dir.

Müəllifin təqdim etdiyi bu hissə həm də tarixi rəvayətdə deyilən kimi, Nəsiminin edamı zamanı zahidin Nəsimi ilə bağlı dediyi fikirləri, ittihamları və davranışları xatırladır. Əbdülvahab sanki tarixi rəvayətdə deyilən, Nəsimini “mürtəd, zındıq” adlandıran zahid kimi davranır, onun ədəbi varisi kimi çıxış edir. Nəsimi isə həqiqət aşiqi, haqq şairi olaraq tanındığı kimi çıxış edərək bütün natamam, cahil insanlara qarşı inkarçı mövqeyi ilə obrazlaşır, tarixiliklə bərabər müasirlik keyfiyyətlərini də təcəssüm etdirir.

Hüseynbala Mirələmovun Nəsimiyə həsr etdiyi “Son səfər” povesti də ədəbi tənqiddə bu mövzuda yazılmış ən yaxşı əsərlərdən biri kimi qiymətləndirilmişdir [145; 147; 154]. Əsərdə böyük bir tarixi epoxa təqdim edilmiş, ciddi, qarışıq hadisələr fövqündə İmadəddin Nəsiminin həyatı və taleyi öz təsvirini tapmışdır. Müəllif povestə böyük sənətkar Nəsiminin bir beytini epiqraf gətirmişdir. Fikrimizcə, bu beyti epiqraf seçən müəllif onun rəmzləri işığında Nəsiminin həyatına və əfsanələrə dönən taleyinə nəzər salmaq imkanı yaratmışdır. Çünki Nəsiminin həyatı məhz daha çox əfsanələrdən və sirlərə dönmüş hadisələrdən ibarətdir. Müəllif də Nəsiminin taleyini nəzərə alaraq sanki “sirri uzun” bir tale olsa da, mənası, məğzi, örnəyi çox olan bir həyat, ömür kimi qiymətləndirmişdir.

“Son səfər” povesti digər nəsr əsərlərindən fərqli olaraq türk dünyasının ən böyük fatehlərindən olan Əmir Teymurun ölümündən sonra baş verən hadisələr işığında Nəsimi və onun ətrafında baş verən əhvalatları diqqət mərkəzinə gətirmişdir. Əsərdə Nəsiminin bütün dünyanı, Rum elini gəzib-dolaşıb Şamaxıya qayıtması və burada cəryan edən hadisələr fonunda təqdimini tapmışdır. Nəsimi qardaşı Şahxəndanın əsərlərini yazıya alacağı ümidlərilə doğma vətəni Şamaxıya, ailəsinə, ata ocağına qayıdır. Hadisələrin belə fərqli planda təqdim edilməsi müəllifin özünün fərqli baxış bucağını diqqətə çatdırır.

Əsərdə Əmir Teymurun ölümündən sonra Nəsiminin Şamaxıya qayıdıb yaşaması fonunda təqdim edilən hadisələr tamamilə fərqlilik, özünəməxsusluq və yenilik kəsb edir. Tarixdə bu cür hadisələrin olmaması, lakin yazıçının bədiilik

yaratmaq istəyi özünü açıq-aydın göstərir. İsa Həbibbəyli də bu məsələni diqqətə çatdıraraq əsaslandırırdı ki, tarixdə belə bir fakt yoxdur. Xüsusilə də, ustadı Fəzlullah Nəiminin edamından sonra Nəsiminin Şamaxıya qayıdışı mümkünsüz idi, çünki onu orada təhlükə gözləyirdi [52, s. 41]. Ümumiyyətlə, bu məsələnin müəllif tərəfindən düşünülmüş və bədii rol oynayan bir vasitə olduğu qeyd edilmişdir.

Sənətkar Nəsiminin Şamaxıya – doğma Azərbaycana qayıdışı və şöhrətini mənəviyyatda doğan günəş kimi səciyyələndirmiş, Qara Yusifin fəaliyyətilə güclənən Azərbaycan hakimiyyətini isə siyasətdə doğan günəş kimi xarakterizə etmiş, əlaqələndirmişdir. Əsərdəki bu baxış tərzini və faktları tarixçi alim, yazıçı M.İsmayılın "İki od arasında" əsəri ilə müqayisə etmək olar.

Yazıçı Nəsimini "şairlər şairi" adlandırır və tək bir ifadə ilə şairə olan ümumxalq məhəbbətini və onun ictimaiyyət arasındakı nüfuzunu təyin edir. Yazıçı Nəsimiyə olan ümumxalq sevgisini həm hökmdar İbrahim şahın, həm də qulluqçu Gülnaz xalanın timsalında ümumiləşdirdiyini düşünürük. Hökmdar İbrahim şah özündə dövlətin və yuxarı təbəqənin, qulluqçu Gülnaz xala da özü kimi sadə xalqın, zəhmətkeş kütlənin sevgisini, ehtiramını təcəssüm etdirmişdir. Qulluqçu Gülnaz xala şair Nəsiminin qəzəllərinə olan heyranlığını ifadə etməklə, onu sevdiyini də etiraf edir. Hətta qulluqçu Gülnaz xala kimi sadə insanların bəzən şairin dilində rast gəlinən ərəb-fars sözlərini başa düşməməsilə bağlı gileyini də yazıçının məqsədli olaraq ifadə etdiyini düşünürük. Gülnaz xalanın bu gileyini müəllifin öz şərhində şairin yaradıcılığının dilində rast gəlinən bəzi ərəb-fars mənşəli sözlərin anlaşılmamasından doğan giley olaraq ümumiləşdirir. Əsərin sonunda da yazıçının: "*Doğma Azərbaycan dilinin timsalında Vətən daim onunla idi*" [85, s. 156] fikri yazıçının Nəsimi obrazını vətənin taleyi timsalında uğurla ümumiləşdirdiyini bir daha və qətiyyətlə deyə bilərik. Bundan başqa yazıçı əsərdə özündən əvvəlki əsərlərdən fərqli olaraq şair Nəsiminin istedad və şöhrətindən qorxuya düşən, qısqanclıq duyan bir çox düşmənlərinin də obrazını yaratmışdır. Müəllif əsərdə Nəsiminin əleyhinə çalışan bir sıra düşmən obrazlarını da qələmə almışdır.

H.Mirələmov Nəsimini hürufizmin və ümumən, insan fəlsəfəsinin böyük mütəfəkkiri, humanizmin görkəmli mücahidi olaraq təqdim edir və onu qəlbi sevgi

dolu bir aşiq kimi təsvir edir. Yazıçı Nəsimini digər müəlliflərdən fərqli olaraq ustadı Nəiminin qızı Fatiməyə deyil, sadə bir ailədən olan Hüsniyyə adlı bir qıza aşiq olduğunu göstərmişdir. Əlbəttə, bəşəriyyətə və insanlığa məhəbbət bəsləyən Nəsiminin özünü eşqsiz, bir insana sevgisi olmadan təsvir və təqdim etmək doğru olmazdı. Bu mənada, insanı və bəşəriyyəti sevmək duyğularına gedən yol konkret bir insana sevgidən başlanan yolla birləşməli, qovuşuq inkişaf etməsi daha doğru olardı. Yazıçı da məhz bu səbəbdən Nəsiminin təmiz qəlbli, ölümünə sevən möhtəşəm aşiq obrazını yaratmışdır. Fakt tarixi cəhətdən yalan, uydurma olsa da, bədii cəhətdən vacib, zəruri və real idi. Çünki Nəsiminin obrazının təqdimində bu faktın təsvirinin mühüm yeri, əhəmiyyəti var idi. Şair İzzəddin Həsənoğlunun "Tutuşmayınca dər atəş bəlirməz xisləti ənbər" [16, s. 208] misrasında deyildiyi kimi, Nəsiminin də bir aşiq kimi real, məntiqəuyğun təsvirinin həqiqi bədii faktı yalnız bu detalla mümkün ola bilərdi. Bu baxımdan "*Hüseynbala Mirələmov "Son səfər" povestində İmadəddin Nəsiminin həm şair, həm də bir insan kimi keçirdiyi iztirabları qələmə almışdır*" [158]. Yazıçının özü də əsərin yazılması haqqındakı "İki cahan Günəşi" adlı şərhində məqsədini, məramını açaraq əsərdə real, tarixi şəxsiyyət olan Nəsimini deyil, onun həyatı üçün səciyyəvi olan iztirab və məşəqqətləri, təklənməsini və insanlıq uğrunda mübarizliyini, dəyanətini qələmə aldığını yazmışdır [85, s. 38-40]. Bu mənada, yazıçının özünün də qeyd etdiyi kimi, əsərdəki "uydurma" faktların meydana çıxma səbəbi və məqsədi belə bəlli olur ki, əsərin qəhrəmanı ədəbi-tarixi, real şəxsiyyət olan İmadəddin Nəsimi deyil, onun yazıçı dərki nəticəsində meydana çıxan obrazıdır. Ümumiyyətlə, əsərdə çoxsaylı yazıçı təxəyyülünün məhsulu olan bədii detal və faktlar verilmişdir. Məhz bu kimi səbəblərdən ötrü İsa Həbibbəyli "Son səfər" povestini mövzu etibarilə tarixiliklə bağlı hesab etsə də, janr etibarilə tarixi povest janrına aid hesab etməmişdir [145].

Yazıçı həm də Nəsiminin Hələbdə edamı ilə müşahidə olunan iztirablarını, insanlıq və həyat fəlsəfəsini, fəaliyyət və mübarizə məqsədini deyil, məhz özünün doğma vətəninə qayıdışından sonra başlanan qızğın fəaliyyəti və çəkdiyi mübarizə iztirablarını təqdim etmişdir. Bununla da yazıçı, fikrimizcə, öz vətənində vətəni, xalqı üçün mübarizə aparan insanların taleyini ümumiləşdirərək onların iztirabını bütün

cəhətləri ilə təqdim etmək məqsədi güdmüşdür. Bu baxımdan Nəsimi həm vətən sevdalı şair və yazıçıların, həm də vətən uğrunda can fəda edən mücahidlərin, eləcə də siyasi mübarizlərin obrazı kimi ümumiləşir. Əsərdə sanki Şamaxının taleyi timsalında vətənin taleyi, müqəddəratı, Nəsiminin taleyi timsalında isə onun uğrunda can qoyan böyük mübariz bir insanın taleyi ümumiləşərək obrazlaşmışdır. Hətta, fikrimizcə, məhz bu aspektdə Nəsiminin doğma vətəninə qayıdışı və bununla başlanan böyük mübarizə və iztirab yolunun timsalında Azərbaycan xalqının ən böyük sevdalısı, onun aşiqi, mübarizi, ideoloqu, Ümummilli Lideri Heydər Əliyevin qayıdışdan sonrakı taleyi və şəxsiyyətinin möhtəşəm obrazı canlandırılmışdır. Bu baxımdan əsərə ön söz yazan Nizami Cəfərov da haqlı olaraq yazmışdır ki: "*Hüseynbala Mirələmovun Nəsimisi nə Qabilin, nə də İsa Hüseynovun [Muğannanın] Nəsimisi deyil. "Son səfər" müəllifi geniş panoramlı təsvirlərə, yaxud dövrün Nəsimidə təcəssüm edən mürəkkəb fəlsəfi-ideoloji özünüifadə [və özünütəsdiq] mühakimələrinə [bu xüsusiyyətlər həm "Nəsimi", həm də xüsusilə "Məşhər" üçün səciyyəvi idi] varmadan şair-mütəfəkkirin taleyinə, əgər belə demək mümkünsə, adi bir insan olaraq nəzər salmağın təcrübəsini təqdim edir...*" [24, s. 11]. Əsər haqqında rəy yazan Q.Nəcəfzadə də haqlı olaraq əsərin ideyasını Azərbaycanın dövlət müstəqilliyi ideyası ilə əlaqələndirmişdir [154].

### 2.1. İsa Hüseynovun "Məhşər" əsərində Nəsimi obrazı

Azərbaycan ədəbiyyatında poeziya örnəklərində olduğu kimi, bədii nəsr nümunələrində də görkəmli Azərbaycan şairi və mütəfəkkiri İ.Nəsiminin obrazı müxtəlif aspektlərdən kamil və möhtəşəm bir sürətdə yaradılmışdır.

Məlum olduğu kimi, XX əsrin 60-cı illəri Azərbaycan ədəbiyyatında yeni bir mərhələ təşkil edir. Ədəbi düşüncədə sərbəstlik və nisbi azadlıq özünü təzahür etdirir. Bu sayədə insan probleminə baxış kontekstində şəxsiyyətin reallığa uyğun təsviri mühüm aktuallıq qazanır. Xüsusilə, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi, Azərbaycanın milli inkişafına yaratdığı şəraitdən qaynaqlanaraq bədii ədəbiyyatımızda müxtəlif məsələləri milli kontekstdən əks

etdirən və aktuallaşdıran qiymətli bədii nümunələr ərsəyə gəlir. Azərbaycanın müxtəlif tarixi mərhələləri, məsələləri və şəxsiyyətlərinə həsr olunan əsərlər sırasında bədii nəsrimizi zənginləşdirən çoxsaylı nümunələr vardır. Nəsimi obrazı yaradılan əsərlərdə onun şəxsiyyəti ilə bağlı mühüm cəhətlər daha canlı və qabarıq təqdim edilmiş, diqqət mərkəzinə çəkilmişdir. Belə əsərlər arasında İsa Hüseynovun "Məhşər" romanı xüsusilə fərqlənir. Həm də tamamilə doğru müşahidə və qənaətdir ki, "*Məhşərlə İsa Hüseynovun yaradıcılığının birinci mərhələsi tamamlanır. Eyni zamanda, İsa Hüseynovun yaradıcılığında "İdeal"a keçid də "Məhşər"dən başlanır*", həmçinin yazıçının "bütöv dünya" modeli də bu əsərlər kontekstində tamamlanmış olur" [145]. "*Azərbaycan həqiqətlərini bütün sərtliyi və tarixi reallığı ilə canlandıran*", "*Azərbaycan tarixi nəsrinin banilərindən olan*" [5; 162] İsa Hüseynovun "Məhşər" əsəri məhz Nəsiminin daha möhtəşəm obrazının yaradıldığı qiymətli bədii əsərdir. Bu tarixi əsər həm tarixə sərbəst yanaşmanın cəhdi, həm də bədii nəsrimizdə yeni bir cığırın açılması baxımından ədəbiyyat tariximizdə çox mühüm bir rola malikdir. Y.Qarayevin yazdığı kimi: *"İsa Hüseynovun nəsrinin... "Yanar ürək"lə formalaşan, "Teleqram"da və "Məhşər" ayağı"nda cilalanıb kamala çatan təkrarsız fərdi-psixoloji üslubun təməli bu povestlərlə qoyulur"* [69, s. 477].

*"...Yazıçının və romanın əsas məziyyəti hürufilik hərəkatını təsvir etməsində deyil, tarixi hadisələrə baxış konsepsiyasındadır"* [31, s. 475]. Roman janrında yazılan bu əsərdə və digər nəsr əsərlərində Nəsiminin obrazı daha çox öz ideyalarından dönməz bir şəxsiyyət, insan azadlığı tərəfdarı olan mübariz, məharətli bir şair kimi təsvir olunmuşdur. Əgər poeziyada tərənnüm və vəsf üsulları kontekstində Nəsimi şəxsiyyəti ilə bağlı müəyyən məsələlər qabarıq təsvir və ifadə olunurdusa, bədii nəsrin geniş süjet və kompozisiya imkanları kontekstində Nəsiminin mühit və ideyalar qovuşuğunda nəhəng şəxsiyyəti, parlaq şair obrazı yaradılmışdır. Bu əsərlərdə başlıca olaraq Nəsimi: 1. şair kimi; 2. öz fikirləri uğrunda ölüm ayağına çəkilən mübariz ideoloq və ideya adamı kimi; 3. səlis, təsirli və məzmunlu çıxışları ilə xalqı öz fikirlərilə oyandıran və azadlıq ideyalarını yayan məharətli natiq və təbliğatçı kimi təsvir və təqdim olunmuşdur.

Yuxarıda da qeyd etdiyimiz kimi, haqlı olaraq deyilmişdir ki: *"İsa Hüseynovun yaradıcılığında "İdeal"a keçid də "Məhşər"dən başlamışdır"* [51, s. 823].

İ.Hüseynovun "Məhşər" əsərinin qəhrəmanı Nəsimi öz dövründə geniş yayılmaqda olan hürufilik cərəyanının qüdrətli davamçılarından və təbliğatçılarından, eyni zamanda öz şeirlərində hürufiliyi əks etdirən ustad şairlərindən biri və birincisi kimi bu əsərdə obrazlaşmışdır. Doğrudur, "Məhşər" əsərində Azərbaycan tarixi üçün mühüm bir epoxa, milli intibah dönəmi bədii obraza çevrilib. Burada siyasətlə elm qoşa qanad çalır, bir milli-ictimai varlığa, onun inkişafına xidmət edir.

Ümumiyyətlə, İ.Hüseynovun ümumi bədii yaradıcılığı içərisində bütün ədəbi mənbələr "Məhşər" əsərini qətiyyətlə Azərbaycan nəsrində ən ciddi, əhəmiyyətli əsər kimi qiymətləndirmiş, Azərbaycan tarixi roman janrının yeni üfüqlərə doğru inkişafında xidmətlərindən razılıqla bəhs etmişlər [39, s.10]. Çox az əsərlər olar ki, ilk cümləsi bilvasitə əsərin ideya-estetik məsələsilə bağlı olub oxucunu əsərin süjetinə, ideyasına hazırlasın. İ.Hüseynovun "Məhşər" romanı məhz elə əsərlərdəndir. Belə ki, əsərin ilk cümləsi kompozisiyanın müxtəlifliyindən və ziddiyyətlərindən xəbər verir. Bu manevr oxucunu bilavasitə ziddiyyətli hadisələrin mürəkkəb gedişatından ortaya çıxacaq ideyaya hazırlayır. Bir abzas qədər geniş cümlə daxilində əsərin nüvəsini təşkil edən konkret tarixi şərait, əlbəttə ki, bütün əsərin ziddiyyətlərini, az qala düyümünü ifadə edən, gərginliyi hiss etdirən vəziyyət tam mənası ilə anladılmışdır. Yazıçı ilk cümlədən başlayaraq əsərin məkanı, dövrü və tarixi şəraiti ilə bağlı məlumatı verməyə qabil olmuş, ictimai-siyasi durumu bütün ağırlığı, gərginliyi və ziddiyyəti ilə ortaya qoymuşdur. Əmir Teymurun hərbi-siyasi qüvvə olaraq ağırlığı elə buradaca aydın müşahidə olunur, onun İldırım Bəyazidə və Toxtamış xana hakimliyi açıq-aydın sezilir, oxucunun diqqət mərkəzinə çəkilir. Bu ziddiyyətli, mürəkkəb vəziyyətdən çıxış edən yazıçı onun ardınca daha uğurlu şəkildə başqa bir ziddiyyətli tarixi vəziyyəti ifadə etmiş olur: Avropanı ovcunun içinə alan Toxtamış xana və Şərqdə hegemonluq edən Osmanlı sultanı İldırım Bəyazidə sarsıdıcı zərbələr endirən hakim qüvvə kimi Əmir Teymurun bu qədər hərbi gücünün qarşısında hələ də yenilməyən bir ölkə var. O ölkə ki, Teymurun sel kimi axıb gələn

qüvvətli ordusu qarşısında hələ də yenilməyən, alınmayan bir qala kimi dayanıb və bu qala Əlincə qalası, onun da timsalında bütün Azərbaycandır [56, s. 7].

Tam səlis cümlələrlə yazıçı Teymurun hərbi qüdrəti qarşısında əyilməzlik örnəyi göstərən Azərbaycanı və Naxçıvanın alınmazlıq simvoluna çevrilən Əlincə qalanı nişan verir [74. Hələ də azərbaycanlıların Teymur zülmünə, Teymur işğalına tamamən tabe olmadığını göstərmək zərurətini hiss etdirir. Rəsmən, siyasi cəhətdən Azərbaycan Əmir Teymurun səltənətinə daxil edilsə də, hələ də mübarizə aparan ümumxalq birliyi əsərdə diqqət mərkəzinə gətirilmişdir. *"Əsərin ilk səhifələrindən bu tipli təqdimatın verilməsi oxucuya fikri təlqin edir ki, hadisələrin mərkəzində məhz alınmaz qala kimi dayanan, mübarizə və mücadilə meydanı olan, vətənpərvər və qəhrəmanlar yurdu Azərbaycan və onun Naxçıvan Muxtar Respublikasında yerləşən əyilməzlik və alınmazlıq simvolu olan Əlincəqaladan söhbət gedir. Yazıçının bu təqdimatı və yazı manevri əsərin ciddi hadisələrdən bəhs edəcəyi təəssüratına dalmağa stimul verir"* [73, s. 49].

Əlbəttə, yazıçı konkret tarix göstərməsə də, hadisələrin məhz XIV-XV əsrlərə aid olduğunu bilməmək mümkün deyil. Məhz bu dövrdə Əmir Teymur ordusu digər ərazilərlə bərabər, Azərbaycana hücum etmiş, Azərbaycanın böyük övladı, mahir diplomat Şirvan hökmdarı İbrahim şah böyük məharətlə siyasət yürüdərək Azərbaycanı qanlı müharibənin caynağından xilas etmiş, qan-qada meydanına çevrilməsindən qurtara bilmişdi. Məhz belə bir tarixi dövrdə Azərbaycanda böyük filosof-şair Fəzlullah Nəiminin başçılığı altında hürufilik cərəyanı geniş yayılmış, işğalçılarla mübarizədə xalqın gücünü və birliyini təzahür etdirmişdir. Buna görə də İ.Hüseynov əsərin başlanğıcından alınmaz qala olaraq dimdik dayanan Əlincə qalasında hürufi papağının tapılması məsələsi ilə yeni bir düyün vurmuş və hadisələrin gedişatına yeni bir gərginlik, əhvalat daxil etmişdir. Şirvanla Əlincə qalasının timsalında Naxçıvanı əlaqələndirən yazıçı işğalçılara qarşı xalqın mübarizə əzmi və birliyini nümayiş etdirmişdir. Yazıçı buna da diqqət çəkmək istəmişdir ki, Teymurun hücumu və işğalına qarşı Şirvanşah İbrahimin ağıllı siyasəti ilə birgə ətrafında xalqı toplayan hürufilik cərəyanı da birlik göstərir və ümumxalq mübarizəsini nümayiş etdirirdi. Yazıçının tarixi şəraiti anladan fikirləri kontekstində

tarixçi alimlərin yazdıqları izah da onu tamamlamış, haqq qazandırmış olur ki, mənbələrdə bu barədə bəhs edilmişdir [15, s. 349-350].

Yazıçı Azərbaycanın siyasi elitası olan İbrahim şahın timsalında Teymur işğalına qarşı mübarizə əzmini göstərdiyi kimi, hürufizmin də timsalında xalq birliyinin işğala qarşı həmrəylik və gücünü təqdim etmişdir. İ.Hüseynov məharətlə İbrahim şah sarayının adamlarını – tarixi şəxsiyyətləri, eləcə də hürufizmin lideri Fəzlullah Nəimini, İmadəddin Nəsimini, Nəiminin müridlərini və başqa şəxsiyyətləri əsərə gətirmiş, onların yerini müəyyənləşdirmiş və Azərbaycan xalqının intellektual güc, qüvvə və bacarığını əks etdirmişdir. Elmi-ədəbi fikirdə də haqlı olaraq ifadə edilmişdir ki, İ.Hüseynovun yaradıcılığı, eləcə də "Məhşər" romanı "milli-tarixi yaddaşın ifadəsi" baxımdan və onun Nəsimi obrazı milli-mənəvi dəyərlərin, düşüncə və mənlik şüurunun ifadə olunması ilə səciyyəvidir [30, s.3]. O, İbrahim şahın siyasət və diplomatiya bacarığında xalqın ağlı və uzaqgörənliyini ümumiləşdirmiş, hürufilərin fəaliyyətində, xüsusilə Nəsiminin obrazında isə xalqının ağıl, iman və inam gücünü əks etdirmişdir. Hər iki halda Azərbaycan xalqının Teymur işğalına qarşı əqli və intellektual qüdrəti nümayiş etdirilmişdir. Həm də yazıçı Şirvan hökmdarı İbrahimlə hürufilərin gizli əlaqələri haqda da maraqlı süjet təqdim etmiş, bununla da hər iki cəbhəni ümumxalq mübarizəsi olaraq təqdim etməyə nail olmuşdur. Əsər boyunca Nəsiminin görünən obrazı, əlbəttə, daha fərqli, əzəmətli və möhtəşəmdir.

*"Yazıçının tez-tez "hürufilərin papağının Əlincədə tapılması"ndan bəhs etməklə Əlincə və onun ətrafını həm də fikir və əməlləri elmə əsaslanan, fikir və müdrikliklə böyük hörmət qazanan, özlərini "haqq" hesab edən hürufilərin əsas mərkəzlərindən hesab edir. ...Əlincədə bu gün də mövcud olan xanəgahlar burada təkcə hansısa dini təriqətin təbliğ edildiyi məclislərin deyil, həm də insanın əsl ləyaqət və müdriklik əlaməti kimi çıxış edən elmin, şeirin, sənətin müzakirə edildiyi bir mərkəz rolunu daşımış, ev sahibliyi etmişdir. Əslində yazıçının da diqqət çəkmək istədiyi əsas mətləb, ümdə ideya budur: elmlə hikmətin birləşdiyi yer və adamların qırılmaz əzmi və mübarizəsi"* [74, s. 50]. Beləliklə, yazıçı tarixi şəraiti də bir tarixçi kimi təqdim etməyə müvəffəq olmuşdur. Konkret hadisələrin timsalında XIV əsrin

sonları, XV əsrin əvvəllərindəki Azərbaycanda və ona yaxın ərazilərdəki ictimai-tarixi şəraiti təsvir etmişdir. Bu mənada yazıçı bötüvlükdə tarixi şəraitdəki proseslərə, hadisələrə və şəxsiyyətlərə məhz Nəsiminin dövrü və mühiti kontekstindən yanaşmışdır. Bir az da dəqiq desək, dövrün qanlı hökmdarı və sərkərdəsi Əmir Teymura da, Azərbaycanın o vaxtkı hökmdarı, ağıllı siyasəti ilə tanınmış İbrahim şaha da, hətta Şeyx Bərəkə kimi əzazil dini rəhbər və ayrı-ayrı şəxsiyyətlərə də yazıçı məhz Nəsimi şəxsiyyəti müstəvisindən yanaşmış, doğrunu və yalnışı, əyri və düzü, xeyir və şəri də məhz onun taleyi, yolu, əqidəsi müstəvisindən işıqlandırmağa nail olmuşdur. Nəsimi bu mənada təkcə obraz deyil, ümumən, romanın məhvərini təşkil edən dayaq nöqtəsi və nüvəsi kimi çıxış edir. Yazıçı mövqeyini, mübarizəsi və fikirlərini də onun mövqeyindən və onun vasitəsilə ortaya qoymuşdur. *"O, tarixin xammal materiala çağdaş bədii təfəkkür prizmasından baxa bilmiş, qeydiyyatçı-salnaməçi obrazını dağıdaraq filosof, cəmiyyətşünas kimi yanaşa bilmişdir. Yazıçı burada tarixi dövrün və hadisələrin xronikasını yazmamış, Azərbaycan tarixinin son dərəcə dramatik bir mərhələsinin ictimai-siyasi hadisələrinə fəlsəfi baxış ifadə etmişdir"* [31, s. 475].

Yazıçı Əmir Teymura mənən tabe olmayan iki qüdrətli Azərbaycan övladını – Şirvanşah İbrahim şahı və xalqın istəklisi, böyük nüfuz sahibi şair İmadəddin Nəsimini təqdim edir. Onların fəaliyyəti, fikri və düşüncələri kontekstində həm Azərbaycanın Teymur işğalına qarşı mübarizəsini, həm də daxili inkişaf məsələlərini əsərin bədii predmetinə çevirmiş olur. Yazıçı hər iki obrazı möhtəşəm – bütün ağlı, ideoloji gücü ilə təqdim edir. Hətta yazıçı bu iki qüdrətli Azərbaycan övladının düşüncə və əməllərindəki birləşən və ayrılan nöqtələrinə də diqqəti çəkir. Əslində, məhz bu kontekstdə "Məhşər" romanının baş qəhrəmanı Azərbaycan xalqıdır desək, yanılmarıq. Çünki onun bütün fəaliyyəti fikir, əməl oxşarlıqları və ayrılıqları ilə Teymur işğalına qarşı mübarizə aparan toplumun, xalqın özüdür. Buna görə də əsərdə vahid ideya təsəvvüfdə olduğu kimi ikiliklər, müxtəlifliklər, ziddiyyətlər kontekstində müəyyənləşərək ortaya çıxır, bir bütövlük, vahidlik qazanır. Əsərdəki mübarizə mərkəzləri, formaları da özünəməxsus terminlərlə ifadə olunaraq bu ikilikləri özündə birləşdirir, vahidliyin ortaya çıxmasına xidmət edir. Əslində, diqqət edilsə, bu

ikiliklər, ziddiyyət hər bir obrazın baş qəhrəmanı təqdimində də diqqət mərkəzinə çəkilir və xalqın tarixi düşüncəsində yer almış Nəsimi şəxsiyyəti ilə müəyyənləşmiş olur. Bunu da qeyd edək ki, romanda həm hadisələrin meydana çıxması və inkişafı prosedurunda, həm də Nəsimi obrazının əhatəsində reallaşan müxtəlif məsələlər kontekstində yazıçı ilkin mənbə kimi Nəsimi yaradıcılığına müraciət etmişdir. Ümumiyyətlə, İ.Hüseynov "Məhşər" romanında adından tutmuş hadisə, obraz və terminlərə qədər, sanki təsəvvüf strukturundan irəli gələn simvolika, rəmzlərdən istifadə etmişdir. Əmir Teymur, İbrahim şah, Nəsimi və Zahir və s. kimi obrazlar müəyyən anlayışların rəmzləşdirilmiş ifadəsidir. Nəsimi obrazı işığı, irəli düşüncəni, azad təfəkkürü və mübariz insanı rəmzləşdirərək müxtəlif tərəfləri ilə əks olunmuşdur. Nəsimi obrazı əsərdə: 1. "Allahın ləyaqəti" hesab olunan yeni fikir və düşüncə sahibi olan Fəzlullah Nəiminin davamçısı, onun varisi kimi; 2. Öz əsərləri ilə azad insan və  xoşbəxt həyat haqqında fikirləri bədiiləşdirərək təbliğ və təqdir edən qüdrətli və xalqın sevimlisi olan bir şair kimi; 3. Eyni zamanda xalqını, ümumiyyətlə, bəşəriyyəti yeni düşüncə və yaşayışa səsləyən bir fikir, ideya adamı, ideoloq və təbliğatçı kimi mükəmməl şəkildə obrazlaşır. Yazıçı əsərdə Nəsimi obrazına daha çox diqqət ayırmışdır. Nəsimi şəxsiyyətinə yazıçının daha çox əhəmiyyət verdiyini, onu daha öndə, daha qabarıq, daha əhatəli təsvir və təqdim etdiyini görmək mümkündür. Bu mənada yazıçı Nəsimi ilə əlaqəli daha çox ayrıntılara baş vurur, onunla əlaqəli daha çox məsələləri, onun şəxsiyyəti,  həyatı və fəaliyyətilə bağlı müxtəliflikləri işqlandırmaqla əsərə daxil etməyi məqsəd seçir. Beləliklə, daha əzəmətli bir obraz ortaya qoymağa müvəffəq olur. Qətiyyətlə, demək olar ki, əsərdə bir sıra parlaq, qabarıq obrazlar təsvir olunsa da,  onların hər biri Nəsimi obrazının əzəmətli təsviri işığında kölgədə qalmışdır. Hətta bunu da inamla demək olar ki, həmin digər əsas, qabarıq obrazlar da Nəsimi obrazını tamamlamağa xidmət etmişdir. Nəsimi – Əmir Teymur, Nəsimi – Fəzlullah Nəimi, Nəsimi–hürufilər və bir sıra süjet xətlərindəki əhəmiyyətli hadisələr və obrazlar qarşılaşmasında mütəfəkkir şair İ.Nəsiminin şəxsiyyəti və obrazlılıq etibarı ilə hərtərəfli təqdiminə nail olunmuşdur.

İ.Hüseynovun "Məhşər" əsərində Nəsimi obraz etibarı ilə birinci növbədə konkret milli-mədəni intibah epoxası dönəminin aparıcı fikir cərəyanı olan hürufilik

və onun banisi Fəzlullah Nəiminin davamçısı və varisi olaraq təsvir və təqdim edilmişdir.

Məlum olduğu kimi, roman müxtəlif hissələrə ayırılmışdır: “İnkar”, “Etiqad”, “Təcrid”, “Qorxu”, “Tənhalıq”, “İxtilaf” və s.

Yazıçı böyük ustalıqla hər bölmənin ideya və məzmununa uyğun olaraq məsələlər qaldırmış və Nəsimi obrazına da məhz bu bölmələrin tələbləri çərçivəsində yanaşmışdır. Beləliklə, əsər boyunca daim inkişafda olan bir Nəsimi şəxsiyyətindən bəhs etmiş, onu mükəmməl xarakter və cizgilərlə ortaya qoymuşdur. Nizami Cəfərov əsərlə bağlı yazmışdır: “*Məhşər*” *romanı göstərdi ki, yazıçının mütəfəkkir istedadı yaşadığımız həyatın metafizikası üzərində kimsənin cəsarət etmədiyi bir enerji [və sürətlə] düşünməkdə davam edir”* [23, s. 5]. “Məhşər” romanı yazıçının həm də N.Cəfərovun bəhs etdiyi “etnik mənəvi-mədəni bütövlük elmi”nin [23, s. 5] bir hissəsi kimi çıxış etmişdir. Əsərin epiqraf hissəsinə də yazıçı İ.Nəsiminin “Mən cümlə cahanü-kainatəm” fikrilə başlayır və sanki N.Cəfərovun bir az əvvəl bəhs etdiyimiz “etnik mənəvi-mədəni bütövlük elm”inin təsdiqi kimi çıxış edir. Əsərin hissələrə bölünərək müxtəlif mərhələ və bölmələr üzrə inkişaf edərək müəyyənləşməsi də bədii inkişaf və struktur məsələsidir. Roman da məhz bu bölmələr üzrə inkişaf edərək vahid ideya-estetik problem müstəvisində kamilləşir.

Əsərin ilk bölməsinin “İnkar” adlanaraq müəyyənləşdirilməsi mahiyyətində mövcud ortadoksal düşüncə və yaşayış qaydalarına qarşı hürufilərin, eləcə də İ.Nəsiminin üsyankar, inkarçı mövqeyi işıqlandırılmışdır. Doğrudur, əsərin əvvəlində Nəsimidən daha çox hürufilərin başçısı Fəzlullah Nəiminin obrazı əhatəlilik və əsaslılıq qazanır. Hürufizmin fəaliyyəti, başlıca məzmunu, ideya-siyasi mahiyyət və məqsədi diqqət mərkəzinə gətirilir. Xüsusilə, Fəzlin müridlərinin sonralar yazdıqları qeydlərdə də əqidə və məsləklərindən dönmədikləri, hətta öz həyatlarını qurban verdikləri qeyd edilmişdir [56, s.9]. Məhz bu fikirlərdə də ifadə olunduğu kimi, bir təlim və tərbiyə sistemi daxilində İ.Nəsimi kimi özünü əqidəsi uğruna qurban verən davamçılar ortaya çıxmışdır.

Bu mənada öz əqidəsi uğruna canını fəda edən Nəsimi obrazının yaranmasının başlıca təməli məhz əsərin “İnkar” adlanan ilk bölməsində qoyulmuşdur. Rüstəm

Kamalın bu fikirlərini yeri gəlmişkən qeyd edək ki, *"İsa Məsih (ə.s.) İsa Muğannanın ən çox sevdiyi obraz, güvəndiyi qutsal ad idi. Bu sevgi "Məşhər"dən, Nəsimidən başlayır. "Məşhər"i yazanda Nəsimi sirrinə o qədər vaqif olmuşdu ki, artıq Nəsimi ilə "vəhdəti-vücud" idi. "Məşhər"dəki Nəsimi İsa Muğannanın özüdür. Nəsimi hürufiliyindən başlayırdı İsa Muğannanın neohürufiliyi!"* [62]. Fikrimizcə, Nəsimi şəxsiyyəti və obrazının bütün mənəvi qüdrəti məhz bu əsərdə ortaya qoyulmuşdur. Nəsiminin fikir və mənəviyyat dünyasında ümid gətirən bir günəş kimi doğuluşu da məhz bu bölmədə həyata keçirilir. "Seyyid", "Seyid Əli" adları ilə xatırlanan İmadəddin Nəsimi, onun şəxsiyyətli nüfuzu, rolu və gəlişi barədə Fəzlin müridlərinə məktubunda xəbər verilir [56, s.13].

Nəsiminin gəlişi xəbərini verən ustad və mürşid Fəzlin bu məktubunda Nəsiminin hürufizm cərəyanı içərisində əhəmiyyətli yeri, rolu və nüfuzu kifayət qədər açıq və etibarlı şəkildə ifadə edilmişdir. Bu məktubdakı məzmundan Nəsimi bir hərəkatın, yeni bir fikir dünyasının ümidi, həlledici qüvvəsi kimi obrazlaşmışdır. Nəsimi hürufilərin varlıq və yoxluq məsələsi dərəcəsində mühüm bir şəxsiyyət olaraq ümumiləşmişdir. Fəzl məhz onun qüvvəsinə, idrakına və fəaliyyətinə güvənərək məsləkdaşlarının gizlin fəaliyyətdən – batinlikdən çıxıb açıq fəaliyyətə keçməyinə ümidlə baxır və onun müjdəsini verir.

Məktub, bir az əvvəl bəhs etdiyimiz kimi, təsəvvüf strukturuna uyğun olaraq şifrəli – rəmzlərlə yazılmışdır. Yazıçı özü də buna aydınlıq gətirərək "Fəzl deyəndə Allaha, uca minbər deyəndə şah taxtına, adıyüksək dedikdə şaha, ordu dedikdə isə teymurilərə, namaz qılmaq rəmzi ilə isə gizlin danışığa" işarət edildiyini göstərmişdir [56, s.13]. Hətta izahatın dərhal ardınca da yazıçı Seyid Əliyə – Nəsimiyə olan bu qədər sonsuz ümidi bir daha mənalandıraraq onun namaz qılmasından – şahla danışmasından başqa bir qurtuluş yolu görünmədiyini yazırdı [56, s.13].

Artıq qeyd etdiyimiz kimi, yazıçı öz milli ideya və fikirlərini, Azərbaycan xalqının idealları və mübarizə imkanlarını təkcə Nəsiminin simasında deyil, siyasi imkanları özündə ehtiva edən və ümumiləşdirən Şirvanşah İbrahim şahın fikirləri ilə də ortaya qoymuşdur. Bu mənada, Nəsiminin ən qüvvətli sima kimi özünüifadəsi onun dövrün ortadoksal çərçivələrini özündə ümumiləşdirən obrazlar olan Əmir

Teymur, İbrahim şah, Şeyx Əzəm və başqaları ilə mükalimələrində daha mükəmməl ifadə olunmuşdur. Bu mükalimələrdə Nəsimi öz iti əqli, çevik təfəkkürü, dərin bilikləri, açıq və məharətli çıxışları ilə ortodoksiyanın rəmzinə çevrilmiş Əmir Teymuru belə yumşaldır, onun konkret və məcburiyyətdən yoğrulmuş qəti fikirlərini dəyişməyə müvəffəq olur. Yazıçı İbrahim şahın fikrinin, hürufilərə münasibətinin dəyişməsində Nəsiminin rolundan geniş bəhs etmiş, onun hökmdarların psixologiya və davranışlarına mükəmməl bələd olmasından da bəhs açmışdır [56, s. 31]. Yazıçı çox aydın şəkildə Nəsiminin təbliğat üsulunun fərqliliyi və fərdiliyini də diqqət mərkəzinə çəkmişdir. Fəzl elmi metodiki olaraq üstüörtülü, rəmzlərlə danışmağı və izahı tələb edirdi. Nəsimi fərdiliyinə görə isə elmin təlqini açıq və konkret ortaya qoyulmalı idi.

Yazıçı Nəsiminin qələbəsini, onun nüfuzunu, etibar və hörmətini də buna bağlamış, onun fərdi çizgilərini təsvir etmişdir. Nəsiminin mövcud ortadoksal düşüncə tərzini inkar səbəbi də açıq və konkretdir: *"Biz Allahın yox, yalançı "lailahəilləlah"ın inkarına durmuşuq"* [56, s. 31].

Fikrimizcə, Nəsiminin birbaşa fikrini ifadə etməsi üsulu elmi metodiki həmlə kimi qiymətləndirilməlidir.

Bu mənada Nəsimi şəxsiyyəti və obrazı ətrafında "Məhşər" romanının məzmunu çərçivəsində söhbət gedərkən əsərin kulminasiyasını təşkil edən Əmir Teymurla görüş səhnəsi daha çox maraq və diqqət qazanır. Məhz bu səhnədə Nəsiminin bütün şəxsiyyət qüdrəti, elminin təsviri, nitqinin məharəti tam keyfiyyəti, fərqliliyi və məziyyəti ilə təzahür tapır. Nəsiminin məharətli çıxış və dialoqu Fəzl elminin əsl qələbəsi kimi çıxış edir. Geniş həcmdə, olduqca dramatik, təsirli bir şəkildə bütün ayrıntı və dərin mətləblərilə birgə təsvir tapan bu görüşdə, müəllifin də yazdığı kimi, sanki *"İki dünya, iki aləm üz-üzə gəldi"* [56, s. 176]. Yazıçı Nəsimi şəxsiyyətinin əzəmətini həm də onun düşməninin, cəlladının dilindən belə söyləyir. Aləmləri lərzəyə gətirən Əmir Teymurun Nəsimidən necə təsirlənməsi, gərginlik duyması kontekstində qəhrəmanın düşmənlə münasibətdə bədii səhnənin dərkinə fayda gətirmişdir.

Dövrün ən güclü və qəddar hökmdarı Teymura özünün qüdrətli kəlamları ilə qələbə çalan Nəsimi, Bədirxan Əhmədovun da yazdığı kimi: *"Gücsüz" Nəsimi "Güclü" Teymura qalib gəlməsinin əsas nədənlərindən biri onun "kamil insan" olmasındadır. Kütlə üçün "Həqq" olan Nəsimi bütövlüyü, şəxsiyyəti və saflığı Teymur gücünə, qəddarlığına qalib gəlir. Teymur gücünə Nəimi və Nəsiminin qalib gəlməsi insanın, onun parlaq zəkasının qalib gəlməsidir"* [31, s. 475].

Lakin bunu da nəzərə almaq və qeyd etmək lazımdır ki, Nəsimi öz inkarçılığı – islamın bir qisim hökm və xüsusiyyətlərinin inkarına görə reallıqdan daha çox İ.Hüseynovun özünün ideal konsepsiyasının aydın təzahürü və ifadəsidir. Nəsiminin cəsarətlə islami hökmlərin bəzilərinə qarşı sərt və konkret inkarçı mövqe tutması, əlbəttə ki, ədəbiyyatşünaslığımızda və ictimai fikrimizdə mübahisəli məsələdir və müzakirə mövzusudur, eyni zamanda qəti bir məsələ deyildir. Bu barədə, əlbəttə, müxtəlif səpkili, bir-birilə ziddiyyət təşkil edən fikir və tezislər vardır. Bunu da unutmamaq lazımdır ki, Nəsiminin əsərləri öz ruhu, forması, məzmunu, bədii keyfiyyəti və s. etibarilə *"duyğudan çox təfəkkürə istinad edən"* [126, s.99] şeirlərdir və insanın *"oxuması, öyrənməsi və ağlını işlətməsi"nə* [128, s.246-249] çağırış edir. Bundan başqa Nəsimi həm də həyatı və fəaliyyəti əfsanələrə dönən ustad sənətkarlardan biri kimi bu suallara qəti cavab vermək imkanını da məhdudlaşdırır. Fikrimizcə, Nəsimi obrazı, Nəsimi şəxsiyyəti yazıçının öz məqsəd və niyyətlərini irəli sürmək, təqdim etmək və əsaslandırmaq vasitəsi kimi əsərdə çıxış edərək İ.Hüseynovun şəxsi idealına və onun fikirlərinin daşıyıcısına çevrilmişdir. Nəsiminin amalı və mücadiləsi *"orta əsrlərin mənəvi hökmranlığına qarşı"* [71, s.12] olmaqla insanlığın mənəvi əsarət və qaranlıqdan xilasına doğru idi. Nəsiminin əsərlərindən misralar, beytlər səsləndirilsə də, onların izahı, anlayışı yazıçı İsa Hüseynovun təbirincə yer almışdır. Buna görə də Nəsimi yazıçının ortodoksal islamı təmsil edən və "Div" adlandırılan Əmir Teymurla görüşündə islam peyğəmbərinin yenilikçi addımına birmənalı yanaşmayaraq onun inkarçı mövqeyində dayanmışdır.

Əsərdəki Nəsimi şəxsiyyətinin şərti görüş səhnəsində bu məzmunda sərt və birmənalı çıxışı, bizim də qəti fikrimizə görə, İ.Nəsimi şəxsiyyəti və dühasının tarixi həqiqəti və ya əsərlərinin ideyasından ortaya çıxan tezis olaraq mövcud deyil.

Halbuki, ədəbiyyatşünaslıq tədqiqatlarında da qeyd edildiyi kimi, İ.Nəsiminin yaradıcılıq konsepsiyası özündən sonra bədii ədəbiyyatda geniş yayılmışdır [119, s.218]. Vəhdəti-vücud fəlsəfəsinə dayanan və o dövrün ideya-fikir cərəyanlarından olan hürufiliyə məxsus fəlsəfənin mahiyyətinə əsasən əlavə tezislərin irəli sürülməsinə baxmayaraq, "Tanrı-İnsan" birliyini, yəni vücud, varlıq birliyi həqiqətini pozmur, inkar etmirdi. Əksinə, sanki hürufizm insanların diqqətini bir daha dini həqiqətə, islamın ilk ayəsindən doğan ilk hökmünə – "Oxu! Yaradan rəbbinin adı ilə oxu!" – hökmünə yönəldirdi və özünü, dünyanı və varlığı bir daha dərk etdirməklə kamilliyinə qovuşmasına yol göstərirdi. Əsər və onun ideyası haqqında bu kimi mübahisələr müxtəlif mənbələrdə də özünə yer almışdır. İ.Hüseynovun "Məhşər" romanı haqqında bəhs edən yazıçı Əzizə Cəfərzadə də əsəri islam dini, yalançı etiqad, xurafat və cəhalət, müharibə və istibdad əleyhinə yazılmış əsər kimi xarakterizə etmişdir [25]. Ə.Cəfərzadənin bəlkə də sovet dövrü ideoloji tələbləri çərçivəsində "Məhşər" romanının islam dini əleyhinə yazıldığı fikrini söyləmək olardı. Amma əsərin özündə də Nəsiminin dilindən deyilən fikirlər, hətta müəllif təhkiyəsi əsərdə, həqiqətən, bu məqamların açıq şəkildə olduğu və əks tapdığına dəlalət yaradır. Əsərə münasibət ifadə edən və təhlil aparan Vaqif Yusifli də Ə.Cəfərzadənin və onun kimi düşüncə sahiblərinin fikirlərinə münasibət ortaya qoyaraq əsərin islam dini əleyhinə yazılmadığını dilə gətirmiş və etiraz ifadə etmişdir [162].

V.Yusiflinin qəti etiraz fikrini də birmənalı qəbul etmək olmaz və fikrimizcə, doğru deyil. Əslində, Vaqif Yusiflinin bu qəti etirazı müstəqillik dövrü milli ideologiya və onun yaratdığı psixoloji mühit şəraitində meydana çıxan tezis və ya ədəbi fakt olaraq maraqlıdır. Bizim fikrimizcə, əsərdə islam dini əleyhinə xeyli sayda fakt vardır və bu olsa da belə, yazıçı İ.Hüseynovun dinlər və ya konkret olaraq islam dini haqqında fərdi düşüncəsinin nəticəsi olaraq əsərdə özünə yer alıb və eyni zamanda, bu fakt yazıçı və ya əsər haqqında hər hansı antipatik münasibət müəyyənləşdirə bilməz. Konkret olaraq hansısa din və ya düşüncə tərzi, cərəyan və s. haqqında inkarçı mövqedə dayanmaq fərdi münasibət faktı olaraq vicdan və fikir azadlığı şəraitində heç də anlaşılmaz deyil. Yəni yazıçının özünün fərdi

düşüncəsindən doğaraq islam dini haqqında hansı fikir ifadə etməsi yazıçı fərdiliyi və azad yaradıcılıq faktıdır.

Əlbəttə, mövcud ədəbiyyatşünaslıq fikirlərinə dayansaq, yazıçının tarixi obraz yaradarkən onu öz fikirlərinin ruporuna çevirmək imkanları inkar edilməyib. Lakin tarixi qəhrəman yaradılarkən şəxsiyyətin tarixi həqiqətlərinə sədaqət göstərməsi və onu tamamilə təhrif etməsi məsələsi qəbuledilməz olaraq göstərilmişdir. İ.Hüseynovun da əsərdə Nəsimidən, onun həyatı və yaradıcılığından çıxış edərək islam dini və onun bəzi hökmlərinə qarşı inkarçı mövqe nümayiş etdirməsi, əlbəttə, tarixi şəxsiyyət və faktın təhrifidir və bu mənada qəbuledilməzdir. Bunu da əlavə edərək qeyd etmək istərdik ki, artıq təsəvvüflə əlaqəli müxtəlif ədəbiyyatşünaslıq mənbələrində göstərildiyi və İ.Hüseynovun özünün də romanda istifadə etdiyi kimi İ.Nəsimi bir təsəvvüf, hürufi şairi kimi əsərlərində simvollardan istifadə etmişdir. Varlığın bütövlüyü və müxtəlif xüsusiyyətləri barədə fikirlərini istifadə etdiyi simvollar vasitəsilə məharətlə ifadə etmişdir. Bu mənada sovet ədəbiyyatşünaslığı xaric Azərbaycan ədəbi-bədii fikrində Nəsiminin islam əleyhinə bir şəxsiyyət və ya şair kimi təqdim edilməsi faktı mövcud deyil və bu, həm də orta əsrlər fəlsəfi cərəyanların nüvəsində dayanan islam fəlsəfəsi aktına da uyğun deyil. Məlum olduğu kimi, orta əsrlər dövrü təsəvvüf fəlsəfəsinin, müxtəlif fəlsəfi fikir cərəyanlarının yaranması, sovet tədqiqatçılığında da birmənalı şəkildə qeyd edildiyi kimi, islam fəlsəfəsinə dayanmış və onun üzərində yaranıb ortaya çıxmışdır: *“Təsəvvüf İslamın ruh həyatı və İslam Peyğəmbərinin şəxsində təmsil etdiyi mənəvi nüfuzun institutisionallaşmış və günümüzə qədər yayılmış geniş şəklidir. ...Təsəvvüf islami elmlərin zirvə nöqtəsi, irsi və nüvəsi olaraq ifadə edilmişdir”* [131, s. 17]. *“Nəsiminin insan konsepsiyasının zirvəsində kamil insan problemi dayan”*ması da [18, s.104] İ.Hüseynov olmaqla bütün yazıçılara əsas verirdi ki, özlərinin insan haqqındakı ideal düşüncə və arzularını dilə gətirə və ideallarını ifadə edə bilsinlər.

Bunu da əlavə etmək istərdik ki, Nəsimi bütün əqli və mənəvi qüdrəti ilə yazıçının ideal mövqe təmsilçisi, əsərin məhvərində duran dayaq nöqtəsi, meyar örnəyidir. Nəsiminin fikirləri kontekstində, əsərin ruhundan irəli gələrək onun islam dini əleyhinə yazılması faktını zahiri, çılpaq görünüşdə qəbul etmək doğru olardı.

Lakin diqqətli təhlil, ehtiyatlı yanaşma heç də yazıçının mövqeyinin tamamən bu cür olmadığını göstərir. Yazıçı bir neçə yerdə Nəsiminin dilindən hürufilərin əsas mübarizəsinin, Fəzl elminin əsl mahiyyətinin "yalançı lailahəilləllah"lığa qarşı olduğunu deyir. Bu isə, fikrimizcə, ortodoksal, sxolastik, ehkamçı bir düşüncəni təmsil etmək deməkdir. Deməli, yazıçı intibaha yön verən, onun mənbəyini təşkil edən islam dininə qarşı deyil, onu ehkamlarla buxovlayıb doqmatizm yaradan qüvvələrə qarşıdır. Görünür, yazıçı "yalançı lailahəilləllah" deməklə doqmatik dini ehkamçılığı və radikal islamı nəzərdə tutmuşdur. Əgər bunu da nəzərə alsaq ki, yazıçının ilk romanının ardınca "İdeal" kimi mühüm bir əsəri də ortaya çıxmışdır. Habelə yazıçı ötən əsrin 60-cı illərinin milli düşüncəli ədəbi nəslin ən sanballı nümayəndələrindən biri olaraq tanınır və yazıçının başlıca mübarizəsi Azərbaycan milli düşüncəsini məhv etməkdə olan sovet imperiyası və diktaturaçı ideologiyasına qarşı yönəlmişdir. O zaman yazıçının böyük məharətlə ümumiləşdirdiyi "yalançı lailahəilləllah"lığın məhz "yalançı, saxta sovet ideologiyası"nı ümumiləşdirdiyini qəti şəkildə ifadə etmək olar. Məhz yalançı sovet ideologiyası insanları milli mənsubiyyətindən qoparmış, milli düşüncəsindən məhrum etmiş saxta sovet vətəndaşı və ya adamı libasında məhv etməyə yönəlmişdi və İ.Hüseynov kimi yazıçılar da məhz bu mövqedən çıxış edərək öz əsərlərində simvolizələr, ümumiləşdirmələr edərək bu məsələləri gündəmə gətirmiş və tənqid etmiş, insanları oyanışa dəvət etmişdilər. Firudin Qurbansoy deyirdi ki. "*Məhşər*" romanı həddindən artıq zəif əsərdir. Orda Nəsimi obrazı yoxdur. Çünki İ.Hüseynov Nəsimi şeirini anlayacaq səviyyədə deyildi [82, s.56]. Deyilən bu fikri bu mənada qəbul etmək doğru olardı ki, İ.Hüseynovun "Məhşər" əsərində, artıq qeyd etdiyimiz kimi, tarixi şəxsiyyət, yaradıcılıq kredosuna uyğun yaradılmış Nəsimi obrazından daha çox yazıçı idealı olaraq təqdim edilmiş Nəsimi personajı vardır. Eləcə də, tənqidçi Əbülfəz Rəhimovun "İsa Hüseynovun mühakiməsi" başlıqlı məqaləsindəki dini və tarixi reallıqların təhrifi, "hürufizmin lazımınca tədqiq edilmədiyini" göstərməsi də məhz yazıçı subyektivliyini nəzərə almadan doğan fakt kimi dəyərləndirilməlidir. Tədqiqatlarda bu da qeyd edilmişdir ki, *"Romanda Nəsimi ilə Yusifin eyni ideyaya fərqli yanaşmasının kökündə duran səbəb də qədərincə aydınlaşdırılmamışdır.*

*...Romanda müəllif Yusifə peşman olduğunu, əməllərinin doğru olmadığını dedirdir. Yazıçı bunu bədiilik naminə, müsbət planda Nəsiminin mənəvi qələbəsini labüdləşdirmək xətrinə versə də, tarixin müvafiq dövrü ilə müqayisədə fakt özünü doğrultmur"* [54, s. 52]. Əsərdə Nəsimidən təqdim edilən beytlər və onların mənalandırılması da yazıçının öz şəxsi düşüncəsi kontekstində etibarlıdır və yazıçının şəxsi münasibətini ümumiləşdirir. Ədəbiyyatşünaslıqda qəbul edilmiş Nəsimi yaradıcılığı və şəxsiyyəti çox da özünü göstərmir. Çünki artıq qəti olaraq Nəsimişünaslar qeyd etmişlər ki: *"Nəsiminin zəngin poetik irsi hürufilik məfkurəsinin, etiqadının sözlə ən dolğun və sərrast bədii-estetik təzahürü, poetik manifestidir"* [16, s. 198]. Buna görə də, fikrimizcə, "Məhşər" əsərini təqdir edənlər də, tənqid edənlər də öz meyarlarında doğrudurlar və hər tərəfin özünəməxsus meyarları və həqiqətləri vardır. Yəni ədəbi-tarixi Nəsimi şəxsiyyəti etibarilə əsərdə zəif obraz yaradılmışsa da, yazıçının yaşadığı sovet ideoloji mühiti əleyhinə mübarizə kontekstində uğurlu milli və bəşəri Nəsimi obrazı yaradılmışdır fikrinə, qənaətinə də gəlmək olar. Bu baxımdan Yavuz Axundlunun müəllifin əsəri yazmaq, tarixi həqiqəti gözləmək üçün ciddi axtarışlar apardığı haqda fikri ilə razılaşmaq olmaz [4, s.206]. Nəsimi obrazını yaratmaq üçün tarixi roman haqqında yazılmış müxtəlif tədqiqat əsərlərindən çıxış edərək belə qənaətə gəlmək olar ki, İ.Hüseynov "Məhşər" əsərinə tarixilik, sənədlilik və xronika zəruriliyindən daha çox sərbəst düşüncə ilə yanaşmış, hadisə və faktlarla azad davranmışdır. Necə ki qeyd edilir: *"İkinci tendensiya: tarixi mövzulu əsərlərdə bədii şərtiliyə güclü meyil, tarixi hadisələrə sərbəst münasibət, hadisələrin inkişaf istiqamətlərinin sənətkar təxəyyülü ilə şərtlənməsi..."* [106, s.135].

Romanda Nəsimi birinci növbədə Fəzlin – Azərbaycanda geniş yayılmış hürufizmin banisi və başçısı Fəzlullah Nəiminin varisi kimi təqdim edilmişdir. Yuxarıda qeyd edilənlərə əlavə olaraq deməliyik ki, xüsusilə əsərin sonuna doğru "sirr pərdəsi"nin açıldığı, batiniliyin zahirə qovuşduğu, həqiqətin batinilikdən xilas olub ortaya çıxdığı bir dövrdə Nəsimi Fəzlin varisi kimi daha çox diqqəti cəlb edir.

Yazıçı, Fəzlullah Nəiminin davamçısı olan Nəsimini digər mürşidlərlə müqayisədə daha üstün tutmuş və onu ön plana çıxarmışdır. Yazıçı onun zəkasını, cəsarətini, təbliğat metodunu elə təqdim edir ki, Fəzullahın varisi olmaq etibarilə

Nəsimi şəxsiyyəti oxucunun nəzərində yüksəklərə ucalır. Nəsimi yazıçı təqdimatında böyük bacarıqla Fəzl elmi haqqında sxolastikanı sındırmağa, yalançı elmi darmadağın edərək əsl, gerçək həqiqətləri ortaya qoymağa, Fəzl elminin əsl mahiyyətini anlatmağa müvəffəq olur: Nəsimi Fəzl elminin əsl mahiyyətinin silahda olmadığını, ədalət səltənətinin elmdən kənar, qeyri-həqiqi, yalan olduğunu izdihama başa saldı. Uydurulmuş yalançı tezisləri inkar edən Nəsimi izdihama həqiqətin əsl üzünü çatdırdı ki: *"Fəzli-həqqin bir səltənəti var, o da cəmi yer üzündə həqq səltənətidir!"* [56, s. 144].

Nəsiminin əsl, doğru həqiqəti ilə Yusifin yalançı, zahiri həqiqəti arasında çarpışma gedərkən Fəzlin davranışına diqqət çəkən yazıçı onun tək bir kəlmə *"Riya! Yenə riya!"* [56, s. 145] deməsi yalanı inkar, həqiqəti təsdiq aktına xidmət etmiş olur.

Nəsimi bu həqiqəti başqa müridlərdən fərqli olaraq daha konkret, daha açıq şəkildə cəsarət göstərib bilavasitə "Div" adlandırılan dövrün şər qüvvələrinə – Əmir Teymura, onun din xadimlərinə, üləma və ədiblərinə birbaşa söyləyir. Fəzl elminin əsl həqiqətini Əmir Teymura məhz Nəsimi çatdırır. Kamil olmayan müridlər üzündən Fəzl elminin gerçəkliyi ilə çatdırılmadığını Nəsimi böyük məna gücü ilə ortaya qoymağa və Əmir Teymur qəzəbini sındırmağa nail ola bilir. Yazıçı əslində zalım, qəddar, başkəsən, mərhəmətsiz, sözdinləməyən və başqa keyfiyyətlərlə xarakterizə edilən Əmir Teymurun diqqətini, söhbətə marağını, Fəzl elminin sirrinə vaqif olmaq ehtiyacını məhz Nəsimi öz bacarığı və təsirli nitqi, cəsarətli davranışları ilə yumşalda bilir. Nəsiminin cəsarətli və ağıllı çıxışlarına maraq bəslədikcə, hətta ən qaniçən cəllad kimi tanınan Şeyx Əzəmin çağırışlarına belə məhəl qoymayan Əmir Teymur Nəsimini dinləməyə davam edir və beləliklə, özü haqqındakı zalımlıq pərdəsini də yırtmış olur. Əmir Teymur Nəsiminin çıxışına sona qədər qulaq asır və onunla həmsöhbət olur. Nəsimi Fəzl elminin mahiyyətini izah etməklə davamçılarının Teymura düşmən olmadıqlarını və onların hərb məqsədi daşımadıqlarını izah etdikcə Əmir Teymurun ona olan münasibəti yumşalmağa və marağı artmağa davam edir. Nəsiminin öldürülmədən, heç bir cəzaya məhkum edilmədən Əmir Teymurun hüzurundan sağ-salamat geri dönməsi, həmçinin ustadı Fəzlin buraxılaraq müəyyən

vaxta qədər əfv edilməsinə nail olması şairin, Fəzl müridinin, Fəzl varisinin əsl və möhtəşəm qələbəsi kimi qeyd oluna bilər.

Beləliklə, haqqında nə qədər elmi-tənqidi, ziddiyyətli fikirlər olsa da, Azərbaycan tarixi nəsrində Nəsimi obrazının bütün möhtəşəmliyi və əzəmətilə yaradılan ən qiymətli əsər İ.Hüseynovun "Məhşər" romanıdır. Yazıçının ilk romanı olan "Məhşər" əsəri sovet ideoloji mühitində bütün düşüncələrin və əməllərin məhşər ayağına çəkildiyi ən qiymətli əsər olaraq səciyyələnməkdədir. Nəsimi obrazı burada bütün möhtəşəmliyi ilə yaradılaraq əsərin məhvərini təşkil etmiş, yazıçının şəxsi ideallarının ifadə edildiyi bədii vasitə kimi çıxış etmişdir. Nəsimi davranışı, fikirləri ilə yazıçının idealı, ideoloji mühitə qarşı mübarizəsinin təcəssümü, əqidə və amallarının daşıyıcısı kimi çıxış edir. Bu mənada, Nəsimi obrazı yazıçı üçün dövrün və bütün ictimai-tarixi epoxanın meyarıdır. Beləliklə:

– Azərbaycan bədii nəsrində də Azərbaycanın mütəfəkkir şairi İ.Nəsiminin mükəmməl obrazı yaradılmışdır;

– Yazıçı İ.Hüseynovun "Məhşər" əsəri Nəsimiyə həsr olunan ilk mükəmməl tarixi nəsr örnəyidir;

– Əsərdə Nəsimi şəxsiyyəti ilə bərabər dövr və mühit də genişliklə əks etdirilmişdir;

– Əsərdə Nəsimi obrazı real Nəsimi şəxsiyyətindən daha çox yazıçının fərdi düşüncəsinin məhsulu olan Nəsimi obrazı kimi çıxış edir;

– Nəsimi aparıcı bir obraz olaraq əsərdə yazının ideallarının və düşüncələrinin ifadəçisidir;

– Əsər haqqında mübahisələr olsa da, tarixi nəsrimizin şah əsərlərindən olan "Məhşər" əsəri Nəsimi, Nəimi, İbrahim şah və Əmir Teymur kimi görkəmli tarixi şəxsiyyətlərin yaşayıb-fəaliyyət göstərdiyi bir epoxanı özündə əks etdirən mükəmməl əsərdir;

– Yazıçının əlavə etdiyi, hətta uydurduğu bir çox səhnələr qeyri-real olsalar da, əsərə rəngarənglik qatmaqla bərabər yazıçı məqsədinin açılmasına güclü təkan vermişdir.

## 2.2. Mahmud İsmayılın "İki od arasında" əsəri Nəsimi şəxsiyyətinin əks olunduğu ədəbi-bədii mənbə kimi

Nəsimi obrazının yaradıldığı möhtəşəm və əhəmiyyətli əsərlərdən biri də tarixçi alim və yazıçı Mahmud İsmayılın tarixi roman janrında yazdığı "İki od arasında" romanıdır. Əsər, adından da göründüyü kimi, iki dağıdıcı hərbi-siyasi qüvvənin arasında sağ qalmaq və mübarizə aparmaq ideyasını ifadə edir. Xatırladaq ki, "İki od arasında" eyniadlı əsərin digərinin də müəllifi Y.V.Çəmənzəminlidir. Y.V.Çəmənzəminlinin "İki od arasında" əsəri başqa adla "Qan içində" adlandırılmış və Azərbaycan tarixinin başqa bir əhəmiyyətli dövrünü təşkil edən XVII əsr Qarabağ ictimai-siyasi mühiti, İbrahim xan və onun Şah Qacarla hərbi-siyasi qarşıdurması, bu mürəkkəb zamanda dövrün görkəmli ədəbi siması, siyasi xadim Molla Pənah Vaqifdən bəhs etmişdir.

Tarixçi alim və yazıçı M.İsmayıl Əmir Teymurun işğalçılıq yürüşü apardığı dövrlərə baş çəkmiş, bu dövrün mühüm əhəmiyyət kəsb edən məsələlərini işıqlandırmış, Azərbaycanın tarixi şəxsiyyətlərinin təbliğ edilməsi baxımından önəmli olan mühüm bir əsər ortaya qoymuşdur. Bu mənada yazıçı dövrün mühüm hadisələrindən olan hürufizm cərəyanı və onun banisi, ustad Fəzlullah Nəiminin müridlərindən biri kimi Nəsiminin obrazını yaratmışdır. *"Yazıçı-tarixçi Mahmud İsmayılın "İki od arasında" romanında daha çox Şirvanşahlar dövrünə müraciət olunmuşsa, "Məhşər" romanında XIV əsr ictimai-siyasi həyatımızda hadisəyə çevrilən hürufizm fəlsəfi cərəyanı və təsəvvüf ədəbiyyatımızın görkəmli siması, hürufi şair İmadəddin Nəsiminin həyatı və dövrü qələmə alınmışdır"* [54, s. 55].

"İki od arasında" romanının əsas qayəsini Azərbaycanın durumu və aqibəti məsələsi təşkil edir. Buna görə də yazıçı əsas hadisələri müxtəlif işğalçı qüvvələrin və siyasətlərin arasında qalan Azərbaycan və bilavasitə, ölkənin əsas dövlət qurumu olan Şirvan hökmdarlığından bəhs açmışdır. İşğalçılara qarşı mübarizənin genişləndiyi və hürufizmin yayıldığı bir şəraitdə yazıçı dövrün mühüm ictimai-siyasi hadisələrini öz əsərində işıqlandırmağa çalışmışdır. Yazıçı hürufizmin həmin dövrdəki rolu, cərəyanın ideoloji əsasları, başlıca şəxsiyyətləri, mübarizə məqsədləri və üsulları kimi

vacib məsələləri də diqqət mərkəzinə gətirmişdir. Bununla belə, hürufizm və onun liderlərindən olan Nəsimi əsərin başlıca məsələsi olmadığından əsərin imkan verdiyi çərçivədə yazıçı ondan bəhs açmışdır. Burada Nəsiminin obrazı digərlərilə müqayisədə daha ətraflı, əhatəli və əzəmətli yaradılmışdır. Hətta hürufilik cərəyanının lideri, ustadı Fəzlullah Nəiminin özünün belə obrazı əskik yaradılmışdır. Digər müridlər və onların fəaliyyəti də Nəsiminin yaradılan obrazının kölgəsində itmişdir. Yazıçı eyni zamanda, həm tarixçi olması ilə həmin dövrü, eləcə də Nəsiminin həyatı, taleyi və şəxsiyyəti ilə bağlı mövcud olan ən müxtəlif mülahizələri də dəyərləndirmiş, həm də Nəsiminin obrazı yaradılan əvvəlki əsərlərdən fərqli olaraq daha geniş və real təsvir olunmuşdur.

Əsərdə Nəsiminin adı dövrün şahənşahı Əmir Teymurun oğlu Miranşahdan məlumat alması sırasında yer tapmışdır. Miranşah İbrahim şah haqqında "dinsiz" deyə bəhs edərkən onu əsaslandırmaq məqsədilə hürufizmin lideri Fəzlullah Nəimiyə və onun şagirdi İ.Nəsimiyə də müraciət etməli olur: *"Teymurləngin dinmədiyini görən Miranşah ürəkləndi:*

– *Ulu hökmdarım, Şirvanşah ağıllı görünsə də, dinsizdir. Dinsiz adamı ağıllı hesab eləmək olarmı?*

*Miranşahın nəyə işarə etməsi Teymurlənglə vəzirə həmin an çatdı, sərkərdələr isə heyrət içində qaldılar. Teymurləng oğlunun sözlərini başa düşməyibmiş kimi tam soyuqqanlıqla soruşdu:*

– *Onun dinsizliyini nədə görür şahzadə?*

*Miranşah lap ürəkləndi:*

– *Özün bilirsən ki, o, hürufiləri, o, dinsizləri himayə eləyirdi, onların, əstəğfürullah, allah saydıqları Fəzlullah Nəimiyə Bakıda sığınacaq vermişdi. Onun şagirdi Nəsimi isə lap son zamanlara kimi Şamaxıda yaşayırdı"* [60, s. 49-50].

Göründüyü kimi, yazıçı Şirvanşah İbrahim haqqında məlumat sırasında Nəsimini sadəcə ad etdibarilə yada salmış və Miranşahın "dinsiz" fikrini əsaslandırmaq məqsədini daşımışdır. Çünki izahdan da göründüyü kimi, Miranşah Əmir Teymura məlumat verərkən bildirir ki, hürufilər Fəzlullahı "Allah" hesab edirlər və bu üzdən onlar dinsizdirlər. Bununla belə yazıçının ad çəkmə etibarilə

Fəzlullah Nəimini və İmadəddin Nəsimini hökmdar Teymur Sahibqran hüzurunda anladılması adi məsələ deyildi və həmin adların hadisələrlə ən əhəmiyyətli dərəcədə bağlılığı və onların nüfuzu barədə məlumat verirdi. Əlbəttə, Əmir Teymur kimi zamanının hökmdarı yanında Şirvanşah İbrahimi dolaşdırmaq məqsədilə Nəimi və onun şagirdi Nəsiminin adlarının göstərilməsi onların ciddi fəaliyyət sahibi olduqları haqda da ilkin məlumat formalaşdırırdı. Söz yox, oxucu bu sırada “Fəzlullah kimdir?”, “Onun şagirdi Nəsimi kimdir?”, “Şirvanşah İbrahim kimi bir siyasət adamı və hökmdarla onların əlaqəsi və münasibəti nədir?”, “Miranşah Şirvanşahı məhv etmək üçün niyə onların adlarına istinad edir?” kimi suallara cavab axtarılır. Bu da əsərin müəyyən hissəsində bu cür suallara aydınlıq gətirilməsinə, beləcə süjetin irəlidə daha da şaxələnməsi və hürufilərlə əlaqələnməsinə məntiqi zəmin hazırlamış olur. Yazıçı hadisələri inkişaf etdirdikcə oxucunu düşündürən suallara və başqa digər məsələlərə aydınlıq gətirməli olmuş, Nəsimi və onun ustadı Fəzlullah, ümumən, hürufilik haqda yığcam və bitkin bir məlumat verməyə nail olmuşdur.

Yazıçı qeyd edilən mühüm suallara və o əhatədəki digər məsələlərə əsərin “Nəsimi” adlanan bölməsi və ondan sonrakı bölmələrdə məlumat vermişdir. “Nəsimi” bölməsi sırf şairin obrazını əks etdirən başlıca bölmələrdən biri kimi yadda qalır. Burada da müəllif İ.Hüseynovun “Məhşər” əsərində olduğu kimi Şirvanşah İbrahimi hürufilərə dəstək göstərən hökmdar, siyasət adamı kimi təqdim edir. Yazıçı Qazi Zəhirəddinlə Dərvişin söhbətində Dərvişin dilindən: *“Sahibqran Fəzlullahı çoxdan boğazından asdırmaq istəyir. Ancaq o, Şirvana sığınıb, Şeyx İbrahim də ona sığınaq verib”* [60, s. 85], – deyə replika ortaya atmaqla bunu təsdiq etdirmiş olur. Bir az əvvəl Miranşahın Əmir Teymura cavabında da yazıçı Şeyx İbrahimin hürufilərə və onun başçısı Fəzlullah Nəimiyə kömək etdiyini, onları müdafiə etdiyini bildirməklə bu faktı ifadə etmişdi. Bununla da yazıçı Azərbaycanın siyasi və mənəvi elitasının bir olmağını, birliyinin vəhdətini ifadə etmişdir ki, bu da işğalçıya qarşı Azərbaycan xalqının mübarizə əzminin həmrəyliyini göstərmək baxımından çox tutarlı detaldır.

Yazıçı Nəsiminin Fəzlullahın ən sədaqətli, etibarlı və layiqli davamçısı olduğunu bildirmək üçün Şeyx İbrahimin Fəzlullahın dərhal Bakıdan tezliklə çıxmalı

olduğu barədə göndərdiyi xəbəri məhz onun ustadına bildirdiyini əsərində göstərmişdir. Yazıçı bu minvalla Nəsiminin etibarlılığı və ustada yaxınlığını nişanə vermişdir. Çünki aydın məsələdir ki, belə çətin və vacib tapşırıqların icrası üçün ən etibarlı və güvənli bir adama ehtiyac vardı ki, belə məxfi xəbərləri sızdırmadan, təcili ünvanına çatdıra bilsin. Yazıçı da xəbərləşmələrdə Nəsiminin rolunu göstərməklə onun həm ustadına, həm də Şirvanşah İbrahimə yaxın və etibarlı olduğunu bu kimi detallarla ifadə etmişdir.

Burada diqqəti çəkən və "Məhşər" əsərilə də üst-üstə düşən məqamlardan biri Nəsiminin Naxçıvanla – Əlincə qalası ilə əlaqəsinin təsbit edilməsi məsələsidir. "Məhşər" əsərində də yazıçı Nəsiminin hürufilərin başlıca dayaqlarından biri kimi təqdim edilmiş Əlincə qalası ilə əlaqələrindən bəhs etmişdir. Yazıçı və tarixçi alim Mahmud İsmayıl da Nəsiminin Əlincə qalası ilə əlaqələrindən bəhs etməyi vacib hesab etmişdir. Belə ki, ədib Fəzlullaha Bakıdan çıxmalı xəbərinin Nəsimi ilə ötürülməsi detalından sonra onun Naxçıvanda, Əlincə qalasında gizlədilməsi zəruriətindən bəhs etməli olmuşdur. *"Nəsimini Naxçıvanda gizlətmək qət olundu. Teymurləngə boyun əyməyən Əlincə qala müdafiəçiləri onu da göz bəbəkləri kimi qoruyacaqdılar"* [60, s. 87].

Nəsimi haqda təfərrüatlı, geniş bəhs edilməsə də, "İki od arasında" romanındakı mühüm obrazlardan biri olaraq çıxış edir. "İki od arasında" romanında da Nəsimi hürufizmin ən etibarlı, başlıca şəxsiyyətlərindən biri, hətta Fəzlullah Nəiminin mənəvi varisi, davamçısı kimi təsvir və təqdim olunmuşdur:

*"O, Ümülbanunu, Nəsimini bağrına basdı və dedi:*

*– Oğlum, başıma bir iş gəlsə mənim yerimdə sənsən"* [60, s. 87].

Əsərdə Fəzlullah Nəiminin Bakıdan çıxmasından sonrakı müddətdə müridlərdən birinin yeni xəbərlə Nəsimini axtarması səhnəsi də Nəsiminin hürufilik cərəyanı içərisindəki nüfuzu və yerini göstərmək baxımından olduqca əhəmiyyətlidir.

Yazıçı Nəsimi obrazını hürufizmin Fəzlullah Nəimidən sonrakı davamçısı və lideri kimi görməklə kifayyətlənmir, eyni zamanda Nəsimini gözəl aşiqanə qəzəllərin müəllifi kimi bir aşiq, bir sevdalı şair kimi də təqdim etmişdir. Ədəbiyyatşünas V.Quliyevin Əlisa Nicatın "Qızılbaşlar" əsərindəki Şah İsmayıl Xətai haqqında

işlətdiyi fikri burada parodiya olaraq istifadə edən yazıçı M.İsmayıl hürufizmin ideoloqlarından olan Nəsimi ilə şair Nəsimini bir-birindən ayırmamış, *"əslində onun surətini daha da tamamalanmış cizgilərlə təqdim etmək üçün obrazın tərcümeyi-halındakı, şəxsi həyatındakı paradoksal ştrixləri vəhdətdə canlandırmışdır"* [79, s. 167]. Yazıçı Nəsimini Fəzlullahın Bakını tərk etməsi səhnəsindən sonra ustadın qızı Ümülbanu ilə aşiq-məşuq olaraq, bir-birinə sevdalı gənclər kimi təqdim etmişdir. Nəsimi Ümülbanudan ötrü yalnızca ustadının varisi, ailə üzvü, yadigarı, qızı olaraq deyil, həm də dəlicə aşiq olduğu sevdalısı kimi nigaranlıq duyur:

*"Ümülbanu sevgilisinin ürək çırpıntılarını dinləyirdi. Nəsimi bu dəfə də onun başını iki əli ilə qaldıraraq gözlərini onun gözlərinə dikdi. Bu gözlər hara, bayaqkı gözlər hara. Onlar nə qədər dəyişmişdi. Şəfqət və məhəbbətlə dolu idi. O, pıçıltı ilə Ümülbanuya dedi:*

*– Qorxma, mənim canım, ciyərim, nədən qorxursan, məni səndən, səni məndən kim ayıra bilər?"* [60, s. 89].

Ümülbanunun: *"Sən şairsən, kəlamların daha güclüdür, yəqin ki, səndən də qorxurlar, belə olan surətdə səni də təqib eləyə bilərlər, səni də tuta bilərlər"* [60, s. 89], – deyə bəhs etməsi Nəsiminin həm xoş kəlamlı şair, həm də onun nüfuzlu və tanınan bir şəxsiyyət, lider olmasından xəbər verir.

M.İsmayıl da aşiq və şair Nəsimidən bəhs etdikcə, onun sevgi və sevda yoluna baş vurduqca şairin öz əsərlərinə istinad edir, beytlərindən nümunə gətirir, orijinal misralarla şairin aşiqanə duyğularını, onun aşiq Nəsimi obrazına şeirlərindəki duyğuları ilə baş çəkməli olur:

*Fələk əksinə dövr eylər, məgər axır zaman oldu,*
*Qəfəsdə tutiyi qumri, çəmənlərdə qurab oynar* [60, s. 91].

Fəzl müridlərindən olan Hüseynin ustad Fəzlullahı Əlincədə xilas edə bilməyib, ölüsünü dəfn edib geriyə qayıtdıqdan və Bakıdakı hürufilərə xəbər verdikdən sonra Nəsiminin dilindən deyilən "Ayrılır" rədifli qəzəl də orijinal yaradıcılıq nümunəsi olmaqla Nəsiminin özünə aiddir.

Ümumiyyətlə, bu qəzəlin ədəbiyyatşünaslıqda və ədəbi tənqiddə Nəsimi tərəfindən böyük ustadı Fəzlullah Nəiminin ölümü münasibətilə ondan ayrılığına həsr

etdiyi göstərilir. Qəzəldə sevgilisindən ayrılan bir aşiqin dərin iztirab və ağrılı kədər duyğuları yer almışdır. Maraqlıdır ki, digər müəlliflər də bu qəzəldən Nəsiminin ustadı Fəzlullah Nəiminin ölümünə ağı olaraq istifadə etmişlər. “Məhşər” əsərində də Fəzlullahın ölümü zamanı Nəsimi məhz bu qəzəlini söyləmiş, öz fikir və duyğularını ifadə etmişdir. “İki od arasında” əsərində Nəsimi Fəzlullah Nəiminin ölüm xəbərini eşidib onun fiziki ayrılığından doğan kədəri “Ayrılır” rədifli qəzəli ilə ifadə edirsə, ona olan bağlılığını “Ənəlhəq” ideyasını özündə ifadə edən “Gəlmişəm” rədifli qəzəli ilə ifadə etmişdir.

Əsərin süjeti ilə əlaqədar təqdim etdiyimiz bu nümunələr Nəsiminin hiss və duyğularını əks etdirmək baxımından çox əhəmiyyətlidir. Bu, bir tərəfdən Nəsiminin istedadlı və yüksək təbli bir şair olmasını göstərirsə, digər tərəfdən də şairin hürufizmə mənsubiyyətini uğurla əks etdirən örnəklər olaraq səciyyəvidir və əsərin ideya-estetik qüvvəsinə əlavə güc qataraq onu zənginləşdirir.

Əsərdə Nəsiminin dilindən verilən: *“Allahımız Fəzlullah vəsiyyətnamə qoyub gedib. Mən allahımın müqəddəs vəsiyyətinə əməl eləməliyəm, onun əyalını Bakıdan köçürməli, o ailəyə qaynayıb-qarışmalıyam. Bir də... bir də mən onun kiçik qızı Ümülbanu ilə evlənməli, ailə qurmalıyam. Allahımın bu vəsiyyətinə görə sabah səfərə çıxırıq, uzaqda, çox güman ki, Bağdadda, yaxud Hələb şəhərində məskən salmaq fikrindəyəm. Biz orada ustadımızın fikirlərini, öz təriqətimizi yayacağıq”* [60, s. 104]. Bu fikirlər hürufizm cərəyanı daxilində rəmzi analayışlarla əlaqədar bəzi məsələləri ifadə etmək baxımından əhəmiyyətlidir. Nəsiminin Fəzlullaha “Allah” deyə müraciət etməsi təriqətin struktural mahiyyətini açmaq baxımından təqdim edilmişdir. Nəsimi bu kimi əlaqədar səhnələr daxilində hürufizmə, onun ustadı Fəzlullaha qırılmaz əqidəsi və ona əbədi bağlı olduğunun mənəvi varisi kimi çıxış edir. Bu süjet daxilində Nəsiminin hürufilik cərəyanı içərisində nüfuzu və rolu da aydınlığı ilə ifadə olunur. Nəsimi bölmənin sonunda hürufilərə müraciətlə: *“Qardaşlar, ustadımız məni öz yerinə vəsih etmişdir. Biz hamımız, ustadımız kimi “ənəlhəqq” deyirik”* [60, s. 105], – deyə bildirməklə özünü hürufizmin böyük ustadı Fəzlullah Nəiminin “varisi” olduğunu elan etməsilə bitir.

Bunu da qeyd edək ki, əsərdə, fikrimizcə, Nəsiminin obrazı gözlənilən kimi əhatəli, əzəmətli və cəlbedici deyil. Hətta tarixi şəxsiyyət, real hadisələr fonunda da Nəsimi çox kiçik görünür. Doğrudur, əsərin baş qəhrəmanı Nəsimi deyil, əsərdə siyasi hadisələr mənəvi məsələləri üstələyir. Lakin əsərdəki hadisələr hürufizmi də yaxından əlaqələndirdiyinə və əhatə etdiyinə görə Nəsiminin də bir şəxsiyyət-obraz olaraq yer alması zəruri idi. Əsərdə Teymur işğalı və hürufizmin yayılması kimi məsələlər öz əksini tapdığı üçün bu kimi məsələlərə aydınlıq gətirilməsi fonunda Nəsiminin də nəhəng və əzəmətli siması əsərdə öz əksini tapmalı idi. Müəllif Nəsimini bir obraz olaraq əsərə gətirib, lakin, təəssüf ki, Nəsimi nəhəngliyi, həmin hadisələr kontekstində yeri, rolu, nüfuzu tam canlılığı ilə əks edilə bilməyib. Nəsimi hadisələrin axarında adicə bir obraz olaraq yer alıb, halbuki əsərin bu bölmədəki süjet xətti, hadisələri hürufizmlə əlaqədar olduğu üçün müəllif də öz məqsədinə uyğun olaraq Nəsimini daha canlı, əzəmətli bir obraz olaraq təsvir edə bilərdi. Nəsiminin taleyi, yaradıcılığı, əsərləri dövrün hadisələri ilə çox sıx əlaqələnir.

"İki od arasında" romanının müəllifi M.İsmayıl Nəsiminin tərcümeyi-halına bir az ətraflı, fərqli yanaşmaq istəmişdir. Yusiflə şirvanlıların söhbəti kontekstində yazıçı Nəsiminin ailəsi barədə, onun atası Seyid Məhəmməd, böyük qardaşı Şahxəndan barədə xatırladıcı məlumat daxil etmişdir. Hətta yazıçı Nəsiminin həyatı haqda mübahisəli olsa da, müəyyən məlumatlarda qeyd olunan kimi onun evlənməsi, Bağdadda yaşaması və uşaqlarının olması haqqındakı fikirləri də əsərə gətirməklə Nəsimi barədə tərcümeyi-hal materialını genişləndirmək istəmişdir. *"Bir neçə şəhər və kəndləri gəzdikdən sonra Bağdada gəldilər. Nəsimi burada Ümülbanu ilə evləndi. Onlar bir ildən artıq Bağdadda yaşadılar. Onun bir oğlu da oldu, adını Nəimi qoydu. Nəsimi Bağdadda geniş fəaliyyət göstərirdi, müridlərinin sayı xeyli artmışdı"* [60, s. 220]. Əlbəttə, Nəsimi haqqındakı bu məlumatlar əsəri zənginləşdirməklə bərabər, oxucuya tam məlumat verilməsi baxımından da uğurlu alınmışdır. Əsərdə Nəsiminin taleyi barədə nisbətən daha geniş, təfərrüatlı məlumat vermək cəhdi, əlbəttə ki, tarixçi alim olan yazıçının fərqli mülahizəsindən irəli gəlmişdir. Başqa mülahizələrdə Nəsimi ustadı Fəzlullahın Fatimə adlı qızına aşiq olması barədə söhbətlər gedərkən, M.İsmayılın mülahizəsində isə şairin Fəzlullahın Ümülbanu adlı kiçik qızı ilə əhd

bağlaması və ailə həyatı qurması ilə şəkillənmişdir. Hətta yazıçı İ.Nəsiminin evlənməsindən sonra bir oğlunun olması və onun adını Nəimi qoyması barədə də danışmışdır. Əlbəttə, bütün bunlar tam dəqiq məlumatlar olmasa da, mülahizələrdə özünə yer tapmaqdadır. Görünür ki, yazıçı bu mülahizələrdən çıxış edərək Nəsimi şəxsiyyəti və onun taleyi barədə daha fərqli və əhatəli bir bədii tərcümeyi-hal ortaya qoymağa cəhd etmişdir. Yazıçı Nəsiminin hürufi və şair əzəmətindən daha çox onun şəxsi həyatı barədə başqalarının dilindən məlumat vermişdir. Xüsusilə, Nəsiminin Bağdadda və digər yerlərdə kütlə içərisində hürufiliyin əsasları haqda çıxışlar etməsi daha əlamətdar və Nəsimi obrazını tamamlayan ən lüzumlu məqamdır. Söylədiyi şeirlər onun şəxsiyyətindəki şairlik və hürufilik içərisindəki ideoloqluq tərəfləri ilə əlaqəli şəkildə tamamlanmış və ona nüfuz və əzəmət qazandırmışdır. Dialoqlarda belə Nəsiminin şöhrətindən, onun nüfuzundan və istedadından söhbət gedir və bununla da yazıçı Nəsimi şəxsiyyətilə bağlı məlumatlarını genişləndirmək məqsədi daşıyır:

*“Nəsimi indi Bağdad, Hələb şəhərlərində ən ilhamlı, ən böyük şair hesab olunur. Hökmdarlar onu saraylarına çağırıblar, hamısından imtina eləyib”* [60, s. 318]. Və yaxud: *“Bəli, Nəsimi dövrümüzün ən böyük şairi və mütəfəkkiridir. Onu Nizami, Firdovsi, Xaqani ilə yanaşı qoyurlar. Mən deyərdim ki, o daha böyük adamdır, farsca şeirlərlə yanaşı o, doğma ana dilində şeir yazan ilk şair olmasa da, birincilərdəndir”* [60, s. 318]. Yazıçı Nəsimini, hətta bütün ailəsini hürufizmin təbliğinə yönləndirən fədakar və qabil bir təriqət lideri olaraq təsvir etmiş və onun ailəsinə olan məktubunda da məhz bu notları dilə gətirmiş və diqqətə çatdırmışdır: *“Atam, sən də böyük ustadın təlimini yaymaqda davam edirsənmi? Şahxəndan, Yusif sənə kömək edirlərmi? Qoymayın ki, Şirvanda, Azərbaycanda ulu Fəzlullahın kəlamları eşidilməz olsun. Mən Fəzlin təlimini şeirlərlə təbliğ edirəm, bu yaxşı üsuldur, tərəfdarlar tez yığılır, şeirlər dodaqdan-dodağa, qəlbdən-qəlbə köçür, şeirlərə bahəm, onların qayəsi ürəklərdə, beyinlərdə yer tapır. Şeirlərdən üçünü sizə göndərirəm. Məndən nigaran qalmayın, sizdən uzaqlardayam, qəlbim isə sizinlədir, vətən torpağıilədir”* [60, s. 316].

*"Hürufilik ədalətsizliyə, cəhalətə, ən çoxu Teymurləngin işğallarına qarşıdır"* [60, s. 319], – deyə əsərdə müəyyən qədər Nəsiminin yaradıcılığı, təlimləri, söhbətləri və çıxışları kontekstində hürufizmin nəzəri-ideoloji əsasları da əks etdirilmiş, Nəsiminin hürufi ideoloqu olaraq siması canlandırılmışdır.

Beləliklə sonda aşağıdakı nəticələrə gəlirik:

– Böyük Azərbaycan şairi İ.Nəsiminin obrazı yaradılan nəsr əsərlərindən biri də tarixçi alim və yazıçı M.İsmayılın "İki od arasında" romanıdır;

– Romanda işğalçı yürüşlərə qarşı ağıllı hökmdar olaraq Şirvanşah İbrahimin uzaqgörənliyi göstərildiyi kimi, xalqın mənəvi simasını təşkil edən hürufi şair İmadəddin Nəsiminin də möhtəşəm mübarizəsi və obrazı əks etdirilmişdir;

– Romandakı "Nəsimi" bölməsi tamamilə İ.Nəsimini anladan bir bölmə kimi yadda qalır;

– Yazıçı Nəsimini hürufizmin aparıcı simalarından biri, istedadlı və nüfuzlu bir şair olaraq tanıdır;

– Əsərdə Nəsimi ilə bağlı daha fərqli tərcümeyi-hal materiallarına yer verilmiş və Nəsiminin obrazı fərqli bir şəkildə yaradılmışdır;

– Nəsimi obrazı əsərdə xalqın mənəvi siması və onun mənəvi mübarizəsinin təcəssümü kimi təqdim edilmiş və ümumiləşmişdir;

– Əsərdə Nəsimi həm də bir aşiq və şair olaraq obrazlaşmış, ustadı Nəiminin Ümülbanu adlı qızını təmiz qəlblə sevən incə qəlbli bir şair kimi təsvir edilərək şeirlərindən örnəklər də təqdim edilmişdir;

– Nəsimi "İki od arasında" romanında da hürufizmin ən etibarlı, güvənli şəxsiyyətlərindən biri, hətta Fəzlullah Nəiminin mənəvi varisi, davamçısı kimi təsvir və təqdim olunmuşdur;

– Nəsiminin övladı və ardıcılları timsalında romanda nəsimilik məsələsi də müəyyən dərəcədə öz yerini tapmışdır.

# III FƏSİL

# AZƏRBAYCAN DRAMATURGİYASINDA NƏSİMİ OBRAZI

Dram əsərləri arasında da böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin obrazının yaradıldığı qiymətli əsərlər mövcuddur. Həmin əsərlərdə Nəsiminin ölməz ideyaları, örnək təşkil edən fəaliyyəti görkəmli sənətkara həsr olunan əsərlərin başlıca məsələsini, ana xəttini, ideyasını təşkil etmişdir. Azərbaycanın zəngin dramaturgiyası tarixində böyük humanist sənətkar İmadəddin Nəsimiyə həsr olunan və onun yaddaqalan obrazının yaradıldığı dram əsərləri içərisində Bəxtiyar Vahabzadənin "Fəryad", Firidun Aşurovun "Nəsimi", Əkbər Məftunun "Nəsimi", habelə müasir dövrdə qələmə alınan Sayman Aruzun "Nəsimi", İlqar Fəhminin "Yuğ" teatrında tamaşaya qoyulmuş "Mənəm, mən" adlı əsərlərinin adlarını xüsusilə qeyd etmək olar. Yazıçı İlqar Fəhminin "Mənəm, mən" adlı əsərində "*hürufizm ideyalarının işığında İmadəddin Nəsiminin taleyi və idealları müasirlik baxımından işıqlandırılmışdır*" [46, s. 50].

Azərbaycan Yazıçılar Birliyinin üzvü Firidun Aşurovun 1973-cü ildə "Azərbaycan" jurnalında dərc olunmuş "Nəsimi" pyesinin özünəməxsus cəhəti var. Onu da qeyd edək ki, F.Aşurovun dramatik əsərlərindən bir neçəsi, o cümlədən "Nəsimi" pyesi televiziyada nümayiş etdirilmişdir [27, s. 66]. "Nəsimi" pyesi həmçinin Tehranın "Bağban" nəşriyyatı tərəfindən də çap olunmuşdur [37, s.327].

Həmid Araslı müxtəlif orta əsr qaynaqlarına, eləcə də İ.Nəsiminin şeirlərindəki müvafiq məqam və mətləblərə əsasən bu fikri söyləmişdir: *"Şairin ölümü təkcə əqidəsinə görə deyildi. Bəlkə, dövrün siyasi hadisələri ilə də yaxından bağlıdır"* [9, s.40]. F.Aşurovun pyesində də Nəsimini bir çox məqamlarda siyasi hadisələrin burulğanında görürük.

F.Aşurovun "Nəsimi" pyesi nəsrlə yazılmışdır. Müəllif əsəri "üç pərdə, on dörd şəkilli epik dram" kimi təqdim etmişdir [14, s.93]. Pyesdə iştirakçıların sayı otuza yaxındır. Əlbəttə ki, bədii əsərin dəyəri onun həcmi, obrazların sayı ilə ölçülmür. Əsas məsələ mövzunun bədii həllini necə tapmasındadır. Hiss olunur ki,

F.Aşurov İmadəddin Nəsiminin dövrü, həyatı, mühiti, şəxsiyyəti, amal və əməlləri barədə müvafiq təəssürat yaratmaq məqsədi ilə müəyyən yaradıcılıq axtarışları aparmış, bir sıra tarixi qaynaqlarla və ədəbi materiallarla, o cümlədən şairin əsərləri ilə tanış olmuş, pyesdə yeri gəldikcə onlardan da istifadə etmişdir. Bunlarla yanaşı, əsərdə müəllif təxəyyülünün məhsulu olan hadisə və obrazlar da özünəməxsus yer tutur.

Pyes boyu Nəsimini müxtəlif məkanlarda və mürəkkəb hadisələrin içərisində görürük və əsər dramatik baxımdan gərgin bir situasiya ilə başlayır. Mükalimələrdən anlaşılır ki, Şirvanda əhali zalım hökmdar Huşəngin ədalətsizliyindən cana doymuş, üsyan edərək onu taxt-tacdan uzaqlaşdırmış, qətlə yetirmişlər. Xalq Nəsiminin böyük qardaşı Şah Xəndanı özünün rəhbəri görmək istəyir, lakin bu məqamda uzaqdan atılan oxla Şah Xəndan ağır yaralanır. Təbiblikdən də başı çıxan qardaşı Nəsimi onu xilas edə bilmir, çünki ox zəhərli idi. Son məqamda Şah Xəndan yaxın dostu, sadə zəhmət adamı olan İbrahimə xitabən: “Sənə tapşırıram eli, Vətəni”, – deyir [14, s.95]. Beləcə, İbrahimin Şirvanda hakimiyyəti başlayır.

Şah Xəndan, həmçinin ölməzdən əvvəl İbrahimin qızı Lalənin barmağına üzük taxaraq Nəsimi ilə onu nişanlayır. Bu məqamda o da anlaşılır ki, Nərgiz adlı bir qız da Nəsimiyə aşiq olmuş, öz el-obasını tərk edib oğlan qiyafətində şairin yanına gəlmiş, “kosa rəssam” kimi burada tanınmaqdadır. Lalə ilə Nəsiminin nişanlanmasını o, böyük kədərlə qarşılayır.

Bundan sonra ictimai-siyasi hadisələrin qaynar məqamlarından bir sıra parçalar dramaturji müstəviyə gətirilir. Qaraqoyunlu hökmdarı Qara Yusifin hücumuna məruz qalan Kaxetiya çarı kömək üçün Şirvanşah İbrahimə üz tutur. Digər tərəfdən də Qara Yusifin elçisi Şeyx Məsud Şirvana gələrək İbrahim şaha müttəfiqlik təklif edir, lakin rədd cavabı alır. Bu mükalimələrdən o da bəlli olur ki, Şeyx Məsud hürufi şair Nəsiminin fəaliyyətindən də narahatdır və o, Şirvanşaha bildirir ki, Nəsimi bir olan Allaha və dinimizə yaraşmayan şeirlər yazır, özü də Allahlıq iddiasına düşübdür. Sarayda olan Nəsimi də söhbətə qoşulur və bu mükalimə həm də şairin xarakterinin, dünyagörüşünün bədii təqdimində, bütövlükdə hürufi təliminin mahiyyətinin açıqlanmasında bir vasitəyə çevirilir:

*"İbrahim şah: Qətiyyən yox, mübarək şeyx! O, adamları Allah olmağa yox, xeyir işlər sahibi olub, Allahı daha yaxşı tanımağa çağırır... Möhtərəm şeyx, məgər siz etiraf etmirsinizmi ki, varlığın ən qüdrətlisi, ən ədalətlisi və kamili gözəgörünməzdir? Əgər Nəsimi insanları gözəlliyə və kamil olmağa çağırıb, tanrıya yaxınlaşdırırsa, burada nə günah var?* [14, s.98].

Şeyx Məsud bunun müqabilində Nəsiminin "ənəlhəqq" ideyasını ifadə edən misralarını xatırladır. Şair isə özünün məntiqi ilə onu susdura bilir:

*"Nəsimi: Qoy möhtərəm şeyx bir sualıma cavab versin. Ruh ələridir. Ya əbədi?*

*Şeyx Məsud: Ruh əbədidir.*

*Nəsimi: Əbədiyyət isə təkcə Allaha aiddir. Əgər insan öz bədənində əbədi yaşayan ruh gəzdirirsə, deməli, Allahın bir zərrəsini gəzdirir* [14, s.98].

Dramatik situasiyalar bir-birini əvəz edir. İbrahim şahın oğlu, hürufilərə böyük rəğbət bəsləyən Kəyumərs Nəiminin müridlərindən olan İsməti gizlicə həbsdən qaçırdır. Sonra isə Kaxetiyaya köməyə gedir, lakin Qara Yusifə məğlub olur. Digər tərəfdən də Əmir Teymur təhlükəsi getdikcə daha kəskin xarakter alır. Belə bir məqamda İbrahim şah saray adamlarından oğlu Xəlili, Şeyx Şükürü və Nəsimini hədiyyələrlə Əmir Teymurun yanına danışıqlar üçün göndərir. Nəsiminin Teymur hüzurunda mərd, cəsarətli və müdrik davranışı diqqəti çəkir. Anlaşılır ki, artıq Fəzlullah Nəimi edam olunub, ondan sonra hürufilərin rəhbəri Nəsimidir. Bunu Teymur da öyrənir. F.Aşurov Əmir Teymurla Nəsimi arasındakı qısa dialoqda şairin cəsarətli mühakimələrini də önə çəkmişdir. Şivanşahın niyə özünün məşhur atını hədiyyə göndərmədiyini soruşan Əmirlə Nəsimi arasında bu dialoq baş verir:

*"Nəsimi: Hər xalqın öz adəti var, qibleyi-aləm, bizim də adətə görə, igid öz atını heç vaxt başqasına bağışlamaz!*

*Teymurləng: Əgər igid öz düşmənini dava meydanında məğlub edib atını alırsa, onda necə?*

*Nəsimi: Belə adamlara ancaq zorlu demək olar. İgid sözü bizim dildə həm də nəcib deməkdir.*

*Bizlərdə igid basdığını kəsməz, məğlubun nə atına, nə də övrətinə göz dikməz!*

[14, s.111].

Pyesin bu səhnəsində daha bir dramaturji gərginlik süjetdə boy verir. Şirvanşahın müttəfiqlik xahişi müqabilində Əmir Teymur da bir neçə şərt irəli sürür ki, onlardan biri Nəsimi üçün xüsusilə ağrılı və əzablıdır. Əmir Teymur tələb edir ki, İbrahim şahın qızı Lalə əmirin oğlu Miranşahın hərəmxanasına girov olaraq gətirilməlidir. Neçə illik nişanlısı Laləni odlu məhəbbətlə sevən, onunla görüşlərinin birində: "Həyatım, pənahım, behiştim mənim. Mən hər gün sənin üzündəki ilahi şeiriyyəti kağıza köçürməklə xoşbəxt olacağam", – deyən Nəsimi [14, s.101] Əmirin şərtindən nə qədər sarsılsa da, həm də düşünür ki, el-obanın xilası naminə bu addımı atmalıdır və o, təbəddülatlardan sonra qərarını verir:

*"Nəsimi: (öz-özünə). Yox. Yox, mən ölərəm, amma bu şərtə razı olmaram. (Pauza). Lakin mənim ölməyim minlərlə körpəni, əlsiz-ayaqsız qocanı fəlakətdən qurtarırmı?*

*Teymurləng: Mənim daha gözləməyə vaxtım yoxdur.*

*Nəsimi: Razıyıq, hökmdar! Lakin şahın ləyaqətini qorumaq naminə elçi göndərin!"* [14, s.113].

Hürufilərə qarşı barışmaz olan Əmir Teymur Nəsimini sarayda girov saxlamaq, cəza və təzyiqlər yolu ilə ondan hürufilər barədə məlumatlar toplamaq istəyir, lakin Anlayanda ki, Nəsimi heç bir sirr verməyəcək, onda şairi aradan götürmək qərarına gəlir. Lakin saray şairi Kirmaninin (bu surət oxuculara Hüseyn Cavidin "Topal Teymur" pyesindən tanışdır) xahişi ilə Nəsimini azad edir.

Gözlənildiyi kimi, nişanlısı Lalə Nəsimini qınaqla qarşılayır, hamının şairin Əmir hüzurunda öz sevgilisi ilə bağlı verdiyi sözə tənqidlə yanaşdığını bildirir. Onların dialoqunda Nəsimi bu hərəkətinin səbəbini bu cür açıqlayır:

*"Nəsimi: Mən sənin şərəfini qorumaq üçün belə etmişəm. Razı olmasan, səni əsir alıb aparacaqlar.*

*Lalə: Məni sağ tapsalar, apararlar. Öz canlarını mənliklərindən artıq sevənlər təhqirə dözərlər.*

*Nəsimi: Doğrudur! Sən özünü öldürüb canını qurtara bilərsən, əvəzində isə atan, qardaşların, bütün xalq əsir düşər, qul kimi təhqir olunar!"* [14, s.115].

Dramatik süjetin dolanbacları bir-birini əvəz edir. Növbəti səhnələrdən öyrənirik ki, Qaraqoyunlu Qara Yusif Şirvanşah İbrahimi əsir götürmüş, qızı Lalə də onun sarayına əsir aparılmışdır. Qara Yusif deyir ki, mən Miranşahı davada məğlub edib Laləni saraya gətirmişəm, deməli, Lalə Miranşah sarayına aparılmışdır. Şahın xilası üçün tələb olunan qızıl pulu Nəsimi öz nüfuzu hesabına xalqdan toplayıb Qara Yusifə təqdim edir və İbrahim şah xilas olur. Lalənin isə cənazəsi geri qayıdır, onu Qara Yusif zəhərləyib öldürtdürür.

Pyesin son səhnələrində biz Nəsimini Hələbdə görürük. O yenə də öz təlimini yaymaqla məşğuldur. Şirvandan gələn elçilər isə onu Şamaxıya, saraya qayıtmağa dəvət edirlər. Lakin hadisələrin gedişatı başqa yön alır, Nəsimi şeirlərini oxuyan gənc həbs edilir və onun barəsində edam qərarı verilir. Şagirdinin ölümə getməsini qəbul edə bilməyən şair ortaya çıxaraq onu xilas edir və özü edam yerinə yaxınlaşır. Yalnız bu məqamda "kosa rəssam" Nərgiz əynindəki kişi libasını çıxararaq qadın olduğunu və Nəsimini sevdiyini, onu sevərək yaşadığı kimi, sevərək ölümə getdiyini bildirir. İnsanın mənəvi qüdrət və əzəmətini, ali ləyaqətini vəsf edən Nəsimi son anlarında məşhur misralarını dilə gətirir:

*Məndə sığar iki cahan, mən bu cahana sığmazam,*
*Gövhəri-laməkan mənəm, kövnü məkana sığmazam*! [14, s.130].

Meydandakıların bu misraları xorla təkrarlaması, onların gur hayqırtısının Şeyx Məsudun səsini batırması Nəsimi ideyalarının ölməzliyinin bədii təcəssümü kimi mənalanır.

F.Aşurov "Nəsimi" pyesində çalışmışdır ki, mütəfəkkir şairin mübarizələrdə keçən ömrünün səciyyəvi məqamlarını sənət dili ilə oxuculara çatdıra bilsin. Bir sıra məqamlarda buna nail olmuşdur. Lakin əsərdəki bəzi epizod və obrazlar müəyyən mübahisə yaradır, məsələn, İbrahim şah Əmir Teymurun hürufilərə qəzəbini bildiyi halda, onunla münasibətləri qaydaya qoymaq üçün niyə hürufi şair Nəsimini də elçilər sırasına qoşur? Pyesdə bunun səbəbləri əsaslandırılmadığından (əslində elə bir əsas tapmaq da imkansızdır) inandırıcı görünmür. Doğrudur, İ.Hüseynovun "Məhşər" romanında da Əmir Teymurla Nəsimi qarşılaşdırılır, lakin tamamilə fərqli formada və aspektdə təqdim olunan bu görüş özünün ideya-fəlsəfi mahiyyəti ilə

xüsusi dəyərə və lazımi bədii əsaslara malikdir.

"Nəsimi" pyesində bəlli olmur ki, Nəsimi ilə Lalə niyə illər boyu nişanlı qalırlar. Bəzi epizod və faktların təqdimində tarixi uyğunsuzluğun olması da diqqətdən yayınmır. Konfliktin bəzi məqamlarında primitivlik də nəzərə çarpır. Obrazların təqdimində müəyyən romantik çalarların qabarıq verilməsinə də, fikrimizcə, ehtiyac var idi və mövzunun xarakteri bunu şərtləndirir.

Bununla belə, dramaturq F.Aşurovun "Nəsimi" pyesi böyük şairimiz İmadəddin Nəsimi obrazının daha çox ictimai-siyasi hadisələr kontekstində təqdimi baxımından maraq doğurur.

Sayman Aruzun "Nəsimi" mənzum dramı "*ədəbiyyatımızı zənginləşdirən sanballı əsərlər sırasındadır", habelə "milli təfəkkürün, irfani düşüncənin və tarixə məxsusi yanaşmanın bir bədii tarixi və irfani müstəvidə canlandırması*" [160] baxımından əhəmiyyət daşıyır. S.Aruzun Nəsimiyə həsr olunan beşpərdəli mənzum dramında başlıca məsələ məhz bu görkəmli humanist sənətkarı bədiiləşdirən edam səhnəsi və edama qədərki məhbus həyatı təşkil edir. Burada da Nəsiminin məhbusluq dönəmindəki əyilməzliyi və dönməzliyi, insan azadlığına verdiyi dəyər və amal uğrundakı sarsılmazlıq mühüm yer tutmuşdur. Şairin haqqındakı rəvayətlərdən yaradıcı istifadə olunaraq sənətkarın şəxsiyyətindəki dəyərlərin əzəmətini göstərən mühüm keyfiyyətlər möhtəşəmliyi ilə əks etdirilmişdir. Məhz bu səhnədə nəsimilik, onun təməli və varisliyi məsələsi bəzi görkəmli şəxsiyyətlərin – Babək, Şibli, Həllac Mənsur, Şəms Təbrizi, Fəzlullah Nəimi, Şah İsmayıl Xətai kimi obrazların səhnədə görünməsi vasitəsilə reallaşdırılmışdır. "*Əsərdə İmadəddin Nəsiminin həyatı və fəaliyyətinin Hələb dövrünün hadisələri əsasında böyük mütəfəkkir şəxsiyyətin haqq və ədalət uğrunda, insanın mənəvi kamilliyi yollarında apardığı mübarizə təsirli dramatik səhnələr vasitəsilə mənalandırılmışdır*" [52, s. 51].

Bu əsərin dördüncü pərdəsindən konflikt diqqət mərkəzinə çıxır: Şahın hüzuruna gətirilən "bidin" Nəsimi ilə hökmdar arasında dialoq yaşanır və konflikt, fərqli baxış tərzləri qabarıq üzə çıxır. Nəsimini "bidin", "xəlqinin ruhuna padşahlıq edən" kimi göstərən hökmdarın sözünün qarşılığında Nəsimi cəsarətlə:

*Mən ənəlhəqq söylədim, çünki həqqəm,*

*Nə şaham, nə Allaham, mən mütləqəm* [137, s.56] – deyə cavab verir.

Nəsimi ilə hökmdar arasındakı mübahisə get-gedə daha da qızışır, kəskin hal alır. Lakin Nəsimi cəsarətlə öz fikirlərini, mənsub olduğu dünyabaxışı və ideyanın nüanslarını dilə gətirir.

*Səndəki həqq qətlə fərman söyləyər,*

*Məndəki həqq, külli-insan söyləyər* [137] – deyən Nəsimi hünərlə özü və özü kimi ruha sahib olan insanlarla hökmdar düşüncəsində olan adamlar arasındakı ciddi mənəvi fərqi təqdim etmiş olur. Bununla da, Nəsimi həm də hökmdarı cəllad, qaniçən kimi dəyərləndirir.

Nəsimi ilə hökmdar arasındakı bu cür mübahisə səhnəsinin təqdimində Azərbaycan tarixi nəsrinin görkəmli ustadlarından olan İ.Hüseynovun "Məhşər" əsərindəki Əmir Teymurla Nəsimi dialoqunun təsiri özünü aydın nümayiş etdirir. S.Aruz da İ.Hüseynovun bu yaradıcı ustalığından bəhrələnərək dram əsərində ona oxşar bir səhnənin təqdimini lüzumlu bilmişdir. Doğrudan da, belə bir səhnənin düşünülməsi Nəsimi və nəsimiliyin ideya-mənəvi mahiyyətini açmaq, təqdim etmək baxımından olduqca əhəmiyyətlidir. Bu səhnə və digər məqamlar nəsimiliyin bütün mahiyyətini açmağa, oxucuya təqdim etməyə hesablanmışdır. Əlbətə, müəllif düşüncəsinin fərqi də burada özünü aydın təzahür etdirir. Bu, müəllifin həm Nəsimini və nəsimiliyi, həm də hürufizmi necə qavraması və təqdim etmək istəməsindən asılıdır. Bu mənada səhnə oxşar olsa da, Nəsiminin ideyası fərqli təzahür tapır. Nəsiminin dilindən:

*Kütləni cahil edən də dindi, din,*

*Aqil olmaz dinlə əsla insü-cin* [137].

Bu misrada müəllif dini mütləqiyyəti ictimai hegemonluqdan götürmənin zərurətini ifadə etmişdir. Mənzum pyesdə S.Aruz da Nəsiminin dilindən onun insana yüksək qiymət verən ideyalarını oxucuya tanıtmağa çalışmışdı:

*Küfrü də insan yaratdı, dini də,*

*Cəbraili, Əzraili, cinni də.*
*İnsanın zəfi yaratdı Allahı,*
*İnsanın ruhundadır insan şahı.*
*"Quran" Allahın kəlamı olsa da,*
*İnsan ilə həm var oldu dünyada.*
*Hər bir insan bir məsciddir, pirdir,*
*Aşiq insan Allaha təfsirdir* [137].

Nəsiminin bu misralarında ifadə etdiyi fikirlərdə insanın "ictimai-fəlsəfi tərifi" öz əksini tapmışdır.

Müəllif Nəsiminin təbirincə, insan problemi haqda bəhs etmişdir. Allah da, Quran da, məscid də məhz insan var olduğu üçün reallaşmışdır fikri bu misralarda ifadə edilmişdir. Bu mənada biz buradakı Nəsiminin digər Azərbaycan və Şərq fəlsəfi fikrinin görkəmli şəxsiyyətləri ilə nə qədər yaxın olduğunu müşahidə edə bilirik. Müəllif Nəsiminin düşüncələri barədə verdiyi şərhlərində belə yazırdı: "*Humanizmi söz olaraq deyil, mahiyyət və kök olaraq məna etsək onu "insanmərkəzlik" ilə bərabər tutmalıyıq. ...Humanizm prosesi başlayandan sonra o günə qədər Allaha mənsub edilən bütün xüsusiyyətlər insana məxsus edilməyə başlandı. Artıq bu insan idi ki, hər şeyin mərkəzində dayanırdı*" [138].

Digər əsərlərdən fərqli olaraq S.Aruzun "Nəsimi" pyesində Nəsimi obrazı Şəms Təbrizi kimi görkəmli təriqət adamları ilə birgə təqdim olunur. Əsərdə dustaq edilən Nəsiminin gözlərinə görünən Şəms Təbrizi ilə söhbət Nəsiminin eşq və dostluq sahəsindəki möhkəm təməllərini göstərmək baxımından uğurlu bir səhnə rolunu oynayır. Ümumən isə, burada böyük bir zaman, xüsusi bir ictimai-fəlsəfi fikir mərhələsində əvəzsiz mövqeyinə görə Nəsiminin obrazı yaradılmışdır. Nəsimi ustadı Nəimiyə bağlı bir davamçı olmaqla bərabər, ustadına və digər müridlərin həyatına özünü məsuliyyətli hiss edən fədakar dost kimi təsvir olunmuşdur. O, həm də bir varis kimi özünə yer alaraq ustadı Nəimidən sonra hürufiliyin taleyində mühüm rol oynayan rəhbər kimi təsvir olunmuşdur. Bu mənada onun taleyi Həllac Mənsur kimi böyük filosofların taleyi ilə qovuşmuşdur. Öz ideyaları uğrunda canından keçərək ən ağır şəkildə edam edilmiş Babək Xürrəminin və Əlincə qalasında edama məhkum

olunmuş Fəzlullah Nəiminin obrazlarının yaradılması da əsərə güc qatmış, əsərin ideyasının daha da bütövləşməsi və konkretləşməsinə, xüsusilə milli-azadlıq məzmunu almasına kömək etmişdir. Nəsimi obrazı məhz bu kimi obrazların kontekstində daha fəal, mübariz, mənən azadlıq mücahidi kimi obrazlaşmışdır. Əsərin sonunda edam edilmiş Nəsiminin səsi özü kimi mücahidlərin səsilə qarışaraq təqdim edilir və ciddi ictimai məzmun ifadə etməklə yanaşı Səfəvilər dövlətini yaratmış Şah İsmayıl Xətainin səsilə də qarışmaqla əsərin ideyasının tamamlanmasına xidmət etmişdir. Nəsimi edam edilərək Babək xürrəminin edamı timsalında əli-ayağı kəsilərək cismi hissələrə parçalansa da, "*ruhu Nəsimilərə parçalanır*" [121]. Bununla da müəllif Nəsiminin yaşaması və nəsimiliyin yayılaraq davam etməsi ideyasını ümumiləşdirmişdir. Ümumiyyətlə, bu əsərdə fərqli və özünəməxsus olaraq müəllif Nəsimi və onunla müəyyən məsafədə yaşamış "*müxtəlif zamanların şəxsiyyətləri olan Babək, Şeyx Heydər və Şah İsmayıl Xətai kimi obrazlar vasitəsilə Azərbaycan xalqının azadlıq və müstəqillik duyğularını təcəssüm etdirmişdir. ...Sayman Aruz ... onun fəlsəfi görüşlərini, ətrafında olan insanlarla, eyni zamanda bir çox tarixi şəxsiyyətlərlə qarşılaşdıraraq Nəsimi obrazını açmağa çalışmışdır. Nəsimini həm şair, həm də öz dövrünün böyük filosofu kimi təqdim etmişdir*" [136]. Ümumiyyətlə isə, "*Sayman Aruzun "Nəsimi" mənzum dramı Nəsiminin və Azərbaycanın görkəmli və ədəbi şəxsiyyətlərin obrazlarını canlandıran və ideyası etibarilə müstəqil dövlətçilik amallarını diqqətə çatdıran əhəmiyyətli bədii əsər nümunəsidir*" [52, s. 52].

## 3.1. Bəxtiyar Vahabzadənin "Fəryad" mənzum pyesində Nəsimi obrazı nəsimilik və nəsimiçilik bədii-fəlsəfi kontekstində

Böyük Azərbaycan şairi İmadəddin Nəsimi haqqında bəhs edən maraqlı dram əsərləri arasında XX əsr Azərbaycan ədəbiyyatının ustad sənətkarlarından olan Bəxtiyar Vahabzadənin "Fəryad" mənzum pyesi öz ideyalılığı baxımdan daha çox diqqəti cəlb edir. "*Türk poeziyasının fəlsəfi istiqamətinin, mübarizə və üsyankarlığının, psixoloji lirizminin*" [151] görkəmli nümayəndəsi, *"...Nəsimidən ...*

*miras qalan sözün*” [152] bahadırı B.Vahabzadə özü də “Fikir bahadırı” adlı məqaləsində bu ölməz sənətkarı həqiqətpərəstlik, qorxmazlıq, mübarizlik simvolu olduğuna görə sevdiyini yazmışdır [116, s. 6]. Şair əsərində də elə Nəsiminin özündən sonra davam edən qorxmazlığı, mübarizliyi və həqiqətpərəstliyini əks etdirmiş və obrazlaşdırmışdır.

Yeddi şəkildən ibarət olan mənzum pyesdə digər maraqlı xüsusiyyət Nəsimi obrazının birbaşa iştirak etməməsi ilə bağlıdır. Pyesdə I və II Nəsimi surətləri iştirak etsə də, onlardan heç biri Nəsimi şəxsiyyətinin özü deyil, Nəsimi adı ilə səhnəyə gələn həmin obrazlar ayrı-ayrı simalar olub [Həllaci Musa və Tural] ideya, yol və əqidəcə Nəsimi ideyalarını daşıyan obrazlardır. Bu mənada da əsərdə birbaşa Nəsimi obrazı iştirak etməsə də, ideya və davamçılıq baxımından nəsimilik və nəsimiçilik bir obraz səviyyəsinə qaldırılmışdır. *“Nəsimilik fəlsəfəsinə əsaslanan pyes*” [98, s. 162], – deyə səciyyələndirilməsi də əsərin məzmununda Nəsimilik fəlsəfəsi və ideyasının ehtiva olunduğuna sübutdur.

Əsərin əvvəlində İmadəddin Nəsimi və Fəzlullah Nəimi şəxsiyyətləri haqqında söhbətlər açılmış, onların yolu, əqidə və ideyaları barədə təəssürat yaradılmışdır. Saray əyanları olan Əmir, Zahid, Vəzir öz söhbətlərində bu şəxsiyyətlər barəsində danışırlar və onların haqqında təhrif olunmuş, özlərinə uyğun gələn tərzdə məlumatlar səsləndirirlər. Nəsimi və onun ustadı Nəimini dinsiz, imansız, yolsuz, Allahsız, dinə rəxnə salan, adamları yoldan çıxaran kimi sözlərlə lənətləyirlər. Əsərin əvvəlindən – məhbuslara dar ağacı qurmaq səhnəsindən başlayan ikili müzakirələr əsərin ideyasına, hadisələrin anlaşılmasına zəmin hazırlayır. Tamaşaçını ilkin səhnələrdə intizar içində saxlayan suallar və onlara cavab tapmaq ehtiyacı yaranır: “Dar ağacı kimin üçün qurulur?” Əsər boyu bu sual oxucunu düşündürür.

Gedən söhbətlərdə Həllaci dəstəsi və onun nümayəndələrindən biri olan Musa haqqında danışılsa da, hələ məsələlər tam anlaşılmaz qalır. “Yalanla Həqiqətin” ideoloji mübarizəsi özünü davam etdirir. “Yalan və Həqiqət mübarizəsi” yeni hadisələrə zəmin hazırlamış olur. Loğmanla Zahidin bu istiqamətdəki mübahisələri sanki dar ağacının bu ikisindən birinə, yəni müəllifin etik-estetik kateqoriya olaraq obrazlaşdırdığı yalana və ya həqiqətə (Loğman həqiqəti, Zahid yalanı təmsil edir –

P.Ə.) qurulduğu təəssüratını yaradır. Saray hökmdarı Əmirin oğlu Vəliəhdin özünü onun yolunda qurban vermiş Dəyanətin kölgəsilə apardığı dialoq da yalanla həqiqət arasındakı müəmmanın dərinləşməsi və aydınlaşmasına stimul verir. Müəmma dərinləşdikcə düşüncə, dərk, mühakimə gərginliyi artır. Saray alimi Loğmanın ağıllı qızı Ayparanın səhnəyə daxil olması sanki yalan və həqiqətə yol alan istiqamətlərin aydınlaşdırılmasına kömək edir. Onun işıqlı sözləri bu istiqamətləri təyin etməyə imkan verir. Beləliklə, əsərdəki bədii konflikt gizlənmiş həqiqətin – Nəsimi gerçəkliyini öyrənməyə doğru yönəlmiş olur. Əslində, əsərin əvvəlindən dar ağacının qurulması prosesi həm də mühakimə tələb edirdi. Əmirin öz adamları ilə səhnəyə gəlişi bu məhkəmə və mühakiməni də reallaşdırır. Məhkəmənin mühakimə tərzi, ittiham məntiqi hər kəsi heyran qoyur. Fikrimizcə, əsərdə müəllifin təbirincə, bir sıra etik-estetik kateqoriyalar ayrı-ayrı obrazların simasında üzləşir və mübarizə aparır. Sanki əsərdə ədalət və qəzəb, yalan və həqiqət, ayıqlıq və qafilliyi təmsil edən axmaqlıq üz-üzə gəlir. Bu mənada əsərdə yalanla həqiqətdən başqa ədalətlə qəzəb də mübarizəyə qoşulmuş olur. Əmirin, Zahidin və Vəzirin ölüm fərmanı çıxaran məntiqinə alim Loğman öz idraklı yanaşmaları ilə etiraz edib təshih etmək istəyir. Loğmanın dilindən deyilən: *"Axı yatarkən nə danışdığını bilərmi insan?"* [115, s. 589], *"İnsan öz fikrində deyil, hökmdar, yalnız əməlində günahkar olar"* [115, s. 590] kimi müdrikanə fikirlər səsləndirməsi mövcud mühakimə sisteminin məntiqinə qarşı tənqidi yanaşma ifadə edir. Məhz bu səhnələrdə müəmmalardan birinə aydınlıq gətirilir ki, bu ölkədə dar ağacına çəkilənlər zorakı hakimiyyətin yanlış ittihamları ilə mühakimə edilənlərdir. Bu aydınlanma sayəsində Nəsimi müəmmasına doğru dərinləşdirici və aydınladıcı bir inkişaf davam etmiş olur. Qoca şairlə gənc şairin səhnəyə daxil olması ilə əsərdəki konfliktə yeni gərginlik gəlir. Bu mərhələdə artıq günahkar qismində Nəsimi müəmması ortaya çıxır. Belə ki, əsərdə konkret Nəsimi obrazı iştirak etmir, lakin Nəsiminin şeirini deyən gənc şair özünü Nəsimi kimi qələmə verərək günahı boynuna götürür.

I Nəsimi və II Nəsimi obrazları əsərə daxil olması ilə Nəsimi şəxsiyyətinin dərk edilməsi prosesi baş verir. Özünü Nəsimi kimi tanıdan obrazlar da konkret öz şəxsiyyətləri barədə deyil, məhz Nəsimi şəxsiyyəti barədə fikir yaratmış olurlar.

Təzadlı mühakimələr arasında gərginlik get-gedə artır. Bu təzadlı mühakimələr "Nəsimi kimdir?" sualına cavab axtarır. Əsərdə ziddiyyətli seçim qarşısında qalan Vəliəhdin axtarışları məhz bu sualın cavabını ortaya çıxarmaq istiqamətinə yönəlir.

Əslində əsərin daxili məzmunu, ideya-estetik inkişafı Nəsimi obrazının nəsimilik və nəsimiçilik məsələləri fonunda ifadə edildiyini ortaya çıxarır. Çünki əsərdə Nəsimi adına sığınan obrazlar olsa da, bilavasitə Nəsiminin özü iştirak etmir. Özünü Nəsimi elan edən iki şəxsin biri digərinə "Nəsimi mənəm" deyə mübahisə açır, biri digərinə özünü qurban verir. Bu fonda nəsimilik açıq-aydın təzahür etdirilir. Özlərini Nəsimi adlandırıb Nəsimi yolunda canlarını fəda edənlərin "münaqişəsi" onları anlamayanlar üçün ən heyrətamiz və anlaşılmaz hadisəyə çevrilir. Nəsimilik yolunda canından keçənlərin həyat mücadiləsini andıran bir səhnə onun yolunda gedənlərin çoxu tərəfindən anlaşılmadığını göstərir. Fikrimizcə, elə bu kimi ikili etik-estetik məsələlər (xeyir və şər, qafil və alim və s.) Nəsiminin öz yaradıcılığı üçün xarakterikdir. Çünki Quranda da "heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?" sualına: *"De: "Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?! (Allahın ayələrindən, dəlillərindən) yalnız ağıl sahibləri ibrət alar!"* [143] cavabı verilir. Buna görə Nəsimi haqqında yazılan əsərlərdə də başlıca motivləri bu kimi ikili məsələlər təşkil etmişdir. Nəsimi təlimi və yaradıcılığı üçün aparıcılıq təşkil edən alim və qafil insan haqqında fikirlər onun adına həsr olunmuş əsərlərdə də əsas meyar kimi götürülür. Nəsimilik və nəsimiçilik fikri "Ənəlhəq!" – "Allah mənəm!" hökmündə ifadə edilir. Kamillik isə həyatla yoxluğu, həqiqətlə yalanı, fani ilə əbədini təyin edə bilən idrakın mükafatıdır. Kamilliyə çatan, fani ilə əbədiliyi seçən biri özündən keçməni, özündən imtina etməyi də bacarır. Bu mənada, fikrimizcə, əsərdəki "Nəsimi mənəm" hökmü müəyyən mənada "Haqq mənəm!" ideyasında özünü ehtiva edir. Buna görə də özünü Nəsimi adlandıran birinin özünü Nəsimi adlandıran, digəri üçün "Nəsimi mənəm", –deyə fəda etməsi nəsimilik yolunda kamilliyə yetmiş bir müridin kamillik və həqiqət mərtəbəsinə yetməsi aktı olaraq qəbul edilə bilər. B.Vahabzadə dramatik tərzdə bu fikri, mənəvi, əxlaqi inkişaf prosedurunu təqdim edə bilmişdir. Bu mənada əsərdə Nəsiminin özü deyil, Nəsimilər iştirak edir. Fərqli adlar daşımalarına baxmayaraq, Nəsimi ideyalarına hakim olan bu

adamlar məhz Nəsimi kimi davranmaqla onun şəxsində, simasında təzahür edən kamil insan təlimini davam etdirmiş və nəsimiçiliyi yaratmışlar.

Əsərdə Nəsimi obrazı birinci və ikinci Nəsimi obrazlarının fonunda canlandırılmışdır. Bir şəxsiyyət olaraq tarixi Nəsimi öz əqidəsi uğrunda ölümə meydan oxuyaraq ideyasından əl çəkməmiş, özündən, fani olandan keçərək amalına, ideyasına dönməzlik göstərmiş, fiziki ölümü ilə həqiqətə, əbədi olana çatmışdır. Nəsimini sevdirən, daha çox şöhrətə mindirən, əfsanələrə döndürən məhz bu hadisə ilə bağlı olmuşdur. B.Vahabzadə də Nəsiminin özünü "külli bir obraz" olaraq yaratmasa da, vəhdəti-vücud fəlsəfəsindən də çıxış etmiş, onun yolunu davam etdirən, ideyalarını daşıyan və müxtəlif yerlərdə və zamanlarda təzahür etdirən Nəsimilərin timsalında nəsimiçiliyi təqdim etmişdir. Bu mənada əsərdə Nəsiminin özü bilavasitə olmadan onun adı ilə yaşayan düşüncə şəklinin ictimai-mənəvi gücünü müşahidə edə bilirik. Nəsimiyə və Nəsimiliyə rəğbət əsərdə bütün ictimai təbəqələri əhatə edərək təqdim edilmişdir. Əsərdə alim Loğmanın qızı Ayparanın, habelə Kəramət və Rəhmanın simasında sadə xalq kütlələrinin, Zahidin oğlu Dəyanətin, Əmirin oğlu Vəliəhdin simasında isə saray adamlarının nəsimiliyə olan rəğbəti öz əksini tapmış və Nəsimi ənənələrinin saray mühitinə belə nüfuz etdiyi göstərilmişdir. Bütün bunların fonunda müəllif Nəsimi obrazının mənəvi simasını canlandırmışdır.

Bəxtiyar Vahabzadənin "Fəryad" əsərində Nəsimi istedadlı şair, nüfuzlu fikir adamı, qüdrətli ideoloq kimi təsvir edilmiş və əsərin ilk səhnələrindən Zahid Əmirə məlumat verərkən Nəsiminin sözlərini əzbər bilən və özünü Nəsimi olaraq təqdim edən bir gəncdən bəhs etməklə Nəsiminin şairliyini də diqqət mərkəzinə çəkmişdir. Zahidin Nəsimi barədəki məlumatında onun görkəmli bir şair olmasının təsviri ilə yanaşı, həm də onun necə sevildiyi, uğruna can fəda ediləsi bir şəxsiyyət olması da qabarıq şəkildə ifadə edilir. Nəsimi şeirini dediyinə və özünün Nəsimi olduğunu iddia etdiyinə görə ölüm hökmü kəsilən gənc oğlanı xilas etmək üçün izdiham içərisindən çıxan başqa bir gəncin Nəsiminin də, şeirin müəllifinin də o özü olduğunu bildirməsi Zahidi və onun kimiləri heyrətdə buraxır:

*Ölüm fitvasını verdim mən ona,*
*Cəllad qılıncını çəkdi bu zaman.*

*Bir nəfər arxadan bağırdı: – Dayan, –*
*Cəllad əl saxladı. O, taxta çıxdı.*
*Bir cəllada baxdı, bir mənə baxdı.*
*Dedi: –Günahsızdır bu cavan oğlan,*
*Onun oxuduğu o şeiri yazan*
*Durub qarşınızda, verin cəzamı.*
*Dondu heykəl kimi heyrətdən hamı,*
*Nəsimi o deyil, – dedi, –mənəm, mən.*
*Qaçmaq istəmirəm öz taleyimdən* [115, s. 599].

Ölümdən qorxmayaraq bir-birinə can fəda edən gənclərin davranışı hamını heyrətdə buraxır. Əmir, Zahid kimi "qafil" saray adamlarını və xalqı heyrətləndirən odur ki, ortada ölüm təhlükəsi varkən özünü ölümün qucağına atmaq nə deməkdir, necə cəsarətdir, necə "avamlıqdır"? Bu sirdən agah olmayan Vəliəhd də məhz heyrətini: *"Ölüm uğrunda bu ki, yarışdır, yaşamaq bu qədər ucuzmuş görən?"* [115, s. 599], – deyə heyrətini ifadə edir. Əmir kimi hökmdarlar üçün isə bu bir dəlilikdir: "*Zahid, o bədbəxtlər bəlkə dəlidir?"* [115, s. 600]. Və əlbəttə, ən anlaşılmaz olanı ondadır ki, Zahid demişkən:

*Xeyir, ikisi də dərrakəlidir.*
*O bundan dərindir, bu ondan dərin,*
*Onlar sahibidir çox hikmətlərin.*

*Vəliəhd:[Əmirə]*
*Anlamaq çətindir, ağlı olan da*
*Özünü atarmı belə bir oda?* [115, s. 600].

Əlbəttə, "insanü-əkbər" ideyasını ümumiləşdirən müəllif nəsimiliyin sirrini məhz burada görür. Nəsimi ardıcıllarının bir-birinə can fəda etmək cəhdlərinin anlaşılmazlığı məhz kütlə üçün "sirr" olaraq təqdim edilir.

Diqqətçəkən ikinci mühüm məsələ məhz "Nəsimi kimdir ki, onun uğrunda can vermək bu qədər əhəmiyyətli hesab olunur?" kimi sual ətrafında cərəyan edən düşüncələrdir. Çünki I və II Nəsimi olaraq özlərini təqdim edən gənc adamlar Nəsimi

uğruna özlərini fəda edirlər. Əmir, Vəliəhd, Zahid, eləcə də kütlə bu sirrə agah olmaqda çarəsiz qalarkən dramaturq Nəsimi şəxsiyyətinin nəhəngliyini təqdim etmək istəmişdir. Nəsimi dövrünün məhz elə əzəmətli bir şəxsiyyətidir ki, özünü Nəsimi olaraq təqdim etmək həqiqətə yetmək yolunda kamillik cəhdi, özünü onun uğruna fəda etmə isə həqiqətə yetmək və əbədilik uğruna fanilikdən keçmək mücadiləsidir. Dramaturq Nəsimi şəxsiyyətinin qüdrətini məhz bu cür təqdim etmişdir. İ.Hüseynovun "Məhşər" romanında da bu qarşılaşdırma – dövrün iki hökmdarını, iki bahadırını qarşılaşdırmaq cəhdi vardır: Ordular sərkədəsi, dünyanın sahibi Əmir Teymur və söz bahadırı, könüllər sultanı Nəsimi. Yazıçı iki sərkərdəni, iki bahadırı qarşı-qarşıya gətirib döyüşdürərkən kimin qələbə çalacağını da oxucunun diqqətinə çatdırmaq istəmişdir. Əslində Nəsiminin fikirləri qarşısında aciz qalıb məğlub olan Əmir Teymurun hirslə "Nə vaxtadək baş kəsməklə qələbə çalacağam mən? Hanı bəs sizin kəlamınızın qüdrəti?" kimi qəzəb və çılğın sual dolu müraciəti yazıçının düşündüyü tutarlı bir priyom idi ki, əsrlərə və hər cür ehkamçılığa, diktatorluğa səslənirdi. Əslində dramaturq B.Vahabzadə də burada sanki Əmirlə - hakimiyyət sahibi ilə Nəsimi adında çıxış edən obrazın simasında söz, könül bahadırını qarşılaşdırmış olur. Zorakılığa əsaslanmaqla hakimiyyət sürən Əmiri taxtından məhz nəsimiliyin fikir və hikmət qılıncı yerə salmış olur. Nəsimi ardıcılını ittiham etdikcə idrakdan geri qaldığını açıq şəkildə ortaya qoyan Əmiri də, dini hakimiyyətə sığınıb ölüm fitvaları verən Zahidi də məhz Nəsiminin kəlamları, nəsimiliyin hikmət fəlsəfəsi məğlub edib hakimiyyətdən salmış olur: Əmir də, Zahid də oğlanlarını nəsimilikdə itirirlər, nəsimiliyin içərisində görməklə çoxdan uduzduqlarını anlayırlar. Əsərin dördüncü şəklində dustaqların dilindən təqdim edilən mahnının sözləri fonunda da dramaturq öz ideyasını ehtiva etmişdir:

*Xor*

*Allah adlı ülviyyəti*
*Öz qəlbində gör deyirik.*
*O qüdrəti, o hikməti*
*Görməyənə kor deyirik.*

*Tək*

*Haqq yolunun cəfasına*
*Dözənlərə ər deyirik.*
*"Allahü-əkbər" deyəndə*
*"İnsanü-əkbər" deyirik.*
*Öz-özünü dərk edənə*
*Pir deyirik, pir deyirik* [115, s. 603].

Şeirin məzmunu da aydın göstərir ki, dramaturq da Nəsiminin simasında hürufiliyin ideoloji məğzini insan amilində, idrakda görmüşdür. Bu mənada əsərdə Nəsimi obrazı onun yolunu davam etdirən Nəsimiçilərin simasında Nəsimi ideyalarını, əxlaqi dəyərlərini yaşadanların timsalında bədii reallığını tapmışdır. Buna görə əsərdəki nəsimilik insanın aliliyinə, bərabərlik və həqiqətsevərliyə inam bəsləyən insanların davranışlarında və düşüncələrində təcəssüm etdirilmişdir. Bir-birinə can fəda etməyin sirrini yalnız bir-birini sevən insanlar bilirlər. Odur ki, özünü Nəsimi elan edənlər heç vaxt təəssüf hissi keçirmədən ölüm uğruna can ataraq bir-birilə sanki yarışırlar. Bu həm də nəsimiliyin insana, dosta verdiyi dəyəri, qiyməti təzahür etdirir. Barış, sülh fəlsəfəsinə tapınan Nəsimi özünü onun uğrunda can verməyə təhrik etmiş bir gənci ölümdən xilas etməklə Nəsimi olduğu həqiqətini ifadə etmiş, bütün insanlığı, bəşəriyyəti xilas ideyası ehtiva etmişdir. Vaqif Yusifli də bu barədə bəhs edərək əsərdə Nəsiminin və nəsimiliyin fikir zirvəsinə, həqiqət mərtəbəsinə ucalaraq Allahla eyniləşdiyi və bir ideya, təlim olaraq yaşadığını qeyd etmişdir [139].

Özlərini Nəsimi elan edənlərin mübahisə zamanı mühakimələri də olduqca maraqlıdır. Doğrudur, onların hər ikisi "yalançı" Nəsimidirlər. Amma II Nəsimi I Nəsimidən ideya yolundakı davranışına görə daha ahıl, yetişkin təsiri bağışlayır. II Nəsimi birinci Nəsimiyə Nəsimi yolunda özgə bir adamın nahaq yerə ölümə getməsini izah edərkən burada da Nəsimiliyin mahiyyəti öz əksini tapır:

*[I Nəsimiyə]:* *Nəsimi yolunda bir özgəsinin*
*Ölümə getməsi bil ki, nahaqdır.*
*Bu yolu xalq özü yaşadacaqdır.*

*I Nəsimi:* *Görürəm, qardaşım, amalımız bir.*
*Ancaq gəl kəsdirək Nəsimi kimdir?*
*Sənsən, yoxsa mənəm?*

*II Nəsimi:* *Qəsdindən daşın!*
*Ey mənim əqidə, fikir qardaşım.*
*Axı nəyə gərək bu çəkişmələr?*
*Özün həqiqəti bilmirsən məgər?*

*I Nəsimi:* *Bildiyim budur ki, Nəsimiyəm mən.*

*II Nəsimi:* *Bəs onda mən kiməm?*

*I Nəsimi:* *Soruş özündən* [115, s. 607-608].

Nəsimi olmaq uğruna gedən bu mübahisə bunu izləyənlər üçün də maraq kəsb edir. Axı hər kəs kim olduğunu bilirsə, doğrudan da, bu müzakirə niyə və nəyə gərəkdir? Həm də bu müəmmanın digər bir tərəfi də vardır ki, bu Nəsimi olmaq qalmaqalı mükafat almaq üçün deyil, dar ağacından asılmaq, özünü ölümün qoynuna atmaq üçündür. Əlbəttə, hər iki Nəsimi kim olduqlarını yaxşı bilirlər. Nəsimi uğrunda ölümə getməklə biri digərini öz fədakarlığı ilə xilas etmək istəyir. Nəsimi olmaq qalmaqalına baxan gənc şairin dediyi kimi: Əl çatmaz, ün yetməz o böyüklüyə! [114, s. 608]. Nəsimi olmaq, doğrudan da, bu qədər alilik, bu qədər ucalıq, əlyetməzlikdirsə, nəsimilik məhz bu aliliyə, əlyetməzliyə yetişə bilmənin yolu, təlimidir. Buna görə də II Nəsimi tam haqlı olaraq ifadə edir ki:

*Nəsimi yolunda ölənlər ki var!*
*Yoxdur Nəsimiyə ölüm dünyada* [115, s. 609].

Bütün bunların fövqündə əsərdə diqqəti çəkən və Nəsimi obrazını ideya-estetik cəhətdən təhlil etmək baxımından mühüm olan vacib bir məsələ Nəsimiliyin mahiyyəti, elmi-fəlsəfi qayəsi, məğzidir. Buna görə də dramaturq bu məsələni də diqqətdə saxlayaraq "Nəsimi ölmüş, nəsimilik yaşayır" kimi fikrini təlqin etmək məqsədilə nəsimiliyin mahiyyətinə də nəzər salır. I və II Nəsimi biri digərilə mübahisə edərkən bir-birlərini nəsimiliyin ideoloji əsasları ilə imtahan edirlər. Bu həm də nəsimiliyə imtahan vermək məqsədi daşıyan, nəsimiliyin əsaslarını özündə ehtiva edən bir üsul kimi düşünülmüşdür:

*I Nəsimi:* *Mən öz Allahıma çoxdan çatmışam,*
*İdrakdan o yana əl uzatmışam.*
*Sən isə...*
*Səninçün hələ*
*Görürəm, məchuldur yüksəliş yolu* [115, s. 609-610].

Əslində, Əmirin, Zahidin dinsiz, Allahsız adlandırdıqları hürufilərə ittiham qarşılığında bu sual-cavablar kifayət qədər əsaslı cavab rolunu oynayır. Bu mühakimələr oxuculara tam şəkildə hürufizmin Allahı inkar deyil, Allahı özünəməxsus həqiqətlərlə dərk etmək təlimi olduğunu anlamağa imkan verir.

B.Vahabzadə əsərdə Allahın həm idrak, həm də fəhmlə dərk oluna bilməsi məsələsini ifadə etmiş, nəsimiliyi məhz bu cür qavradığını göstərmişdir. Filosof şair bu kimi sual-cavablarda təkcə Allahı dərk etmək məsələsi ilə yekunlaşmır, həm də hürufizmin insanı necə dərk etməsi məsələsinə də aydınlıq gətirmişdir. Müəllif II Nəsiminin insan haqqında olan suallarına I Nəsiminin verdiyi cavablarla Nəsiminin təlimi, ideyaları və nəsimilik barəsində olan özünəməxsus fikirlərini ortaya qoymuşdur. I Nəsiminin dilindən deyilən "Həqiqətdədir Allah", "heyrətdədir Allah", "İnsanlığa hörmətdə, ləyaqətdədir Allah", "Batindəki, cövhərdəki fitrətdədir Allah" [114, s. 611] kimi cavabları müəllifin Nəsimi təlimi və nəsimiliyin mahiyyəti haqqında olan konkret təəssürat və qavramını ifadə edir. Burada "söz", "zülm", eləcə də "son məqsəd", "idrak" və s. kimi məsələlərlə də bağlı sual-cavab yer almış, özünəməxsus fikirlər, mühakimələr səsləndirilmişdir. Dramaturq maraqlı məqam olaraq da "ənəlhəq" anlayışına niyyətdə, fikirdə Allaha qovuşmaq məqamı kimi izah vermişdir [114, s. 612]. Müəllifin "Sənətkar və zaman" əsərində də bəhs olunduğu kimi, dramaturq insan və yaradılış, dünya, söz, zülm və s. kimi məfhumlara öz şəxsi nöqteyi-nəzərindən cavablar vermiş, bunu həm də yaşadığı dövrün və şəraitin doğurduğu ehtiyac olaraq ifadə etmişdir [117].

Beləliklə, bəhs edilən bu düşüncələr əsərin ideoloji həmlə hissəsini təşkil edir. Əsərin daxili ideyasını üzə çıxarmağa yön verir. Nəsimi ilə nəsimiçilik qarşı-qarşıya gəlməklə "Nəsimimi? nəsimilikmi?", – deyə mühüm bir sual ortaya qoyur. I Nəsiminin dilindən dramaturq bu suala belə cavab verir:

*Nəsimitək ölmək, onun yolunda ölmək*
*Çox uca mərtəbədir! [115, s. 624].*

B.Vahabzadə belə bir fəlsəfi qənaətə gəlir ki, nəsimilik Nəsiminin aid olduğu və daşıdığı ideyalar aləminin yoludur, təlimidir. Buna görə də təlim, yol şəxsiyyətdən daha önəmlidir və bu üzdən şəxsiyyət yolunda deyil, təlim yolunda ölmək ən uca mərtəbədir.

Əsərdə nəsimiliyin ictimai məzmunu da özünə yer almışdır. Fikrimizcə, müəllif bir az da daha artıq bədii məsələlərin fövqündə öz yaşadığı dövrə, zamana münasibət ifadə etmək məramı güdmüş və bu vasitə ilə ictimai reallığa şəxsi münasibətini əks etdirmişdir. Bu baxımdan zülm, ədalətsizlik, özbaşınalıq, qanun adından danışmaq, günahsızları ittiham etmək və s. kimi məsələlər son səhnələrdə diqqət mərkəzinə çəkilmişdir. Hətta müəllif həm Nəsiminin, həm də özünün mühakimə edilməməsi üçün də islama münasibət məsələsinə də aydınlıq gətirməyi lazım bilmişdir. Buna görə də Turalı ortaya çıxarmaq üçün anasının günahsız yerə mühakimə edilməsi və zindana salınmasına qarşı məsələdə ciddi fikir müzakirəsi ortaya çıxır. Zahidin simasında islamın adından danışıb istənilən özbaşınalıqları edən ehkamçı, mənfəətgir din xadimi, saray əyanı obrazı yaradılmış, onun simasında bütün ehkamçı din xadimləri mühakiməyə cəlb edilmişdir. Əlbəttə, müəllif Zahidlə Nəsiminin sual-cavabına tarixi kontekstdən yanaşaraq əsərə gətirməyi vacib hesab etmişdir. Lakin sual-cavabın məğzini müəllif özü mənalandırmışdır:

*II Nəsimi:* *Dünyanın nizamını qurmaq üçün yenidən*
*İnsan doğulmuşam mən...*
*Zahid:* *Sən ki öz kamalınla belə lovğalanırsan,*
*Söylə, kimi dünyada ən ağıllı sanırsan?*
*II Nəsimi:* *Öz ağlıyla düşünüb, eşqlə yol gedəni* [115, s. 660].

Bundan başqa Nəsimi ilə Zahid arasındakı qadının islam adına həbsi məsələsi ilə bağlı müzakirəsi bilavasitə müəllifin həm keçmişə, həm də müasiri olduğu dönəmə bir münasibət formasıdır. Düzdür, ictimaiyyət müəyyən fikirlərlə Zahidin və ümumən, idarəçiliyin nöqsanlarını bəzən tənqidə məruz qoyur. Son asılacaq Nəsimi ilə artıq 13-cü Nəsiminin asılması timsalında kütlə idarəçiliyə, xüsusilə dini

məhkəməyə qarşı etirazlarda olur. Camaat dini məhkəmələrdəki haqsızlıq və ədalətsizlikləri qınayır. Hətta Loğman Nəsimi olmayan başqa bir adamı dar ağacından asan Zahidə, Əmirə və onların məhkəməsinə, şəriət qanunlarına etiraz və tənqid olaraq bütün kütlə qarşısında öz haqq səsini qaldırır. Loğman "Məhkumun sözü nə vaxtdan sübut sayılıbdır, Zahid? Hələ cani deyil caniyəm deyən" [114, s. 679] kimi qəti fikirlərilə Zahidin timsalında şəriət məhkəməsinə və onun mühakimə üsuluna etiraz bildirir, bu özbaşınalıq və ədalətsizliyə son qoymağa çağırır:

*Zahid:* *Nəsimi adıyla o gün Musanı*
*Qətl etdik...*
*Rəhman:* *Bəs burda həqiqət hanı?*
*Zahid:* *Bizi aldadıblar.*
*Kəramət:* *Kim aldadıb, kim?*
*Zahid:* *Həmən Həllacinin özü.*
*Rəhman:* *Bəs hakim,*
*Nədən ötrü imiş? Niyə aldanıb?*
*Kəramət:* *Bəlkə həqiqəti o, qəsdən danıb?*
*Sübhan:* *Hardaydı bəs sizin öz düşüncəniz?*
*Zahid:* *Camaat, səbr edin, aldansaq da biz*
*Bir şey itirmədik, haqq ki bizdədir.*
*Budur, Nəsimi də önünüzdədir.*
*Rəhman:* *Görəsən, neçənci Nəsimidir bu?* [115, s. 674-675].

Əlbəttə, bütün bu məsələlər əsərin başlıca ideyası və probleminə, nəsimiliyin mahiyyətinə aydınlıq gətirmək üçündür.

Əsərin maraqlı məqamlarından biri də Şirvanlı Çalpapağın oğlu Turalın nəsimiliyə gəlməsinin səbəbləri məsələsidir. Çünki "nəsimilik niyə yarandı, hansı ehtiyacdan ortaya çıxdı?" kimi suallara cavab vermək zərurəti də ortaya çıxmışdı. Buna görə də özünü Nəsimi olaraq təqdim edən şirvanlı Çalpapağın oğlu Tural Əmirin də, Zahidin də suallarına bu cavabı verərək Nəsimliyin həm də zülm əleyhinə mübarizə vasitəsi olduğuna diqqəti çəkmişdir:

*II Nəsimi –Tural:* *Zülmlə həmişə üz-üzə gəldim,*

*Usanıb yoruldum, düzü, mən daha.*
*Görürəm, yamanca üstələnmişəm,*
*Yoxdur umacağım zülmdən daha* [115, s. 682].

II Nəsiminin – Turalın Əmirin suallarına qarşı verdiyi müxtəlif cavablar fonunda müəllif nəsimiliyin həyat, yaşam və mübarizə ehtiyacından doğan yeni düşüncə tərzi, fəlsəfə olduğunu diqqətə çatdırmaq istəyir. Əmirin özünün də dilindən deyilən fikirlər onun zülmünün hüdudlarını göstərməyə imkan verir. Əmir dünyagörüşsüz olduğu qədər avam, avam olduğu qədər zalımdır. Əmir özü də etiraf edir ki, Tural kimi oğlanların Nəsimi kimi doğulmalarının səbəbi əslində onun yaratdığı sosial zülm və hiddətdədir:

*Tural :* *Sənin zülmünə də haqq qazandıran*
*Zahidin dinidir* [115, s. 683].

Dramaturq Nəsimini və nəsimiliyi ictimai münasibətlərin, xüsusilə ictimai ədalətsizliklərin, mərhəmətsizlik, zülm və istibdadın doğurduğunu təsdiqləmək üçün əsərin sonuna doğru məhz bu cür stimul götürür. Bədii inkişaf, Əmirin və Zahidin zülmü bu fikrə məntiqi zəmin hazırlayır. Zahidin doğmaca övladı Dəyanət də onun zülmündən usandığına görə nəsimiliyə sığınıb hürufiliyi seçmişdir. O, sonda ədalət naminə atasının üzünə durur. Ümumiyyətlə, əsərin sonunda atalarla oğulların qarşıdurmasının şahidi oluruq. Ataların doqmatizmini idraklı övladların azadlıq haqda düşüncələri darmadağın edir. Hətta Zahid belə Əmirdən gördüyü zülmə görə onun üzünə durur və əleyhinə çıxış edir. Çünki Əmir o qədər zalım və insan cəlladıdır ki, Zahidə doğmaca övladını öz əllərilə asmağa əmr edir. Zahid bu zülmün qarşılığında Əmirə üsyan etməli olur. O, təkcə Əmirə yox, hətta Allaha və özünə belə üsyan edir. Sanki müəllif bu üsulla ictimai düşüncədəki “mənə toxunmayan ilan yüz il yaşasın” hökmünü alt-üst etmək istəmiş, insanları zülmə qarşı ədalətli davranmağa və birlikdə zülmə etiraz etməyə çağırmışdır. Zahid özü də illərcə ona verilən hüdudsuz səlahiyyətin feyzində azaraq saysız-hesabsız insanlar asdırmış, amma indi Nəsiminin “Zahidin bir barmağın kəssən dönüb haqdan qaçar” misrasında deyilən kimi özü qaldığı zülmün qarşılığında nəinki Əmirə, Allahına belə üsyan etməli olmuşdur. B.Vahabzadə son nəticədə Əmirin öz övladı Vəliəhdin ona olan qəti etirazı

və nəsimiliyə olan meylini ifadə etməsilə onu da mənən sarsıtmış və onun hər cür hakimiyyətinin məhvə məhkum olduğunu ifadə etmişdir. Sonda ictimai münasibətlərin barışmaz savaşında idrak cəhalətə, azadlıq zülmə qalib gəlir, cəhalətlə baş kəsən atalar azadlıq yolunda savaş açan övladlara yenilir və bütövlükdə nəsimilik öz humanizmi, insanpərvərliyi ilə qələbə qazanır. Xalq da bir neçə azadlıq təşnəli dustağın oxuduğu "Allahü-əkbər deyəndə İnsanü-əkbər deyirik" mahnısını xor oxuyaraq bu ideyaya inam gətirdiklərini nümayiş etdirir. Müəllif Loğman obrazı vasitəsilə dünyanın gözünün, dilinin məhz Nəsimi və onun kimi həqiqət tərəfdarlarının fəryadı ilə açıldığı [115, s. 696] fikrini ifadə etmişdir. Əsərin sonunda müəllif II Nəsiminin – Turalın dilindən uzaq əsrlərdə edam edilmiş bir həqiqət tərəfdarı şairin müasir dünyanın insanlarını mərdliyə, mübarizliyə çağırışını [115, s. 696] əsərin adına uyğun olaraq azadlıq təşnəli fədailərin bütün insanlığa və bəşəriyyətə səslənişi kimi ümumiləşdirmişdir. Bu isə, nəsimiliyin əbədiliyinə, nəsimiçiliyin yaşayacağına olan müəllif inamının poetik ifadəsidir. *"Azad fikir və ehkam, loğman və vaiz, zahid və filosof, Nəsimi və islam əsrlər boyu gah poeziyada, gah da dar ağacının altında üzbəüz dayanmışlar. XX əsrdə müasir şair onları yenidən səhnədə görüşdürmüşdür. Məhz ağrılı, narahat, fəal həqiqət hissi və fədai-qəhrəman axtarışı Bəxtiyar Vahabzadəni Nəsimi ilə eyni bir ananın övladı hesab etməyə bizə haqq verir və böyük poeziyaya, böyük sənətə aparan yollarda hər iki şairin bugünkü görüşünü məntiqi, qanunauyğun bir hadisəyə çevirir*" [70, s. 163].

B.Vahabzadənin "Fəryad" pyesi öz struktur-bədii keyfiyyətləri ilə, fikrimizcə, tarixi əsərdən daha çox lirik-psixoloji dramdır. Bu fikrə gəlməyimizə başlıca səbəb odur ki, "Fəryad" mənzum pyesində konkret tarixi məsələlər – tarixi dövr, tarixi şəxsiyyət, tarixi hadisə və s. yoxdur. Doğrudur, əsərdə birinci və ikinci olmaq üzrə Nəsimi adlı obrazlar yaradılmışdır, lakin bu obrazların heç biri konkret olaraq Nəsiminin özü deyil, onun yolunu davam etdirən ardıcıllarıdır. Əsərdə Əmir, Zahid, Vəzir, Loğman, Vəliəhd kimi obrazlar yaradılsa da, onların da heç biri konkret bir şəxsiyyətlə bağlı deyillər, daha çox ümumiləşmiş obrazlardır. Əsərdəki hadisələrin məzmun etibarilə XIV-XV əsrlər Azərbaycanın filosof şairi İmadəddin Nəsiminin həyatı ilə əlaqədar hadisələri xatırladır. Lakin burada konkretlik yoxdur, sadəcə

bənzərlik vardır. Y.Qarayev və Ş.Salmanov da haqlı olaraq qeyd edirdilər ki: *"Əslində tarixi əsər və obraz yaratmaq müəllifin əsas məqsədi olmayıb"* [70, s. 164]. Buna görə də əsərdəki hadisələrin konkret olmaması da əsəri tarixi əsər kimi görməyə imkan vermir. V.Yusifli də "Fəryad" mənzum pyesini tarixi dram deyil, lirik-psixoloji pyes olaraq səciyyələndirmişdir. Lakin B.Vahabzadənin dramaturgiyasına öz tədqiqatları ilə monoqrafiya həsr edən Fəridə Səfiyeva B.Vahabzadənin "Fəryad" mənzum pyesini tarixi dramlar qrupuna şamil edərək təhlil etmiş, onu tarixi-fəlsəfi dram adlandırmışdır: *"Bəxtiyar Vahabzadənin "Fəryad" pyesi müəllifin tarixi mövzuda yazdığı ikinci dram əsəridir"* [108, s. 106]. Müəllif yenə də öz fikirlərinə davam edərək əsərin ümumi bədii səciyyəsi ilə bağlı yazır ki: *"Dar ağacı" pyesindən fərqli olaraq bu əsərdə müəllifin məqsədi konkret tarixi şəxsiyyətin həyat və fəaliyyətini dəqiqliklə verməkdən ibarət olmayıb. Odur ki, əsərdəki hadisələrin, obrazların hərəkətlərinin mənşəyini konkret tarixi dövrdən çox, insanların əxlaq və mənəviyyatının dərinliyində axtarmaq lazım gəlir. ...Bununla yanaşı şair qəhrəmanların hərəkətlərini konkret dövrdən, konkret şəraitdən çıxış edərək şərtləndirir. ...Əsərdəki hər bir obraz konkret tarixi şəraitdə meydana gəlmiş, öz dövrünə, zəmanəsinə müxtəlif tellərlə bağlıdır"* [108, s. 107]. Fəridə Səfiyevanın bu mövqeyinə uyğun olaraq Pərixanım Soltanqızının da *"Bəxtiyar Həllac Musanın simasında Nəsiminin obrazını yaratmışdır"* [109, s. 45], – deyə konkret Nəsimi obrazından da bəhs etməyi doğru hesab oluna bilməz. B.Vahabzadənin "Fəryad" mənzum pyesini təhlil edən Həsənəli Eyvazlı da bir çox hallarda maraqlı təhlillər aparsa da, əsərin girişində ilk cümlə ilə pyesi "Nəsiminin həyatı və fəaliyyətini səhnəyə gətirən" [28, s. 53] bir əsər olaraq səciyyələndirməsi heç də doğru hesab edilə bilməz. Çünki alimin özünün də tədqiqatlarında tam təsdiqini tapır ki, *"Müəllif istər I Nəsimi, istərsə də II Nəsimi surətləri ilə Nəsiminin varlığını, ucalığını, kamilliyini ön plana çəkmişdir"* [28, s. 61]. Əlbəttə, aparılan təhlillər də birmənalı olaraq onu göstərir ki, pyesdə Nəsimi özü birbaşa iştirak etmir. Nəsimi ilə bağlı əsərin ideya-estetik pafosuna aid olan maraqlı məsələlər isə ya Nəsimi haqqında bəhs edən obrazların dilindən, ya da nəsimiliyi yaşadan I və II Nəsimi surətlərinin obrazında öz əksini tapır. Bu baxımdan müəlliflər F.Səfiyeva, H.Eyvazlı və onların

mövqeyində olanların “konkret tarixi şərait”, “konkret dövr”, “konkret obraz” kimi anlayışlarını konkret tarix və şərait kontekstində anlamaq mümkün deyil. Bir haldakı əsərdəki dar ağacına çəkilən nəsimilərin heç biri Nəsiminin özü deyil, Əmir, Zahid, Vəzir, Loğman kimi obrazlar konkret dövrü, sarayı, hökmdarlığı, şəxsiyyətləri ehtiva etmir, hansı konkret obraz və tarix anlayışından söhbət etmək olar? Fikrimizcə, “Fəryad” mənzum pyesi, bəzi alimlərin də artıq qeyd etdikləri kimi, lirik-psixoloji bir əsərdir və fəlsəfi mahiyyət kəsb edir. Çünki əsərin də başlıca ideyası, bizim fikrimizcə, “Nəsimi ölüb, amma nəsimilik yaşayır” fikrini ifadə edir. Bu isə bütün zamanları, şəraitləri özündə ümumiləşdirmək məqsədindən meydana gəlmişdir. Bu barədə Səadət Şıxıyeva da bəhs edərək dramaturqun tarixi, real Nəsimini əsərə gətirmədiyini qeyd etmiş, əsərin tarixi deyil, fəlsəfi, psixoloji bir əsər olduğunu yazmışdır [111, s. 261-263]. B.Vahabzadənin dramaturji yaradıcılığını tədqiq edən Fəridə Səfiyeva da əsərdə tarixi şəxsiyyət olan Nəsiminin deyil, Nəsimi idealları və ideyalarını yaşadanların – nəsimiçilərin obrazlarının yaradıldığını qeyd etmişdir [108, s. 119].

Beləliklə:

– Bəxtiyar Vahabzadənin “Fəryad” mənzum dramı böyük Azərbaycan şairi İmadəddin Nəsiminin adı keçən uğurlu bədii əsərlərdən biridir;

– Bu mənzum pyesdə Nəsimi konkret şəxsiyyət və obraz olaraq iştirak etmir. Əsərdə iştirak edən Nəsimi obrazları isə nəsimiliyi ifadə edirlər. I və II Nəsimi obrazlarının simasında müəllif Nəsimi ideyaları və təlimini obrazlaşdırmışdır;

– Əsərdə Nəsimi obrazı nəsimilik və nəsimiçilik bədii aktları fonunda canlandırılmışdır;

– Müəllif nəsimiliyin bir təlim, mənəviyyat və düşüncə tərzi olaraq başlıca tərəflərini işıqlandırmış, Nəsimiçilərin simasında Nəsimini xatırlatmışdır.

### 3.3. Naxçıvan ədəbi mühitinin nümayəndəsi Əkbər Məftunun "Nəsimi" pyesində Nəsimi obrazı

Naxçıvan ədəbi mühitində də görkəmli Azərbaycan şairləri və dünyaşöhrətli şəxsiyyətlərinə əsərlər həsr edilmişdir. Bu sırada böyük Azərbaycan şairləri Xaqani Şirvani, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli və başqalarının obrazları yaradılan əsərlər daha çoxluq təşkil edir. Naxçıvan ədəbi mühitinin istedadlı nümayəndələri də bu görkəmli Azərbaycan şairlərinə müraciət edərək onların həyatı və taleyindən bəhs edən müxtəlif janrlı əsərlər ortaya qoymuşlar. Bu baxımdan Hüseyn Əzimin "Nizami", İslam Səfərlinin "Ələsgər", Kəmalə Ağayevanın "Məhsəti", Asim Yadigarın "Xaqani", Əkbər Məftunun "Nəsimi" əsərləri ədəbiyyatımız üçün diqqətəlayiqdir. Belə əsərlər arasında Əkbər Məftunun "Nəsimi" pyesi əhəmiyyətli yer tutur.

Naxçıvan ədəbi mühitinə dair qiymətli əsər yazan Müzəffər Nəsirli öz əsərində Naxçıvan ədəbi mühitinin qələm sahiblərindən olan Ə.Məftuna yer verərək onun yaradıcılığından bəhs etmiş, ədibin "Nəsimi" pyesi haqqında məlumat vermişdir [99]. Naxçıvan ədəbi mühitinin qiymətli araşdırmaçılarından olan Yavuz Axundlu da Ə.Məftun haqqında bəhs edərək onun haqqında müxtəlif mənbələrdə verilən bu məlumatı təsdiq edərək yazmışdır: *"Əkbər Məftunun ilk kitabı "Kiçik hekayələr" 1937-ci ildə çap olunmuşdur. O həmçinin "Vətən qızı"[1940] və "Nəsimi" [1940] pyeslərini yazmışdır"* [5, s. 17].

Ə.Məftunun "Nəsimi" pyesinin 1946-cı ildə yazıldığı göstərilmişdir. Danılmazdır ki, bu o vaxt sovet ideologiyasının tüğyan etdiyi bir dövr idi. Y.Axundlunun fikirlərindəki "1940" tarixini texniki bir yanlışlıq hesab etmək olar. Yoxsa, həmin dövrə yaxından bələd olan bir alim və müasiri kimi professorun yanlışa yol verdiyini düşünmək doğru olmaz. Çünki M.Nəsirlinin də "Şərq qapısı" qəzetindəki nəşrinə əsasən şair Ə.Məftun haqqında verdiyi məlumatlarda "Nəsimi" əsərinin yazılma tarixi məhz 1946-cı ilə məxsusdur. Həm də məlumdur ki, böyük ustad İmadəddin Nəsiminin yubileyinin keçiriləcəyi dövr də məhz bu tarixlərə aiddir. Beləliklə, istedadlı şair Ə.Məftunun iki pərdədən ibarət olan "Nəsimi" pyesi Nəsimi

haqqında yazılan ən qiymətli əsərlərdən hesab edilə bilər. Bu əsər həm də onunla diqqəti cəlb edir ki, Azərbaycan ədəbiyyatının Nəsimi kimi görkəmli simasına ədəbi müraciətin, demək olar, olmadığı və ya az olduğu bir vaxtlarda Əkbər Məftun bu əsərini yazmışdır. Qətiyyətlə deyə bilərik ki, həm İmadəddin Nəsimi, həm də Nizami Gəncəvi kimi böyük Azərbaycan şairlərinə ilkin ədəbi maraq məhz Naxçıvan ədəbi mühitində yer almışdır. Hüseyn Əzimin "Nizami", Əkbər Məftunun "Nəsimi" və digər bu kimi əsərlər Naxçıvan ədəbi mühitində Azərbaycan xalqının görkəmli ədəbi simalarına olan ədəbi müraciət ehtiyacını tam aydınlığı ilə təzahür etdirir.

Əsərin başlanğıcı, hadisələrin düyünlənməsi və zirvə nöqtəsinə qədər Nəsiminin özündən çox nəsimilik diqqət mərkəzinə çəkilmiş, nəsimiçilikdən bəhs edilmişdir. Əkbər Məftun başqa sənətkarlar kimi əsərə başlıca hadisə olaraq bazarda gənc bir şair tərəfindən deyilən qəzələ görə dar ağacına çəkilməsi, ardıcılını xilas etmək məqsədilə Nəsiminin özünü nişan verməsi hadisəsini seçmişdir. Başlıca ideya-estetik fikirlər məhz Nəsiminin edamı səhnəsində ümumiləşdirilmişdir. Əsərin girişindən Müfti ilə Zahidin söhbətlərində Nəsimi şəxsiyyəti ilə bağlı fikir və təəssüratlar yaradılır. Əlbəttə, Müfti və Zahid öz təbirlərincə, Nəsimini "dinsiz, Allahsız, şəriət düşməni" olaraq lənətləyirlər. Amma onların söhbətləri həm də Nəsiminin dönməz, qüdrətli, tanınmış və sevilən bir şəxsiyyət olması haqqında da fikir formalaşdırır. Çünki Müfti və Zahid kimi dövlətin əsas adamlarının böyük əndişə və təlaşla Nəsimi haqda bəhs etmələri onun nüfuzunun bu hakimlərə nə qədər sarsıdıcı təsir göstərdiyinə əyani sübutdur. Tamaşaçı hələ ilk səhnədən Müftinin və Zahidin söhbətlərindən Nəsiminin adını eşidir. Onun öz şəxsiyyəti və nüfuzu ilə hakim idarəçiliyi necə qorxuya saldığı ilə tanış olur. Hətta Müfti onun haqqında:

*Deyirlər, şairin hər sözü qandır,*
*Ellərin dostudur, yerə baxandır.*
*Şahin şəhpəri var hər kəlməsində,*
*Min qəzəb duyulur coşqun səsində.*
*Sarayın hörməti düşəcək, yəqin,*
*Onunla bacarmaz nə dövlət, nə din!* [83, s. 70] – deyir.

Onun kütlə arasındakı nüfuzunun hakimiyyət üçün nə qədər təhlükəli olması barədə təlaşla danışır. Hətta Müftinin dilindən deyilən “O, Azərbaycan tanımır zərrəcə nə din, nə Quran!” [83, s. 70] sözləri Azərbaycan xalqının yadelli təlimlərə və qüvvələrə tabe olmamaq əzmini poetikcə ifadə etmişdir. Burada artıq Qurana, dinə daha çox oyaq nəzərlərlə baxıldığı fikri ifadə edilmişdir. “Fəzlullah öldüsə, Nəsimi sağdır, Onun hər kəlməsi qəlbimə dağdır” [83, s. 71] beytində isə şair Nəsimi haqqında məlumat təqdim edilir, Fəzlullah Nəiminin davamçısı olan Nəsiminin ictimai nüfuzundan bəhs açılır.

Əsərdə qoca bir qarının səhnəyə gəlişi və Müftiyə yalvarışı hadisələri düyünləndirməyə və gərginləşdirməyə başlayır. Onun kimliyi və nə üçün yalvarışı maraq doğurur. Məlum olur ki, Nəsiminin şeirini dediyinə görə edama götürülən gənc şairin anasıdır. Ana edama hazırlanan övladının bağışlanmasını rica edir. Şagirdin saraya girişi ilə vəziyyət bir az da ciddiləşir və gərginləşir. Çünki Müfti qeyzlə anaya qəzəb yağdırır:

*Şöhrət sahibiyəm, adım-sanım var,*
*Rütbəmə baş əyir vüqarlı dağlar.*
*Lakin o şagirdin qəlbinə bir bax,*
*Deyir ki, yaradan bir mənəm ancaq!* [83, s. 73].

Şagirdin saraya daxil olarkən dediyi sözlər isə xalqın qəzəb və etirazını əks etdirir:

*Onu mən demirəm, nəslimiz deyir,*
*Hökmünüz ellərin belini əyir* [83, s. 73].

Bu cavabla gərginlik daha da artır. Şagirdin bu cavabında da Nəsimi təliminin qüvvəsini xalqın ruhu və dəstəyinin təşkil etdiyi aydın olur. Məlum olur ki, əslində Nəsimi təliminin əsasını xalqın yadellilərə qarşı etiraz əzmi təşkil edir.

Maraqlıdır ki, Ə.Məftun da hürufiliyin mahiyyətinə nəzər salarkən nəsimiliyin meydana gəlməsi və xalqın ona məhəbbətinin sirrini hakimlərin zülmündən xalqın əziyyət çəkməsi və qəzəbilə əlaqələndirir. Qamçılar altında inildəyən şagirdin dediyi qəzəlin əsl sahibini nişan verməməsi hadisəsi tarixi rəvayətlə üst-üstə düşür və xalqın Nəsimiyə olan rəğbətini göstərir. Qeyd edək ki, bu ədəbi nüans B.Vahabzadənin “Fəryad” mənzum pyesində də vardır.

Artıq ölümə götürülən şagirdi – gənc şairi xilas etmək məqsədilə Nəsimi özü səhnəyə daxil olur. Müəllif qəfildən səhnəyə daxil olan Nəsimini məğrurluğu, şəxsiyyət əzəmətliliyi və ötkəmliyi ilə təqdim edir. "Müqəssir burdadır, buraxın onu, Mənəm "tapdalayan haqqı, qanunu!" [83, s. 81] – deyərək məğrur və qürurla, qorxusuz və təlaşsız səhnəyə daxil olması onun əzəmətini bütün gücü ilə əks etdirmişdir. Nəsiminin həm tarixi rəvayətə, həm də əsərdəki hadisəyə görə bu cür davranışı həm də onun hakimlərə olan qorxmaz münasibətini əks etdirir. Əsərdə Nəsiminin səhnəyə daxil olması ilə yeni bir inkişaf, ədəbi missiya başlayır və əsərin ideyasını ümumiləşdirən mətləblərlə zənginləşir.

Ə.Məftunun da Nəsimisi vətənpərvər və öz eli, obası, Azərbaycan ölkəsi ilə fəxr edən bir şəxsiyyətdir. Bu mənada əsərdə Nəsimi bir vətənpərvər – elinə, obasına, xalqına bağlı bir qəhrəman, bir ideoloq – insanda Allahı görən humanist bir təlimin başçısı, ideya adamı, həmçinin öz ideyaları uğrunda dönmədən mübarizə aparan bir Fəzlullah ardıcılı, habelə öz arxasınca minlərlə adamı götürən və böyük bir mübariz kütlə formalaşdıran hərəkat rəhbəri kimi öz əksini tapmış, obrazlaşmışdır. Müəllif Nəsiminin dilindən hürufiliyin əsaslarına aid nitqlər, çıxışlar da təqdim etmişdir. Nəsiminin təlim etdiyi ideyaları poetik şəkildə ifadə etmişdir:

*Nəsimi:* *Mənəm kainatın qanı, cövhəri,*
*Mənəm xəlq eyləyən yeri, göyləri!*
*Xürrəm yaranmışam mən ilk binadan,*
*Yenə də gedirəm xürrəm dünyadan!* [83, s. 82], –kimi fikirlər səsləndirməklə öz ideyaları və əqidəsi haqqında danışır. Onun çıxışında mənsub olduğu hürufilik təlimi və əsaslarından irəli gələn başlıca məsələlər yığcam beytlərlə ifadə edilmişdir. Nəsimi çıxışında insanın yaradan və xürrəm olmasına xüsusi işarə vurmuşdur. İdrakı, şəxsi düşüncəsi və ruhu ilə insanın mənəvi azadlığı, ideyası Nəsiminin çıxışında yer almışdır. Nəsimi ölümün gözünə dik baxan məğrurluğu ilə təsvir olunub. Saray adamlarının qarşısında qorxmadan danışır, çıxış edir və heç bir tərəddüd olmadan birbaşa, açıq və sanballı cavablar ortaya qoyur. Şeyxin: "Demək ki, Allahsan?" sualına: "Bəli, Allaham! Mən də özlüyümdə yenilməz şaham!" [83, s. 83], – deyə cavab verərkən də Nəsimi öz inandığı həqiqəti

yığcam və qətiyyətlə ifadə etməkdən boyun qaçırmır. Nəsimi Müftinin, Zahidin və Şeyxin kinayəli suallarına məğrurluqla, qətiyyətlə cavab verir. Onların kinayəli suallarını məntiqi cavabları ilə darmadağın edir. Nəsiminin bu cür dialoqlar, ittiham, mühakimə və sorğu-sual içərisində olması öz pafosu ilə N.Gəncəvinin "Xosrov və Şirin" əsərində əks olunan Xosrovla Fərhadın deyişməsi səhnəsini, Sokratın məhkəmədəki özünümüdafiəsini xatırladır. Fərhadın Xosrova ünvanladığı cavablardakı müdriklik, məna dərinliyi və həyati təcrübə burada da özünü göstərir. Nəsimi şəxsiyyət və mənəviyyat etibarilə müqayisəolunmaz dərəcədə zirvələrə qalxır. Çünki o, insana, insanın qüvvəsinə, onun idrak və dəyişdirmə gücünə inanır. İnsanın kamilliyi və aliliyini onun idrakında görən Nəsimi Müftinin, Zahidin və Şeyxin "təəssübünü çəkdikləri" Allaha və dinə heç zaman bəsləmədikləri imanla insana, onun idrakının gücünə və ecazkarlığına inam sərgiləyir. Nəsimi insanın gücünü onun idrakında gördüyü kimi, onun ölümünə də inanmır. Müfti ətrafındakı Şeyx və Zahid kimi yaltaq qulbeçələrilə Fəzlullahın ölümünə gülüb ondan dərs çıxarmağı Nəsimiyə tövsiyə edəndə Nəsimi gur və inamlı bir səslə belə cavab verir:

*Xeyir! Məhv olmadı, o, indi sağdır,*
*Əməli, arzusu yaşayacaqdır!*
*O, sönməz günəşdir mənim yolumda,*
*Onunla duyuram qüvvət qolumda!*
*Təriqət sahibi o böyük hünər*
*Məsləki eylədi özünə rəhbər!* [83, s. 85].

Nəsimi bu mənada həm də öz mənəvi rəhbəri və yoluna sədaqətli bir adamdır. Əgər ayrı-ayrı adamlar onu sevir, onun simasında hürufilik yoluna inam gətirirdilərsə, Nəsimi hər zaman ustadı Fəzlullahı öyür, ona olan məhəbbəti və inamını ifadə edirdi. Nəsiminin:

*Ölsə də, vuruşdu məslək naminə!*
*Onun dağlar qədər min cəlalı var!*
*O gedən yollara günəş nur saçar!* [83, s. 85].

Və yaxud:

*O da bir günəşdir ürəyimizə!*

*O, bizi isidir, bizə can verir.*

*Öz doğma xalqına həyəcan verir!*

Eləcə də:

*Onu amalımda yaşadıram mən!*

*Ölməz müəllimin nəsihətləri*

*Bizə yol göstərir əzəldən bəri!* [83, s. 86].

Bu misrada olduğu kimi, Nəsiminin bu şəxsi nümunəsi əsasında şagirdləri Nəsimiyə qırılmaz bağlılıq, inam və sədaqət nümayiş etdirir, fədakarlıq və məhəbbət ortaya qoyurlar.

Müəllif Ə.Məftun Nəsiminin mühakimə və edam səhnəsində tarixi rəvayətə yaxınlığı qorumağa çalışmışdır. Zahidin Nəsimini əhvalına görə kinayəli suallarla ələ salmaq istərkən Nəsimi ona möhtəşəm cavablar verir. Nəsiminin edamı ilə Babəkin edamı arasında mənəvi, əqidə bağlılığını da nümayiş etdirən müəllif onların simasında yadellilərə qarşı Azərbaycan xalqının mübarizə əzmini ümumiləşdirmişdir. Hətta tarixi rəvayətlərə də diqqət edilərsə, həm Babəkin, həm də Nəsiminin edam səhnələrində onları ələ salmaq məqsədilə ünvanlanmış suallara verilən cavablar kontekstində oxşarlıqlar vardır. Ə.Məftun da bədii əsərin bu mərhələsində bunu diqqətdə saxlayır və Azərbaycan xalqının qəhrəmanlığını, onun müdrikliyini Nəsiminin nümunəsində təqdim edir. Zahid edam səhbasında olan Nəsimiyə "*Lakin ölüm tozu qonmuş çöhrənə...*" [83, s. 87] – deyəndə Nəsimi özünəməxsus müdriklik və məğrurluqla cavab verir:

*Buluddur günəşi qaplayan yenə!*

*Mən eşq üfüqində günəşəm, bəli!*

*Sönməz kainatda haqqın məşəli!*

*Odur, bax, tanrısı yerin, göylərin,*

*Yalnız batan zaman saralar, bilin!* [83, s. 87-88].

"Mən əbədiyyət üfüqində doğan günəşəm. Günəş batanda saralar" fikrini poetikcə ifadə edən Ə.Məftun Nəsimi haqqındakı tarixi rəvayətlərə sədaqət göstərməklə də özünəməxsus bədii ideya və missiyasını əks etdirməyə nail ola bilmişdir.

Beləliklə, Naxçıvan ədəbi mühitinin nümayəndələrindən olan Ə.Məftunun "Nəsimi" mənzum pyesi də böyük Azərbaycan şairi İmadəddin Nəsimiyə həsr olunmuş ən yaxşı əsərlərdən biri kimi diqqəti cəlb edir. Ə.Məftun əsərdə Nəsiminin ideya və dönməzliyini daha çox əsərin obyektinə gətirmiş, olduqca məğrur və dönməz əqidəsini əks etdirmişdir. Ə.Məftun həm də nəsimilik və nəsimiçilik məsələsini də əks etdirməyə nail olmuş, Nəsiminin öz həyatı, taleyi və ideyaları timsalında ölməz bir ənənə yaratdığını söyləmişdir. Buna görə də Ə.Məftun bu kimi fikirlərinə görə ədəbiyyatımızda rast gəldiyimiz bu tərzdə fikirlərin ilkinlərindən hesab oluna bilər. O, böyük və məğrur Nəsiminin portretini məhz ölümü ilə bağlı tarixi rəvayət kontekstində işıqlandırmağa nail olmuş, ölməz, nəhəng Nəsimi simasını əks etdirmişdir.

Lakin bununla belə, xüsusilə qeyd etməliyik ki, Ə.Məftunun "Nəsimi" pyesi daha çox sovet dövrü ideologiyasının tələbləri əsasında yazılmış, bəzi hallarda olduqca süni, ideoloji pafos və fikirlərə də yol verilmişdir. Bunu müşahidə edən, "Mən öz xoşum ilə buraya gəldim, Parlaq əməlimlə burda yüksəldim. Məni qorxutmayır nə dar, nə zindan, Mənəm dünyaları qurub-yaradan!" [83, s. 81-82] kimi dialoqlara əsaslanan alim Həsənəli Eyvazlı yazırdı: *"...müəllifin dialoqlarda işlətdiyi söz və fikirlərdə bir sıra bəsit ifadələrə və dini baxımdan yanlışlıqlara rast gəlirik. Yuxarıdakı dialoqda [bir az əvvəl qeyd edilən dialoq nəzərdə tutulur – P.Ə.] Nəsiminin dilindən söylənən "Parlaq əməlimlə burda yüksəldim!" ifadəsi sovet ideologiyasının şüarçılıq prinsiplərindən irəli gələn pafosdur. Çünki Nəsimi əməl yox, əqidə uğrunda çalışıb. Müəllifin fikirləri bəsit və əsassızdır"* [28, s. 65]. Alimin poetik bəsitlik haqqındakı fikirləri müəllifin əsərdəki bəzi məqamlarda işlətdiyi nümunələr kontekstində doğrudur. Lakin bizim fikrimizcə, H.Eyvazlının bu fikirlərilə tam razılaşmaq doğru deyil. Xüsusilə də, alimin bəsit fikri ifadələrlə bağlı iddiasını müəyyən mənada qəbul etmək olar. Lakin şair Ə.Məftunun yanlış dini ifadələr işlətdiyini, dini məsələləri təhrif etdiyini birmənalı qəbul etmək mümkün deyil. Doğrudur, sovet dövrü ədəbiyyatında insanı ictimai fəal təqdim etmək baxımından onu qurucu və yaradıcı göstərmək kimi tələblər var idi və ədiblərin çoxu bu tələbə əməl edirdi. Konkret olaraq Ə.Məftunun "Nəsimi" pyesində bütün ciddiliyi ilə dini

məsələlərin təhrif edildiyi və yanlış ifadə olunduğu fikrini doğru hesab etmək olmaz. Belə ki, bizim müşahidələrimizə görə, şair "Parlaq əməlimlə burda yüksəldim!" fikrini və onunla eyni kontekstdə olan digər fikirləri Nəsimini ağılsızlıqda, axmaqlıqda, Hələbə gəlib tora düşməkdə ittiham edən din xadiminə özünün qorxmazlığını, cəsarətini, verdiyi qərar ilə gəldiyini qabartmaq məqsədilə ifadə etmişdir. "Parlaq əməl" ifadəsini də hürufiliyin daxili məntiqindən doğan ideoloji bir məsələ kimi qəbul etmək lazımdır. Necə ki, dini əsaslara görə də insanlar öz əməllərilə xeyir və şər tərəfdə dayanır, günah da, haram da, xeyir də, şər də əmələ görə, əməlin əxlaqi məzmununa görə müəyyənləşir. Nəsimi də məhz Müftinin onu aşağılamaq, dinsiz, kafir kimi təqdim etmək məqsədilə dediyi "Bu Hələb islamın beşiyidir, bil" [82, s. 81] fikrinin qarşılığında məhz öz qərarı ilə bu islam mərkəzinə gəldiyini, özünün humanist, insan azadlığı məzmunlu ideyaları və əməllərilə ucalıb şöhrət tapdığını Müftiyə bildirir. Hətta Tanrının dilindən "Mən insanı faili-muxtar yaratdım" hədisini də nəzərə alsaq, "Qurani-Kərim"dəki "bilənlərlə bilməyənlər heç bir ola bilərlərmi?" ayəsini diqqətə alsaq, Nəsiminin və ümumən hürufiliyin insan haqqındakı kamillik ideyalarını bütün zamanlar üçün aktual və əhəmiyyətli, əxlaqi və tərbiyəvi cəhətdən yararlı bir fikir olaraq dəyərləndirmək doğru olardı. Bizim fikrimizcə, poetik ifadə cəhətdən fikrin nə dərəcədə mükəmməl olması məsələsini müzakirə etmək olsa da, şairin ifadə etdiyi bu fikirdə dini yanlışlığa yol verildiyini, hətta sovet dövrü şüarçılığından irəli gəldiyini qəbul etmək doğru olmaz. Beləliklə:

– Ə.Məftunun "Nəsimi" mənzum pyesi böyük ustad və ölməz şair İ.Nəsimiyə həm Naxçıvan ədəbi mühitində, həm də ümumən Azərbaycan ədəbiyyatında həsr edilmiş ilk dram əsərlərindən biri kimi maraq doğurur;

– Ə.Məftun Nəsimi haqqındakı tarixi rəvayətlərdən yola çıxaraq əsəri ortaya qoymuş və edam səhnəsi kontekstində Nəsiminin şəxsiyyət portretini cızmağa nail olmuş, onun əqidəsindən dönməzliyi barədə təəssürat formalaşdırmışdır;

– Əsərdə Nəsiminin kütlə içərisindəki hüdudsuz sevilməsi, ona olan kütləvi inam və şagirdlərinin ona bəslədiyi məhəbbət və sədaqət təsvir edilmişdir;

– Nəsiminin özünün də ustadına və yoluna sədaqəti, mətanətlə mübarizəsi və məğrurluğu poetik çalarlarla əks etdirilmişdir;

– Nəsimi fədakarlığı, məğrurluğu, cəsarəti və müdrikliyi əsərdə özünün qabarıq əksini tapmış və Nəsimi fenomenliyi göstərilmişdir;

– Əsərdə həmçinin Nəsimi ideyaları və təliminin yaşaması kontekstində nəsimilik və nəsimiçilik məsələsi əks etdirlimişdir.

# NƏTİCƏ

Ümumiyyətlə, çoxsaylı ədəbi əsərlərdə Azərbaycanın bədii söz ustalarının obrazları yaradılmışdır. Bu əsərlərin hər birində az və ya çox dərəcədə dövr və mühit, şəxsiyyət və zaman, ideya və ideal və s. kimi məsələlər ümumiləşdirilmiş, şəxsiyyətlərin prizmasından fikirlər səsləndirilmişdir. Azərbaycan ədəbi-bədii düşüncəsi və fəlsəfi fikir tarixinin azman nümayəndələrindən biri olan İmadəddin Nəsimi həm ümumxalq düşüncəsində, həm şifahi xalq ədəbiyyatında, həm də yazılı ədəbiyyat nümunələrində öz mübarizliyi və ölməz ideyaları ilə obrazlaşaraq yaşadılmışdır. Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Nəsiminin öz dövründən üzü bəri müxtəlif mənbələrdə, xüsusilə ədəbiyyat nümunələrində onun möhtəşəm obrazı yaradılmışdır. Seyyid Əli adına sahib Nəsimi imzası ilə tanınan bu görkəmli sənətkar öz dövrünün və hürufizmin ən görkəmli nümayəndəsi və bayraqdarı olmuş, əsərlərində "insan-Allah" vəhdətini, azad insan və azad düşüncə ideyalarını əks etdirmiş, intibah düşüncəsini ehtiva etmişdir.

Həyatı daha çox əfsanələrə bürünmüş sənətkarın dərisi soyularaq öldürülməsi haqda əhvalatlar ədəbiyyat nümunələrində ən çox bəhs edilən məsələ olmuş və öz idealları uğrunda dönməzlik göstərən Nəsimi şəxsiyyət-lider olaraq obrazlaşmışdır. Poeziya nümunələrində Nəsiminin adı keçən, obrazı yaradılan nümunələr çoxluq təşkil edir. Belə ki, ədəbi nümunələrdə Nəsiminin ya adı çəkilmiş, ya qismən, ya da əhatəliliklə obrazı yaradılmış, həyatı və yaradıcılığı, dövrü və müasirləri bədii əksin müstəvisinə çıxarılmışdır. Poeziya sahəsində kiçik lirik şeirlərdən poemalara qədər Nəsimiyə həsr olunan çoxsaylı əsərlər vardır. Beləliklə:

1. Azərbaycan ədəbiyyatının müxtəlif janrlarında yazılmış əsərlərdə İmadəddin Nəsiminin bədii obrazı yüksək səviyyədə yaradılmaqla bərabər, onun ustadı, müəllimi, hürufiliyin banisi Nəiminin də əyilməzliyi, yenilməzliyi, qətiyyəti, o dövr üçün ideya yaradıcısı olduğu böyük ustalıqla qələmə alınmışdır;

2. Nəimi, Nəsimi kimi ustad sənətkarları yaşadan məxsus olduğu xalq və bu xalqın dövlət başçılarının ədəbiyyatımıza olan qayğısı və bu sahəni daima diqqət mərkəzində saxlamağındadır. Bu baxımdan Nəsiminin Şamaxıda, Nəiminin

Naxçıvanda əbədi uyumaları, onların türbələrinin qorunub saxlanılması, ziyarətgaha çevrilməsi məhz Ümumilli Liderimiz Heydər Əliyevin diqqəti, qayğısı, təəssübkeşliyi, azərbaycançılığı sayəsində mümkün olmuşdur. Onların vaxtaşırı yubleyinin keçirilməsi də Ulu Öndərimizin layiqli davamçısı Prezidentimiz Cənab İlham Əliyevin ənənəvi və əməli fəaliyyətinin bariz nümunəsidir;

3. Bu poetik nümunələrdə Nəsimi əqidəli bir şəxsiyyət olaraq öz amalı uğrunda dönməzlik və cəsarət göstərərək ən ağır cəza ilə öldürülən mübariz bir şəxsiyyət kimi obrazlaşmışdır;

4. Nəsiminin azad insan, azad düşüncə haqqında fikirləri və onun dərisinin soyularaq öldürülməsi poetik nümunələrdə obrazını tamamlayan vacib atributlar olaraq çıxış etmişdir;

5. Dissertasiyada qeyd edilən əsərlər arasında S.Vurğun da daxil olmaqla R.Rzanın, Ə.Kərimin, Ə.Kürçaylının, X.Rzanın və çoxsaylı digər müəlliflərin böyük söz ustadı İmadəddin Nəsimiyə həsr olunan qiymətli şeirləri yaranmışdır. Qabilin, R.Rzanın, N.Xəzrinin, M.Yaqubun və digər sənətkarların poemaları da epik və epik-lirik əsərlər silsiləsində Nəsimi şəxsiyyəti və idellarının yaşadılması baxımından xüsusi yer tutur;

6. Qabilin "Nəsimi" poeması Azərbaycan ədəbiyyatı tarixində Nəsimiyə həsr olunan ən irihəcmli, sanballı və əhatəli poema və ya mənzum roman olaraq tanınmaqdadır;

7. İ.Nəsiminin bədii ədəbiyyat nümunələrində təsvir olunan yarı real, yarı əfsanəvi bədii portreti onun şəxsiyyəti ilə tamamilə uzlaşır;

8. Nəsiminin ustadı, müəllimi Nəimi obrazının bədii ədəbiyyatda təcəssümü o dövrün real hadisələri ilə üst-üstə düşür;

9. Hürufilik məfkurəsinin yayılmasında Nəiminin əqidə davamçısı İmadəddin Nəsimi və onun radikal davamçılarının bədii obrazı da bədii ədəbiyyat nümunələrində özünü qabarıq şəkildə büruzə vermişdir;

10. Apardığımız tədqiqatlar, araşdırmalar, müqayisə və təhlillər bunu deməyə imkan verir ki, nəsimiçilik məfkurəsi həm o dövr, həm bu dövr, həm də gələcək nəsil nümayəndələri üçün bir örnəkdir. Dəyanət dözümlülük, iradəlilik, bütövlük,

tamamlıq, ölümün gözünə dik baxmaqlıq, həqiqətpərəstlik və digər mənəvi, əxlaqi, tərbiyə nümunəsidir;

11. Nəimilikdə, nəsimilikdə dini-mistik ruh hakimdirsə, o məfkurədə paklıq, mənəvi təmizlik, saflıq, düzlük, doğruçuluq və digər iradi keyfiyyətlər üstünlük təşkil edir. Nəsimilikdə azərbaycançılığın vəhdətinə münasibət Azərbaycan yazarlarının əsərlərində öz bədii əksini tapmışdır;

12. Bu vəhdətin, bu bərabərliyin inikası heç də həmişə intelektlər tərəfindən birmənalı qarşılanmamışdır;

13. Nəsimi və nəsimilik mövzusunda yazılmış bədii əsərlərdə azərbaycançılıqla hürufilik heç də əksər yazarların əsərlərində eyniləşdirilməmişdir. Hürufilik, dini qanunlara söykənən cərəyandır, islam dini ilə bağlı məsələdir, ancaq azərbaycançılıq milliliklə, mənəviyyatla, soyla, köklə, anamızın dili ilə bağlı amillərdir;

14. Nəimilik, anadillilik, tarixi mənəvi ilkinlik sırf milliliklə bağlıdır;

15. Araşdırmalardan və Nəsimi haqqında yazılmış bədii əsərlərdən aldığımız həm real, həm də əfsanələşdirilmiş Nəsimi obrazı cəsarət, əyilməzlik, dövrünün şəriət qanunlarına tabe olmayan bir şəxsiyyətdir;

16. İmadəddin Nəsimi tarixi bir şəxsiyyətdir. Müxtəlif illərdə ayrı-ayrı sənətkarlar tərəfindən qələmə alınmış bədii əsər nümunələrində o, bütün iradi, mənəvi keyfiyyətləri özündə etiva edən fəzilətlər kompleksinin daşıyıcısıdır, mənəvi məktəbidir;

17. Bu əsərlərin hər birində Nəsimi obrazı ali, humanist ideyalı, öz idealları uğrunda dönməz və mübariz bir şəxsiyyət nümunəsi olaraq ümumiləşmiş və meyar kimi təqdim edilmişdir;

18. Bu görkəmli söz ustadı şəxsiyyəti və yaradıcılığı etibarilə həm də Azərbaycan xalqının humanizmi, tolerantlığı və multikulturalizmini təmsil edən nümunə olaraq çıxış etmişdir;

19. Azərbaycan bədii nəsrində də Nəsiminin mükəmməl obrazı yaradılmışdır;

20. Yazıçı İ.Hüseynovun “Məhşər” əsəri İ.Nəsimiyə həsr olunan ilk mükəmməl tarixi nəsr örnəyidir. Əsərdə Nəsimi şəxsiyyəti ilə bərabər, dövr və mühit də genişliklə əks etdirilmişdir. Romanda Nəsimi obrazı real Nəsimi şəxsiyyətindən daha

çox yazıçının fərdi düşüncəsinin məhsulu olan Nəsimi personajı yaradılmışdır. “Məhşər” əsəri Nəsimi, Nəimi, İbrahim şah və Əmir Teymur kimi şəxsiyyətlərin yaşayıb-fəaliyyət göstərdiyi bir epoxanı özündə əks etdirən qiymətli tarixi əsərdir. Yazıçının əlavə etdiyi, hətta uydurduğu bir çox səhnələr qeyri-real olsalar da, əsərə rəngarənglik qatmaqla yazıçı məqsədinin açılmasına güclü təkan vermişdir.

21. Nəsiminin obrazı yaradılan nəsr əsərlərindən digəri tarixçi alim və yazıçı M.İsmayılın “İki od arasında” romanıdır. Romanda işğalçı yürüşlərə qarşı ağıllı hökmdar olaraq Şirvanşah İbrahimin uzaqgörənliyi ilə yanaşı, xalqın mənəvi simasını təşkil edən hürufi şair İ.Nəsiminin obrazı əks etdirilmişdir. Romandakı “Nəsimi” bölməsi tamamilə İ.Nəsimini anladan bir bölmə kimi yadda qalır. Yazıçı Nəsimini hürufizmin aparıcı simalarından biri, istedadlı və nüfuzlu bir şair olaraq tanıdır. Əsərdə Nəsimi ilə bağlı daha fərqli tərcümeyi-hal materiallarına yer verilmiş və Nəsiminin obrazı fərqli bir şəkildə, həm də daha çox real şəxsiyyət təsirilə yaddaqalan obrazı yaradılmışdır. Nəsimi obrazı əsərdə xalqın mənəvi siması və onun mənəvi mübarizəsinin təcəssümü kimi təqdim edilmiş və sufizm, nəsimilik, hürufilik islam dininə söykənən fərdi təxəyyülün, fikrin, əqidənin genişlənmiş təzahürü kimi ümumiləşmişdir;

22. İlk dəfə Nəsimi obrazını bədii nəsrə gətirən, Nəsiminin əqidəsindən dönməz, haqq, ədalət tərəfdarı və qüdrətli şair kimi obrazını yaradıb ictimai düşüncədə meyara çevirən Y.V.Çəmənzəminlinin satirik ruhda yazdığı “Mirzə Əbdülvahab” əsəridir. Nəsimi obrazına müraciət edən müəllif Nəsiminin şairlik qüdrəti və nüfuzunu saxta, düzənbaz yazıçıları tənqid və ifşa vasitəsi kimi istifadə etmişdir;

23. Azərbaycan tarixi nəsrinin müasir və qiymətli nümunələrindən biri olan H.Mirələmovun “Son səfər” tarixi povesti də Nəsimi obrazını yaradan yaddaqalan əsərlərdən biridir. Bu əsərdə də Nəsiminin tərcümeyi-halı, dövrü və mühiti, apardığı mübarizə, ədəbi idealı və ideyaları geniş, əhatəli və təsirli şəkildə canlandırılmışdır;

24. Azərbaycan dramaturgiya tarixində də Nəsiminin obrazına müraciət edilən qiymətli əsərlər yaradılmışdır. B.Vahabzadənin “Fəryad” mənzum dramı İ.Nəsiminin taleyinə həsr olunmuş uğurlu bədii əsərlərdən biridir. Bu mənzum pyesdə Nəsimi

konkret şəxsiyyət və bir obraz olaraq iştirak etməsə də, nəsimiliyi yaşadan Nəsimiçilərin – I və II Nəsimi obrazlarının simasında Nəsimi idealları və mənəviyyatının obrazı yaradılmışdır. Əsərdə Nəsimi nəsimilik və nəsimiçilik olaraq canlandırılmış və yaşadılmışdır. Müəllif nəsimiliyin bir təlim, mənəviyyat və düşüncə tərzi olaraq başlıca tərəflərini işıqlandırmış, Nəsimiçilərin simasında Nəsimini xatırlatmışdır;

25. Naxçıvan ədəbi mühitinin istedadlı nümayəndələrindən olan Ə.Məftunun "Nəsimi" mənzum pyesi böyük ustad və ölməz şair İ.Nəsimiyə həm Naxçıvan ədəbi mühitində, həm də ümumən Azərbaycan ədəbiyyatında həsr edilmiş ilk dram əsərlərindən biri kimi maraq doğurur. Ə.Məftun Nəsimin haqqındakı tarixi rəvayətlərdən yola çıxaraq əsəri ortaya qoymuş və edam səhnəsi kontekstində Nəsiminin şəxsiyyət portretini cızmağa nail olmuş və onun əqidəsindən dönməzliyi barədə təəssürat formalaşdırmışdır. Əsərdə həmçinin Nəsimi ideyaları və təliminin yaşaması kontekstində nəsimilik və nəsimiçilik də əks etdirilmişdir;

26. F.Aşurovun Nəsimiyə həsr olnumuş pyesində Nəsiminin əqidəsindən dönməz və humanist obrazı canlandırılmış, onun ədəbi və ideoloji fəaliyyəti haqq, ədalət və ictimai fayda baxımından dəyərləndirilmişdir;

27. S.Aruzun "Nəsimi" mənzum pyesi də ölkəmizdə "Nəsimi ili"nə töhfə olan dəyərli dram əsərlərindən biri olaraq qiymətləndirilmişdir. Bu əsərdə də əsasən müasir Azərbaycan düşüncəsinə daşınan, məktəb təşkil edən və ənənə yaradaraq yaşayan nəsimilik və nəsimiçilik məsələsi ədəbi şəkildə obrazlaşdırılmışdır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Abdullayev, C. Səməd Vurğunun sənət dünyası / C.Abdullayev. – Bakı: Yazıçı, – 1986. – 319 s.
2. Abdullayev, C. Lirika və zaman / C.Abdullayev. – Bakı: Yazıçı, – 1982. – 179 s.
3. Abdurrəhmanova, F. İnsana sevginin gerçək abidəsi // “Klassik Azərbaycan ədəbiyyatı: dil, üslub, ideya problemləri” mövzusunda elmi konfransın materialları, – Bakı: – 6 dekabr – 7 dekabr, – 2019, – s. 9-11.
4. Axundlu, Y. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər [1930-2000] / Y.Axundlu. – Bakı: Adiloğlu, – 2005. – 550 s.
5. Axundlu, Y. Ədəbi mühit və sənətkar / Y.Axundlu.–Bakı: Adiloğlu,–2002.–187 s.
6. Alışanlı, Ş. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı / Ş.Alışanlı. – Bakı: Elm, – 2011. – 376 s.
7. Anar. Şairin hünəri // 525-ci qəzet. – 2019, – 19 yanvar.
8. Araslı, H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri / H.Araslı. – Bakı: Gənclik, – 1998. – 732 s.
9. Araslı H. İmadəddin Nəsimi / H.Araslı. – Bakı: Azərnəşr, – 1972. – 74 s.
10. Araz, M. Seçilmiş əsərləri [2 clddə] / M.Araz.– Bakı: Lider,– c. 1.– 2004.– 224 s.
11. Araz, M. Seçilmiş əsərləri [2 cilddə] / M.Araz.– Bakı: Lider,– c. 2.– 2004.– 232 s.
12. Arif, M. Seçilmiş əsərləri [3 cilddə] / M.Arif. – Bakı: Azərb. SSR EA nəşriyyatı, – c. 1. – 1967. – 620 s.
13. Aruz, S. Nəsimi [mənzum dram] / S.Aruz. – Bakı: Elm və təhsil, – 2019. – 146 s.
14. Aşurov F. Nəsimi / “F.Aşurov. Azərbaycan” jurnalı, – 1973, № 8, 93-130 s.
15. Azərbaycan tarixi [ən qədim zamanlardan XX əsrədək]: [ali məktəblər üçün dərslik] / Z.Bünyadovun və Y.Yusifovun redaktəsilə – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – c. 1. – 1994. – 680 s.
16. Azərbaycan ədəbiyyat tarixi [10 cilddə] / Akad. İ.Həbibbəylinin redaktəsi ilə. – Bakı: Elm, – c. 3. – 2020. – 1092 s.

17. Babayev, Y. Azərbaycan ədəbiyyatı tarixi [XIII-XVIII əsrlər]: [dərslik] / Y.Babayev. – Bakı: Elm və təhsil, – 2014. – 760 s.
18. Babayev, Y. Təriqət ədəbiyyatı: Sufizm, hürufizm / Y.Babayev. – Bakı: Elm və təhsil, – 2011. – 160 s.
19. Budaqov, B. Nəbi Xəzri kəhkəşanı / B.Budaqov. – Bakı: Oğuz eli, – 1999 – 72 s.
20. Cabbarov, X. Bədii ədəbiyyatda obrazlılıq / X.Cabbarov.– Bakı: Yazıçı,– 1986.– 221 s.
21. Cavid, H. Əsərləri [5 cilddə] / H.Cavid. – Bakı: Lider, – c. 2. – 2005. – 352 s.
22. Cəfər, M. Seçilmiş əsərləri [2 cilddə] / M.Cəfər. – Bakı: Azərnəşr, – c. 1. – 1973.– 350 s.
23. Cəfərov, N. İsa Hüseynov [Muğanna] Məhşər [roman] / İ. Hüseynov.– Bakı: Çaşıoğlu, – 2009. – 224 s.
24. Cəfərov, N. “Son səfər”in təəssüratları / H.Mirələmov. “Son səfər”. – Bakı: Apostrof-A, – 2019. – s. 10-18.
25. Cəfərzadə, Ə. Ön söz / Ə.Cəfərzadə. – Bakı: Gənclik, – 1978. – 296 s.
26. Çəmənzəminli, Y.V. Seçilmiş əsərləri: [3 cilddə] / Y.V.Çəmənzəminli. – Bakı: Avrasiya press, – c.1. – 2005, – 360 s.
27. Dadaşov, A. Müasir Azərbaycan dramaturgiyası / A.Dadaşov. – Bakı: Elm və təhsil, – 2012. – 304 s.
28. Eyvazlı, H. Əsərləri. [Üç cilddə] / H.Eyvazlı. – Naxçıvan: Əcəmi, – cild 3.– 2018. – 258 s.
29. Əfəndiyev, A. Müdriklik səlahiyyəti / A.Əfəndiyev. – Bakı: Gənclik, – 1976. – 192 s.
30. Əhmədova, İ.M. İsa Hüseynovun (Muğanna) nəsrində milli koloritin inikası problemi // Fil.ü.f.dok. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı // –Bakı, 2016, s.3.
31. Əhmədov, B. XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər / B.Əhmədov. – Bakı: Elm və təhsil, – 2015. – 552 s.
32. Əhmədova, P. İmadəddin Nəsimi və ona həsr olunmuş bədii əsərlər //– Naxçıvan:

Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Humanitar elmlər seriyası, – 2017. №5, – s. 58-61.
33. Əhmədova, P. İmadəddin Nəsimiyə həsr olunan bəzi poemalar // – Bakı: Filologiya məsələləri, – 2019. №5, – s. 291-299.
34. Əhmədova, P. Rəsul Rza poemasında İmadəddin Nəsimi obrazı // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Humanitar elmlər seriyası, – 2018. №1, – s. 60-65.
35. Əhmədova, P. İsa Hüseynovun "Məhşər" əsərində Nəsimi obrazı // – Naxçıvan: Naxçıvan Universitetinin Elmi əsərləri, – 2018. №4, – s. 138-144.
36. Əhmədova, P. İmadəddin Nəsimiyə həsr olunan iki pyes haqqında // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Humanitar elmlər seriyası, – 2018. №5, – s. 57-62.
37. Əhmədov T.Ə. XX əsr Azərbaycan yazıçıları (ensiklopedik məlumat kitabı). Əhmədov.T.Ə. – Bakı: Nurlar NPM, – 2004, 984 s.
38. Əli, S. Nəsimi xalq ədəbiyyatında /– Bakı: Elm və həyat, – 1973. №9,– s. 10-11.
39. Əlişanoğlu, T. XX əsr Azərbaycan nəsrinin poetikası / T.Əlişanoğlu. – Bakı: Elm, – 2006. – 312 s.
40. Əliyev, H. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 1. – 1997. – 612 s.
41. Əliyev, K. Ədəbiyyat tarixinə bir baxış / K.Əliyev. – Bakı: Elm və təhsil, – 2013. – 302 s.
42. Əliyeva G. Ələkbər Salahzadə sərbəst poeziyanın görkəmli nümayəndəsi kimi // – Filologiya məsələləri toplusu, Bakı: 2018. № 19, – s. 228-237.
43. Ərəb və fars sözləri lüğəti / B.T.Abdullayevin redaktorluğu ilə. – Bakı: Yazıçı, – 1985. – 1040 s.
44. Əsgərli, Ə. Xəlil Rza Ulutürkün poetikası / Ə.Əsgərli. – Bakı: Aspoliqraf, – 2012. – 496 s.
45. Ənvəroğlu, H. Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri / H.Ənvəroğlu. – Bakı: Elm, – 2004. – 773 s.

46.Əzizova, F. İmadəddin Nəsimi: tədqiqlər, məqalələr, məruzələr / F.Əzizova. – Bakı: Elm, - 2019. – 404 s.
47. Əzizov, R. Poemanın genişlənən üfiqləri / R.Əzizov. – Bakı: Yazıçı, – 1985. – 173 s.
48.Xəlilov, R. Rəsul Rza poeziyası / R.Xəlilov. – Bakı: Yazıçı, – 1987. – 215 s.
49.Xəzri, N. Seçilmiş əsərləri [poemalar və tərcümələr]: [4 cilddə] / N.Xəzri. – Bakı: Yazıçı, – c. 4. – 1984. – 264 s.
50.Hacıyev, A. Ədəbiyyatşünaslığın əsasları / A.Hacıyev. – Bakı: ADPU nəşriyyatı, – 2010. – 370 s.
51. Həbibbəyli, İ. Ədəbi şəxsiyyət və zaman. Əsərləri: [10 cilddə] / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – c. 2. – 2017. – 1068 s.
52. Həbibbəyli, İ. Cahana sığmayan Azərbaycan şairi / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2019. – 108 s.
53. Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri / İ.Həbibbəyli. – Bakı: Elm, – 2019. – 452 s.
54. Həşimli, Ə. Azərbaycan tarixi nəsrində Naxçıvan / Ə.Həşimli. – Naxçıvan: Əcəmi, – 2017. – 192 s.
55. Həşimli, H. Nəsimi yaradıcılığının ideya-bədii xüsusiyyətləri / H.Həşimli. – Şərq qapısı. – 2019, 21 avqust. – s. 3.
56. Hüseynov, İ. Məhşər / İ.Hüseynov. – Bakı: Çaşıoğlu, – 2009. – 224 s.
57. Hüseynov, R. Zamansız və məkansız / R.Hüseynov. – Bakı: Elm və təhsil, – 2019. – 217 s.
58. İbrahimov, M. Niyəsiz, necəsiz bir yazısan sən / M.İbrahimov. – Bakı: Yazıçı, – 1985. – 547 s.
59. İmadəddin Nəsimi: 650 illik poetik-fəlsəfi yol [elmi-ədəbi, poeziya almanaxı] / A.X.Əbilovun redaktorluğu ilə. – Bakı: Avropa, – 2019. – 63 s.
60. İsmayıl, M. İki od arasında / M.İsmayılov. – Bakı: Gənclik, – 1987. – 309 s.
61. İsmayılzadə, İ. Seçilmiş əsərləri [şeirlər və poemalar] / İ.İsmayılzadə. – Bakı: Azərnəşr, – 1991. – 350 s.

62. Kamal, R. XX əsr Azərbaycan nəsrinin poetikası: motiv analizi. Filologiya fakultəsinin magistratura pilləsi üçün dərs vəsaiti / R.Kamal. – Bakı: 2021
63. Kərim, Ə. Seçilmiş əsərləri / Ə.Kərim. – Bakı: Lider, – 2004. – 336 s.
64. Kərimli, T. Çağdaşımız İmadəddin Nəsimi / T.Kərimli. – Bakı: Elm və təhsil, – 2019. – 278 s.
65. Kürçaylı, Ə. Seçilmiş əsərləri / Ə.Kürçaylı. – Bakı: Şərq-Qərb, – 2004. – 400 s.
66. Köçərli, F. Azərbaycan ədəbiyyatı [2 cilddə] / F.Köçərli. – Bakı: Avrasiya Press, – c. 1. – 2005. – 560 s.
67.Qabil. Nəsimi [poema] / Qabil. – Bakı: Yazıçı, – 1980. – 407 s.
68. Qabil. Nəsimi [poema] / Qabil. – Bakı: Gənclik, – h. 3. – 1984, – 264 s.
69. Qarayev, Y. Seçilmiş əsərləri: [5 cilddə] / Y.Qarayev. – Bakı: Elm – 2016. – 776 s.
70. Qarayev, Y., Salmanov, Ş. Poeziyanın kamilliyi / Y.Qarayev., Ş.Salmanov. – Bakı: Yazıçı, – 1985. – 190 s.
71. Qarayev, Y. Poeziya və nəsr / Y.Qarayev. – Bakı: Yazıçı, – 1979. – 198 s.
72.Qarayev, Y. Meyar şəxsiyyətdir / Y.Qarayev. – Bakı: Yazıçı, – 1988. – 456 s.
73. Qasımov, R. Naxçıvan ədəbi mühiti: problemlər, perspektivlər / R.Qasımov. – Bakı: Elm və təhsil, – 2018. – 232 s.
74. Qasımov, R. Əlincə qalası ədəbi-bədii mənbələrdə // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2017. №1, – 332 s.
75. Qasımov, R. İnsana açılan qapı // Kaspi. – 2019, – 15 iyun.
76. Quliyev, V. Heydər Əliyev və klassik ədəbi irsimiz / Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. – Bakı: Elm, – 1998. – 178 s.
77. Quliyeva, M. Nəsimi və onun ədəbiyyatda inikası / "Mənəvi dəyərlər sistemində Nəsimi fenomeni" mövzusunda keçirilmiş konfransın materialları //– Bakı: Nurlar NPM, – 2019. – s. 21-32.
78. Quliyev, F. Lirika, müasirlik və qəhrəman / F.Quliyev. – Bakı: Yazıçı,– 1983. – 197 s.
79. Quliyev, V. Nəsrimiz və tariximiz / V.Quliyev. – Bakı: "Azərbaycan" jurnalı, – 1984. №4, – s. 27-32.

80. Quluzadə, M. Böyük ideallar şairi / M.Quluzadə. – Bakı: Azərnəşr, – 1973. – 138 s.
81. Quluzadə, Z. Nəsimi və insan / Z.Quluzadə. – Bakı: Ulduz, – 1973, №6, – s. 51-53.
82. Qurbansoy, F. İmadəddin Nəsimi / F.Qurbansoy. – Bakı: Elm, – 2019. – 136 s.
83. Məftun, Ə. Şeirlər / Ə.Məftun. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1959. – 96 s.
84. Məmmədov, K. XX əsr Azərbaycan gülüşü / K. Məmmədov. – Bakı: Yazıçı, – 1989. – 298-299 s.
85. Mirələmov, H. Son səfər / H.Mirələmov. – Bakı: Apostrof-A, – 2019. – 160 s.
86. Mirələmov, H. İki cahan günəşi / H.Mirələmov. – Bakı: Apostrof-A, – 2019. – s. 19-40.
87. Müasirləri Xəlil Rza Ulutürk haqqında / Ə.Əsgərlinin elmi redaktorluğu ilə. – Bakı: – Çinar-Çap, – 2004. – 625 s.
88. Mümtaz, S. Azərbaycan ədəbiyyatının qaynaqları / S.Mümtaz. – Bakı: Avrasiya press, – 2006. – 440 s.
89. Muxtarov, Ə. Nizami Gəncəvi obrazı bədii ədəbiyyatda / Ə.Muxtarov. – Gəncə: Elm. – 2021. – 206 s.
90. Nəbiyev, B. Çətin yollarda / B. Nəbiyev – Bakı: Elm, – 2000. – 780 s.
91. Nəsirli, M. İki ürək / M.Nəsirli. – Bakı: Azərnəşr, – 1974. – 184 s.
92.Nəsimi İ. Seçilmiş əsərləri. [2 cilddə] / İ.Nəsimi. – Bakı: Lider nəşriyyatı, – c. 1. – 2004. – 336 s.
93. Nəsimi İ. Seçilmiş əsərləri. [2 cilddə] / İ.Nəsimi. – Bakı: Lider nəşriyyatı, – c. 2. – 2004. – 376 s.
94. Novruz, C. Seçilmiş əsərləri / C.Novruz. – Bakı: Lider nəşriyyat,– 2004.– 288 s.
95. Paşayev, Q. Nəsimi: edamdan sonrakı həyat / Q.Paşayev. – Bakı: Şərq-Qərb, – 2019. – 386 s.
96. Paşayev, Q. Nəsimi haqqında araşdırmalar / Q.Paşayev. – Bakı: Qarabağ, – 2010. – 168 s.
97. Razi, H. Nəsiminin üsyanı / H.Razi. –Şərq qapısı. – 1970, 28 fevral.

98. Rəhmanova, İ. Bəxtiyar Vahabzadənin “Fəryad” pyesində Nəsimi obrazı // “Klassik Azərbaycan ədəbiyyatı: dil, üslub, ideya problemləri” mövzusunda elmi konfransın materialları, – Bakı: – 6 dekabr – 7 dekabr, – 2019, – s. 162-165.
99. Rza, X. Ədəbi tənqid / X.Rza. – Bakı: Mütərcim, – 2003. – 876 s.
100. Rza, R. Seçilmiş əsərləri: [Beş cilddə] / R.Rza. – Bakı: Yazıçı, – c.1. – 1980. – 390 s.
101. Rza, R. Seçilmiş əsərləri: [Beş cilddə] / R.Rza. – Bakı: Yazıçı, – c. 4. – 1982. – 328 s.
102. Rza, R. Duyğuların izi ilə / R.Rza. – Bakı: Yazıçı, – 1990. – 456 s.
103. Sadiqov, B. Dərisini soysalar belə əqidəsindən dönmədi / B.Sadiqov. “Son səfər”. – Bakı: Apostrof-A, – 2019. – s. 7-8.
104. Sadiq, Ş. İsa Muğanna yaradıcılığı “İdeal” işığında / Ş.Sadiq. – Bakı: Hədəf nəşrləri, – 2017. – 320 s.
105. Salahzadə, Ə.B. Od heykəli / Ə.Salahzadə. – Bakı: Gənclik, – 1970, – 107 s.
106. Salamoğlu, T. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri / T.Salamoğlu. – Bakı: El NPŞ, – 2009. – 480 s.
107. Səfərli, İ. Seçilmiş əsərləri / Tərtib edəni İ.Səfərli. – Bakı: Lider nəşriyyat, – 2005. – 224 s.
108. Səfiyeva, F. Bəxtiyar Vahabzadənin dramaturgiyası / F.Səfiyeva. – Bakı: Nurlan, – 2006. – 144 s.
109. Soltanqızı, P. Bəxtiyar Vahabzadənin “Fəryad” dramında insan idealı problemi // – Bakı: “Metodika: təcrübə və nəzəriyyə”, – 2018. №1, – s. 45-47.
110. Şıxıyeva, S. Nəsiminin lirikası: irfani məndəricə və poetik zinətlər / S.Şıxıyeva. – Bakı: Elm və təhsil, – 2019. – 320 s.
111. Şıxıyeva, S. Nəsiminin üsyanklar səsi Bəxtiyar Vahabzadənin “Fəryad”ında // I Beynəlxalq “Bəxtiyar Vahabzadə” simpoziumunun materialları, – Bakı: – 13 dekabr –15 dekabr, – 2012, – s. 256-263.
112. Tahir, S. Karvan gedir /S.Tahir. – Bakı: “Azərbaycan” jurnalı, – 1973, №8, s. 152-155.

113. Tərbiyət, M. Daneşməndani Azərbaycan: görkəmli elm və sənət adamları / M.Tərbiyət. – Bakı: Azərnəşr, – 1987. – 464 s.
114. Ulutürk, X.R. Seçilmiş əsərləri: [İki cilddə] / X.R.Ulutürk. – Bakı: Şərq-Qərb, – c. 1. – 2005. – 296 s.
115. Vahabzadə, B. Əsərləri / B.Vahabzadə. – Bakı: Azərbaycan, – c. 8. – 2005. – 848 s.
116. Vahabzadə, B. Sadəlikdə böyüklük / B.Vahabzadə. – Bakı: Yazıçı, – 1978. – 338 s.
117. Vahabzadə, B. Səntəkar və zaman / B.Vahabzadə. – Bakı: Gənclik, – 1976. – 300 s.
118. Vəkilov, R. Səməd Vurğunun ədəbi-tənqidi görüşləri / R.Vəkilov. – Bakı: Yazıçı, – 1982. – 204 s.
119. Vəliyev, İ. Ədəbiyyatda insan konsepsiyası / İ.Vəliyev. – Bakı: Günəş, – 1999. – 360 s.
120. Vurğun, S. Seçilmiş əsərləri [şeirlər, poemalar]: [Üç cilddə] / S.Vurğun. Bakı: Azərnəşr, – c.1. – 1986. – 302 s.
121. Yusifli, V. Nəsimi və nəsimilik haqqında poetik həqiqətlər / V.Yusifli. Ədalət. – 2019, 21 dekabr. – s. 15.
122. Zamanov, A. Bu dünyadan Rəsul Rza gəlib keçdi / A.Zamanov. – Bakı: MBM, – 2008. – 72 s.
123. Zeynallı, A. Səməd Vurğun sənəti / A.Zeynallı. – Bakı: Elm, – 1989. – 240 s.
124. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri / B.Nəbiyev, Ş.Alışanlının redaktorluğu ilə. – Bakı: Elm, – k. 1. – 2006. – 428 s.

**Türk dilində**

125. Akpınar, Y. Azeri edebiyatı araştırmaları / Y.Akpınar. – İstanbul: Dergah yayınları, – 1994. – 512 s.
126. Çelebioğlu, A. Eski türk edebiyatı araştırmaları. / A.Çelebioğlu. – İstanbul: Milli eğitim basımevi. – 1998. – 790 s.

127. Gölpınarlı, A. Nesimi usuli ruhi. / A.Gölpınarlı. – İstanbul: Kapı yayınları, – 2014. – 232 s.
128. Öztürk, Y.N. Qurani Kerim Meali. / Y.N.Öztürk. – İstanbul: Yeni Boyut yayınları. – 2021. – 1405 s.
129. Öztürk, Y.N. Allah ilə aldatmaq. / Y.N.Öztürk. – İstanbul: Yeni Boyut yayınları. – 2008. – 778 s.
130. Yıldırım, Y. Seyyid Nesimi / Y.Yıldırım. – İstanbul: Ketebe yayınları. – 2019. – 128 s.
131. Yılmaz, K.H. Anahatlarıyla tasavvuf ve tarikatlar / K.H.Yılmaz. – İstanbul: Ensar neşriyyat, – 2002. – 357 s.
132. Yüceer, İ. Kelam Felsefe uzlaşması / İ.Yüceer. – Konya: Tablet yayınları, – 2007. – 388 s.
133. Nermin, S.P. Temel edebiyat bilgileri / Soner P.N., Nihal N. Karaman. – İstanbul: Minnetoğlu yayınları, – 1982. – 981 s.

**Rus dilində**

*134.* Кулиев, Дж. Навсегда в сыновя тебе дан / Дж. Кулиев. – Баку: Азернешр, – 1986. – 206 с.
*135.* Кулузаде, З. Насими – философ и поэт востока / З. Кулузаде.– Баку: Гянджлик, – 1973. – 50 с.

**Elektron resurslar**

136. Aran, S. Sayman Aruzun "Nəsimi" dramı haqqında: [Elektron resurs] / https://edebiyyatqazeti.az/news/proza/5151-sayman-aruzun-nesimi-poemasi-haqqinda.
137. Aruz, S. Nəsimi dramı: [Elektron resurs]/https://edebiyyatqazeti.az/news/poeziya/3529-gunde-min-yol-merac-eyle-esq-ile-i-getirsin-dunyani-esqin-dile.

138. Aruz, S. İmadəddin Nəsimi düşüncələrinin şərhinə giriş olaraq: [Elektron resurs]/https://edebiyyatqazeti.az/news/diger/3128-imadeddin-nesimi-dusuncelerinin-serhine-giris-olaraq
139. Azərbaycan Respublikasında 2019-cu ilin “Nəsimi ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı: [Elektron resurs] / https://president.az/az/articles/view/31507.
140. Bağırlı, A. Dünya mənim sədəfimdir, mən dünyanın gövhəriyəm: [Elektron resurs] / http://www.azerbaijan-news.az/posts/detail/dunya-menim-sedefimdir-men-dunyanin-govheriyem-179089.
141. Bayatılar.https://az.wikisource.org/wiki/Bayat%C4%B1lar_(Sar%C4%B1_A%C5%9F%C4%B1q)
142. Bərdəli, B. Xalq şairi Qabilin “Nəsimi”si: [Elektron resurs] / https://edebiyyatqazeti.az/news/edebi-tenqid/4711-xalq-sairi-qabilin esimisi
143. Bünyadov, Z.Quran tərcüməsi [Elektron resurs]/ https://www.academia.edu/4138475/Quran_Tercumesi_Ziya_Bünyadov
144. Əhmədova, P. Azərbaycan ədəbiyyatında klassik yazarların obrazı: [Elektron resurs]/https://naxcivanxeberleri.com/xronika/60670-azrbaycan-dbiyyatinda-klassik-yazarlarin-obrazlari.html.
145. Həbibbəyli, İ. “Nəsimi ili”nə mükəmməl ədəbi töhfə: [Elektron resurs] / https://edebiyyatqazeti.az/news/muzakire/4543-nesimi-iline-mukemmel-edebi-tohfe.
146. Həbibbəyli, İ. İsa Hüseynovdan İsa Muğannaya: Axırıncı əlyazma və bütöv dünya: [Elektron resurs] / http://senet.az/isa-huseynovdan-isa-mugannaya-axirinci-əlyazma-və-butov-dunya/.
147. Həsənli, A. “Son səfər” povestinə daha bir nəzər: [Elektron resurs] / https://edebiyyatqazeti.az/news/muzakire/5168-son-sefer-povestine-daha-bir-nezer.
148. Hüseynov, R. Sevgi meydanının korkmaz askeri: İmadeddin Nesimi: [Elektron resurs] / https://irs-az.com/sites/default/files/2020-12/14.pdf

149. İmadüddin Nesiminin İslam inancına aykırı fikirleri varmı?: [Elektron resurs] /https://sorularlaislamiyet.com/imaduddin-nesiminin-islam-inancina-aykiri-fikirleri-var-mi.
150. Kamal, R. İsa Muğanna: İşığa doğru uçub getmək: [Elektron resurs]/ https://www.avanqard.net/index.php?action=static_detail&static_id=56086.
151. Qafarlı, R. Bəxtiyar Vahabzadə poeziyasında insan və zaman konsepsiyası: [Elektron resurs] / https://www.xalqcebhesi.az/news/literature/56255.html.
152. Qafarlı, R. Bəxtiyar Vahabzadə türk dünyasının istiqlal şairidir: [Elektron resurs] / http://isamveri.org/pdfdrg/D234591/2014_QAFARLIR.pdf.
153. Nesiminin dine aykırı görüşleri ve idam edilmesinin islam hukuku: [Elektron resurs] / https://9lib.net/article/deslam-hukuku.6zke3gmz
154. Nəcəfzadə, Q. "Son səfər"in işığında: [Elektron resurs] / http://edebiyyatqazeti.az/news/incesenet/4670-son-seferin-isiginda.
155. Nəsirli, M. Sovet hakimiyyəti illərində Naxçıvanda ədəbi həyat: [Elektron resurs]/https://nuhcixan.az/news/cemiyyet/5697-naxcivanin-edebi-muhiti-haqqinda-deyerli-menbe-viii-yazi.
156. Paşayev, Q. Nəsimi obrazı musiqi, incəsənət və bədii ədəbiyyatda: [Elektron resurs]/https://artkaspi.az/az/nesimi-obrazi-musiqi-incesenet-ve-bedii-edebiyyatda-qezenfer-pasayev-yazir/#.
157. Şərifova, S. Azərbaycan ədəbiyyatında Nəsimi yaradıcılığının əks olunması və Nəsiminin bədii obrazının yaradılmasının əsas özəllikləri: [Elektron resurs] /http://zim.az/humanitar/4472-azrbaycan-dbiyyatnda-nsimi-yaradclnn-ks-olunmas-v-nsiminin-bdii-obraznn-yaradlmasnn-sas-zlliklri.html
158. Şərifova, S. İmadəddin Nəsimi "Son səfər"də: [Elektron resurs]/ https://manera.az/index.php?newsid=10678
159. Yaqub, M. Şirvan alverçisi və Nəsimi: [Elektron resurs]/ file://C:/Users/User/Downloads/M.Yaqub.pdf
160. Yusif, S. Sayman Aruzun Nəsimi dünyası: [Elektron resurs]/ https://yazyarat.com/yazi/sayman-aruzun-nesimi-duenyasi

161. Yusifli, V. Şəhidliyin zirvəsi. Azərbaycan ədəbiyyatında Nəsimi obrazı: [Elektron resurs] / https://edebiyyatqazeti.az/news/edebi-tenqid/3132-sehidliyin-zirvesiazerbaycan-edebiyyatinda-nesimi-obrazi.
162. Yusifli, V. İsa Hüseynovdan Muğannayadək: [Elektron resurs]/ https://www.adalet.az/az/writers/detail/-isa-huseynovdan-mugannayedek.
163. Zelyut, R. Edebiyat tarihimizde karıştırılan iki ozan: [Elektron resurs]/ https://www.aydinlik.com.tr/koseyazisi/edebiyat-tarihimizde-karistirilan-iki-ozan